**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

---

**XURAMAN KƏRİMOVA**

# FOLKLOR MƏTNLƏRİNİN TƏRTİBİ MƏSƏLƏLƏRİ

**BAKI – 2019**

**Elmi redaktor:** **Muxtar KAZIMOĞLU-İMANOV**
akademik

**Xuraman Daşdəmir qızı Kərimova. Folklor mətnləri-nin tərtibi məsələləri.** Bakı, Elm və təhsil, 2019. − 192 səh.

Monoqrafiya folklor mətnlərinin tərtibi məsələlərindən bəhs edir. Kitabda Azərbaycan folklorunun tərtibinə tarixən yanaşılma təcrübəsinə də müraciət olunur, mətnlərdə söyləyici və toplayıcı tərəfindən yaranmış nöqsanların səbəbi və təzahür formaları göstərilir, yazı, tələffüz və üslub məsələləri tədqiq edilir, o cümlədən dialekt-şivə xüsusiyyətlərinin qorunub saxlanılmasına diqqət çəkilir, mətnlərin sistemləşdirilməsi, əsas mətnlə mətndənkənar yazıların verilməsi üsulları araşdırılır. Monoqrafiyadan folklorşünaslar, filoloq-tələbələr və geniş oxucu kütləsi istifadə edə bilər.

folklor.az

K $\frac{4603000000}{N-098-2019}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2019

# GİRİŞ

Folklor xalq həyatının elə bir sahəsidir ki, orada xalqa aid bütün biliklər tam dolğunluğu ilə öz əksini tapmışdır. Məsələyə bu baxımdan yanaşsaq, folkloru toplayıb nəşr etdirmək xalqın özünü öyrənmək deməkdir.

Azərbaycan folklorunun toplanılması və nəşri son dərəcə əhəmiyyətli məsələdir. Yeni-yeni folklor toplularının hazırlanması nəşr olunacaq materialların tərtib və sistemləşdirilməsi zərurətini yaradır. Bu prosesdə zaman-zaman təkmilləşmə getsə də, həllini gözləyən bir çox problemlər hələ də qalmaqdadır. Folklor mətnlərinin oxucu üçün anlaşıqlı olmasının təmin edilməsi, söyləyicinin dil və üslubunun olduğu kimi saxlanılması, toplayıcı və tərtibçinin şərh və qeydlərinin müəyyən olunmuş qaydalarla verilməsi, mənası aydın olmayan sözlərin lüğətinin hazırlanması, folklor kitablarının vahid prinsiplə tərtib olunması kimi məsələləri Azərbaycan folklorşünaslığının aktual problemləri hesab etmək olar. Həmçinin çap olunacaq folklor kitablarında mətnlərin vahid qaydada sistemləşdirilməsi: janrların düzgün müəyyənləşdirilməsi, adsız mətnlərin adlandırılması, sıralanması, qruplaşdırılması, vahid şərti işarələrdən istifadə, toplanmış materialların, söyləyici və toplayıcıların eyni sistemlə pasportlaşdırılması kimi məsələlərin həlli bu mövzuda monoqrafiyanın yazılmasını zəruri edir.

İfa zamanı mətndə mənanı anlatmağa xidmət edən intonasiya, jest, mimika kimi yardımçı vasitələr yazıya köçürülməklə yox olur. İtirilmiş bu effektin nəşrlərdə, qismən də olsa, bərpası və mətnin oxucuya ifa edildiyi tərzdə çatdırılması üçün müəyyən işlər görmək lazım gəlir. Müxtəlif intonasiyaları bildirən durğu işarələrindən düzgün istifadə etməklə, eyni cür yazılıb, fərqli səslənən bəzi sözlərdə heca vurğusunu

yazıda göstərməklə, bəzi hallarda uzun tələffüz olunan saiti iki dəfə yazmaqla, jest və mimikanı çatdırmaq üçün təsviredici şərhlər verməklə qismən həmin effekti bərpa etmək mümkündür.

Folklor mətnlərinin tərtibi problemləri indiyədək kompleks halında öyrənilməsə də, ayrı-ayrı məsələlərə dair müəyyən işlər görülmüşdür. Rus, türk və digər xalqların araşdırmaçılarının (O.Ş.Gökyay, O.F.Sərtqaya, K.V.Çistov, B.A.Uspenski, A.B.Lord) folklor mətnlərində söyləyici, toplayıcı və tərtibçi fəaliyyəti ilə bağlı tədqiqatları bu sahədə əsaslı elmi qaynaqlar hesab olunur. P.Əfəndiyevin "Azərbaycan folklorşünaslığı tarixi", S.Orucovanın "Azərbaycan folkloru materiallarının XIX əsrdə toplanılması, rus dilinə tərcüməsi və nəşri problemləri (SMOMPK-un materialları əsasında)" adlı filologiya üzrə elmlər doktoru dissertasiyası və "Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri (QƏXTMT – SMOMPK materialları əsasında)" monoqrafiyasında, İ.Rüstəmzadənin "Azərbaycan nağıllarının süjet göstəricisi" (Nəzəri və təcrübi problemlər), A.Xəlilin "M.Kaşqarlının "Türk dillərinin divanında ədəbi mətnlər", X.Əliyevanın "Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti" adlı monoqrafiyalarında bu problemə müxtəlif aspektlərdən yanaşılır.

Ə.Nazim, V.Xuluflu, H.Zeynallı, Y.V.Çəmənzəminli, Ş.Cəmşidov, M.Təhmasib, T.Hacıyev, İ.Abbaslı, P.Əfəndiyev, M.Kazımoğlu-İmanov, F.Bayat, R.Qafarlı və başqa alimlərin tədqiqat işlərində bu mövzu ilə bağlı məsələlər nəzərdən keçirilir.

Monoqrafiyanın tədqiqat obyekti Azərbaycan folklor mətnləri, predmeti isə Azərbaycan folklor mətnlərinin tərtib problemləridir. Bununla yanaşı, tədqiqatın metodoloji prinsiplərinə uyğun olaraq Azərbaycan folklorunun tərtibinə tarixən yanaşılma təcrübəsinə də müraciət olunur.

Monoqrafiyanın yazılmasında əsas məqsəd folklor mətnlərinin tərtibi zamanı qarşıya çıxan problemlərin araşdırılması, həlli yollarının müəyyənləşdirilməsidir. Bununla bağlı aşağıdakı vəzifələrin yerinə yetirilməsi məsələsi qoyulmuşdur:

– müxtəlif cüng və əlyazmaların, nəşr olunmuş folklor mətnlərinin tərtib prinsiplərinin elmi cəhətdən araşdırılması;

– söyləyici və toplayıcı tərəfindən mətndə törədilən fəsadların aşkarlanması və aradan qaldırılma yollarının müəyyənləşdirilməsi;

– yazı ilə tələffüz qaydalarının uzlaşdırılması;

– regional tələffüzün mətnlərdə verilmə qaydalarının müəyyənləşdirilməsi;

– vulqar sözlərin, həmçinin eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərin mətndə verilməsi üsullarının müəyyənləşdirilməsi;

– mənası anlaşılmayan sözlərin lüğətinin tərtib edilməsi;

– mətndənkənar yazıların verilməsi prinsipləri;

– mətnlərin (əlifba sırası, mövzu və ya xronologiyaya görə) sıralanması, adlandırılması, qruplaşdırılması və digər məsələlərin öyrənilməsi və s.

Azərbaycan folklorunun tərtib problemləri ilk dəfə monoqrafik planda elmi tədqiqata cəlb edilir və aşağıdakı məsələləri əhatə edir:

– Azərbaycan folklorunun tərtib və nəşrinin tarixi baxımdan ilk dəfə əhatəli araşdırılması;

– söyləyici nöqsanlarının səbəbləri və onların aradan qaldırılması yolları;

– toplayıcının yazıya köçürmə zamanı mətndə törətdiyi naqislik və nöqsanların səbəbləri və onların həlli yolları;

– eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərin, həmçinin vulqar sözlərin mətndə verilməsi üsulları;

– folklor mətnlərinin sistemləşdirilməsində ədəbi növ və janrların dəqiq müəyyənləşdirilməsi, vahid prinsiplərlə pasportlaşdırılması, eləcə də kodlaşdırma qaydalarının verilməsi;

– nəşrlərdə mətnlərin sıralanması prinsipləri;

– tərtib zamanı bəzi texniki işarələrdən istifadə qaydalarının müəyyənləşdirilməsi;

– folklor toplularının akademik və kütləvi nəşr prinsiplərinə münasibət məsələsi və s.

Bütün bunlar folklorun tərtibi sahəsində elmi yenilik sayıla ilər.

Azərbaycan folklorşünaslığının yüksək elmi-nəzəri müddəaları, qazandığı nailiyyətlər, klassik ədəbi-mədəni irsə tarixi-obyektivlik baxımından qiymət verilməsi prinsipi tədqiqatın metodoloji əsasını təşkil edir. Dünya folklorşünaslığında folklor mətnlərinin tərtib xüsusiyyətlərini araşdıran alimlərin tədqiqatlarından, toplama materialları və onların tərtib və nəşri üzərində aparılan araşdırmalardan, tarixi və tarixi-tipoloji tədqiqat metodundan, habelə müqayisə metodundan istifadə edilmişdir.

Monoqrafiya xalqdan toplanmış ədəbi irsin tədqiqi, Azərbaycan folklorunun tərtib xüsusiyyətlərinin araşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu sahədə ilk addım olan araşdırma folklorşünaslar, filoloqlar, müəllimlər üçün maraq kəsb edə bilər. Tədqiqat işindən folklor kitablarının tərtibi zamanı, Azərbaycanın ali məktəblərinin filologiya fakültələrində folklora dair xüsusi kursların tədrisi zamanı, folklor ixtisası üzrə keçilən dərslərdə və aparılan elmi-tədqiqat işlərində elmi vəsait kimi istifadə oluna bilər.

# I FƏSİL

# AZƏRBAYCAN FOLKLORUNUN TOPLANMASI VƏ NƏŞRİ TARİXİNDƏN

Azərbaycan folklorunun toplanması və nəşri tarixinə nəzər saldıqda böyük inkişaf yolu keçdiyi görünür. Keçilmiş bu yolu elmi cəhətdən araşdırmaq üçün müxtəlif tarixi mərhələlərə ayırdıq. Orta əsrlərdə şifahi xalq ədəbiyyatı nümunələrinin yazıya alınması qabarıq şəkildə diqqət çəkmədiyindən bölgü zamanı həmin dövrü də XIX əsrlə birlikdə sovet dövrünə qədər olan mərhələdə araşdırmağı lazım bildik. Prinsip və ideologiyasına görə özündən əvvəlki və özündən sonrakı mərhələlərdən əsaslı şəkildə fərqləndiyi üçün sovet dövrünü ayrıca götürməklə Azərbaycan folklorunun toplanması və nəşri tarixini şərti olaraq üç mərhələyə ayırdıq:

1. 1920-ci ilə qədər olan dövrü;
2. sovet dövrü;
3. müstəqillik dövrü.

Bu üç mərhələnin hər birində xalq ədəbiyyatının toplanması və tərtib edilməsinə yanaşmada oxşar və fərqli xüsusiyyətlər diqqət çəkir.

## 1.1. Azərbaycan folklorunun 1920-ci ilə qədər toplanması və nəşri

Azərbaycan folklorunun nə zamandan yazıya alınması haqqında dəqiq məlumat yoxdur. Bu ədəbiyyatın izlərinə yazılı şəkildə ilk olaraq klassik şairlərimizin əsərlərində rast gəlirik. Onlar bu nümunələrdən öz yaradıcılıqları üçün mövzular seçmiş, əsərlərində yeri gəldikcə müəyyən süjetlərdən, paremioloji vahidlərdən məharətlə istifadə etmişlər. Hələ XI əsrdən başlayaraq Qətran Təbrizinin, sonrakı əsrlərdə Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli və digər klassik-

lərin əsərlərində xalq əfsanə və rəvayətlərindən götürülmüş süjetlərə, atalar sözləri və məsəllərə, inanclara, alqış, qarğış və s. folklor nümunələrinə rast gəlirik. Amma bu əsərlərdə istifadə olunan folklor mətnləri toplama materialı deyil, sadəcə, istifadə üçün bir mənbədir. Folklorşünas Ə.Əsgər bu barədə yazır: "Orta əsrlərdə şifahi xalq yaradıcılığı örnəklərinin yazıya alınması ənənəsinin geniş yayılmadığı məlumdur. Əks təqdirdə bu gün əlimizin altında Dədə Qorqud boyları kimi canlı ifadan yazıya alınmış yüzlərlə əlyazmalar olardı" (133, 178).

Folklorşünaslıq tarixini öyrənmək baxımından əlyazmaların əhəmiyyəti misilsizdir. Çap işinin, mətbəə fəaliyyətinin formalaşmadığı dövrlərdə Azərbaycan şifahi xalq ədəbiyyatına diqqət və qayğı bizə gəlib çatmış əlyazmalarda aşkar görünməkdədir. Azərbaycanın, eləcə də dünyanın müxtəlif arxivlərində qorunan Azərbaycan folkloru materialları bu ədəbiyyatın toplanma tarixi haqqında müəyyən fikirlər söyləməyə imkan verir.

Müqəddimə və 12 boydan ibarət "Dədə Qorqud kitabı" kimi mükəmməl bir əsərin XI əsrdən mövcud olması hələ o dövrdə folklorun yazıya alınmasından soraq verir. Ə.Əsgərin bununla bağlı qeydləri fikrimizi təsdiqləyir: "Dədə Qorqud oğuznamələrində epik hadisələrin türkmanların yayıldığı coğrafiyanın qərbində yerləşən Azərbaycanda və Anadoluda cərəyan etdiyini və bu hadisənin həmin bölgələrin XI əsrin II yarısından türkman dünyası üçün aktiv qəzavat bölgələri olması ilə bağlı olduğunu nəzərə alsaq, bu oğuznamələrin XI əsrin II yarısında klassik şəklə düşdüyünü ehtimal etmək olar" (133, 100).

İlkin orta əsrlərdə Azərbaycan folklorunun toplanması işi ilə həvəskarlar, səyyahlar, tarixçilər, daha çox isə ədiblər məşğul olmuşlar. Onlar topladıqları folklor mətnlərini fərqli prinsiplərlə yazıya köçürmüş və arxivləşdirmişlər. Bu iş XVII-XVIII əsrlərdə də davam etmişdir. Həmin dövrlərdə şifahi xalq ədəbiyyatına dair yazılı elmi-nəzəri qeydlərə rast gəlinmir.

Yazının meydana gəlməsindən çox-çox əvvəl yaranmasına baxmayaraq, arxiv materiallarının tarixinə əsasən söyləmək olar ki, Azərbaycan şifahi xalq ədəbiyyatının toplanılması işinə xeyli gec başlanılmışdır. Burada, təbii ki, məqsəd bu gün başa düşülən toplama işi olmamışdır. Folklorşünas P.Əfəndiyev qeyd edir: "Əslinə qalsa, XVI-XVIII əsrlərdə xalq ədəbiyyatımızın yazıya alınmasının özü də şüurlu, toplamaq məqsədi ilə olmamış, daha çox kortəbii xarakter daşımışdır. Ancaq bu əsrlərə aid bir sıra əlyazmalarında külli miqdarda folklor nümunələrinə rast gəldiyimiz üçün bunu şərti olaraq bir növ toplama işi adlandırmalıyıq" (58, 23-24).

Dövrünün tələbinə görə bu toplamalar, yazıya köçürmələr, çox güman ki, asudə vaxtın təşkili üçün nəzərdə tutulan qiraət toplusu, söyləyicilər üçün yaddaş dəftəri, ədəbi məclislər üçün toplu xarakteri daşımışdır. Bu işi o dövrün ziyalıları həyata keçirmişlər. Onlar folklor nümunələrini əlyazmalarda, cünglərdə toplamış, arxivləşdirmişlər. Bu işlərin hansı məqsədlə aparılmasından asılı olmayaraq, onlar Azərbaycan folklorunun ilk toplama materiallarıdır və müasir folklorşünaslıq üçün mükəmməl araşdırma mənbəyidir.

Arxiv materialları arasında "Oğuznamə", "Əmsali-türkanə" kimi dəyərli toplular Azərbaycan atalar sözlərinin ən nadir nümunələrini özündə yaşadan mötəbər mənbələrdir.

"Oğuznamə" XV-XVI əsrlərdə üzü köçürülən əlyazmadır. Təxminən 2000 atalar sözü və məsəldən ibarətdir. Əlyazma Sankt-Peterburq Dövlət Universitetinin Şərq fakültəsinin kitabxanasında (əlyazmalar şöbəsi: inv. 121/58) mühafizə olunur. Əsər ilk dəfə 1987-ci ildə nəşr olunmuşdur, tərtibçisi S.Əlizadədir. O, qeydlərində göstərir ki, titul səhifəsində əsərin və tərtibçi-müəllifin adı ərəb əlifbası ilə cüzi fərqlə iki dəfə yazılıb: "Əmsali-Məmmədəli" və "Məcməül-əmsali-Məmmədəli" (100, 6). S.Əlizadə toplunun giriş hissəsində "Müdrikliyin sönməyən

işığı” adlı yazısında kitabın biblioqrafik, ədəbi-tarixi və linqvistik xarakteri haqqında geniş məlumat vermişdir.

Əlyazmanın tərtibindən danışarkən diqqətimiz iki istiqamətə yönəlir: bunlardan biri əlyazma müəllifinin, digəri isə əlyazmanı nəşrə hazırlayan müəllifin tərtibidir. Bunların arasında kifayət qədər böyük zaman fərqi var ki, bu fərq tərtibdə də özünü aydın göstərir. “Oğuznamə”də toplanmış atalar sözü və məsəllərin böyük əksəriyyətinin dilinin tarixən IX-XI əsrlərə aid olduğunu söyləyən tərtibçi S.Əlizadə əlyazma müəllifinin işini təhlil edərək yazır: “Lakin əlimizdəki nüsxə, artıq deyildiyi kimi, özündən əvvəlki nüsxədən köçürülüb. Bunu abidənin leksikonundakı ən qədim qatla sonrakı lüğəvi qatların fərqindən başqa, bir sıra sözlərin imlasında katibin tərəddüdü, bilə-bilə “səhv”ə yol verməsi də büruzə verir. Elə bil, müsənnif qarşısındakı yazılı mənbənin tələbi ilə şüurlu şəkildə öz dövrünün yazı normalarından yayınır, bu və ya digər sözün kontekstdəki mənasını təhrif etməyə çalışır. Mətni diqqətlə araşdırdıqda aydınlaşır ki, belə sözlərin bəzisi hətta onun özünə də naməlum qalıb” (100, 6). Təhlillərdən məlum olur ki, bu əlyazmanı yazıya alan tərtibçinin işində bir sıra naqisliklər mövcuddur. Belə ki, əlyazma əvvəlki nüsxədən üzü köçürülərkən dövrün yazı qaydalarına uyğunlaşdırılmamış, imla səhvləri ilkin yazıya alındığı tərzdə saxlanılmışdır.

S.Əlizadə də mətnləri nəşrə hazırlayarkən atalar sözü və məsəllərin tarixi imlasına toxunmamış, ərəb əlifbasına uyğun sırasını saxlamışdır. Lakin o, “Qeydlər və şərhlər” bölməsində “Oğuznamə”də işlənmiş əksər mətnləri müxtəlif cəhətlərdən izah edən elmi qeyd və şərhlər vermişdir. Məsələn:

*Əsir geyən əsirgənçi olur* * (100, 24).

-----------------------------

* Bu cümlədə “əsir geyən”bir yerdə “əsirgəyən” şəklində də oxuna bilər. Lakin “əsir” sözü ayrı götürüldükdə cümlənin məzmunu daha aydındır: “Həsir geyən əsirgəyən olur (yəni imkansız olur)” (100, 207).

Digər bir mətn haqqında isə tərtibçi belə qeyd verir:

*Od görsən, varma, köpək ünin eşitsən, var*[*] (100, 52).

Kitabın tərtibçisi tərəfindən hazırlanmış lüğət "Oğuznamə" mətnindəki arxaik leksikanın müasir oxucu üçün aydınlaşdırılmasında müstəsna əhəmiyyətə malikdir. Nümunələrdə oxunması mümkün olmayan sözlərin və vulqar kəlmələrin yerinə nöqtələr qoyulmuşdur.

XVIII əsrə aid arxiv materialları içərisində Azərbaycan folkloru incilərindən olan Abasqulu Marağainin "Əmsali-türkanə (türk atalar sözləri)" əlyazması qiymətli mənbələrdən biridir. Bu 31 səhifəlik əlyazma AMEA-nın Əlyazmalar İnstitutunda B-6425 şifrəsi altında saxlanılır. Məcmuənin sonunda yazıya alınma tarixi 1792-ci il göstərilmişdir. Toplunun müqəddiməsindən əlyazmanın Qacarlar nəslinin tapşırığı ilə hazırlandığı məlum olur. Əlyazmanı Böyük Rəsul oğlu 1996-cı ildə nəşr etdirmişdir. Burada 1149 paremioloji nümunə toplanmışdır. Kitabın tərtibi haqqında fikir söyləyən M.Payızovun qənaətinə görə, "Əmsali-türkanə" qəbilindən olan folklor abidələri tərtibçilərinin xalq yaradıcılığını təhrif və saf-çürük etməməsi, olduğu kimi yazıya köçürməsi örnək hesab edilməlidir. ... Rəiyyət arasından toplanmış və sıraya təqdim edilmiş belə abidələrə heç bir hakim və əyanın zövqünə müvafiq qadağan qoyulmur, əlyazmalarda ixtisar aparılmırdı: açıq-saçıq ifadə tərzinin saxlanması buna ən əsaslı sübutdur" (63, VI-VII). Kitabda ərəb əlifbası ilə yazılmış və əlifba sırası ilə düzülmüş atalar sözlərinin *kaf* hərfindən sonrakı hissəsi yoxdur. Sonda atalar sözlərinin mətnlərində işlənmiş arxaik və ərəb-fars sözlərinin lüğəti verilmişdir. "Əmsali-türkanə"də toplanmış nümunələrdə öz dövrünün xalq dili və tələffüz əlamətləri, nitqin təbiiliyi diqqət çəkir:

------------------------------

[*]Məsəlin məzmunu "Cırtdan" nağılındakı motivlərlə bağlanır (100, 209).

*Ayın on beşi qaranqu isə, on beşi aydunluqdur* (63, 3).

*Əkməgi əkməgçiyə, bir əkməg də üstəlik* (63, 9).

*Ata buğda ilən dolduran damı, oğul samanıylan doldurmaz* (63, 13).

Bu əlyazma həm folklorşünaslıq tariximizin öyrənilməsi, həm də müasir oxucuya söz sənətimizin nadir incilərinin təqdimi baxımından yüksək əhəmiyyət kəsb edir.

XVI-XVIII əsrlərə aid əlyazmalarda külli miqdarda Azərbaycan folklor nümunələrinə rast gəlirik. Görkəmli ədiblərin, mədəniyyət xadimlərinin arxivlərində mühafizə olunan folklor nümunələri də bu sıraya daxildir. Bugünkü folklorşünaslıq elminin özülündə məhz cünglərdə, əlyazmalarda, şəxsi arxivlərdə "yaşayan" folklor materialları dayanır.

Təkcə AMEA Əlyazmalar İnstitutunda mühafizə olunan materiallarla bağlı statistik məlumata nəzər salsaq, folklor və onun toplanmasına olan münasibəti aşkar görmüş olarıq: "Bu gün AMEA Əlyazmaları İnstitutunda qorunub saxlanan 60 minə yaxın yazılı materiallarda (onlardan 12 minə yaxını əlyazma kitabıdır və hər kitabda orta hesabla 4-5 əsər yazıldığını nəzərə alsaq, 40 mindən yuxarı əsərin əlyazmasından söhbət gedir), məxsusən 238 cüngdə klassik və s. yazılı ədəbiyyatla yanaşı, külli miqdarda şifahi xalq ədəbiyyatı materialları da vardır" (103, 360).

Respublika Əlyazmalar Fondunda saxlanılan materiallar əsasında tərtib edilmiş "Bayatılar" kitabını nəzərdən keçirdikdə orta əsrlərdə yazıya alınmış cünglərdə və şəxsi arxiv əlyazmalarında folklorun toplanma, yazıya köçürülmə tarixi və xüsusiyyətləri haqqında aydın təsəvvür yaranır. Tərtibçi A.Məmmədova əlyazmaların içərisindən yalnız bayatıları seçmiş, mətnlər üzərində mükəmməl tərtib işi aparmışdır.

Kitab 1549-cu ildə yazıya alınmış bayatı ilə başlayır. Bu, Məhəmməd ibn Məkki tərəfindən yazıya alındığı qeyd edilən

“Ləməat-üd-Diməşqiyyə” əlyazmasındandır. “Bayatılar” kitabında iki nümunəsi verilmiş, AMEA Əlyazmalar İnstitutunda D – 786/30176 şifrəsi altında qorunan əlyazmanın üzərində 1549-cu il göstərilmişdir (47, 13). Sənəddə qeyd edilən tarix artıq XVI əsrdə folklor mətnlərinin yazıya alınmasını təsdiqləyir. Həmin əlyazmadan götürülmüş nümunəyə nəzər salaq:

Mən Aşiq, budağ haray!
Qəm məni budağ haray!
(– Gül) (+könül) istər, əl yetməz,
Əyilməz budağ haray! (47, 13)

Müəllif qeyd edir ki, “Axtarış zamanı fond materialları arasında bayatı qeyd olunmuş 92 mənbə üzə çıxarılmışdır ki, bunlardan 74-ü müxtəlif əlyazma və cüng, 7-si görkəmli ədib və mədəniyyət xadimlərimizin arxivində mühafizə olunan xüsusi bayatı dəftərləri, 11-i isə fraqment səhifələrində yazılmış bayatılardır” (47, 3).

Bu mənbələrin bir qismi də görkəmli mədəniyyət xadimlərinin fondda saxlanılan arxivlərində olan materiallardır. Bunların arasında pedaqoq R.Əfəndiyevin, artist H.Q.Sarabskinin, ədib Y.V.Çəmənzəminlinin, bəstəkar Z.Hacıbəyovun topladıqları folklor nümunələri də yer almışdır. Kitabda həmçinin Molla Cümə, Qasım bəy Zakir, Salman Mümtaz, Əhməd Cavad, Mirzağa Əliyev və Ağabəy İsrafilbəylinin də topladığı bayatılar əksini tapmışdır.

AMEA Əlyazmalar İnstitutunda, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılan cünglərdə yazılı ədəbiyyat nümunələri ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələri də kifayət qədərdir. 1931-ci ildə “Azərbaycanı öyrənmə yolu” jurnalında Şuşadan tapılmış cüng haqqında məlumat verilir. Həmin məqalənin müəllifi Q.Quluzadə yazır: “Bir əsrdən artıq bir tarixi olan bu əlyazmasının (toplayanı məchuldur) ədəbiyyat tarixindən əlavə, elmi tariximiz və müqayisəli sər-

fimiz üçün də böyük əhəmiyyəti vardır. ... Parçaların birində Azərbaycanın "Əsli və Kərəm"i, "Aşıq Qərib"i, "Koroğlu"su kimi qiymətli materiallar da vardır ki, başqa yerlərdə və Azərbaycanda indiyə qədər çap olunmuş nüsxələrdən çox fərqlənir" (93, 94). 232 səhifədən ibarət olan və yazılı ədəbiyyat nümunələrinin üstünlük təşkil etdiyi həmin cüngdə xalq ədəbiyyatı nümunələrindən 150-yə yaxın bayatı və aşağıda adları göstərilən parçalar vardır: "Mahi Mehri", "Abdulla", "Əsli və Kərəm", "Xəstə Qasım", "Aşıq Qərib", "Abbas", "Heydəri", "Hüseyn", "Aşiq", "Sadiq", "Ululu Kərim" və s. (93, 94-95).

Haqqında danışılan materiallarda dövrünün dil özəllikləri, ara-sıra regional nitq əlamətləri görünməkdədir. Bu istisna və özəlliklər sübut edir ki, toplanan materiallar əlyazmalara köçürülərkən müəlliflər söyləyici nitqinə əsasən müdaxilə etməməyə, məhəlli dil xüsusiyyətlərini saxlamağa çalışmışlar.

Arxivlərdə qorunan Azərbaycan folkloru nümunələri əksərən ərəb əlifbası ilə yazıya köçürülmüşdür. Lakin toplama materiallarının sırasında erməni, gürcü əlifbası ilə yazıya alınmış materiallar da az deyil.

XVIII əsrə aid toplama materiallarından biri də Elyas Muşeqin "Nəğmələr" adlı əlyazmasıdır. 1721-ci ildə erməni əlifbası ilə qələmə alınmış, 326 səhifədən ibarət bu əlyazmada Azərbaycan folkloruna aid dəyərli nümunələr saxlanılır. Burada lirik növdə nümunələr yer almışdır ki, onlardan on üç qoşma "Koroğlu" dastanına aiddir. Qoşmalarla yanaşı, əlyazmada Koroğlu obrazının əsas xüsusiyyətləri, yaşadığı dövr haqqında qeydlər də verilmişdir. M.Təhmasib "Koroğlu" dastanını nəşrə hazırlayarkən "Dastanın əsas variantları", "İzahlar" və "Müstəqil nəğmələr" bölməsində E.Muşeqin "Nəğmələr" kitabından götürülmüş materialları vermişdir. Həmin nümunələr vasitəsilə XVIII əsrdə folklor mətninin tərtib prinsiplərini qismən müşahidə etmək olur. Məsələn, "Nəğmələr" kitabından bir nümunəyə diqqət yetirək:

Koroğlum der oxlarınan,
Dögüşürəm çoxlarınan,
Ari polad mıxlarınan,
Gümüş nallar ərzənundur (10,381).

Nümunədən *oxlarınan*, *çoxlarınan*, *mıxlarınan* sözlərində *ilə* qoşmasının verilməsi üsulu deməyə əsas verir ki, əlyazmadakı şeirlərdə xalq tələffüz xüsusiyyətləri əsasən saxlanılmışdır.

Folklorşünas İ.Abbaslı müxtəlif arxivlərdə qorunan erməni əlifbası ilə yazıya köçürülmüş XVII-XIX əsrlərə aid əlyazmalardan seçmə folklor mətnlərini "Folklor çələngi" adlı kitabda nəşr etdirmişdir. Kitabda erməni əlifbası ilə yazılmış Azərbaycan şifahi ədəbiyyatı örnəklərinin saxlanıldığı arxiv və fondların ünvanları da göstərilmişdir.

Tərtibçi folklor mətnləri toplanmış əlyazmaların mahiyyəti haqqında yazır: "...yüzilliklər boyu xalqın məişətində ünsiyyət vasitəsi kimi aparıcı yer tutan bir dil də hakim rol oynamışdır: bu şifahi söz sənətinin yaranıb təcəlli olunduğu canlı danışıq tərzi – xalq dilidir. Xalq danışıq dili – Azərbaycan türkcəsi geniş bir ərazini – tarixi Azərbaycan torpaqları daxil olmaqla bütün Qafqazı, Anadolunun əksər məntəqələrini (bu məkana İraq-türkman folklor mühitini də əlavə etmək mümkündür) çevrələmişdir. Onlarla mənəvi mədəniyyət abidələri – müxtəlif əsrlərdə yazıya alınmış çoxsaylı cüng və əlyazmalar da bunu təsdiq etməkdədir. Maddi-mənəvi irsi əbədiləşdirən bu abidələr – XVI yüzilliyin əlyazmalarından üzü bəri gürcü və erməni əlifbaları ilə Azərbaycan türkcəsində yazıya alınmış folklor örnəkləri də bu ədəbi-mədəni hadisənin tərkib hissəsi kimi diqqəti cəlb etməkdədir" (65, 4). Başqa bir əlifba ilə yazıya köçürülməsinə baxmayaraq, toplanmış materiallarda xalq danışıq dilimizin zənginliyi və özəl əlamətləri bu əlyazmalarda tam şəkildə əks olunmuşdur.

Erməni əlifbası ilə yazıya köçürülmüş əlyazmalardan götürülmüş və həmin nəşrdə verilmiş Dirili Qurbaniyə məxsus qoşmadan bir bəndə nəzər salaq:

Məclisində ağ minalar düzülər,
Mey içibən xumar gözlər süzülər.
Qurbani der, əlim yardan üzülər,
Bu gün axır zaman olmuş, ay olmuş (65, 35).

Qoşmanın mətnində xalq şeirinin əlamətləri, eləcə də Qurbaniyə məxsus şeir üslubu aşkar duyulur.

XIX əsrdə gürcü əlyazmalarında da Azərbaycan folkloru nümunələrinə tez-tez rast gəlmək mümkündür. Gürcü əlifbası ilə qələmə alınmış və əsli Gürcüstan Dövlət Muzeyində saxlanılan əlyazmadan "Koroğlu"ya aid şeir parçasını nəzərdən keçirək:

Bağdatdan gələn beş durna,
Yoluna qurban olaydım...
Qanatların burma-burma,
Ellər nə əcəb, nə əcəb, gözəlsən, nə şirin,
Telinə qurban olaydım...
Dağlar aşallar, çöllər keçəllər, sən ilə belə gözəllər
(10, 456).

Nümunədə *Bağdatdan*, *aşallar*, *keçəllər* sözləri səsləndiyi kimi də verilmişdir. Bu əlyazmadan götürülmüş nümunələrdə xalq tələffüzü əlamətləri daha çox nəzərə çarpmaqdadır.

Ümumiyyətlə, bu dövrdə xalq ədəbiyyatı sürətlə inkişaf edir, yeni-yeni janrlar yaranır və əhatə dairəsi genişlənirdi. Amma Azərbaycan folklorunun toplanması və yazıya alınması sahəsində müəyyən işlər görülsə də, elmi-nəzəri araşdırmalara rast gəlinmir. N.Cəfərov Azərbaycan xalq yaradıcılığının XVI-XVIII əsrlərdəki vəziyyətini belə xarakterizə edir: "Azərbaycan folkloru qeyd olunan əsrlərdə görünməmiş bir sürətlə və müxtəlif janr diferensiallığı ilə inkişaf edir – Qur-

bani, A.Tufarqanlı, X.Qasım, S.Aşıq, "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", Molla Nəsrəddin lətifələri XVI, xüsusilə XVII-XVIII əsrlər folkor təfəkkürümüzün məhsullarıdır. Azərbaycan dili məhz həmin yaradıcılığın gücünə milliləşir və Zaqafqaziyada ümumi ünsiyyət vasitəsinə çevrilir" (50, 113). Xalq ədəbiyyatının inkişafında nəzərə çarpan bu aktivlik növbəti əsrdə də artan sürətlə davam etmişdir.

XIX əsr Azərbaycan folklorşünaslığının ilkin formalaşma dövrüdür. Hələ əsrin əvvəllərindən milli folklorun toplanması, nəşr edilməsi ilə yanaşı, ara-sıra elmi mülahizələrin də söylənildiyi müşahidə edilir.

Azərbaycan folkloruna aid əlyazmalardan biri olan "Şeirlər məcmuəsi" Sankt-Peterburqda Şərqşünaslıq İnstitutunun Əlyazmaları Fondunda saxlanılır. Əlyazma 1804-cü ildə Əndəlib Qaracadaği tərəfindən tərtib edilmişdir. Bununla bağlı S.Mümtazın mətbuatda belə bir məlumatını oxuyuruq: "Hər halda Kərəm yurdumuzun yetirdiyi nadir simalardandır. Azərbaycanlıdır. Onun dastanına əhəmiyyət verərək unudulmuş parçalarını axtarıb tapmalıyıq. Aşağıdakı parçaları keçən il Leninqrad kitabxanasında çalışdığım zaman bir əski nüsxədən tapdım. Bunların 6 parçası Kərəmə, 2 parçası isə Əsliyə aiddir. Bu qoşmalar çar ordusu İrəvanı istila etdiyi zaman mayor Şubinin təvəqqesinə görə "Əhər"li bir şair tərəfindən digər bəzi şairlərimizin şeirləri ilə birlikdə toplanaraq bir məcmuə şəklinə salınmışdır" (96, 69-70). Müəllif "Əhərli bir şair" deyərkən Ə.Qaracadağini nəzərdə tutmuşdur.

Ə.Qaracadağinin "Şeirlər məcmuəsi"ndə "Koroğlu" və "Əsli və Kərəm" dastanlarından qoşmalar verilmişdir.

Əlyazmada aşağıdakı folklor nümunələri toplanmışdır: 1. Fatma və Xosrovun hekayəti; 2. İbrahimin hekayəti; 3. Süleymanın hekayəti; 4. Xaspoladın hekayəti; 5. Qələndərin hekayəti; 6. Yusifin hekayəti; 7. Abdullanın hekayəti. P.Əfəndi-

yev Ə.Qaracadağinin əlyazmasının Azərbaycan ədəbiyyatı, eləcə də folklorşünaslığı üçün mühüm əhəmiyyəti olduğunu qeyd edərək göstərir ki, bu, Azərbaycan dilində folklor materiallarından ibarət ilk iri həcmli əlyazmadır (58, 26).

Azərbaycan folklorşünaslığı tarixində XIX əsr xüsusi siması ilə nəzərə çarpan bir dövrdür. Bu əsr Azərbaycanın tarixində hadisələrlə zəngin bir dövr oldu. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay sülh müqaviləsi Azərbaycanı iki hissəyə ayırdı. Rusiya Azərbaycanın şimal hissəsini zəbt etdi. Həmin dövrdə artıq Rusiyada Avropa mədəniyyətinin təsiri ilə mütərəqqi fikirli ziyalılar mühiti formalaşmışdı. Ümumiyyətlə, XIX əsr maarifçilik hərəkatının güclənməsi və yayılması ilə diqqət çəkməkdədir.

Azərbaycanın Rusiyaya ilhaqı, Qafqazda Tiflisin mədəni mərkəz rolunu oynaması və ölkə ziyalılarının bu mühitlə bağlılığı milli ədəbi-mədəni həyatın inkişafına güclü təkan vermişdir. Bu inkişaf özünü folklorun toplanması və nəşri sahəsində də göstərmişdir. Primitiv şəkildə də olsa, artıq folklor mətnlərinin tərtibində müəyyən prinsiplər özünü göstərir, xalq ədəbiyyatı nümunələrinə elmi şəkildə yanaşma müşahidə olunur və bunlar Azərbaycanda folklorşünaslıq elminin yaranmasından xəbər verirdi.

Hələ XIX əsrin əvvəllərindən başlayaraq Tiflis bütün Qafqaz üçün mədəni mərkəz rolunu oynamağa başladı. Burada "Тифлисские ведемости", "Кафказ", "Кафказский вестник", "Новое обозрение" və s. mətbuat orqanları fəaliyyət göstərirdi. Azərbaycan folklorunun ilk nümunələri rus mətbuatında 1820-1830-cu illərdən görünməyə başlayır, 1840-1850-ci illərdən isə Avropada çap olunur. Bu illərdə çap olunan nümunələr janr etibarilə müxtəlif idi. Bunların sırasında atalar sözləri, tapmacalar, bayatılar, sayaçı sözləri, laylalar, nağıl, dastan və digər janrlara aid nümunələrə rast gəlirik. M.Təhmasib "Koroğlu"

dastanının toplanması və nəşri tarixindən bəhs edərkən bunları qeyd edir: “1840-cı ildə İ.Şopen ilk dəfə eposun çox müxtəsər bir variantını yazıya alıb, özünün də uydurduğu bəzi epizodlarla birlikdə çap etdirmişdir ki, bu, eposun çox qüsurlu da olsa, ilk “tam” nəşri hesab olunur. Elə təqribən həmin illərdə A.Xozdko eposun daha mükəmməl ikinci variantını toplayaraq 1842-ci ildə Londonda ingilis dilində nəşr etdirmişdir. Həmin variant 1856-cı ildə S.S.Penn tərəfindən ruscaya tərcümə olunaraq qabaqca “Кафказ” qəzetinin səhifələrində, sonra da kitabça şəklində nəşr edilmişdir ki, eposun ingiliscəsi Avropada, ruscası isə Rusiyada çox geniş şöhrətlənmişdir” (81, 3). Qeydlərdən məlum olur ki, bu dövrdə Azərbaycan folkloru artıq ölkə miqyasından kənarlarda da tanınmağa başlamışdır.

XIX əsrin sonlarında folklorun toplanması və nəşri geniş vüsət alır. Tiflisdə nəşrə başlayan “Сборник материалов для описания местностей и племен Кафказа” (СМОМПК) toplusunun bu sahədə rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Bu dövrdə xalq ədəbiyyatı nümunələrinin ən çox çap olunduğu mətbuat orqanı Qafqaz Tədris Dairəsinin buraxdığı “Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu” – QƏXTMT (SMOMPK) idi. 1881-ci ildə Tiflisdə nəşrə başlamış və 1929-cu ildə Mahaçqalada buraxılışı dayandırılmış bu məcmuənin 46 sayı işıq üzü görmüşdür. 1881-1915-ci illər arasında 44 cildi Tiflisdə, son iki cildi isə 1926 və 1929-cu ildə Mahaçqalada buraxılmışdır.

Azərbaycanla bağlı materialların toplanmasında görkəmli ziyalılar – F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə, M.Vəlizadə, M.Mahmudbəyov, S.M.Əfəndiyev, T.Bayraməlibəyov və başqaları yaxından iştirak etmişlər. Burada Azərbaycan və rus ziyalıları folklorun toplanması və nəşri sahəsində birgə fəaliyyət göstərmişlər. Həmin dövrdə Azərbaycanın qəza və əyalətlərində çalışan rus ziyalıları – N.Kalaşev, K.Ni-

kitin, P.Vostrikov, P.Zelinski, A.Zaxarov, B.Veniaminov və başqalarının da bu sahədə fəal rolu olmuşdur.

SMOMPK məcmuəsində nəşr olunmaq üçün material toplamaq işi o zaman müəllimlərə tapşırılmışdı. Bunun üçün Dairə tədris idarəsi xüsusi proqram hazırlayıb məktəblərə göndərmişdi. Toplu üçün materiallar da bu proqrama əsasən hazırlanırdı. Məcmuədə şifahi xalq ədəbiyyatı nümunələrinə xüsusi yer ayrılırdı. Lakin nəzmlə olan Azərbaycan folkloru nümunələrinin SMOMPK-da nəşr olunmasında müəyyən məhdudiyyət mövcud idi. Buna səbəb xalq şeirinin qafiyə, heca, bölgü kimi ciddi qaydaları və başqa dilə çevirərkən həmin qaydalarla bağlı yaranan çətinliklər olmuşdur. Bunun üçün də bayatı, mahnı, qoşma, tapmaca və bu kimi janrları çap edərkən toplayıcılar həm orijinalı, həm də rus dilində tərcüməsini verirdi.

Məcmuənin 1881-ci ildə nəşr olunan birinci nömrəsində II şöbədə Azərbaycan atalar sözləri və məsəlləri, tapmacalar və qadın adları verilmişdir. Atalar sözü, məsəl və tapmacaların topluda verilməsi forması belə idi: hər səhifə iki yerə bölünmüş, birinci hissədə atalar sözlərinin rusca tərcüməsi, ikinci yarısında isə Azərbaycan dilində ərəb qrafikası ilə orijinalı verilmişdir (128, 43-55). Sözügedən nömrədə 150 atalar sözü yer almışdır. Qadın adları isə bunlardan fərqli olaraq, üç sütunda verilmişdir: əvvəl rusca, sonra azərbaycanca həmin adlar göstərilmiş, daha sonra isə rus dilində sözün ifadə etdiyi məna açıqlanmışdır (128, 60). Bu nümunələri S.P.Zelinski İrəvan qəzasından toplamışdır.

SMOMPK məcmuəsində nəşr olunmuş Azərbaycan folkloru nümunələrinin tərtib prinsipləri maraq doğurur. Folklorşünas S.Orucovanın toplu ilə bağlı araşdırmaları həmin illərdə Azərbaycan folklorunun toplanması, tərtib və nəşri, həmçinin tərcüməsi haqqında geniş və aydın elmi məlumat verir. Tədqiqatçı toplunun I sayında S.P.Zelinskinin nəşr et-

dirdiyi materialları təhlil edərək göstərir ki, toplanmış nümunələr orijinalda ərəb qrafikasında verilmiş, atalar sözləri və məsəllər rus dilinə sərbəst, çox vaxt isə sətri – dəqiq tərcümə edilərək rəqəmlərlə sıralanmış, əvvəl rusca tərcüməsi verilmiş, qarşısında isə azərbaycancası dərc olunmuşdur. Tədqiqatçı atalar sözlərinin topluda tərtib xüsusiyyətlərini təhlil edərək yazır: "Toplayıcı atalar sözlərini sıralasa da, onları nə əlifba sırası ilə, nə də mövzuya görə tərtib etməmişdir. Lakin müəyyən hallarda məzmunca eyni tipli mətnləri ardıcıl, yaxud bir-birinə yaxın verməyə cəhd göstərmişdir. ... Toplayıcı-tərcüməçi mətndə arxaizmləri saxlamış, lazım bildiyi hallarda şərh vermişdir. Məsələn, 6-cı: "Hiç kəs öz ayrannə turş diməz". Tərcüməsi: "Никто своего айрана кислымъ не назоветь". Göründüyü kimi, S.P.Zelinski "ayran" sözünü tərcümə mətnində saxlayıb, amma ona şərh veribdir: "Айранъ – пахтанье, остающееся после сбивания масла, употребляемое татарами как прохладительное питье" (102, 307).

Bu təhlillər göstərir ki, həmin dövrdə folklor nümunələri, sadəcə, xalqdan toplanıb nəşrə ötürülmür, onun üzərində müəyyən işlər aparılır, qismən sistemə salınır və sonra nəşr edilirdi. Mətnin məzmunun oxucuya düzgün və aydın şəkildə çatdırılması üçün izahı lazım gələn sözlərə istər Azərbaycan, istərsə də rus dilində şərhlərin verilməsi həmin dövr üçün irəliyə doğru atılmış böyük bir addım idi. Atalar sözlərinin tərtibi zamanı vacib olan belə bir yanaşmaya sonrakı dövrün nəşrlərində az hallarda müraciət olunmuşdur. Bu, həmin atalar sözünün hansı kontekstdə işlənməsi haqqında toplayıcı-tərtibçinin şərhidir. S.P.Zelinskinin tərtib zamanı mətnə verdiyi şərh haqqında S.Orucova maraqlı fikirlər söyləyir: "Bir xarakterik misala müraciət edək: 109-cu "Gördün yemək, daha nə demək" – "видишь – едять: чтожь и спрашивать!" atalar sözünə ilk baxışda elə bir şərh vermək gərəkməz. Amma müəllif

– toplayıcı bunu edir, azərbaycanlıların xarakterik bir cəhətini – qonaqpərvərliklərini xatırladan bir şərh verir: (Садись и ешь. Характеризует татарское гостеприимство)" (102, 318). Göründüyü kimi, burada atalar sözünün mahiyyətinin açılmasına gözləniləndən də artıq cəhd edilmişdir.

Məcmuənin 1894-cü ildə nəşr olunmuş 18-ci buraxılışında A.Kalaşevin Nuxa (Şəki) şəhərindən topladığı nümunələr verilmişdir. Mətnlərdə tələffüz əlamətlərinin gözlənilməsinə cəhd edilmişdir:

Əlimi bıcax kəsipdi –
Dəstə bıçax kəsipdi:
Yağ gətirün – yağlıyax,
Bal gətirün ballıyax,
Dəsmal gətirün – dəsmallıyax... (129, 45)

SMOMPK məcmuəsinin ikinci buraxılışından sonra Azərbaycan dilində orijinal mətnlər artıq ərəb qrafikası ilə yox, rus qrafikasında – xüsusi transkripsiya ilə dərc olunmuşdur. 1898-ci ildə toplunun 24-cü buraxılışı işıq üzü görür. Məcmuədə 2000-ə qədər atalar sözü və məsəl verilmişdir. Nümunələri N.D.Kalaşev Şamaxı və Göyçaydan toplayaraq "Şirvan tatarlarının atalar sözləri" adı altında nəşr etdirmişdir. Məcmuənin bu sayında atalar sözlərinin tərtibi əvvəlki buraxılışlardan fərqlənir. Burada mətnlər mövzulara görə bölünmüşdür. Bu qruplaşdırma redaksiyanın əvvəlcədən verdiyi proqrama əsasən aparılmışdır və bunlardan ibarətdir: "Allah", "Şeytan", "Peyğəmbər", "İmam", "Hökmdarlar", "Bəy və xanlar", "İnsanların məşğuliyyəti", "Aşıq, musiqi", "Xalqlar" (erməni, kürd, tat, ləzgi, qaraçı, ərəb və s.), "Kişi və qadın", "İnsan bədəninin hissələri", "İkiarvadlılıq", "Nikah", "Qız", "Gəlin" və s. (126). Məsələn, insanlar xüsusi nişanələrinə görə qruplaşdırılır: kosa, keçəl, kor, kar, lal və s. O zamanın ənənəsinə uyğun olaraq atalar sözləri Allahla, dini istilahlarla

başlayır. Dini istilahlara, dialekt və digər sözlərə verilən şərhlər də rusdilli oxucular üçün maraqlı idi. Atalar sözləri orijinalda və rus dilinə tərcümədə verilmişdir. Lakin mətinlərin orijinal hissəsində xeyli orfoqrafik səhvlərə yol verilmişdir.

"Xalqlar" bölməsində ermənilər haqqında verilən atalar sözləri bir daha sübut edir ki, vaxtilə xalqımız onların həqiqi simasını görmüş və öz bədii yaradıcılıq nümunələrində bunu layiqincə əks etdirmişdir. Məsələn:

*O qədər yedim, axırda erməniyə döndüm.*

*Ermənidən bəy olmaz.*

*Ermənin qocalanı köpəyə, müsəlmanın qocalanı ipəyə dönər* və s. (126, 14).

Vaxtilə geniş yayılmış bu mətnlərə sovet dövrü nəşrlərində rast gəlmirik. Çox güman ki, sonralar sovet ideologiyası bu sıradan olan folklor nümunələrinin yayılmaması üçün nəşrinə imkan verməmişdir.

SMOMPK məcmuəsinin nömrələrində Azərbaycan xalq ədəbiyyatı nümunələrinin rus dilinə tərcümə edilərək orijinal mətnlə yanaşı topluda nəşr olunması, müxtəlif janrlara aid zəngin və rəngarəng mətnlərin verilməsi həmin dövr folklorşünaslığımız üçün mühüm yenilik idi.

Şifahi xalq ədəbiyyatının toplanması və nəşrində yaxından iştirak etmiş E.Sultanov, M.Mahmudbəyov, M.Qəmərli, F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, Y.V.Çəmənzəminli, A.Şaiq, S.Hüseyn və başqa mütərəqqi fikirli ziyalıların XIX əsr Azərbaycan folklorşünaslığının inkişafında xüsusi rolu olmuşdur.

Azərbaycan folklorşünaslığı tarixində müstəqil janr kimi ilk orijinal "Atalar sözü" kitabı 1899-cu ildə İrəvanda nəşr olunmuşdur. Kitabın toplayıcı və tərtibçisi M.Qəmərlidir. Bəzi naqislik və nöqsanlarına baxmayaraq, bu, Azərbaycan folklorşünaslığı tarixində həm də ilk olması ilə seçilir. Kitabda İrəvan və onun ətrafında yaşayan azərbaycanlılardan toplanmış 750

atalar sözü, müəllif tərəfindən yazılmış “Ön söz” və sonda elmin faydası haqqında “Mənzumə” verilmişdir. Müəllif topladığı materialların dilinə müəyyən məqamlarda həssaslıqla yanaşmışdır. M.Qəmərli “Atalar sözü” kitabında topladığı mətnlərin dili üzərində necə işləməsi haqqında yazır: “Çün bəzi ərəbi və farsi kəlimələr, türki lisanımızda qarışdığından hər vaxt dilimizdə müstəməl olmaqdadır. Məahaza biz təsadüf olunan ərəbi kəlimələri ərəb ibarəsi ilə yazmayıb, tələffüzə götürdüyümüz kimi yazmış olduğumuzdan bu kimi kəlimələrə irad tutulmamasını rica edirəm: məsələn, “övrət”, “qövm” kəlimələrini təkəllüm elədigimiz kimi: “arvad”, “qohum” və sairə. Bu qəbil şeylərin təhrif olunmasının üzrünü istəyirəm...” (5, 24). Ərəb kəlmələrini xalq dilinin tələffüzünə uyğun şəkildə işlətməsi M.Qəmərlinin ana dilinə münasibətini aydın göstərir. Lakin etdiyi bu dəyişikliklər üçün üzr diləməsi müəllifin söyləyici mətninə müdaxiləni məqbul saymadığına bir işarədir.

M.Qəmərlinin tərtib etdiyi nümunələrin mətnində işlənmiş ərəb və fars sözlərini milli tələffüzlə verməsi haqqında fikrinə folklorşünas P.Əfəndiyev belə rəy bildirir: “Bizə elə gəlir ki, müəllif bəzi atalar sözlərini ya yazılı mənbələrdən, yaxud da xüsusi, təhsilli şəxslərdən götürmüş, ona görə də orada bir sıra ərəb və fars sözləri olmuşdur. Ancaq çox doğru olaraq həmin kəlmələr sadələşdirilib, xalqın dediyi şəklə salınmışdır” (57, 104). Ümumiyyətlə, əksər hallarda alınma sözlər dilimizin tələffüz qaydalarına uyğunlaşdırılır. Məsələn, dilimizə rus və ərəb dillərindən keçmiş sözlərin ədəbi dildə qarşılığına nəzər salaq: *машина – maşın*, *вёдро – vedrə*, *cəmal – camal*, *kəmal – kamal* və s. Bu baxımdan M.Qəmərlinin də “ərəbi və farsi kəlimələr”ini xalq tələffüzündə olduğu kimi yazmasını doğru hal hesab etmək olar.

Kitabda mətnlərin haradan və kimlərdən toplanması haqqında məlumatlar verilməmiş, pasportlaşdırma işi aparılmamışdır.

İrəvan mahalı regional dil xüsusiyyətləri qabarıq şəkildə nəzərə çarpan bir bölgədir. Lakin həmin nəşrdə yerli dil özəllikləri və ədəbi tələffüz əlamətləri çox zəif şəkildə nəzərə çarpır. Məsələn:

*Ölü ilə ölmək olmaz* (5, 29).

*İt itin dişindən qorxar* (5, 31).

*Cahil ilə bal yemə, ahıl ilə daş daşı* (5, 35) və s.

Göründüyü kimi, bu nümunələrdə tələffüz göstəriciləri əks olunmamışdır. M.Qəmərli ana dili müəllimi olduğundan yazı qaydalarını mükəmməl bilmiş və topladığı mətnlərin əksəriyyətini də dövrünün orfoqrafiyasına uyğun yazıya köçürmüş, mətnləri əlifba sırasına görə düzmüşdür. M.Qəmərlinin "Atalar sözü" kitabının o dövr üçün yeni xüsusiyyətlərindən biri də toplayıcı və tərtibçinin eyni şəxs olması, kitabın bir müəllifin qələmindən çıxmasıdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan xalqının ictimai-siyasi həyatında baş verən inkişafla əlaqədar şifahi xalq ədəbiyyatına maraq güclənmişdir. Azərbaycanın ədəbiyyat xadimləri ilə yanaşı, pedaqoji sahədə çalışan ziyalıları da xalqın maariflənməsi üçün folklordan bir vasitə kimi istifadə edirdilər. Həmin dövrdə H.Zərdabi, M.Ə.Sabir, S.S.Axundov, A.Şaiq, A.Səhhət, R.Əfəndiyev, F.Köçərli və başqa ədiblər həm də pedaqoq kimi fəaliyyət göstərirdilər. Onlar pedaqoji fəaliyyətləri zamanı xalq ədəbiyyatı materiallarına üstünlik verir, uşaq folkloru nümunələrindən geniş şəkildə istifadə edirdilər. Müəlliflərin çoxu topladığı folklor materiallarını özləri tərtib edərək ayrıca kitab – toplu şəklində nəşr etdirmişlər. Folklorşünas V.Vəliyev yazır: "XIX əsrin sonu, XX əsrin ilk illərindən başlayaraq Azərbaycan folklorunun ayrı-ayrı janrları kitabça halında nəşr olunmağa başlayır. Çox hallarda bu kitablarda xalq ədəbiyyatının bir çox janrlarından nümunələr verilir. Onlardan "Atalar sözü", "Gözəlləmə",

“Nəğmə və şikəstə”, “Arvad ağızı, bayatı, haxışta, sevgi, layla, qaynana-gəlin sözləri”, “Milli nəğmələr”, “Nağıllar məcmuəsi”, “Şagirdlərə bəxşiş (nağıllar məcmuəsi)” və başqa kitabları göstərmək olar” (117, 60). Qeyd olunan kitabların tərtibində, demək olar ki, nəzəri qeydlər, izahlar verilməmişdir.

F.Köçərli, R.Əfəndiyev, A.Şaiq, S.Hüseyn, N.Nərimanov, A.Şaxtaxtlı, T.Bayraməlibəyov və başqaları məqalələrində xalq ədəbiyyatının ana dilimizin, milli-mənəvi dəyərlərimizin əsas mənbəyi olduğunu qeyd etmiş, müxtəlif janrlar, onların toplanma və tərtib xüsiyyətləri haqqında mühüm elmi fikirlər söyləmişlər. Bu dövrdə şifahi xalq ədəbiyyatı haqqında mükəmməl elmi əsərlər olmasa da, ayrı-ayrı folklorşünasların söylədiyi elmi mülahizələr, xalq ədəbiyyatının təhlili və şərhinə dair məqalələr Azərbaycanda folklorşünaslıq elminin yarandığından soraq verir. Bu barədə folklorşünas A.Nəbiyevin Azərbaycan folklorşünaslığının inkişaf yolu haqqında söylədiyi fikirlər maraq doğurur: “Milli ağız ədəbiyyatının yaranması, janrlaşma tarixi nə qədər qədimlərə gedib çıxsa da, onu öyrənən elmin meydana gəlməsi əsasən iyirminci əsrin əvvəllərinə təsadüf edir. Əslində Azərbaycan folklorşünaslığı geçikmiş folklorşünaslıq idi. Avropada almanlar, ingilislər, fransızlar, finlər və b. öz şifahi ədəbiyyatlarını – əsatir və nağıllarını, mərasim və əmək nəğmələrini geniş şəkildə toplayıb öyrəndikləri halda, bizim ağız ədəbiyyatımız hələ yazıya alınıb toplanmamışdı” (98, 58).

XX əsrin əvvəllərində “Molla Nəsrəddin” (1906) jurnalının nəşrə başlaması Azərbaycan folklorunun çap olunmasına yeni bir meydan açdı. Nəşri müəyyən fasilələrlə 25 il davam etmiş jurnalın, demək olar ki, hər nömrəsində tapmacalar, bayatılar, sayaçı sözləri, lətifələr və s. kiçik janrlara aid nümunələr verilir və bu mətnlər ictimai-siyasi mühitdə baş verən hadisələrə uyğunlaşdırılırdı. Həmin dövrün “Kəlniyyət”, “Arı”, “Tuti”, “Babayi-Əmir” kimi satirik jurnalları da “Molla Nəsrəddin”in üslu-

bunu davam etdirirdi. “Tuti” jurnalı bu cəhətdən daha fəal idi, səhifələrində tez-tez lətifələr, bayatılar, mahnılar çap olunurdu.

XX əsrin əvvəllərində Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrindən maarifçilik sahəsində geniş istifadə olunur. Həmin dövrdə tərtib olunmuş ana dilinə aid dərsliklərin əsasını folklor materialları təşkil edirdi. Rəşid bəy Əfəndiyev “Uşaq bağçası” və “Bəsirətül əhval” adlı iki dərslik hazırlamışdır. Müəllif uşaqlar üçün nümunəvi folklor mətnləri seçmiş və bu seçimində uşaq psixologiyasını diqqət mərkəzində saxlamışdır.

“Arvad ağısı” toplusu 1914-cü ildə Bakı şəhərində nəşr edilmişdir. Kitabın toplayıcısı və tərtibçisi Mirzə Abbas Abbaszadədir. Bu, Azərbaycanda sistemli şəkildə tərtib edilən ilk qadın folklor toplusudur. Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq bu kitabda janrdaxili bölgülər verilmişdir. Kitabda verilmiş mətnlər “Yedi”, “Ağı”, “Bayatı”, “Haxışda”, “Sevgi”, “Laylay”, “Gəlin və qayınana sözləri”, “Aşıq sözləri”, “Gəncənin alınmasına” başlıqları altında qruplaşdırılmış və sonda “Sözlük” verilmişdir. Elə bu səbəbdən transliterasiya edilmiş nəşrin “Ön söz” müəllifləri R.Xəlilov və A.Xürrəmqızı toplunu qədim təzkirə və cünglərdə toplanmış folklor örnəklərindən faydalanmamaq şərtilə Azərbaycan folklorunun elmi əsaslarla çap edilmiş ilk antologiyası, M.A.Abbaszadəni isə Azərbaycan folklorşünaslığı tarixində ilk toplu tərtibçisi kimi dəyərləndirirlər (1, 7).

Azərbaycan folklorşünaslığında xüsusi yeri olan Firidun bəy Köçərli canıyananlıqla toplayıcılıq işi ilə məşğul olmuşdur. Bütün ədəbi fəaliyyətini bir yana qoysaq, onun təkcə “Balalara hədiyyə” (1912) kitabını ümumən Azərbaycan folklorşünaslığına dəyərli bir hədiyyə hesab etmək olar. Kitabda o həm folklorşünas, həm də bir pedaqoq kimi uşaqların yaş xüsusiyyətlərini, marağını, nitq inkişafını nəzərə almış, yüksək tərbiyəvi əhəmiyyəti olan folklor nümunələrini seçərək nəşr etdirmişdir. Bunlardan “Üşüdüm ha, üşüdüm” (43, 12), “Gü-

nəşi çağırmaq” (43, 30), “Göyçək Fatmanın nağılı” (43, 59) və s. nümunələri qeyd etmək olar. Uşaqlarda mövzu ilə bağlı daha əhatəli təsəvvür yaratmaq məqsədilə mətnlərin sonunda məsəl, tapmaca və digər kiçik janrlardan nümunələr verilmişdir. Mətnlərin məharətlə seçilməsinə və tərtib edilməsinə görə bu, hər zamanın ən yaxşı uşaq ədəbiyyatı kitabı ola bilmişdir. Oxucusunu düşünərək mükəmməl şəkildə hazırlanmış kitab bu gün uşaq folklorunun tərtibi üçün bir nümunədir.

Folklorşünaslıqla bağlı elmi əsərləri ilə yanaşı, F.Köçərli folklorun müxtəlif janrlarına aid mətnləri, o cümlədən “Sayaçı sözləri”, “Aşıq Valeh” kimi folklor materiallarını da nəşrə hazırlamışdır. Milli-mənəvi dəyərlərə çox önəm verməsi, xalq ədəbiyyatı uğrunda fədakarcasına çalışması sonda onun repressiya qurbanı olması ilə nəticələnmişdir.

Azərbaycan folklorunun 1920-ci ilə qədər toplanması və nəşri vəziyyəti ilə bağlı araşdırmalardan bu qənaətə gəlmək olur ki, folklorun nə vaxtdan toplanmağa başlanmasının dəqiq tarixi olmasa da, canlı ifadan yazıya alınmış “Kitabi-Dədə Qorqud” dastanı XI əsrdə artıq mükəmməl şəkildə meydanda idi. Toplama işi XVI əsrdə zəif, XVII-XVIII əsrlərdə isə bir qədər nizamlı şəkildə davam etdirilmiş, toplanmış materiallar cüng və əlyazmalarda arxivləşdirilmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində isə folklorun toplanması və nəşri intensiv xarakter almışdır. Bu dövrdə folklorun yazıya alınmasında, nəşr olunmasında konkret elmi prinsiplər mövcud olmasa da, mətnlərin dil və üslubunda, sistemləşdirilməsində ibtidai şəkildə müəyyən ştrixlər görünməkdədir. Toplanmış mətnlər fərqli üsullarla tərtib edilmişdir: bəzi nümunələrin tərtibində tələffüz xüsusiyyətləri qismən gözlənilmiş, çox zaman isə dövrünün ədəbi dil normaları üstünlük təşkil etmişdir. Mətnlərin sistemləşdirilməsi primitiv şəkildə həyata keçirilmişdir.

Bu mərhələdə folklor mətnlərinin tərtibində sistemləşdirmə ən az diqqət yetirilən sahə olmuşdur.

## 1.2. Sovet dövründə folklor mətnlərinin toplanması və nəşri təcrübəsi

Azərbaycan folklorşünaslığının mühüm bir mərhələsini sovet dövrü əhatə edir. 1920-ci il aprel inqilabından sonra Azərbaycan xalqının həyatında yeni tarixi dövr – sovet dövrü başladı. Yeni ictimai quruluşun yaranması həyatın bütün sahələri kimi, ədəbiyyat və incəsənətə də öz təsirini göstərdi.

Xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi sahəsində sovet hakimiyyətinin ilk illərində yaradılan Azərbaycan Ədəbiyyat Cəmiyyəti mühüm işlər gördü. 1923-cü il noyabrın 2-də elmi-tədqiqat işləri aparmaq üçün Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı. Bu, respublikanın baş elmi müəssisəsi oldu. 1929-cu ildə bu cəmiyyət yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (DETİ) adlandırıldı. Azərbaycanda elmi tədqiqatların yüksək səviyyədə aparılmasını və inkişaf etdirilməsini, elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin artırılmasını təmin etmək məqsədilə 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi təşkil edildi. 1935-ci ilin oktyabrında şöbə SSRİ EA-nın Azərbaycan Filialına, 1945-ci ilin yanvarında isə Azərbaycan EA-ya çevrildi. Bütün bu elmi qurumlar digər elmlərlə yanaşı, folklorşünaslıq elminin inkişafına – xalq yaradıcılığı nümunələrinin toplanması, tədqiq edilməsi və nəşri məsələlərinə də diqqət və qayğı göstərmişdir. Lakin sovet dövrünün milli-mənəvi dəyərləri kölgədə qoyan ideologiyası həyatın bütün sahələri kimi, folklordan da yan keçməmişdir.

Sovet ideologiyasının maddi və mənəvi irslə bağlı məqsəd və məramını folklorşünas M.Kazımoğlu-İmanov belə xa-

rakterizə edir: “Özünü fəhlə-kəndli dövləti elan edən Sovet hökuməti xalq ədəbiyyatına məqsədyönlü diqqət və qayğını mədəniyyət sahəsindəki ideoloji işin tərkib hissəsinə çevirir. Azərbaycan türklərinin maddi və mənəvi mədəniyyət abidələrinin məhz sovet ideologiyasına uyğun bir şəkildə öyrənilib üzə çıxarılması məqsədilə Rusiyadan Azərbaycana N.Y.Marr, İ.İ.Meşşaninov, V.V.Qordlevski, B.B.Bartold, V.M.Sısoyev, A.V.Baqri, İ.N.Aşmarin, A.N.Samoyloviç kimi tanınmış şərqşünaslar gəlir” (77, 114). Təkcə sadalanan soyadlara milli baxımdan nəzər salmaqla onların Azərbaycan folkloruna hansı səviyyədə can yandırmasını aşkar duymaq olar.

Bu quruluşun zahirən mütərəqqi görünən prinsipləri əslində öz ətrafında birləşdirdiyi “bərabərhüquqlu” xalqların mənafeyini birinə tabe etdi. SSRİ yaradıldı və 15 respublika rusların hakimiyyəti altında fəaliyyətə başladı. Keçmiş Sovet İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da rusların qurduğu plan üzrə hərəkət edilir, mili-mənəvi dəyərlər kölgədə qalırdı. Lakin xalq arasında bu gün də mövcud olan zəngin folklor irsi sübut edir ki, milli zəmində qoyulan qadağalar xalqın ruhuna, mənəviyyatına nüfuz edə bilməmişdir.

Folklor sahəsində mühüm işlər görmüş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə Rusiyadan göndərilən şərqşünas A.N.Samoyloviç rəhbərlik etmişdir. Göründüyü kimi, xalqın maddi və mənəvi mədəniyyət abidələrinin taleyi, milli-mənəvi dəyərlərin araşdırılması ilə məşğul olan cəmiyyətin rəhbərliyi başqa xalqın nümayəndəsinin ixtiyarına verilmişdir. Cəmiyyətin nəzdində A.V.Baqri, H.Zeynallı, V.Xuluflu, A.Sübhanverdixanov folklor sahəsində fəaliyyət göstərirdilər. S.Ağamalıoğlu, R.Axundov, M.Quliyev, D.Bünyadzadə, Q.Musabəyov, S.M.Əfəndiyev, Ü.Hacıbəyov, S.M.Qənizadə, T.Şahbazi, Ə.Haqverdiyev, C.Məmmədquluzadə və başqaları da cəmiyyətin fəal üzvləri idilər və Azərbaycan folklorunun top-

lanması, nəşri və tədqiq edilməsində xeyli işlər görmüşlər. Onlar öz xalqına, onun yaradıcılığına dəyər verməyi bacaran görkəmli dövlət və mədəniyyət xadimləri idilər. Cəmiyyət Azərbaycanın müxtəlif bölgələrinə ekspedisiyalar təşkil edir, həmin ərazilərdə mövcud olan qala, abidə, arxeoloji tikintilər haqqında əfsanə və rəvayətləri toplayıb mətbuatda dərc etdirirdi.

Cəmiyyətin təşəbbüsü ilə L.Q.Lopatinskinin – SMOMPK jurnalının redaktorunun arxivi Tiflisdən Bakıya gətirilmişdir. Sözügedən materialları A.Sübhanverdixanov sistemləşdirmiş, A.V.Baqri isə həmin materiallar əsasında "Azərbaycan və qonşu ölkələrin folkloru" adlı kitab çap etdirmişdir. Üç cilddən ibarət olan bu kitab 1930-cu ildə rus dilində nəşr olunmuşdur.

"Maarif və mədəniyyət", "Maarif işçisi", "Dan ulduzu", "Azərbaycanı öyrənmə yolu" jurnalları bu dövrdə xalq ədəbiyyatı nümunələrinin ən çox çap olunduğu mətbuat orqanları idi. "Kommunist", "Бакинский рабочий", "Yeni yol", "Azərbaycan kolxozçusu" qəzetlərində də folklor nümunələrinə geniş yer ayrılırdı.

1926-cı ildə A.Şaiq, Ş.Əfəndizadə və M.Hatifin birlikdə topladıdıqları bayatılar nəşr olunur. "Bayatılar və manilər" adlanan kitabda 650-yə qədər mətn toplanmış, nümunələr əlifba sırası ilə verilmişdir. Ə.Nazim 1926-cı ildə "Maarif və mədəniyyət" jurnalında bu kitab haqqında yazdığı "Azərbaycan xalq ədəbiyyatından: bayatılar" adlı məqaləsində Azərbaycan folklorunun tərtib prinsipləri haqqında dəyərli elmi mülahizələr söyləmişdir. O, Ədəbiyyat Cəmiyyətinin bu işinin bu yolda ilk təşəbbüs olmaq şərtilə təbrikə və təqdirə şayan olduğunu bildirmişdir (97, 46). Tənqidçi həmin nəşrin tərtibi xüsusiyyətlərini elmi cəhətdən təhlil etmiş, həmçinin bəzi nöqsanlarını göstərmişdir: "Toplanılan bayatıların məhəlli şivələri saxlanılmalı idi. Kitabda məhəlli şivənin gözlənildiyi iddia edilirsə də, bu quru bir söz olaraq qalır. Halbuki bunun üçün bayatıların haradan

toplanıldığını, kimlərdən və nə vasitə ilə əldə edildiyini, kimin ağzından eşidildiyini göstərmək lazımdır. Bu edilməmiş və bütün şivələr bir-birinə qarışdırılmışdır" (97, 47). Ə.Nazimin "Bayatılar və manilər" kitabının tərtibi haqqında söylədiyi fikirlər ümumən Azərbaycan folklor janrlarının, xüsusən nəzm formasında olan nümunələrin nəşrində istifadə edilməli müddəalardır və onları təxminən belə qruplaşdırmaq olar:

a) Məhəlli şivə xüsusiyyətləri gözlənilməlidir;

b) Ərəb əlifbasının dilimizin fonetikasını tam əks etdirə bilmədiyindən yeni əlifba ilə nəşr olunmalıdır;

c) Folklor mətnlərinin haradan, kimdən və hansı vasitə ilə toplandığı qeyd olunmalıdır;

d) Tələffüzün ədəbiləşdirilməsinə yol verilməməlidir və s.

Folklorun tərtibinə aid qeyd etdiyimiz qaydaların mövcud olmasına baxmayaraq, dövrün görkəmli folklorşünaslarının bunlardan lazım olan səviyyədə yararlanmadıqlarını müşahidə edirik. V.Xuluflu, S.Mümtaz, Y.V.Çəmənzəminli, H.Zeynallı və başqaları həm folklorun toplanması, həm də nəşrə hazırlanması ilə məşğul olmuşlar. Lakin onların nəşrə hazırladıqları hər kitabda folklor mətnlərinin tərtibinə yanaşma prinsipləri fərqli formada nəzərə çarpır. Hətta fərqli yanaşma bir folklorşünasın tərtib etdiyi təkrar nəşrlər arasında da özünü göstərir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəal üzvlərindən olan Vəli Xuluflu 1927-ci ildə "Koroğlu" kitabını nəşr etdirir. Burada dastandan iki qol verilmişdir. Həmin qollar Aşıq Hüseyn Bozalqanlıdan toplanmışdır. V.Xuluflu tərtib etdiyi bu kitaba "Müqəddimə" yazmış, sonda söyləyici Aşıq Hüseyn Bozalqanlının tərcümeyi-halı haqqında qeydlər vermişdir. Elə həmin ildə müxtəlif aşıqlardan yazıya aldığı şeir nümunələrini "El aşıqları" kitabında nəşr etdirmiş, buraya Şəmkirli Aşıq Hüseynin "Reyhan" dastanını, həmçinin XX əsrin əvvəllərində yaşamış Aşıq Avakın şeirlərindən nümunələri

daxil etmişdir. Müəllif şeirlərlə yanaşı, aşıqlar və bəzi şeirlərin yarandığı tarixi şərait haqqında da məlumatlar vermişdir (55).

Bu dövrdə Azərbaycan tapmacalarının toplanıb tərtib edilməsi sahəsində ən böyük iş V.Xuluflunun adı ilə bağlıdır. O, 1928-ci ildə "Tapmacalar" kitabını nəşr etdirmiş, kitaba mükəmməl "Müqəddimə" yazmış, izahlar, qeydlər vermişdir. Kitabda verilmiş 726 tapmaca təxminən belə tərtib edilmişdir: mətnlər əlifba sırası ilə düzülmüşdür. Tapmacaların hər birindən sonra onların toplandığı yer göstərilmiş, ümumi sıraya daxil olmaq şərti ilə variantları da yanında verilmiş, cavabları isə kitabın sonunda sıra nömrəsinə uyğun şəkildə qeyd edilmişdir. Mətnlərin tərtibi haqqında V.Xuluflu bunları söyləyir: "Tapmacaların tərtibinə gəldikdə materialların çoxusu təbiətə aid olduğundan ictimai, siyasi və sair qruplara bölməyib, əlifba sırası ilə buraxmağı daha münasib gördük" (113, 9). Müəllif kitabda verdiyi nümunələrin tələffüz xüsusiyyətlərini nəzərə almış, mətnlərin şivə əlamətlərini mühafizə etmişdir.

20-ci illərin folklorşünaslarından olan Salman Mümtaz əsasən lirik növün janrlarının, xüsusən Azərbaycan bayatılarının toplanması, nəşri və araşdırılması ilə məşğul olmuşdur. O, uzun illər Aşıq Abdulla adlı sənətkarın əsərlərini toplamış və nəşr etdirmişdir. S.Mümtaz tərtib etdiyi kitabı ilk nəşrində "Aşıq Abdulla" (1927) adlandırsa da, ikinci nəşrdə ona "Sarı Aşıq" adını vermişdir. Buna səbəb topladığı şeirlərin Sarı Aşığın olması qənaətinə gəlməsidir. 1935-ci ildə nəşr etdirdiyi "Sarı Aşıq və bayatıları" kitabı 123 səhifədən ibarətdir. Kitab mürəbbe və təcnislər, təcnis, bayatılar, təxəllüssüz bayatılar, tapmacalar bölmələrindən ibarətdir, mətnlər əlifba sırası ilə düzülmüşdür. Təəssüf ki, S.Mümtaz 1926-cı ildə Ə.Nazimin söylədiyi "bayatıların haradan toplanıldığını, kimlərdən və nə vasitə ilə əldə edildiyini, kimin ağzından eşidildiyini göstərmək lazımdır" (97, 47) kimi mühüm qeydlərindən ya-

rarlanmamış, mətnlərin pasport qeydiyyatını aparmamış, söyləyicilər haqqında məlumat verməmişdir. O, kitabdakı bayatıları iki yerə ayırmışdır: Sarı Aşığa məxsus bayatılar və müəllifsiz bayatılar. Müəllifsiz bayatıların da Sarı Aşığa məxsus olduğunu güman etdiyini qeyd etmişdir (108).

Azərbaycan folklorşünaslığında nağılları ilk dəfə Y.V.Çəmənzəminli təsnif etmişdir. Müəllifin "Nağıllarımızı necə toplamalı" (1928) və "Nağıllarımız barədə bir-iki söz" (1928) məqalələri folklor toplayıcılarının nəzəri cəhətdən təlimatlandırılmasında xüsusi əhəmiyyətə malikdir. O, 1929-cu ildə yazdığı "Xalq ədəbiyyatının təhlili" məqaləsində həmin dövrdə toplama işinin keyfiyyəti haqqında yazır: "Bu gün Azərbaycan gəncləri arasında xalq həyatına qarşı çox böyük maraq oyanmış, kənd-bəkənd gəzilir, ağızdan-ağıza keçən, əsrlər məhsulu olan atalar sözü, bayatılar, nağıllar, aşıq sözləri toplanır. Lakin bir çoxlarının hazırlığı olmadığına görə yığdıqlarında qüsurlar görünür. Xalq şivəsini lazımınca gözlətməyirlər, şəhər təsirinə qapılırlar, çox vaxt ədəbi sözlər qataraq xalq əsərlərinin ahəngini pozurlar" (53). Müəllifin topladığı "Caçcı" nağılında dil və üslub baxımından bir sıra təbii nitq əlamərləri aşkar görünür. Məsələn:

*Qarı da qoyunları apardı çayın qırağına, qabı suya basdı, istədi qoyunlara su versin, gördü qabda su yoxdur. İşıqlanana kimi belə elədi, bir də sübh açıldı, qarı baxdı gördü, badya əvəzinə xəlbir gəlib çıxıb. O saat barmağını dişlədi, dedi:*

*– Yəqin bu Caçcının işidir* (52, 52).

Nağılın dilində xalq danışıq dilinə xas inversiyaların, leksik vahidlərin (*apardı çayın qırağına; işıqlanana kimi*; *barmağını dişlədi* və s.) olmasına baxmayaraq, yerli şivə xüsusiyyətləri görünmür. Halbuku tərtibçi nağılın "qarabağlı ağzından" yazıldığını və yerli şivənin dəyişilmədiyini qeyd edir (52, 50).

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində folklor komissiyasının sədri Hənəfi Zeynallı xalq ədəbiyyatı nümunə-

lərinin yazıya alınması işinə nəzarət etmiş, toplanmış nümunələrin yazıda səsləndiyi tərzdə verilməsinin tərəfdarı olmuşdur. 1926-cı ildə onun tərtib etdiyi "Azərbaycan atalar sözü və məsəlləri", 1928-ci ildə isə "Azərbaycan tapmacaları" kitabları nəşr olunmuşdur. Tapmacalarla bağlı yazdığı müqəddimə böyük elmi əhəmiyyətə malikdir. Müəllif burada mətnlərin janr xüsusiyyətlərindən, quruluşundan bəhs etmiş, həm də bəzi tapmacaları digər türk xalqlarında işlənən qarşılıqları ilə müqayisə etmişdir. Kitabda 760 tapmaca verilmişdir. Həmin mətnlər mövzular üzrə qruplaşdırılaraq aşağıdakı başlıqlara bölünmüşdür: insan haqqında, təsərrüfat haqqında, təbiətə dair, heyvanlar haqqında, nəbatat haqqında, yeməgə dair, cəmiyyətə gərəkli yapılar və şeylər və s. Hər başlıq bir neçə yarımbaşlığa bölünmüş, yeri gəldikcə şərh, qeyd, lüğət və digər elmi izahlar verilmişdir. Maraqlıdır ki, xalq ədəbiyyatının yazıya alınmasına rəsmi şəkildə nəzarət edən H.Zeynallı özünün topladığı və tərtib etdiyi mətnlərin söyləyiciləri haqqında məlumat verməmişdir. Yalnız bir qeyddə tapmacaları hansı bölgələrdən topladığını söyləmiş və həmin şəxslərə təşəkkür etmişdir (40, 15).

H.Zeynallının sırf nəzəri xarakter daşıyan "Azərbaycan el ədəbiyyatı" (1926), "Xalq ağız ədəbiyyatı" (1928), "Azərbaycan folkloru" (1936) məqalələri Azərbaycanda folklorşünaslığının inkişafına təkan verən əsərlərdir.

XX əsrin 30-cu illərində Azərbaycan şifahi xalq ədəbiyyatının toplanması və nəşri geniş vüsət almışdır. Hümbət Əlizadə o dövrün folklorşünasları içərisində ən çox toplama işi ilə məşğul olan şəxslərdən olmuş, şifahi xalq ədəbiyyatının bütün növlərinə aid materiallar toplamışdır. O, topladığı materiallar əsasında 1929-cu ildə "Azərbaycan el ədəbiyyatı" adlı kitabını nəşr etdirmişdir. Folklorşünas İ.Abbaslı H.Əlizadənin bu kitabı haqqında yazır: "H.Əlizadənin "Azərbaycan el ədəbiyyatı" (nağıllar) kitabında təqdim olunan örnəklər məhəlli (lokal)

səciyyə (hamısı eyni ərazidən toplanmışdır) daşısa da, onların üslubu təsdiq edir ki, söyləyicinin – ifaçının dili, özgə sözlə deyilsə, xalq dili yerli zəminlə bağlı ləhcə-şivə xüsiyyətləri, xüsusilə dastançılıq gələnəyi əsasən qorunub saxlanmışdır" (16, 6). Görkəmli alim faktlara üz tutmuş, 1929-cu ildə çıxan kitabla ikinci – 1937-ci il nəşrini müqayisə etmişdir. Məlum olmuşdur ki, "Şahzadə İbrahim", "Tahir Mirzə" və "Şahzadə Qasım" dastanlarının təkrar nəşrlərində toplayıcı sərbəst şəkildə bu mətnlərə müdaxilə etmiş, onu öz yaradıcılıq süzgəcindən keçirərək istədiyi şəkildə dəyişdirmişdir. Nəticədə dastanların adının, şeirlərin bəndlərinin sayının, ustadnamə, duvaqqapma mətnlərinin dəyişdirildiyini, bəzi epizodların ixtisar edildiyini, dastan mətninin dili üzərində xeyli əməliyyat aparıldığını yəqin etmişdir (16, 6). Düşünürük ki, sonrakı nəşrdə edilən dəyişikliklərə dövrün repressiyaları səbəb olmuşdur.

Bir faktı da nəzərdən qaçırmaq olmaz ki, folklorun toplanması və nəşri ilə çox fəal şəkildə məşğul olan H.Əlizadə "Azərbaycan el ədəbiyyatı" (nağıllar) kitabında janrların müəyyənləşdirilməsində (dastanlar nağıl kimi təqdim edilmişdir) qeyri-dəqiqliyə yol vermişdir.

1938-ci ildə H.Əlizadənin tərtibi əsasında nəşr olunmuş "Aşıqlar" kitabında, demək olar ki, elmi prinsip gözlənilməmişdir. Kitabda müqəddimə və söyləyicilər haqqında məlumat yoxdur, şərh, qeyd və lüğət verilməmişdir. Lakin yerli dil əlamətləri mətndə aydın görünür. Məsələn:

Mindim Qıratın belinə
Kaş ki düşmən yüz oloydu.
Dəlilər sağ-solunda
Mənlə üzbəüz oloydu (3, 447).

H.Əlizadə nəşrə hazırladığı 141 səhifəlik "Azərbaycan bayatıları" kitabında mətnlər belə qruplaşdırılmışdır: əvvəlcə "əzizim", "əzizinəm", "eləmi", "mən aşıq", "mən aşiqəm" qə-

lib sözləri ilə başlanan bayatıları düzmüş, sonra isə digər nümunələri vermişdir (7). O, xalq əsərlərinin xalqdan alındığı kimi yazıda əks olunmasının tərəfdarı olmuş, başqa kitablarında olduğu kimi, burada da mətnin söyləyici tələffüzündəki kimi çatdırmaq ənənəsini qoruyub saxlamağa çalışmışdır. Aşağıdakı bayatı nümunəsində bunu əyani şəkildə görmək mümkündür:

Mən aşığam keş gə sən,
Körpü üstən keş gə sən.
Gəldin dərdim artırdın,
Gəlməyəydin keşgə sən (7, 81).

*Keç gəl sən* və *kaş ki sən* sözlərinin *keş gə sən* və *keşgə sən* formasında yazılması cinas qafiyəli bayatıda mətnin ifa tərzinin qorunub saxlandığını göstərir. Kitabda yer almış bayatılarda söyləyici mətninin tələb olunan səviyyədə təqdim edilməsinə baxmayaraq, müqəddimə, çətin anlaşılan və şərhinə ehtiyac duyulan sözlərin lüğəti, toplayıcı və tərtibçinin şərh və qeydləri verilməmiş, mətnlərin pasport qeydiyyatı aparılmamışdır. Tərtib zamanı bu işlərin tətbiq edilməməsi kitabın elmi səviyyəsini xeyli aşağı salmışdır.

H.Əlizadə 1941-ci ildə "Koroğlu" dastanını nəşr etdirmişdir (82). Bu nəşrdə dastanın on dörd qolu, kitabın sonunda isə dastanla bağlı xeyli qoşma verilmişdir. Tərtibçi qolların adları ilə bağlı bəzi qeydlər vermiş, hər qolun sonunda söyləyicinin ad və soyadını, söylənmə tarixini və yerini göstərmişdir. Dastanın beş qolu Aşıq Əlidən yazıya alınmış, qalan qollar müxtəlif söyləyicilərdən toplanmışdır. Mətnin dilinə gəldikdə isə, xalq dilinin təbiiliyi burada aydın şəkildə duyulur:

*İstanbul xotkarının Niyar addı bir gözəl qızı vardı. Koroğlu Niyar xanımın gözəlliyi sorağını almışdı, qızı almağ istəyirdi* (82, 12).

Və ya:

*Dəlilərin qorxusunnan Çənnibelin həndəvərinə hərlənən ola bilməzdi. Keçən tacir karvanlarını Koroğlu Qırata döşlədib Çənnibelə çəkirdi, var-döylətini əlinnən alıb yola salırdı* (82, 58).

H.Əlizadənin tərtibçilik fəaliyyətini araşdırarkən bu qənaətə gəlmək olur ki, o, çox bacarıqla toplama işi aparmışdır və tərtib etdiyi mətnlərin dil və üslubu folklorşünaslıq elminin tələbləri səviyyəsindədir. Lakin hazırladığı nəşrlərdə sistemləşdirmə işinə diqqət yetirməmiş, elmi prinsiplərə ciddi əhəmiyyət verməmişdir.

Azərbaycan musiqi folklorunun inkişafında mühüm xidmətləri olan Üzeyir Hacıbəyov məqalə və çıxışlarında dönə-dönə söyləmişdir ki, xalq yaradıcılığı, musiqi folkloru diqqətlə, sürətlə toplanılmalı, xalq mahnıları lentə yazılmalı, nəşr edilib öyrənilməlidir. Ü.Hacıbəyov və M.Maqomayevin xalqdan toplayıb tərtib etdikləri "Azərbaycan türk el nəğmələri" kitabçası 1927-ci ildə çapdan çıxmışdır (41). Bununla da Azərbaycan tarixində ilk dəfə xalq mahnıları nota salınmışdır. Folklor mətnlərinin zaman-zaman yaddaşlardan ötürülərək yaşaması prosesində daha məsuliyyətli iş xalq mahılarının musiqisini gələcək nəsillərə təhrif etmədən çatdırmaqdır. Ü.Hacıbəyov və M.Maqomayev kitab səhifələrindəki mətnlərin musiqisinin gələcək nəsillərə dəqiq ötürülməsini xalqın mədəni həyatında çox vacib addım hesab etmiş və həmin musiqiləri nota köçürərək xalqın ixtiyarına vermişlər. Bu mahnıların çoxu bayatı formasında bəndlərdən ibarətdir.

Fransızdilli kvebek xalq mahnılarından bəhs edərkən A.V.Şartran yazır: "Xalq mahnısı nəşr üçün nəzərdə tutulmuş şeirlə (mahnının mətni ilə – X.K.) eyni xüsusiyyətdə deyil. Sonuncudan (şeirdən) fərqli olaraq, mahnının mənşəyində və təyinatında səs dayanır... Notların səsləndirilməsinin, ritm, ton və rəngin mətnə verdiyi musiqi həyəcanı və ifaçının interpretasiyası onun estetik cəhətdən qəbul edilməsi üçün çox va-

cibdir. Əgər onlar kağız üzərində lal və hərəkətsiz halda bizdən bir təbəssüm qopara bilirsə, kontekstə uyğun dəqiq jestlərlə canlandırmaqla, səslə qüvvət verməklə onlar bizdən nələr almaz ki" (135, 76). Bu fikirlər bir daha sübut edir ki, öz təsir gücünə görə kağız üzərindəki mahni mətni ilə onun ifası arasında nəzərəçarpacaq fərqlər var.

Mühacirətdə yaşayan Ceyhun Hacıbəylinin 1933-cü ildə Parisdə "Asiya" jurnalında nəşr etdirdiyi "Qarabağ dialekti və folkloru"(Le dialecte et le folklore du Karabagh) məqaləsində adı çəkilən ərazidən toplanmış folklor nümunələri verilmişdir. Əsər 33 bölmədən ibarətdir. Hər bölmənin öz adı var. Mətnlər əvvəlcə Azərbaycan dilində, sonra isə fransızca verilmişdir. C.Hacıbəylinin illər uzunu topladığı və fransız dilində çap etdirdiyi bu əsər Qarabağın etnoqrafiyasını, yerli əhalinin həyat və düşüncə tərzini, psixologiyasını öyrənmək baxımından avropalılar üçün zəngin mənbədir. Məqalədə milli adət-ənənələrə, xalq ədəbiyyatına və Qarabağ dialektinə məxsus elə səciyyəvi nümunələr təqdim olunmuşdur ki, o vaxtadək Azərbaycanda bu cür geniş və sistemli şəkildə araşdırmaya rast gəlinmir. Folklor mətnləri ilə zəngin olan məqalədə verilən nümunələrin başlıqları da maraq doğurur: "Ev heyvanlarının adları", "Müraciət formaları", "Zarafatlar", "Oyunlara giriş", "Hekayələrə giriş", "Mövsüm zarafatları", "Bir neçə şikəstə", "Bayatılar", "Ağılar", "Alqışlar", "Yalvarışlar", "Hədə-qorxu", "And içmək, inandırmaq", "Oxşamalar", "Təriflər", "Xasiyyətlər", "Səciyyəvi ifadələr" və s. (137, 142-144). Bu qruplaşdırmalarda tipik folklor mövzu və janrları ilə bərabər, fərqli – Azərbaycanda nəşr olunmuş folklor kitablarında görünməyən bölmələr də verilmişdir. İndiyədək nəşr olunmuş folklor toplularında, demək olar ki, rast gəlmədiyimiz aşağıdakı mövzu və ya janr adları C.Hacıbəylinin məqaləsində xüsusi bölmələr kimi göstərilmiş və onlara aid nümunələr veril-

mişdir: “Hədə-qorxu”, “Yalvarış”, “Tərifləmə”, “Ev heyvanlarının adları”, “Müraciət formaları”, “Zarafatlar”, “Oyunlara giriş”, “Hekayələrə giriş”, “Mövsüm zarafatları”, “Xasiyyətlər”, “Səciyyəvi ifadələr” və s. Lakin bunların sırasında populyar folklor janrları da öz əksini tapmışdır. Bunlar layla, bayatı, ağı, lətifə, alqış, qarğış və s. janrlardır.

Əsərdə verilən bölmələrdən biri “Yerli şəxsiyyətlər haqqında məzəli və ya baməzə lətifələr” adlanır. Bu bölməyə “Ziyalılar”, “Mayor Səfi bəy”, “Hüseyn bəy, Murtuza bəyin oğlu”, “Mustafa bəy Behbudov” və başqa lətifələr daxildir. Şuşa ilə bağlı belə bir lətifənin tələffüz və üslub xüsusiyyətlərinə diqqət edək:

*Bir gün Əvdirəhim bəy azarrıyır. Oğlu Behbuda deyir ki: “Get həkimə denən ki, dədənin başı qarpıza dönüf, dili xiyara, burnu badımcana... nə bilim, nəyi nəyə. Soruşur ki, yadında qaldımı?*

*Deyir: “bəli”. Deyir nətəər diyəcəksən? Deyir ki: “diyərəm ki, dədəm bostan oluf”* (137, 64).

Bu lətifədə, eləcə də C.Hacıbəylinin məqaləsindəki digər mətnlərdə Qarabağ dialektinin əsas xüsusiyyətləri: istər tələffüzü, istər sözlərin işlənməsi, istərsə də fikrin ifadəsi xalqda olduğu kimi – yerli-yerində əks olunmuşdur.

Keçən əsrin 30-cu illərindən toplayıcılıq fəaliyyətinə başlayan M.Təhmasibin Azərbaycan bayatılarının, nağıllarının, lətifələrinin, dastanlarının, aşıq şeirlərinin və digər folklor janrlarının toplanması sahəsindəki fəaliyyəti mükəmməl şəkildə tərtib olunmuş folklor kitablarının meydana çıxması ilə nəticələnmişdir. O, toplama materiallarını elmi prinsiplərlə tərtib etmiş, yeri gəldikcə qeydlər, şərhlər vermiş, lüğətlər hazırlamışdır. Həmin kitablarda verilmiş tərtibçi qeydləri oxucuya mətnlə bağlı geniş elmi məlumatlar verir.

XX əsrin 40-cı illərində “Azərbaycan nağılları” 3 clddə çap olunmuşdur. 1941-ci ildə nəşr olunan I clddə 18 nağılın

toplayıcısı, kitabın tərtibçisi və ön sözün müəllifi M.Təhmasib olmuşdur (39). N.Seyidov bu nəşrin tərtibini belə qiymətləndirmişdir: “Burada folklorşünaslıq qaydalarına, demək olar ki, müəyyən qədər riayət edilmişdir. Xüsusilə ayrı-ayrı nağıllardakı şivə xüsusiyyətlərinin saxlanılmasına mümkün qədər fikir verilmiş, nağılçıların üslubu mühafizə edilmiş, onların adı, yaşı, peşəsi və sairə göstərilmiş, geniş müqəddimə, şərh, lüğət və qeydlər verilmişdir” (109, 63).

Beş cilddən ibarət Azərbaycan dastanlarının nəşrə hazırlanmasında M.Təhmasibin xüsusi rolu olmuşdur. O, I və II cildləri Ə.Axundovla birgə nəşrə hazırlamışdır. IV cildin – “Koroğlu” dastanının tərtibi isə bütünlüklə M.Təhmasibə məxsusdur. Bu cilddə o, “İzahlar” bölməsində qolların tərtibi zamanı istifadə etdiyi variantlar, epizodlar haqqında məlumatlar vermişdir. Tərtibçi həmin bölmədə “Alı kişi” qolu haqqında yazır: “Bu qolun tərtibində “Koroğlu-Əsəd”, “Koroğlu-Bozalqanlı”, “Koroğlu-Əli” və “Qaf-Penn” variantları əsas götürülmüşdür. Qol əsasən Alı kişidən bəhs etdiyi üçün onun adı ilə də adlandırılmışdır”. (“Koroğlu-Əli” variantında bu qol “Koroğlu” adlanır – X.K.) (9, 398). Bu və bunun kimi digər izahlardan aydın olur ki, M.Təhmasib “Koroğlu” dastanını tərtib edərkən folklorşünaslıqda məqbul sayılmayan bəzi üsullardan istifadə etmişdir. Belə ki, dastanda vahid söyləyicilik prinsipini gözləməmiş, müxtəlif söyləyici və toplayıcıların materialları üzərində işləmiş, fərqli variantları bir-biri ilə uzlaşdırmışdır.

Tərtibçi “Dastanın əsas variantları” bölməsində dastanın 41 variantı olduğunu qeyd etmiş və həmin qeydlərin sırasında 23 dəfə bu şərhi vermişdir: “İlk dəfə bu əsərin birinci nəşrində istifadə edilmişdir” (10, 348-354). Dastanın bir nəşrində 17 qolda xeyli sayda müxtəlif variantlardan istifadə edilməklə vahid söyləyicilik prinsipini pozulmuşdur. Bu cür yanaşma isə folklorşünaslıqda qəbul edilməyən bir haldır.

“Koroğlu” dastanının birinci qolunun tərtibi haqqında folklorşünas P.Əfəndiyevin fikirləri maraq doğurur: “M.Təhmasib eposun istər XIX əsrdə və istərsə də sovet dövründə Azərbaycan aşıqlarının dilindən toplanan və nəşr edilmiş və edilməmiş hissələrini nəzərdən keçirmiş, diqqətlə işləmişdir. Dastanın birinci qolu olan “Alı kişi”nin müxtəlif dövrlərdə müxtəlif aşıqlardan toplanmış 10-15 variantı, məsələn, “Koroğlu-Əsəd”, “Koroğlu-Bozalqanlı”, “Koroğlu-Əli”, “Qaf-Penn” və s. vardır. Əsas hadisə və epizodlar saxlanılmaq şərtilə bütün bu variantlar yoxlanılmış, öyrənilmiş, müəyyən süjet ətrafında tərtib edilərək mükəmməl bir qol düzəldilmişdir. Fikrimizcə, ideya, üslub, kompozisiya cəhətlərini saxlamaqla müəllifin götürdüyü bu yol doğrudur” (57, 338).

Tərtibçinin müxtəlif variantlardan mükəmməl bir qol düzəltməsini folklorşünas P.Əfəndiyev doğru yol kimi qiymətləndirir. Lakin digər bir tədqiqatçının bu cür yanaşma haqqında rəyi fərqlidir. M.Təhmasibin folklorşünaslıq fəaliyyətinin tədqiqatçısı X.Əliyeva yazır: “... burada bəzi mübahisəli məsələlərə də yol verilmişdir. Belə ki, tərtibçi eyni bir qolun bir hissəsini bir söyləyicidən, digər qismini isə digər söyləyicidən istifadə edərək tərtib etmişdir. Bu isə bəzi folklorşünasların da göstərdiyi kimi, folklorşünaslıq prinsipinə ziddir” (62, 30-31). M.Təhmasibin dastanın tərtibi zamanı müxtəlif variantlardan istifadəsi haqqında göstərdiyi rəsmi qeydlər sübut edir ki, sovet dövrü folklorşünaslığında mətnə bu cür yanaşma normal hal hesab olunmuş, tərtib zamanı vahid söyləyicilik prinsipinə əhəmiyyət verilməmişdir.

M.Təhmasibin “Koroğlu” haqqında digər açıqlaması da maraq doğurur: “1937-ci ildə Hümmət Əlizadə tərəfindən Qazaxda Aşıq Əlidən toplanmışdır. Bir qədər dəyişdirilərək, 1941-ci ildə Azərnəşr tərəfindən nəşr edilən “Koroğlu” kitabına daxil edilmişdir” (10, 348). Qeyddə diqqətimizi çəkən “bir

qədər dəyişdirilərək" ifadəsidir. Bu rəsmi etiraf da sovet dövrü folklorşünaslığında nəzəriyyə ilə praktikanın eyni məqsədə xidmət etmədiyini, söyləyici mətninin dəyişdirilməsi məsələsinə ciddi yanaşılmadığını göstərir.

Milli-mənəvi dəyərlərimizi əks etdirən qəhrəmanlıq dastanı "Koroğlu" sovet dövrü ideologiyasının təzyiqlərinə məruz qalmışdır. Lakin tərtibçi müxtəlif manevrlərlə onu bu rejimin caynaqlarından xilas edə bilmişdir. Dastanın əksər qollarının adları türklər yaşayan əraziləri özündə əks etdirir. Qolların adlarında edilən dəyişiklikləri həmin manevrlərdən hesab etmək olar.

M.Təhmasib Azərbaycanda lətifə janrının ən məhsuldar toplayıcılarından olmuşdur. O, topladığı lətifələri bir neçə dəfə – 1958 və 1962-ci illərdə rus, 1965 və 1978-ci illərdə isə Azərbaycan dillərində nəşr etdirmişdir. İstər rus, istərsə də Azərbaycan dilində tərtib etdiyi "Molla Nəsrəddin lətifələri" kitabına yazdığı "Müqəddimə" bu mövzuda əhatəli elmi araşdırmalardır. O, lətifələrin yaranma tarixi, janr xüsusiyyətləri, Azərbaycan folklorundakı mövqeyi haqqında elmi fikirlər söyləmiş, eyni zamanda hələ XIX əsrdə Azərbaycanın müxtəlif regionlarından olan, xalq arasında çox da məşhur olmayan lətifə qəhrəmanlarının adlarını qeyd etmişdir: Salyanda Mirzə Bağı, Gəncədə Lağlağı Musa, Naxçıvanda Hüseyn Molla Tanrıverdi oğlu və s. Tərtibçi Molla Nəsrəddin lətifələrini "Molla və dövlət adamları", "Molla və qazılar", "Molla və din xadimləri", "Molla varlılar və ticarət adamları arasında", "Molla evdə", "Molla və elm", "Molla dostlar arasında", "Molla filosofluq edir", "Molla öyrədir", "Hər şeydən bir az" başlıqları altında qruplaşdırmışdır (95). Mövzular üzrə bu cür qruplaşdırma oxucuya istədiyi lətifəni asanlıqla tapmaqda kömək edir.

M.Təhmasibin nəşrə hazırladığı əsərlərin dilinə yanaşması nəsr və nəzmdə fərqli şəkildədir. Nəsrlə olan mətnlərdə, demək olar ki, ədəbi dil normaları üstünlük təşkil edir. Lakin tər-

tibçinin "Bayatılar" kitabındakı nümunələrə mətnşünaslıq baxımından yanaşması fərqlidir: o, xalq üslubunu, söyləyici tələffüzünü olduğu kimi saxlamağa çalışmışdır. Məsələn, aşağıda verilmiş bayatıda *əzziyəm, sir* sözündə bunu görmək olar:

*Əzziyəm* yedi məni,
Qurd olub yedi məni.
Bir namərdə *sir* verdim,
Aləmə dedi məni (48,134)

Kitabda müqəddimə, laylalar, mahnılar, əsl bayatılar, ağılar, variantlar və qeydlər verilsə də, söyləyicilər haqqında məlumatlar yoxdur.

M.Təhmasibin hazırladığı bütün folklor kitabları tərtibçi qeydləri baxımından elmi məlumatlarla çox zəngindir. Mətnşünaslıq məsələlərini bir kənara qoysaq, sistemləşdirmə işinə, digər elmi prinsiplərin tətbiqinə əsasən demək olar ki, M.Təhmasibin nümunəvi tərtibçilik fəaliyyəti olmuşdur.

1950-1960-cı illər folklorşünaslığımızın tarixində öz məhsuldarlığı ilə seçilir. Bu illərdə şifahi xalq ədəbiyyatının tədqiqi ilə yanaşı, həm də folklor kitablarının nəşri geniş vüsət almışdır. H.Qasımovun "Bayatılar" kitabının nəşri də bu dövrə aiddir. Kitab "Məhəbbət bayatıları", "Köhnə həyat bayatıları", "Yeni həyat və əmək bayatıları" hissələrindən ibarətdir. "Məhəbbət bayatıları" bölməsində əvvəlki nəşrdən fərqli olaraq, oxşamalar da verilmişdir. Bu, tərtib etibarilə bu vaxtadək nəşr olunmuş bayatı kitablarından fərqlənir: bayatılar əlifba sırası ilə yox, məzmununa görə qruplaşdırılmış, rəqəmlərlə işarələnmişdir. "Məhəbbət bayatıları" – aşiqanə bayatılar, vəsfi-hallar, laylalar adlı müxtəlif hissələrə ayrılaraq nəşr edilmişdir. "Köhnə həyat bayatıları" bölməsinə bunlar daxil edilmişdir: ailə və məişət, narazılıq və şikayət, vətən məhəbbəti, ayrılıq və intizar, ağılar, dostluq və mərdlik, nəsihət. "Yeni həyat və əmək bayatıları" bölməsi mahnılar, hola-

varlar, sayaçı sözlərindən ibarətdir. Məzmuna görə aparılmış bu qruplaşmada məntiqə uyğun olmayan seçimlə qarşılaşırıq: vətən məhəbbəti niyə "Məhəbbət bayatıları" bölməsinə aid edilmir? Dostluq və mərdlik, nəsihət bayatıları nə üçün "Köhnə həyat bayatıları" sırasında verilir? Ümumiyyətlə, kitabda mövzu bölgüsü və qruplaşdırmada məntiqsizlik mövcuddur. Kitabın sonunda lüğət və izahlar verilmişdir (46). Folklor mətnlərinin tərtibi sahəsində mükəmməl təcrübənin olmasına baxmayaraq, hələ də söyləyici və toplayıcı haqqında qeydlərin verilməsi kimi sadə bir işin icra edilmədiyini görürük.

Toplayıcılıqla fəal şəkildə məşğul olan Əhliman Axundov uzun illər ərzində əldə etdiyi materiallardan seçilmiş nümunələri ikicildlik "Azərbaycan folkloru antologiyası"nda (1968) nəşr etdirmişdir. Azərbaycan SSR EA Redaksiya-Nəşriyyat şurasının qərarı ilə çap olunmuş bu kitab Azərbaycanın ilk folklor antologiyasıdır. Birinci cilddə şifahi xalq ədəbiyyatının əsasən lirik növünə aid janrlar üstünlük təşkil edir və bu bölmələr vardır: əmək nəğmələri; mövsüm və mərasim nəğmələri; qəhrəmanlıq nəğmələri; lirik mahnılar; uşaq nəğmələri; bayatılar; atalar sözü, tərbiyəvi adət və nəsihətlər; tapmacalar; xalq teatrı və oyunlar; izahlar və şərhlər (32). Kitabda söyləyicilər haqqında məlumat verilməmişdir.

AMEA-nın Respublika Əlyazmalar fondunda saxlanılan cünglərdən götürülmüş "Bayatılar" (1977) kitabı tərtib prinsipinə görə sovet dövründə folklor mətnlərinə ən düzgün yanaşmaya bir nümunədir. Kitabda 2219 bayatı nəşr olunmuşdur. Tərtibçi Asya Məmmədova bayatıları əlyazmalarda olduğu kimi nəşrə verməmiş, mətnin əlyazmada qeydə alındığı formasını saxlamaqla, tərtib zamanı yeri gəldikcə bayatılar üzərində zəruri əməliyyatlar aparmışdır. Tərtibçi əlyazmalarda toplanmış bayatıların imlasını mümkün qədər qoruyub saxlamış, səhifə sonunda bəzi cinasların, dialekt və arxaik sözlərin izahını

vermişdir. O, söyləyici mətnində vəzn və qafiyə pozulmalarını aradan qaldırmış, artıq hesab etdiyi hissələri minus (–) işarəsi ilə ayırmış, təhrif olunmuş və ya buraxılmış hissələri mətnin tələbinə uyğun formada işlədərək plyus (+) işarəsi ilə mətnə daxil etmişdir. Beləliklə, oxucu gözləri qarşısında həm söyləyicinin mətnini, həm mətndə mövcud olan qüsurları, həm də bərpa olunmuş formanı görür. Tərtibçinin dəqiqləşdirmələri nəticəsində isə mətn nöqsan və naqisliklərdən xilas olur.

Bu kitabın nəşri Azərbaycan folklorşünaslığında tərtib işi sahəsində yeni bir cığır açmışdır. Tərtibçinin hər bir bayatıya tədqiqatçı kimi yanaşması nəşrdə aydın görünür və bu tədqiqatın nəticəsi olaraq oxucu kitabda söyləyici, toplayıcı və tərtibçinin hər birinin fəaliyyətini aydın görür.

Sovet dövründə bir çox folklor janrlarının toplanması və nəşri dayandırılmışdır. Fəhlə-kəndli həyatının tərənnümü, əmək qəhrəmanları haqqında nəğmələr o dövrün əsas yaradıcılıq mövzuları idi. F.Bayat həmin dövrün xalq yaradıcılığı ilə bağlı real mənzərəsini əks etdirərək yazır: "Şifahi ədəbiyyat sovet xalqının zülmdən, əsarətdən qurtarmış əməkçi kütlələrinin yaradıcılıq məhsulu kimi təqdim edilmiş, qeyri-elmi bir prinsiplə folklorda sovet quruluşunun, sosialist həyat tərzinin, sülhün, əməyin, xalqlar dostluğunun, beynəlmiləlçiliyin, ibtidai kommunizmin və s. tərənnüm edildiyi qeyd edilmişdir" (44, 14). Həmin zamanları əks etdirən nümunələrdə dövrün ideoloji diktəsi aydın görünür:

Bu oxuyan aşıqdır,
Məclisə yaraşıqdır.
Kommunizmin gecəsi
Gündüzdən də işıqdır (149).

Zamanın tələbi ilə xalq ədəbiyyatı modelində düzülüb-qoşulmuş bu şeirdə xalqın ruhunu görmək, folklorda axtardıqlarımızı tapmaq çətindir. Bu dövrdə bəzi əmək və mərasim

nəğmələrinə səthi yanaşılmış, çox zaman nəşrdən kənarda qalmışdır. Dini folklorun toplanması və nəşri haqqında isə söhbət gedə bilməzdi.

Sovet dövrü Azərbaycan folklorşünaslığında həm də xalq ədəbiyyatının saxtalaşdırılması ilə yadda qalır. Həmin dövrdə bu iş əsasən iki istiqamətdə getmişdir: birincisi, bəzi müəlliflər uydurma mətnlər yaratmış, xalq yaradıcılığı nümunəsi kimi təqdim etmişlər, ikincisi isə mövcud xalq ədəbiyyatı nümunələrinin mətni üzərində işləyərək dilində, süjetində, ideya istiqamətində dəyişikliklər etmiş, istədikləri formaya salmışlar. Bu deyilənlərə sübut kimi "Xalqımızın deyimləri və duyumları" kitabında verilən "Aldərviş nağılı"nın söyləyici dilindən yazıya alınmasının nə qədər doğru olduğunu aydınlaşdıraq (73, 198-216).

Kitabda nağılın 1979-cu ildə Qazax rayonunun Orta Salahlı kənd sakini 102 yaşlı Məcid Məmmədnəbi oğlundan yazıya alındığı qeyd edilmişdir (73, 215). Bu qeydə əsasən düşünmək olar ki, söyləyici 1877-ci ildə anadan olmuşdur. Lakin nağılı oxuyarkən Qazax bölgəsinə məxsus regional nitq əlamətləri qətiyyən müşahidə olunmur. Bütün şivə xüsusiyyətlərini kənara qoysaq, həmin bölgədə adi danışıq zamanı sıx-sıx işlədilən, qrammatik obrazlılığın göstəricisi olan, nitqin ifadəliliyini artıran *-mi*$^{4}$ sual ədatının nəinki aktivliyini, hətta seyrək işlənməsini də görmək mümkün deyil. Nağılın dilində bəzən dastan, bəzən klassik yazılı ədəbiyyat üslubu aşkar duyulur. Məsələn:

*Onlar o gündən daş heykəl olub əbədiyyətə qovuşdular. İndi də onların daş heykəli saya soyunun iman gətirdiyi Ağ oğlan məbədgahıdır. Mən də and içirəm Saya oğlan məbədgahına. Öldü var, and-qəsəmdən döndü yoxdur.*

*Bəli, əzizlərim! Sizi də uğur-diləyiniz ilə halallığa-əbədiyyətə qovuşasınız* (73, 197).

Bu, nağıldan daha çox dastan üslubunu xatırladır. Nağılın bir çox yerlərində işlədilən bədii təsvir vasitələri şifahi xalq yaradıcılığından çox, klassik yazılı ədəbiyyatdakı məcazlarla eyniyyət təşkil edir. Məsələn:

*O, kahada ceyran əvəzinə qənirsiz bir gözəl görür. Qız nə qız, elə bil ulu-taala xoş saatında, xoş dəqiqəsində qələmini onun hüsnünə çəkib. Gün onun gözlərindən xəcalət təri tökür, ay utandığından üz bürüyür. Qızın qənirsizliyi ağ oğlanın ağlını başından alır, huşunu itirir* (73, 196).

Burada işlədilmiş *qənirsiz bir gözəl*, *qələmini hüsnünə çəkib*, *gün xəcalət təri tökür*, *ay üz bürüyür* və s. kimi dəbdəbəli epitet və istiarələr əvəzinə, xalq dilində daha səmimi, daha sadə və real ifadələr işlədilir.

Nağılda folklor üslubuna yad mənzərələrdən biri də nitq etiketləri ilə bağlıdır. Müraciət etiketinin qeyri-təbii verilməsi nağılın söylənməsindən çox, süni şəkildə düzülüb-qoşulduğuna işarə edir. Məsələn, nağılda Qaragünə qara qul – padşaha; dərviş – padşaha; dərviş – Qaragünə qara qula; Qaragünə qara qul – Aldərvişə; vəkil – Aldərvişə; padşah – Aldərvişə *siz* deyə müraciət edir. Bununla bağlı folklor mətnləri üzərində apardığımız araşdırmalardan məlum oldu ki, ilahi varlıqlara – Allaha, peyğəmbərə; mötəbər insanlara – ataya, anaya, nənəyə, babaya, paşdaha; dialoqların fəal şəkildə işləndiyi lətifələrdə Molla Nəsrəddinə, Bəhlul Danəndəyə, Hacı dayıya *sən* deyə müraciət edilir. Yaşca böyük olanlara və yad kəslərə *siz* şəklində kübar müraciət forması folklor mətnlərində, demək olar ki, müşahidə edilmir. Nağılın söyləyicisi kimi göstərilən 102 yaşlı kənd sakini Məcid kişinin heç bir dialekt əlaməti olmayan, nağıl dilinə yad kübar etikanı əks etdirən mətn ifa etməsini həqiqətə uyğun hesab etmək çətindir.

Mətndə nağılın toplandığı Qazax rayonuna məxsus, yadda saxlanılması çətin olan çox sayda coğrafi adların (*Efli-*

*quzeyi, Kiryəkli, Kəmənd qayası, Gədeyilli, Sarı qaya, Axçalı, Göyvəlli*) bir cümlədə ardıcıl söylənilməsi (73, 196); *ulu Tanrı*, *ulu padşah*, *ulu taala*, *ulu Saya soyu*, *ulu söhbət*, *ulu göylər* birləşmələrindəki *ulu* epiteti və müxtəlif birləşmələrin tərkib hissəsi kimi çıxış edən *eləmək* feilinin *etmək* şəklində işlənməsi; *nağıl dili yüyrək olar* formulunun *nağılçılar dili mübarək olar* kimi verilməsi, *ateyi-mehriban* müraciət formasına uyğunlaşdırılaraq *nəneyi-mehriban* ifadəsinin düzülüb-qoşulması və s. nağıl janrının üslubuna yaddır. Bütün bunlar nağılın söyləyici ifasından yazıya alınmadığını, süni şəkildə düzülüb-qoşulması fikrini mütləqləşdirir.

Bu fikrin davamı olaraq demək olar ki, həmin kitabda "Atalar sözləri və məsəllər" başlığı altında verilmiş "Alim elmin qısqancıdır", "Alim odur ki, ömrü boyu öyrənsin", "Alimin borcu aləmə xidmətindədir" və bir sıra bu kimi atalar sözlərini yalnız haqqında danışdığımız nəşrdə görürük və digər kitablarda variantlarına rast gəlmirik (73, 120).

Azərbaycan folklorşünaslığının inkişafında danılmayan xidmətləri olan H.Əlizadə, M.Təhmasib, V.Vəliyev, S.Paşayev, M.Həkimov kimi folklorşünasların da fəaliyyətlərində folklor mətnlərinin tərtibinə gözlənilməyən yanaşmalar olmuşdur. Azərbaycanın görkəmli folklorşünasları xalq ədəbiyyatının toplanması, tərtibi, nəşri prinsipləri haqqında dəyərli elmi mülahizələr söyləmələrinə, təkliflər irəli sürmələrinə baxmayaraq, mətnlərin saxtalaşdırılması, uydurma mətnlərin yaradılması, dil və üslubunun ədəbiləşdirilməsi, vahid söyləyicilik prinsipinin pozulması məsələlərinə münasibət bildirməkdən yayınmışlar.

Azərbaycan folklorşünaslığı tarixində sovet dövrünü bir mərhələ kimi ümumi şəkildə xarakterizə edən S.Rzasoy yazır: "Beləliklə, Azərbaycan folklorşünaslığı sovet epoxasında onun üzərində onillər boyu aparılmış ideoloji təcrübənin qa-

nunauyğun nəticəsi olaraq XX əsrə həm nəzəri, həm də praktik baxımdan uğurla yekun vura bilmədi. XXI əsrə dolaşıq, dağınıq, sistemsiz və mahiyyəti get-gedə absurda müncər olunan nəzəri-metodoloji düşüncə ilə daxil oldu. Heç bir halda təsadüfi deyildir ki, Azərbaycan sovet folklorşünaslarının nəzəri "axtarışları" onunla nəticələndi ki, onlar folklorun söz-hərəkət və sənət kodlarının vəhdətində hasilə gələn etnik özünüifadə kodu kimi mahiyyətini bütöv bir əsr ərzində dərk etməyib, onu ədəbiyyat elan etdilər" (105, 10).

Sovet dövründə Azərbaycanın elm və mədəniyyətinə qarşı yürüdülən "qırmızı terror" siyasəti folklordan da yan keçmədi. 30-cu illərdə millətin intellektual potensialının böyük əksəriyyəti, eləcə də folklorşünasların, demək olar ki, hamısı repressiya qurbanı oldu, "Dədə Qorqud kitabı"na mürtəce ədəbiyyat damğası vuruldu. Repressiyadan sonrakı dövrdə mətnlərin saxtalaşdırılması, nümunələrdə milli-mənəvi dəyərlərə yer verilməməsi adi hal aldı. Xüsusən epik növün janrlarında: nağıl, dastan, əfsanə, rəvayət mətnlərinin dili əksər hallarda ədəbiləşdirilmiş, hekayə, roman dili tərzində – "sığallanmış" formada verilirdi. Bu dövrdə nəşrlərdə bəzi mətnlərin mövzusu, ideyası, dil və üslubu sovet ideologiyasının xeyirinə dəyişdirilir, saxtalaşdırılır, süni surətdə mətnlər yaradılırdı. Bir çox janr və mövzuların toplanmasına məhdudiyyət və qadağa qoyuldu. Bir sözlə, sovet rejimi Azərbaycan folklorunun meydanında "at oynatdı". Lakin elə həmin dönəmdə bəraət dövrü də gəldi və hər kəs həqiqi qiymətini aldı. Amma itirilənlər geri qayıtmadı.

Sovet dövründə tərtib edilmiş folklor kitablarının təhlilinə əsasən demək olar ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti dövründə folklorşünaslıq elmi nəzəri və praktik cəhətdən daha intensiv şəkildə inkişaf etmiş, həmin dövrün folklorşünasları məsuliyyətlə folklorun toplanması, tərtibi və digər məsələləri ilə məşğul olmuş, repressiyadan sonra

bu inkişafın sürəti və ideya istiqaməti dəyişmiş, sünilik və təhriflərə şərait yaradılmışdır. Xalq yaradıcılığı nümunələrində dil və üslubun, mövzu və ideyanın saxtalaşdırılması, uydurma mətnlər, vahid söyləyicilik prinsipinin pozulması (xüsusən dastanlarda), sistemləşdirmə işinin pərakəndə halda olması: pasportlaşdırma işlərinin aparılmaması, əksər folklor kitablarında qeyd və şərhlərin, lüğətlərin verilməməsi; janrların təyinatında, adlandırma, sıralanma və s. məsələlərdə qeyri-dəqiqlik sovet dövrü folklorşünaslığının əsas xüsusiyyətləri olmuşdur.

### 1.3 . Müstəqillik dövründə folklor mətnlərinin toplanması və nəşri təcrübəsi

1991-cı ildə Azərbaycan Respublikası müstəqillik qazandı. SSRİ-nin Azərbaycana rəhbərlik etdiyi yetmiş illik bir dövr arxada qaldı. Bu illərdə ölkədə ruslaşma siyasəti hökm sürmüş, milli olan hər şey xüsusi nəzarətdə saxlanılmışdır. Lakin xalq öz adət-ənənəsini, ədəbiyyatını, incəsənətini yad gözdən, yad nəfəsdən qoruya bilmiş və yetmiş illik bir əsarətdən ruhu sağlam çıxmışdır. Bir çox milli və dini bayramların dövlətin diqqət və qayğısından kənarda qalmasına baxmayaraq, el arasında Novruz, Ramazan, Qurban bayramları hər zaman qeyd edilmiş, toy və yas adətlərinə daim riayət edilmişdir. Bütün bunlar göstərir ki, xalq heç vaxt keçmişinə xəyanət etməmiş və biganə qalmamışdır. Xalq həyatının bütün sahələri öz əksini ən etibarlı saxlanc yeri olan folklorda tapmışdır.

Müstəqillik illərində Azərbaycan folkloruna münasibət əvvəlki dövrlərdən xeyli fərqləndi. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Folklor Elmi Mərkəzinin, sonradan mərkəzin elmi bazası əsasında AMEA Folklor İnstitutunun – Azərbaycan folklorunun hərtərəfli öyrənilməsi, folklorşünaslığın inkişaf etdirilməsi ilə bağlı rəsmi qurumun yaradılması bu sahədə köklü dəyişikliklərə səbəb oldu. AMEA Folklor

İnstitutunun folklorun toplanması, nəşri və tədqiqi ilə bağlı gördüyü işlər xalq ədəbiyyatının toplanılması, öyrənilməsi və tədqiqi sahəsində yeni bir mərhələ açdı. Folklor İnstitutunun layihələri ilə toplanan nümunələr əsasında ərsəyə gələn "Azərbaycan folkloru antologiyası", "Azərbaycan folkloru külliyyatı" və "Qarabağ: folklor da bir tarixdir", müxtəlif regionlara məxsus "Folklor örnəkləri" çoxcildlikləri, eləcə də "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından olan kitabların nəşri müstəqillik dövrü folklorşünaslığının xalqa toplama, tərtib və nəşr işi ilə bağlı hesabatı sayıla bilər.

Müstəqillik əldə ediləndən sonra folklorun istər toplanılmasına, istərsə də tərtibinə yanaşma prinsipləri sovetəqədərki və sovet dövründəkindən fərqlənir. Əvvəlki dövrlərə aid folklor mətnlərində daha çox redaktə olunmuş fikirlər, yazılı dil xüsusiyyətləri qabarıq şəkildə müşahidə edilirdisə, hazırkı dövrdə hələ keçən əsrin əvvəllərindən folklorşünaslar tərəfindən tövsiyə olunan prinsiplər nəşrlərdə tətbiq edilməyə başlandı. Aşağıda sovet və müstəqillik dövrünün məhsulu olan iki nağılın müqayisəsində folklor mətnlərinin tərtibinə yanaşılma fərqi aşkar görünür. Sovet dövründə nəşr olunmuş "Taxta qılınc" nağılından bir parçaya diqqət edək:

*Biri vardı, biri yox idi, bir padşahın bir oğlu, bir də arvadı var idi. Bir gün padşah oğlunu, vəzirini, vəkilini götürüb qoşun ilə şikara çıxır. Xeyli ov elədikdən sonra, bir gözəl çəməndə çadır qurub, oturaq edirlər.*

*Padşahın oğlu həya etdiyindən, öz çadırını bir kənarda qurur.*

*Padşah oğlunu çox istədiyindən, tez-tez onu yoxlardı. Yenə də qalxıb oğlunu yoxlamağa gedir. Gəlib çadıra girdikdə baxıb görür ki, çadırın dalından bir qızıl ilan daxil olub oğlunu çalmaq üzrədi* (36, 193).

Müstəqillik dövrünün məhsulu olan "Samavar ilə gül" nağılından bir parçada dil və üslub xüsusiyyətlərinə nəzər salaq:

*Biri vardı, biri yox. Bi padşahın üç oğlu variydi. Oğlannar üçü də bir-birinnən mərfətdi, layıxlı. Bööyüflər, biriin də toy vaxınnan xeyli keçif oğlannarın, o birisi də una nisbət. Amma axırıncisi də karkazdı, toy vaxdıdı. Ha... bir vaxı vəzir diyi ki, ay padşah, səniŋ axı oğlannarıŋ biri ötüfdü, o birisi də ötüy. Sən bulara niyə toy eləmirsən?*

*Diyi:*

*– Valla, mən bilmirəm ki, olar toy isdiyi. Olar isdiyillər gəlsinnər, mən holara toy eliyərəm* (112, 43).

Birinci nağıl ilk dəfə 1961-ci, ikinci isə 2016-cı ildə nəşr olunmuşdur. Birinci mətn sanki yazıçı qələmindən çıxmış hekayədir: tələffüz əlamətləri, xalq dilinə məxsus ifadələr nəzərə çarpmır. İkinci mətn isə təbii nitq elementləri ilə zəngindir. Mətndə bunu sübut edən xeyli tələffüz və xalq danışıq üslubunun əlamətləri var. Folklorşünas Ə.Əsgər folklor mətnlərinin təbiiliyinin ondakı şifahi nitq elementlərinin varlığı ilə ölçüldüyünü söyləyir (21, 19). Şifahi nitq elementlərinin mövcudluğu baxımdan yanaşdıqda yuxarıda müqayisə üçün verilən nağıl mətnlərinin təbiiliyindəki fərq aşkar görünür.

Folklor İnstitutunun layihəsi əsasında hazırlanmış "Azərbaycan folkloru antologiyası" çoxcildliyində artıq xalq danışıq üslubunda, həmçinin indiyədək folklor kitablarında nəşr olunmayan mövzularda əsərlər görünməyə başladı. Bu kitablar həm mətnlərin seçilməsi, təbii tələffüz, fikrin səmimi ifadə tərzi, həm də oxucuya ətraflı məlumat verən qeydlər, izahlar, söyləyicilər haqqında məlumatlar, lüğətlərin verilməsi baxımından 1967-ci ildə Ə.Axundovun tərtib etdiyi ilk "Azərbaycan folkloru antologiyası" ikicildliyi ilə müqayisədə irəliyə doğru atılmış böyük bir addım oldu. Lakin bu cildlərdə də

naqisliklər özünü göstərməkdədir və antologiyalar tərtib işinə görə müxtəlif keyfiyyət fərqi ilə bir-birindən seçilir.

Y.Qarayev "Azərbaycan folkloru antologiyası"nın IV cildinə yazdığı "Ön söz"də qeyd edir ki, bu folklorun toplanması və yazıya alınması sahəsində ən az iş "şivənin yazılaşması" (kağıza, lentə, disketə alınması) istiqamətində olmuş və təqdim etdiyimiz kitabda da bu mühüm milli-elmi vəzifə yalnız qismən yerinə yetirilmişdir (28, 36).

Sovet ideologiyasının təfəkkürdə öz yerini yeniyə verməsi qısa zamanda reallaşmadı. Belə ki, müstəqillik dövründə tərtib edilmiş bir sıra folklor nəşrlərində sovet dövrünün "ənənələri" aşkar görünür. "Azərbaycan türklərinin xalq əfsanələri" kitabında belə vəziyyətlə qarşılaşırıq. Məsələn, tərtibçi-müəllif kitabın "İzahlar və qeydlər" bölməsində göstərir ki, "Çay qızı" əfsanəsi Naxçıvan MR-in İliç rayonundakı Düdəngə kənd sakini, 70 yaşlı Bilqeyis Sadiq qızı Şirəliyevadan yazılmışdır (42, 339; 469). Mətnin yazıya alınma tarixi verilməmişdir. Kitab 2009-cu ildə çapdan çıxsa da, söyləyicinin ünvanında İliç rayonunun adının verilməsi mətnin sovet dövründən hazırlandığını təsdiqləyir. Maraqlıdır ki, kənd sakini olan 70 yaşlı söyləyicinin nitqində yaşadığı regiona məxsus yerli şivə xüsusiyyətləri yoxdur. Xalq danışıq üslubuna, hətta ədəbi tələffüzə xas heç bir əlamət görünmür. Əgər bunlar yoxdursa, onda həmin mətnin söyləyici ifasından qeydə alınması şübhə doğurur. Əslində kitabda verilmiş əfsanələrin, demək olar ki, hamısının dil və üslubu bu vəziyyətdədir, yalnız mövzunun folklora aid olduğunu düşünmək olur.

Folklor İnstitutunun layihəsi əsasında nəşr edilən "Azərbaycan folkloru külliyyatı"nın ilk cildində bu cildlərin tərtibi üçün nəzərdə tutduğu göstəricilər verilmişdir. Həmin göstəricilər aşağıdakılardan ibarətdir:

– Azərbaycan folklorunun onun bütün mətn növləri və janrları üzrə nəşr edilməsi;

– Azərbaycan folklorunun bütün tarixi mətn fondunun çap edilməsi;

– Azərbaycan folklorunun variant və versiyalar sistemi üzrə çap edilməsi;

– Tarixi Azərbaycan folklorunun çap edilməsi işinin həyata keçirilməsi;

– Azərbaycan folklorunun dialekt koloritinin saxlanılmaqla çap edilməsi;

– Azərbaycan folklorunun mətn təhriflərindən və saxtalaşdırılmalardan təmizlənməsi və s. (34, 39)

Külliyyatda əfsanə və rəvayətlər, mövsüm və mərasim nəğmələri, atalar sözü və məsəllər, nağıl, dastan, lətifə və s. janrların çapı nəzərdə tutulmuşdur. Söyləyicilər – informatorlar haqqında məlumat verilməsi, onların dil və üslub xüsusiyyətlərinin qorunması, nağılların tərtibi zamanı AT sistemi üzrə süjet göstəricilərinin verilməsi də nəşrin əsas xüsusiyyəti kimi qeyd edilmişdir (34, 4).

"Azərbaycan folkloru külliyyatı"nın XXX cildində Azərbaycan dastanları nəşr olunmuşdur. Həmin cilddə verilmiş dastanlarda xalq dilinin təbii mənzərəsi aydın görünür. Kitabda folklorun nəşri ilə bağlı tələblərə lazımi səviyyədə əməl olunmuşdur. "Aşıq Qərib – Şahsənəm" dastanından kiçik bir hissəni nəzərdən keçirməklə bunu müşahidə etmək olar:

*...Bəli, dünya öz işini görür, yazıya pozu yox, görəcəyi gora aparmaq olmaz. Sən saydığını say, gör fələk nə sayır. Elə ki, Məqsud atasının qırxını verdi, yasdan çıxdı, savaxsı günnən başdadı qapılarına yalançı, fırıldaqçı adamlar ayaq açmağa. Biri dedi atan mana filan qədər borşdudu, biri dedi bir belə mana verəsiydi, bir söznən, Məqsudun uşaxlığınnan istifadə eliyif tam demək olar ki, vardan-yoxdan çıxartdılar* (33, 18-19).

Bu cilddəki dastanların tərtibindən danışarkən folklorşünas M.Kazımoğlu-İmanov tələb olunan prinsiplərə lazımınca əməl edildiyini vurğulayır və iki məqamı xüsusi qeyd edir: onlardan biri mətnlərdə dil və üslub, o cümlədən dialekt-şivə xüsusiyyətlərinin qorunub saxlanılması, ikincisi isə məlum dastanların eyni aşıqdan yazıya alınması və bununla da söyləyici probleminin araşdırılmasına səmərəli zəmin yaradılmasıdır (77, 71). Söylənilən bu fikirlər göstərir ki, sovet dövründə əhəmiyyət verilməyən vahid söyləyicilik prinsipi müstəqillik dövründə Azərbaycan folklorşünaslığının "gündəm"ində əsas yer tutur.

"Qarabağ folkloru layihəsi" AMEA Folklor İnstitutunun ən təqdirəlayiq işlərindəndir. "Qarabağ: folklor da bir tarixdir" adı altında nəşr olunan çoxcildliyin I cildində layihədə görüləcək işlər haqqında proqram xarakterli məlumat verilmişdir: "Azərbaycanda mövcud olan folklor mühitlərini vahid folklor arealının tərkib hissələri kimi sahə tədqiqatlarına cəlb etmək olduqca vacib məsələdir. Bu məsələ ilə bağlı layihədə aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. Qarabağ bölgəsinə və bu bölgədən olan məcburi köçkünlərin kompakt yaşadığı yerlərə folklor ezamiyyələrinin təşkil edilməsi və toplama işlərinin aparılması;

2. toplama materiallarının sistemləşdirilməsi və arxivləşdirilməşi;

3. toplanmış materialın dəyərləndirilməsi ilə bağlı seminar, konfrans və simpoziumların kecirilməsi;

4. toplanmış materiallarla bağlı tədqiqat mövzularının müəyyənləşdirilməsi və elmi araşdırmaların aparılması;

5. toplanmış nümunələrdən ibarət topluların nəşrə hazırlanması;

6. mərasimləri, xalq oyun və tamaşalarını, musiqi folklorunu əks etdirən videomaterialların hazırlanması və s." (84, 5).

Göstərilən bəndlərindən aydın olur ki, bu layihə bir sıra mütərəqqi xüsusiyyətləri ilə əvvəlkilərdən seçilir.

"Qarabağ: folklor da bir tarixdir" çoxcildliyi toplayıcı və tərtibçi işinin nəticələrinə görə Azərbaycan folklorşünaslığının böyük uğuru sayıla bilər. On cildi çapdan çıxmış toplunun hər birində toplayıcı və tərtibçinin mətnə yanaşması indiyədək hazırlanmış folklor kitabları ilə müqayisədə xeyli mükəmməldir. Bu fikri topluda nəşr olunmuş mətnlərin mövzu və janr zənginliyinə, dil və üslubuna, regional dil xüsusiyyətlərinin gözlənilməsinə, mətnlərin adlandırılmasında olan problemlərin həllinə, pasport qeydiyyatının aparılmasına, janrların düzgün müəyyənləşdirilməsinə, şərh və qeydlərin verilməsinə – həm də əsas mətndən kənar bu yazıların xüsusi üsullarla təqdim edilməsinə, vulqar sözlərin xüsusi qayda ilə yazılmasına, lüğətlərin hazırlanmasına, nağılların süjet göstəricilərinin verilməsinə və digər əlamətlərinə görə söyləmək mümkündür. Bütün bunlara əsasən həmin cildləri Azərbaycan folklorşünaslığı tarixində indiyədək hazırlanmış ən mükəmməl elmi nəşrlər hesab etmək olar.

1988-1989-cu illərdə toplanmış materiallar əsasında "Azərbaycan folkloru antologiyası"nın V cildi nəşr olunmuşdur. "Qarabağ folkloru" adlanan kitab iki hissəyə ayrılmışdır: birinci hissədə Yuxarı Qarabağ və Ağdamdan, ikinci hissədə isə Cəbrayıl, Füzuli, Ağcabədi, Tərtər, Bərdə, Yevlax rayonlarından toplanan nümunələr verilmişdir. Qarabağ folklorundan bəhs edən bu kitab 2000-ci ildə, "Qarabağ: folklor da bir tarixdir" kitabının birinci cildi isə 2012-ci ildə çapdan çıxmışdır. Lakin tərtib işinə görə müqayisə edərkən cildlər arasında keyfiyyət fərqi aşkar görünür. Vizual olaraq asan müşahidə edildiyi üçün müqayisələri bayatılar üzərində edirik. "Azərbaycan folkloru antologiyası" seriyasından olan kitabda bayatılar sovet dövrü nəşrlərindəkindən elə də fərqlənmir: hamısı

eyni həcmdə, klassik modeldə görünür. Lakin "Qarabağ: folklor da bir tarixdir" kitabında isə mətnlərin deformasiyaya uğradığı, bayatı strukturunun pozulduğu ilk baxışdan diqqəti cəlb edir. Hər iki nəşrdəki mətnlərin söyləyiciləri qarabağlılardır və mətnlərin söylənilmə tarixləri arasında zaman fərqi çox deyil. Lakin eyni yerin sakinləri olan və eyni problemləri yaşayan və eyni emosional durumda olan insanların söylədikləri mətnləri müqayicə etdikdə qeyd etdiyimiz fərqlərin söyləyicidən yox, toplayıcıdan və tərtibçi yanaşmasından qaynaqlanması qənaəti qaçılmaz olur.

"Qarabağ: folklor da bir tarixdir"in I cildində Alı Çələbi haqqında III rəvayətdə folklor mətninin tərtibinə necə yanaşıldığına diqqət yetirək:

*Bu nəslin məşhur nümayəndələrinnən biri də böyüh Alı Çələbidi. Sünnü-şiyə ayrılığına qarşı ən kəsgin adam oluf. O vaxt bir dəfə şiyə mollalarınnan sünnü mollaları birləşif bını məhkəməyə veriflər. Qazı məhkəməsi hardasa Çimən yaylağında olufdu, mənim eşitdiyimə görə. Qazıya deyiflər bının məqsədi bilinmir. Hansı dinə xidmət elədiyi bilinmir. Quranı gətirif deyif:*

*– İkinci bir Quran gətirin maa ki, ya sünnünün olsun, ya şiyənin. Desinnər ki, bı sünnünün Quranıdı, bu da şiyə Quranıdı.*

*Deyillər:*

*– Yox, Quran birdi.*

*Deyif:*

*– Allah birdi, peyğəmbər birdi, Quran birdi. Bəs bu sünnü-şiyə haradan çıxdı?* (84, 97)

Göründüyü kimi, mətn dilinə, üslubuna, söyləyici, toplayıcı və tərtibçi işinə görə çox mükəmməl folklor nümunəsidir. Tərtibdə dil və üslub məsələləri ilə yanaşı, digər diqqət çəkən iş mətnin adlandırılması ilə bağlıdır. Kitabda Alı Cələbi ilə bağlı dörd mətn verilmişdir. Ümumiyyətlə, bir sıra mövzu-

lar var ki, onlar haqqında silsilə mətnlər söylənilmişdir. Adları olmayan həmin mətnləri tərtibçi rum rəqəmləri ilə işarələməklə bir-birindən seçmişdir.

Lakin ən mükəmməl tərtib nümunələri hesab etdiyimiz "Qarabağ: folklor da bir tarixdir"in cildlərində də müəyyən naqisliklər nəzərə çarpmaqdadır. Bunlardan ən birincisi, cildlərin tərtibində vahidlik prinsipinin tam şəkildə gözlənilməməsidir. Bunu nağılların süjet göstəricilərinin verilməsində, mətnlərin rəqəmlərlə işarələnməsində, bayatı mətnlərinin nəşrdə verilmə üsullarındakı fərqliliyə əsasən söyləmək mümkündür. Bayatıların tərtibində bu məsələ daha çox diqqət çəkir. Qarabağdan, daha dəqiq desək, qarabağlılardan toplanmış bayatı mətnlərində deformasiyalar qabarıq nəzərə çarpır. Bu struktur pozulmaları çox zaman ağı bayatılarında baş verir. Söyləyici bayatının əvvəlini söyləyir, sonra nəzmdən nəsrə keçid edərək öz dərd və kədərini "sadalayır", vəfat edən haqqında təsvir və tərənnümedici oxşamalar söyləyir, bundan sonra yenidən nəzmə qayıdaraq bayatını tamamlayır. Bununla da nəzmlə olan ağılarla nəsrlə olanlar birləşdirilir və bir mətn kimi söylənmiş olur. Heç şübhəsiz ki, bu, bölgənin sakinlərinin hazırkı psixoloji-emosional durumları – yurd həsrəti, qəriblik, şəhidlik, qaçqın-köçkün problemləri ilə bağlıdır. Toplayıcı etirafı da bunu sübut edir: "Toplama zamanı bu insanların icindəki yaranı qopartmamağa, o acılı günləri onlara xatırlatmamağa nə qədər diqqət göstərsək də, çox vaxt buna nail olmaq mümkün olmurdu. Hər dəfə görürdük ki, doğulduqları, böyüyüb boya-başa çatdıqları yerləri yada saldıqca bu insanların gözləri dolur, qəhərdən boğula-boğula danışırlar" (84, 7). Ağır emosiyaların təzahürü olan aşağıdakı ağıda bir-birinə qarışmış nəsr və nəzm hissələrini tərtibçi yazıda məharətlə fərqləndirmişdir:

*Bacılar bayısıyam,*
*Şirinnər acısıyam.*

*Kimin alim, qəşəh, mərifətdi*
*qardaşı qaçıfsa, kimi gəlin*
*baysı qaçıfsa, kimin ağsakqal*
*atası gedifsə bu dünyadan,*
*kimin ağbirçək, ağsaçlı anası*
*gedifsə bu dünyadan, kimin*
*qəşəh, şəxsiyətdi əmisioğlu*
*gedifsə, qəşəh bir cüt qaynı*
*gedifsə, bir cüt eltisi gedifsə*
*bu dünyadan, iki bajının yoldaşı*
*cavan gedifsə bu dünyadan,*
*Mən onun bayısıyam (89, 348).*

Lakin həmin çoxcildliklərin digər nəşrlərində bu xarakterdə olan bayatılarda yazıda belə incələmə görünmür. Məsələn:

*Bu qoyun mələməzmi?*
*Duz versən yaləməzmi?*
*O göy yaylaxlərin itirən, sərin*
*bulaxlərin itirən, qız-gəlini*
*bulaxlərin üsdə görmiyən,*
*Mələr, bəs mələməzmi? (90, 382)*

Və ya:

*Yapıncın bürüneydim,*
*Dalıncan sürüneydim.*
*Sən orda can verəndə*
*Səni daşdar basanda*
*Gözünə görüneydim (87, 353).*

Verilən bu üç nümunənin hər biri “Qarabağ: folklor da bir tarixdir” çoxcildliyinin müxtəlif cildlərindən götürülmüşdür. İkinci mətndə birincidən fərqli olaraq, nəsrlə nəzm qarışıq şəkildə verilmiş, hüdudları göstərilməmişdir. Üçüncü mətndə isə yalnız həmin söyləyiciyə məxsus olan misra xüsu-

si işarə ilə digərlərindən seçilmişdir. Çoxcildliyin üç fərqli cildində eyni vəziyyətdə üç fərqli üsulla təqdim edilmişdir.

Müstəqillik dövründə Azərbaycan folklorunun tərtib və nəşri sahəsində uğurlu addımlardan biri də AMEA Folklor İnstitutunun qərarı ilə "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından olan kitabların müvəffəqiyyətlə nəşr olunmasıdır. Uzun illər əlçatmaz olan Azərbaycanın ilk folklor kitablarının transliterasiya edilərək "Azərbaycan folklorunun ilkin nəşrləri" rubrikası ilə silsilə şəklində nəşr edilməsi həm xalqa, həm də folklorşünaslıq elminə əvəzsiz töhfə oldu. Folklor İnstitutunun bu layihəsi Azərbaycan folklorunun dünəni ilə bugününün qovuşmasına yardım etdi, xüsusən əlifba baxımından nəsillər arasında qırılan əlaqəni bərpa etdi.

"Azərbaycan folklorunun ilkin nəşrləri"ndən olan M.Qəmərlinin "Atalar sözü", M.A.Abbaszadənin "Arvad ağısı", Bəhlul Bəhcətin "Sarı Aşığın bayatıları", H.Zeynallının "Atalar sözü", V.Xuluflunun "Tapmacalar", "El aşıqları" və bir çox başqa kitablar latın qrafikası və müasir yazı qaydaları ilə daha mükəmməl şəkildə yenidən tərtib edilərək nəşr olunmuşdur.

Bu seriyadan olan yeni nəşrlərin götürüldüyü mənbədən fərqi ondadır ki, lazım gəldikcə əlavə izahlar verilmiş, aydın olmayan sözlərin lüğəti tərtib olunmuş, zamanında həmin kitablar haqqında dövri mətbuatda getmiş tənqidi məqalələr, rəylər müasir nəşrlərin sonuna əlavə edilmişdir. Aradan keçən zaman kəsiyində Azərbaycan əlifbası bir neçə dəfə dəyişmiş, yazı və tələffüz qaydalarında bir sıra fərqlər yaranmış, nitqdə xeyli yenilənmə getmişdir. Bütün bu səbələrdən çox sayda folklor kitabları oxucu üçün əlçatmaz qalmışdır.

"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından hazırlanan ilk kitab M.Qəmərlinin toplayıb tərtib etdiyi "Atalar sözü" oldu. Kitabın nəşrindən yüz ildən artıq bir vaxt keçmişdir. Bugünkü oxucunun yüz il əvvəlki nəşri əldə etməsi və

ondan nə isə oxuya bilməsinin müəyyən çətinlikləri var. Yeni nəşr bu çətinlikləri aradan qaldırmışdır. Kitabı Rza Xəlilov transliterasiya etmiş və sözlük hazırlamışdır. Baxmayaraq ki, məhəlli xarakter daşıyan bir çox sözlər burada öz əksini tapmamışdır, əsasən ərəb-fars və bəzi arxaik sözlərinin mənası verilən sözlük oxucunun kitabla ünsiyyətini xeyli asanlaşdırmışdır.

Həsən bəy Zərdabi "Atalar sözü" kitabına resenziya yazmış və "Kaspi" qəzetinin 1899-cu il 30 dekabr buraxılışında çap etdirmişdir. Transliterasiya müəllifi rus dilində yazılmış həmin resenziyanı tərcümə edərək 2003-cü il nəşrinin sonuna əlavə etmişdir. Bununla da oxucuya dövrünün ziyalılarının M.Qəmərlinin kitabına münasibəti haqqında əlavə məlumat əldə etməyə, həmin dövrün folklorla bağlı ədəbi-mədəni mənzərəsini görməyə imkan yaratmışdır (5, 53).

"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından olan "Folklor çələngi" adlı topluya əsasən XVII-XIX yüzilliklərdə erməni əlifbası ilə yazıya alınmış (toplanmış) Azərbaycan şifahi xalq ədəbiyyatının seçmə örnəkləri daxil edilmişdir. Tərtib və "Ön söz"ün müəllifi İ.Abbaslı topluda mətnləri belə qruplaşdırmışdır: "İkidilli şeirlər; Nağıl pişrovları; Atalar sözü və məsəllər; Bayatılar; Aşıqlar və el şairləri; Dastan şeirləri; Müxtəlif şeirlər və xalq nəğmələri; Dastanlar ("Xan Çoban", "Qul Mahmud"). Müəllif göstərir ki, tarixən erməni əlifbası ilə toplanıb qorunmuş Azərbaycan folkloru örnəklərini bir toplu şəklində nəşr etdirmək ilk təşəbbüsdür (65, 19).

"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından olan kitabların transliterasiya edilməsi tərtibçidən əlavə qabiliyyət tələb edir. O, əski Azərbaycan əlifbasını, eyni zamanda əlyazmanın yazıldığı hər hansı başqa əlifbanı (erməni, gürcü və s.), kitabın ilk nəşr olunduğu dövrün yazı qaydalarını, leksikasını və digər dil xüsusiyyətlərini bilməli, mətnləri müasir dövrün yazı qaydalarına uyğunlaşdırmağı bacarmalıdır.

Bu cəhətdən rus folklorşünaslarının əski yazıları müasir dövr üçün nəşrə hazırlayarkən mətnlərin tərtibinə yanaşma prinsipləri maraq doğurur. Onlar XVIII-XIX əsrlərdə toplanmış atalar sözlərinin əlyazmalarını nəşr üçün hazırlayarkən aşağıdakı qaydalara əsaslanmışlar: mətnlərin fonetik və morfoloji əlamətləri saxlanılmış; oxunması mümkün olmayan sözlər mətndə mötərizə içərisində qeyd olunmuş; nəşrə münasib sayılmayan sözlər nöqtələrlə əvəz olunmuş; köhnə orfoqrafiya qaydaları, durğu işarələri düzəliş edilərək müasir yazı qaydalarına uyğunlaşdırılmışdır (127, 20). Arxiv materiallarını nəşrə hazırlayarkən, köhnə nəşrləri tansliterasiya edərkən bu təcrübədən yararlanmaqla zamanında görülməyən tərtib işlərini nizamalamaq, həmçinin köhnəlmiş yazı qaydalarını yenisi ilə əvəz etmək olar.

Bu mərhələdə Azərbaycan folklorunun toplanması və nəşri geniş vüsət aldı, yeni folklor nümunələri yaranmağa başladı. Milli-mənəvi dəyərlər, qəriblik, şəhidlik, vətənpərvərlik mövzusu yeni yaranmış əsərlərin əsas mövzusu oldu. Bu dövrdə şifahi xalq ədəbiyyatının xarakteri və fəaliyyəti haqqında folklorşünas A.Nəbiyev yazır: "O taylı, bu taylı Azərbaycanın hüzn və kədəri, ayrılıq, həsrət, iztirabı yaranan nümunələrdə daha geniş şəkildə vəsf olunur. Bakıətrafı kəndlərdə meyxanaçılıq ənənələri genişləndi, onların mövzu və məzmun çevrəsi dolğunlaşdı. ... Peşəkar saz ifaçılığı da klassik ənənələrini bərpa etməyə başladı. Cənub bölgəsi ilə əlaqələr genişləndi, Azərbaycan folklorunu ortaq türk mədəniyyəti kontekstində öyrənilmə imkanları yarandı. Vətən, torpaq, Qarabağ mövzusu aşıq yaradıcılığında önə çıxdı, milli-mənəvi və əxlaqi dəyərlərin tərənnümü genişləndi" (99, 627-628).

Bütün bunlara əsasən demək olar ki, müstəqillik dövründə folklorşünaslığın bütün sahələrini idarə edən vahid rəsmi qurum – AMEA Folklor İnstitutu yaradıldı. Folklorun toplanması və tərtibi, nəşri, eləcə də tədqiqi təkmilləşmə

yoluna düşdü. Keçən əsrin əvvəllərindən folklorun tərtib prinsipləri haqqında söylənilən mütərəqqi fikirlər, bu sahə ilə bağlı aparılan elmi araşdırmaların nəticələri, müasir folklorşünasların gəldikləri elmi qənaətlər ciddi şəkildə tətbiq edilməyə başlandı. Mətnlərin tərtibində tələffüz və yazı, dil və üslub problemlərinə, əsas mətnlə mətndənkənar yazıların fərqləndirilməsinə diqqət artırıldı. Xüsusilə sistemləşdirmə işi mükəmməlləşdi: pasportlaşdırma, kodlaşdırma, janrların dəqiq təyin edilməsi, adsız mətnlərin adlandırılması ilə bağlı problemlər öz həllini tapdı. Lakin sovet dövrünün bu sahə ilə bağlı bəzi nöqsan və çatışmazlıqları müstəqillik dövrünə də adladı və öz yerini yeniyə asanlıqla təslim etmədi. Bəzi hallarda folklorun yazıya alınmasında, tərtibində vahidlik prinsipinin gözlənilməməsi, diqqətsizlik, pərakəndəlik burada da problem olaraq qalır.

# II FƏSİL

# FOLKLOR MƏTNLƏRİNİN SÖYLƏMƏ VƏ TOPLAMA PROSESİ İLƏ BAĞLI PROBLEMLƏRİ

Azərbaycan xalqının *Söz sözü çəkər, arşın bezi* atalar sözünü folklorşünaslıqda söyləmə prosesini əks etdirən düstur hesab etmək olar. Bu hikmətli ifadənin ikinci hissəsində işlənmiş *arşın* ölçü vahididir. *Bez* isə ən sadə, keyfiyyətli və çox istifadə olunan parça növüdür. Xalq ədəbiyyatının əksər nümunələrində bu iki söz birlikdə işlənir, yəni biri yaddaşdan digərini çəkib gətirir. Məsələn:

*Arşın uzun, bez qısa,*
*Kəfənsiz öldü Kosa.*

Və ya:

*Bu arşınla bez verməzlər* və s.

Bu iki söz qafiyədən çox uzaq olsa da, xalq təfəkküründə onlar qoşadır: *arşın* deyərkən ilk olaraq yada *bez* düşür, *bez* deyərkən *arşın*. Mətnin birinci hissəsində də sözlərin bir-birinə münasibəti arşınla bezin əlaqəsi kimidir: söz fikrin ölçü vahididir. "Meydan"da olan – deyilən *söz* də yaddaşda olanı beləcə – arşın bezi çəkən tərzdə çəkib gətirir: yada salır, sözün biri digərinin yada düşməsi üçün əsas rolunu oynayır. Əsas sözün çəkib gətirdiyi – yada saldığı söz "meydan"da olan sözə səs tərkibi etibarilə yaxın ola bilər; məntiqcə, məzmunca ona bağlı ola bilər; aralarında səbəb-nəticə bağlılığı ola bilər; sadalanan sözlər ola bilər; eyni mənalı, yaxın mənalı, əks mənalı və ya çoxmənalı və s. ola bilər. Bu bölmədəki tədqiqatımızı da yaddaşda sözün sözü çəkməsi prinsipi üzərində aparmışıq.

## 2.1. Söyləyicilik məsələləri: ifa və mətn

Şifahi xalq ədəbiyyatı birbaşa hafizə ilə bağlıdır. Bu ədəbiyyat yazılmadan, oxunmadan, eşidilənlərin yaddaşda

hifz olunan hissəsinin nəsildən-nəslə ötürülməsi sayəsində minillər boyunca yaşaya bilmişdir.

Yaddasaxlama, yadasalma, unutma hafizənin başlıca prosesləridir və insanın gördüyü, eşitdiyi və ya hiss etdiyi hadisə, əşya və digər şeylər avtomatik olaraq onun yaddaşına köçürülür. Həmin köçürülmənin keyfiyyəti müşahidəçinin marağı ilə birbaşa bağlıdır. Bu, yaddasaxlama prosesidir (49, 270). İnsan gələcək fəaliyyəti zamanı yaddaşında olan bu materialdan yadasalma vasitəsilə istifadə edir. Lakin yaddaşa yüklənmiş material heç də həmişə yerində qala bilmir: az əhəmiyyətli olanlar, lazımsızlar, vaxtaşırı xatırlanmayanlar yaddaşdan silinir, fəaliyyətdən çıxır və unutma baş verir. Beləliklə, bir insanın idrak prosesində yaddasaxlama, yadasalma və unutma arasında həm də bir folklor ömrü yaşanır.

Folklor mətnlərinin toplanılması prosesində əsasən iki tərəf iştirak edir: söyləyici və toplayıcı. Xalqın nə vaxtsa yaratdığı bədii əsərin sonrakı taleyində söyləyicinin özünəməxsus rolu var. Toplayıcı və tərtibçi ilə müqayisədə söyləyicidə ixtiyarilik, sərbəstlik (mövzu, janr seçimi, fikrin ifadə tərzi baxımından) daha çoxdur. Peşəkar və ya qeyri-peşəkar olmasından asılı olmayaraq, bütün hallarda o, yaddaşına istinad edir. L.Süleymanova müasir dövr folklor söyləyicisinin xüsusiyyətlərindən bəhs edərkən onun mətni nə dərəcədə bilməsinin konkret onun yaddaşından asılı olduğunu qeyd edir (110, 175). Hər kəsin fərdi yaddasaxlama qabiliyyəti var və bu, heç kəsdə eyni deyil. Söyləmə materialının keyfiyyət baxımından fərqliliyinin bir səbəbi də budur.

Bir vaxtlar eşitdiyi mətnin onun necə qavraması, yaddaşında necə qalması, nitq qabiliyyəti, səsini yazıya alan cihaz qarşısında sərbəstliyi və ya sıxıntısı, onu dinləyən şəxsdən və ya auditoriyadan çəkinməsi, ifa etdiyi mətnin yaddaşında təzələnməsi, daha təmtəraqlı danışmaq cəhdi söylənilən mətnin

süjetinə, məzmununa toxunmasa da, dilinə təsir edir. Folklorşünas A.Əhmədlinin dediyi kimi: "Söyləmə aktının canlanmasında bir çox vasitələr iştirak etsə də, qeyd-şərtsiz söyləmək olar ki, dil bu aktın həyata keçirilməsində alternativsiz vasitədir. Yalnız bu vasitə ilə biz hər hansı bir mətləbi tez anlayır, təqdim olunan mahiyyəti qavraya bilirik" (60, 170).

Söyləmə prosesində fərdi nitq xüsusiyyətlərinin olması adi haldır. Fərdiliyin çox və ya az dərəcədə olması söylənilən mətnin nəzm və ya nəsr formasında olmasından da asılıdır: hər formanın özünəməxsus tələbləri və problemləri var. Nəzmdə poetizmə xidmət edən ciddi qaydalar, nəsrdə nitqin sərbəstliyi bu bədii formaların ilk nəzərə çarpan xüsusiyyətləridir. Lakin bu xüsusiyyətlər söyləyicidən-söyləyiciyə bəzən cilalanır, mükəmməlləşir, bəzən də bunun əksi baş verir: növ və janrın tələbləri pozularaq mətndə müxtəlif qüsurlar yaranır.

Nəzmlə olan folklor mətnlərinin əsas xüsusiyyətlərindən biri onun güclü qafiyə sisteminə malik olmasıdır. Söyləyici qafiyə sözlərdən birini bilirsə, ona yaxın səs tərkibində olan digər sözü asanlıqla xatırlayır, beləliklə, təfəkküründə assossiativ əlaqə yaranır, "söz sözü çəkir". A.Hacılı ənənəvi poetik sistem daxilində canlı, mütəhərrik, yeniləşən qavrayış mexanizminin fəaliyyət göstərdiyini qeyd edir: şifahi yaddaşda "hazır əsərlər"in yox, əsərin yaranma prinsiplərinin və "material"ın saxlanıldığını – müəyyən formulun (söz) özüylə başqa sözləri gətirdiyini, əsərin öz-özünə "düzülüb-qoşulduğunu", şəbəkə kimi açıldığını diqqətə çatdırır (68, 9). Mətndə qafiyə təşkil edən sözlər, həmçinin ritm yadasalmada mühüm rol oynayır.

Maraqlı faktdır ki, istər yaşlı nəslin nümayəndələrinin uşaqlar üçün düzüb-qoşduqları, istərsə də uşaqların özlərinin yaradıcılıqları əksər hallarda nəzm formasında və ya mətnin təkrarlanmasından ibarət olur. Bunun da öz səbəbləri var: nəzmlə olan mətni yadda saxlamaq daha asandır, o, uşağın

yaddaşında həmişə hazır – düzülüb-qoşulmuş formada qalır. Nəzm əsərlərinin əsas xüsusiyyətlərindən olan ritm, ölçü, qafiyə yaddasaxlamaya xidmət edir. Bu zaman qafiyələnən sözlərdən biri digərini xatırlamaq üçün açar rolunu oynayır. Hətta mənasını anlamadıqda, fikirləri əlaqələndirməyi bacarmadıqda belə, xüsusən uşaqlar, məna fərqinə varmadan ritmi tutaraq çox ahəngdar şəkildə "nə isə" söyləyirlər.

Unutmaq olmaz ki, hər bir söyləyici həm də yaradıcıdır. Yaradıcılıq olan yerdə fərdilik də mövcuddur və bu fərdilik söyləyici üslubunu yaradır. Söyləyicinin mətni onun savadından, dünyagörüşündən, yaddaş imkanlarından, təxəyyülündən, qadın və ya kişi olmasından, söyləmə zamanındakı psixoloji vəziyyətindən və s. amillərdən asılıdır. Adətən təhsilli söyləyicinin nitqində ədəbi dil elementləri, təhsilsizdə isə dialekt və loru sözlər üstünlük təşkil edir. Elə bu səbəbdən də eyni regiondan toplanmış bir mətni söyləyicilər müxtəlif səviyyələrdə təqdim etmiş olurlar.

Xalq şeirinin qaydaları elədir ki, burada güzəştlərə yol vermək, demək olar ki, mümkün deyil. Zəif şəkildə olsa belə, bu qaydaların pozulması həmin poetik nümunənin (xüsusən lirik növün) səslənməsində xoşagəlməzlik və mənasında qeyri-müəyyənlik yaradır, strukturun pozulması mətnin yadda qalmasına mane olur. Əgər mətn yadda qalmırsa, onun yaşaması – nəsildən-nəslə ötürülməsi imkanları məhdudlaşır.

H.Zeynallı söyləyici haqqında danışarkən söyləmə prosesini çox dəqiq şəkildə təsvir və təhlil etmişdir: "Eyni nağıl, əfsanəni, qəhrəmannaməni iki ayrı-ayrı şəxslər söylədikdə onların hər birisi başqa tərkiblər, şəkillər, istiarə və kinayələr qollandığına diqqət etmək mümkündür. Bir çoxunun uzun hekayələri, lətifə və masal kimi qısa qaravəllili təşbiyə məqamında söylədiyi dəxi gözə çarpır. Bəzən söyləyən şəxsin xatirəsi oylə zəif olur ki, bir qəhrəmannamənin ortasında başqa

birisinin parçalarını yerləşdirir və yaxud unutduğu isimlərin əvəzinə Məlik Məhəmməd, gah İsmayıl, Əhməd kimi adlar qondarır və bəlkə də, heç isim söyləmədən bir şah vardı, onun bir oğlu oldu, ona ad qoydular deyə çapub o taya keçməyə çalışır. Bəziləri də o qədər istedadlı olur ki, ümumi çərçivəyə aşina olduğu ilə bərabər çox dəfə dadlı nağıllar söylədiyi üçün fantaziyasına meydan verdikcə söylədiyi əsnada yeni-yeni məzmunlar ilə bir nağılı doldurmuş olur və bəzən bir nağılın ətrafında münasib məqam olduğu üçün bir neçə digərlərini toxuyub keçir" (119, 110). H.Zeynallı burada nəsr nümunələrinin söyləyicisini xarakterizə edərkən onların bədii təxəyyülünün imkanlarını ətraflı şəkildə izah etmişdir.

"Söyləyici kimdir" sualına F.Bayat belə cavab verir: "Söyləyici xalq hikmətini, fəlsəfəsini, əxlaqını, düşüncə tərzini bilən insandır. Ayrı-ayrı janrların şəkillənişində söyləyicinin yaşadığı və ya çıxdığı mühit, şəxsi keyfiyyətləri, psixoloji özəllikləri, həyat təcrübəsi, təhsili, cinsi, sosial mənşəyi mühüm rol oynayır" (44, 42). O, folklor mətnini söyləmə texnikasına, bacarığına, sənətkarlıq dərəcəsinə, estetik zövqünə görə söyləyiciləri usta və həvəskar deyə iki qismə bölür (44, 45). Söylənilən mətnin keyfiyyəti söyləyicinin bu iki qisimdən hansına aid olmasından da asılıdır. Bütün bu sadalanan kefiyyətlərin hamısı birbaşa təfəkkür və yaddaşla bağlıdır və deməli, söyləyici mətninin səviyyəsi də ilk olaraq bunlardan asılıdır.

Folklorun özəlliklərindən biri də söyləyicini dinləyənin, yəni qarşı tərəfin olmasıdır. Dinləyici mövzuya uyğun emosiyalarını mimika və replikaları ilə qarşı tərəfə çatdırır və bununla söyləyicini həvəsləndirir, məsuliyyətini artırır, onu ifaçılıq qabiliyyətini inkişaf etdirməyə, bu məharətini cilalamağa sövq edir. Söyləyici isə dinləyəndə səbirli olmaq, axıradək qulaq asmaq kimi bir sıra keyfiyyətlər formalaşdırır və s. Beləliklə, söyləyici və dinləyici bir-birinə yaradıcılıq təkanı ver-

məklə folkloru yaşatmağa xidmət edirlər. Həmin prosesi folklorşünas F.Bayat belə şərh edir: "...Folklor söyləyənlə dinləyənin arasında, bir növ, dialoqdur, münasibətdir, informasiya alış-verişidir" (44, 41).

Mükəmməl folklor nümunələri ilə yanaşı, bəzən söyləyici mətnində müxtəlif nöqsanlar da müşahidə olunur. Şifahi təqdimetmədə yadasalma imkanları vaxt baxımından məhduddur, yazı prosesindəki kimi deyil. Qarşısında dinləyən tərəfin olması ona uzun-uzadı fikirləşməyə imkan vermir. Bu "imkansızlıq" bəzən mətndə tələb olunan bir sıra qanunauyğunluqları pozur. Söyləyicinin yaddaşında baş verən sapmalar mətnin dilində, forma və məzmununda müxtəlif qüsur və naqisliklər doğurur.

Söyləyici ifası zamanı mətndə yaranan fəsadların törəmə səbəbləri və forması müxtəlifdir. Yaddaş zəifliyi, yadasalmada zaman məhdudiyyəti, mətnin tez-tez xatırlanmaması söyləmə zamanı mətndə müxtəlif qüsurların yaranmasına səbəb olur.

Söyləyici tərəfindən mətndə yaranan qüsurlar əsasən aşağıdakı formalarda təzahür edir:

a) söyləyici sözü (ifadəni, misranı) unudur və mətndə həmin hissə boş qalır;

b) unutduğu sözü (ifadəni, misranı) başqası ilə əvəz edir;

c) mətnin bir hissəsini ona oxşar olan digər mətnin hissələri ilə dəyişik salır;

d) söyləmə zamanı mətnin tələbinə uyğun olmayan əlavələr edir;

e) mətnin məntiqinə və poetikasına xələl gətirən mətndaxili inversiyalar edir, fikir ardıcıllığını pozur;

f) yaddaşında müxtəlif mətnlərin sintezi gedir və s.

**a)** ***Söyləyici sözü (ifadəni, misranı) unudur və mətndə həmin hissə boş qalır.*** Məsələn, "Rəvayətlər"in "Pirlər və övliyalar haqqında" bölməsində "Hacı Sadıq Əfəndi" ilə bağlı rəvayətlərdən III mətndə söyləyici unutqanlığına diqqət edək:

*Onnan sora Hajı Sadıx əfəndi vəsi eliyif öləndə ki, gələndə qəbiristannığa birinci u şəxsə dua verin, sora mənə dua verin. Bular bu formuda oluf qardaş, azarın alım.*

Tərtibçi rəvayətin sonunda söyləyicinin "u şəxs"in adını unutduğunu qeyd etmişdir:

"*Söyləyici həmin şəxsin adını yadına sala bilmədi*" (24, 119).

Növbəti nümunədə isə bütünlüklə ikinci misra verilməmişdir. Bu, yas bayatısı olduğu üçün nöqtələrlə işarələnmiş misranın vulqarizmdən ibarət olması deyil, məhz söyləyicinin unutması qənaətindəyik. Bayatı oxucuya aşağıdakı formada təqdim edilmişdir:

Hayçı mən, harayçı mən,
.....................................
Bala, sənə güllə atanda
Oleydim harayçı mən (87, 352)

Mətndə ikinci misra boş buraxılaraq nöqtələrlə işarələnmiş, qalan üç misra isə yerli-yerində verilmişdir. Lakin tərtibçinin bu situasiya haqqında heç bir açıqlaması yoxdur.

**b)** ***Söyləyici unutduğu sözü (ifadəni, misranı) başqası ilə əvəz edir.*** Aşağıdakı mətn buna misaldır:

Çələnbir su içində,
Oxları yay içində.
Allah mətləbin versin
Bu gələn ay içində (148).

Bildiyimiz kimi, bayatıda üç misra həmqafiyə olur, biri sərbəst buraxılır. Bu mətndə də belədir, lakin həmqafiyə olan üç misradan biri yarımçıq qafiyəlidir. Folklorun lirik növünün yaddaqalan olmasının əsas səbəbi onun güclü qafiyəyə malik olmasıdır. Süjeti olmayan lirik mətndə səs tərkibi etibarilə yaxın sözlər – qafiyələr yaddaşda bir-birinə dayaq durur və biri o birini istər-istəməz yada salır, mexaniki yadasalmaya kömək edir.

Ümumiyyətlə, zəngin qafiyə yaddaşda möhkəm yer tutur. Mətnin birinci misrasında təhrifə yol verən (bunu *çay* əvəzinə *su* leksemini işlətməsinə əsasən deyirik), sanki “nəfəsi təntiyən” söyləyici həmin bayatıya qarşılıq kimi ardıcıl olaraq söylədiyi növbəti nümunədə artıq “sakitləşir”, yaddaşındakılar nizamlanır:

Çələnbir çayı neylər?
Oxları yayı neylər?
Allah mətləbin verib,
Bu gələn ayı neylər? (148)

Söyləyici birinci bayatını ifa edərkən onun yaddaşında *çay-su* əvəzlənməsi baş verir. Bu iki sözdə bir məzmun uyarlığı var, haqqında danışdığımız mətndə həmin əvəzlənmə mətnin məzmununa xələl gətirmir. Ancaq onlar qafiyədən uzaqdır. Şeirin əsas şərti isə qafiyəsinin olmasıdır. Birinci bayatıda söyləyici qeyri-ixtiyari deyil, idrak fəaliyyəti nəticəsində məzmunu xatırlayır, lakin şeir texnikasının şərtinə əməl edə bilmir. Söyləyicinin hafizəsində mexaniki deyil (*çay-yay*), məntiqi (*çay-su*) yadasalma baş verir. Bu, sözlü-məntiqi hafizənin yadasalma formasıdır (116, 307). Tərtib zamanı ikinci mətnə əsaslanaraq birinci nümunədəki situasiyanın şərhini vermək mümkündür.

Epik növün janrlarında belə vəziyyət daha çox rast gəlir: söyləyicinin eyni əşyanı müxtəlif cür adlandırdığını görürük ki, dinləyici və ya oxucu onu müxtəlif məfhumlar kimi başa düşə bilər. Məsələn, “Musa peyğəmbərin Allahlığı” süjeti ilə bağlı I mətndə belə bir məqam var:

*Diyir: “Ya Musa, bilirəm İra dağına gedirsən, mənim də bir xayişim var sənnən. ...”* (24, 281).

Elə həmin mətndə ifasına davam edən söyləyici növbəti dəfə İra dağının adını fərqli şəkildə söyləyir:

*Musa peyğəmbər getdi gənə Turi-Sinaya, çıxdı, diyir, Turi-Sinaya, əlini götürdi, didi: "Ya rəsulallah, mən böyüh səyf eləmişəm, günahlarımdan keç. ..."* (24, 282)

Tərtibçi söyləyicinin ifasındakı bu məqam haqqında səhifənin sonunda belə şərh vermişdir:

"Söyləyici həm İra dağı, həm də Turi-Sina kəlməsini işlədir".

c) ***Söyləyici mətnin bir hissəsini ona oxşar olan digər mətnin hissələri ilə dəyişik salır.*** Müxtəlif psixoloji kökləri olan yaddaş sapmalarının mətndə təzahür formaları fərqlidir. Bəzən elə olur ki, bir bayatının misraları qafiyəcə ona uyğun olan digər bayatıya köçürülür:

Mən aşiq belə bağlar,
Kəməri belə bağlar.
Gözüm yaşı göl olub,
Ördək, qaz binə bağlar (140).

İlk baxışdan elə görünür ki, hər şey qaydasındadır. Lakin dərindən diqqət yetirdikdə və həmin söyləyicinin digər bayatısı ilə tanış olduqda mətnin məzmununda şübhə doğuran çox incə məqamlar görünür. Söyləyicinin növbəti bayatısı belədir:

Dolan gəz binə bağlar,
Könül Qəzvinə bağlar.
Bülbül ölənnən sora
Kor qalsın belə bağlar (140).

Bu mətnlər ardıcıl olaraq söylənilmişdir. Ola bilər ki, söyləyici ya mətni elə bu cür bilir, ya da qafiyəsi çox da fərqlənmədiyindən (*binə bağlar*; *belə bağlar*) yaddaşında sonuncu misraların yerini səhv salmışdır. Görünür, burada söyləmə prosesində məntiqi deyil, mexaniki yadasalma baş vermişdir. Bayatıların bəndlərində sonuncu misraların yerini dəyişməklə məntiqi tamlıq yaranır:

Mən aşıq belə bağlar,
Kəməri belə bağlar.

Bülbül ölənnən sora
Kor qalsın belə bağlar.

Dolan gəz binə bağlar,
Könül Qəzvinə bağlar.
Gözüm yaşı göl olub,
Ördək, qaz binə bağlar.

Maraqlıdır ki, söyləyici bayatını qismən xatırlasa da, söyləmə məqamında lazım olan misranı xatırlaya bilmir, səs bənzərliyi onu çaşdırır, oxşar olan başqa bir misra yaddaşında önə keçir. O, bəlkə də, bu bayatıları yazsa idi, belə qarışıqlığa yol verməzdi, dəqiq xatırlamaq üçün vaxt qazanardı. Söyləmə prosesində isə zaman məhdudiyyəti olduğundan yadasalma çətinləşir. Göstərdiyimiz bayatılarda xalq şeirinə münasib olmayan bir mənzərə yaranmışdır: rədif əsasən yerində olsa da, qafiyə pozulmuş, semantikaya xələl gəlmişdir.

**d)** ***Söyləmə zamanı mətnin tələbinə uyğun olmayan əlavələr edilir.*** Söyləyicinin mətnə etdiyi əlavə heç də həmişə yerinə düşmür. Adətən epik növdə bu əlavələr elə də fəsad törətmir. Amma lirik növdə, ən azı, heca, misra sayını artırır, qafiyəni – ahəngi, bəzən şeirin məntiqini də pozur. Xalq şeirində isə heca və misra sayının müəyyən olunmuş həddi var. Nümunəni nəzərdən keçirək:

Mən aşıq, dağda nə var? (7)
Şeh düşmüş dağda nə var? (7)
Nə gəzirsən, a divanə könül, (10)
Leylisiz, Məcnunsuz dağda nə var? (10) ( 24, 463)

Üçüncü misrada heca sayı ondur. Burada şeirin yalnız yeddihecalılıq şərti pozulmuşdur. Dördüncü misra da onhecalıdır. Lakin burada həm heca sayının, həm də məntiqin pozulmasını müşahidə edirik. Sonuncu iki misradakı məzmuna nəzər salaq. Divanə tək gəzmək – divanəlik məşuqəyə yox, aşi-

qə məxsus xüsusiyyətdir. Deməli, dağı gəzən aşiqdir, çox güman ki, Leylisini axtarır. Lakin söyləyicinin yaddaşında Leyli ilə Məcnun həmişə qoşa olduğundan bunlardan birini yada salıb, digərini xatırlamamaq mümkün deyil (növbəti bayatıda bunun bir daha şahidi oluruq). Söyləyici Leylinin adını çəkdiyi məqamda Məcnunun da adını onunla qoşa çəkir və misranın daşımalı olduğu məna yükünü dağıdır. Əgər Leyli də Məcnunla birgə axtarılırsa, deməli, onları axtaran başqa biri – üçüncü şəxsdir. Leyli və Məcnun dağdadırsa, yəni onlar birlikdədirlərsə, onda üçüncü şəxs artıqdır. Mətnə diqqətlə nəzər saldıqda ondakı heca və məna qüsurunu belə nizamlamaq olar:

Mən aşiq dağda nə var? (7)
Şeh düşmüş dağda nə var? (7)
Nə gəzirsən divanə, (7)
Leylisiz dağda nə var? (7)

Bu fikirlər divanətək Leylisini gəzən Məcnunun özünə iradıdır. Lakin ilk söylənilən variantda bunu düşünmək mümkün deyildir.

Folklorşünas M.Kazımoğlu-İmanovun söyləyicinin mətnə münasibəti haqqındakı fikirləri bir çox mətləblərə aydınlıq gətirir: "Özünün peşəkarlıq səviyyəsindən asılı olaraq, hər bir ifada folklor mətnini dəyişib bir növ yenidən yaradan söyləyici, təbii ki, mütləq mənada müstəqil ola bilməz. Əgər söyləyici tam müstəqil olsa, kollektiv şüurun diktə etdiyi qəlibləri bir kənara qoyub fərdi dünyagörüşünü ifadə etmək istəsə, onda folklorun təməl qanunu (söyləyici-dinləyici münasibəti) pozular" (77, 142). Bu fikirlər bir daha sübut edir ki, söyləyicinin mətndə müxtəlif dəyişikliklər etməsi qəbahət olmasa da (əlbəttə ki, bədii yaradıcılıq nümunəsi olmaq şərtilə), "kollektiv şüurun diktə etdiyi qəliblərin", minilləri aşıb gələn janr strukturunun pozulmasını yaradıcılıq məhsulu və ya yenilik kimi qəbul etmək doğru olmaz.

**e)** ***Söyləyici məntiq və obrazlılığa xələl gətirən mətndaxili inversiyalar edir.*** Atalar sözlərinin əsas xüsusiyyəti bütün hallarda onda güclü məntiqin və dərin mənanın əks olunmasıdır. Elə buna görə bu janr həm də xalq hikməti adlanır. Əgər atalar sözünün məntiqi pozulmuşdursa, deməli, orada hikmət yoxdur, məna, məzmun məhv olmuşdur. Aşağıda verdiyimiz mətnlərdə belə vəziyyətlə qarşılaşırıq:

*Yaşın oduna quru da yanar* (5, 47).
*Namərdi qova-qova mərd eylərsən* (5, 44).

Görünür, tərtibçi bu mətnləri dərindən araşdırmamışdır. Göstərilən nümunələrdə bir-birinə qarşı qoyulan sözlərin əks qütblərdə işlədilməsini, ifadə olunan mənanın dəyişməsi və korlanmasını, yəni məntiqi ardıcıllığın pozulmasını daha çox söyləyici çaşqınlığının nəticəsi kimi başa düşmək olar.

Cümlədə söz və ya onları əlaqələndirən vasitələrin yersiz inversiyaları da mətndə məntiqsizlik yaradır:

Çəpər çəkili qaldı,
Bostan əkili qaldı.
Məndən sənə yar olmaz,
Başım sərkili qaldı (146).

Söyləyici üçüncü misrada *mən* və *sən* sözlərinin yerini səhv söyləməklə mətndə qeyri-təbiilik yaratmışdır. Başının *sərkili* (qaxınclı – X.K.) olduğunu söyləyən lirik qəhrəman öz gileyini, təbii ki, yazılan tərzdə yox, *səndən mənə yar olmaz* formasında ifadə edər.

Yuxarıda izah olunan nümunələrdən görünür ki, fikrin, ideyanın təhrif olunmasına gətirib çıxaran səhvlər "təhlükəli" səhvlərdir.

**f)** ***Söyləyicinin yaddaşında müxtəlif mətnlərin sintezi gedir.***

Maral qaşdı, neylim? (6)
Dağlardan aşdı, neylim? (7)

Cəfa çəkdim, toy etdim, (7)
Xınalı gəlin getdim, (7)
Gərdəyin dalı boşdu, neylim? (9) (140)

*Toy*, *xına*, *gərdək* sözlərindən bayatının təzə gəlinin dilindən söylənildiyi başa düşülür. Bayatıda üçüncü misra mətndə qeyri-təbii mənzərəni əks etdirir: *Cəfa çəkdim, toy etdim*. Azərbaycanlı gəlinin dilində belə bir misranın səslənməsi inandırıcı görünmür. Xına qoymaq, toy etmək, ədəb-ərkanla gəlin köçmək gəlinə verilən dəyərdir. Toy mərasimi ilə bağlı adətlərdə təşəbbüskar tərəf gəlin yox, bəydir, o toy edir, gəlin gətirir. Bu mənada mətndə təzadlı fikirlər toqquşur. Bayatının struktur və ahənginin korlanmasını aşağıda göstərilən şəkildə – *Cəfa çəkdim, toy etdim* misrasını götürməklə tənzimləmək olar. Bu zaman mətnin klassik forması üzə çıxır:

Maral(+ım) qaşdı, neylim? (7)
Dağlardan aşdı, neylim? (7)
(–Cəfa çəkdim, toy etdim,) (7)
Xınalı gəlin getdim, (7)
Gərdəyi(+m)( –n) (–dalı) boşdu, neylim? (7)

Bu bayatını tədqiq edərkən ikinci variantı da düşünmək mümkündür. Ola bilər ki, həmin fikirlər təzə bəyin dilindən söylənilmişdir. İlk iki misra bu cür düşünməyə imkan yaradır. Lakin bu zaman dördüncü misra (*Xınalı gəlin getdim*) mətndən çıxır və bayatının mükəmməl forması görünür:

Maralım qaşdı, neylim?
Dağlardan aşdı, neylim?
Cəfa çəkdim, toy etdim,
Gərdəyim boşdu, neylim?

Əvvəlki variantda artıq hesab etdiyimiz misra (*Cəfa çəkdim, toy etdim*) bu mətndə tamamilə yerindədir. Görünür, söyləyicinin yaddaşında həm gəlinin, həm də bəyin dilindən

söylənilmiş bayatı variantlarının sintezi getmiş və mətndəki qüsurlar da həmin proses nəticəsində yaranmışdır.

Nəzmdə ölçü, bölgü, qafiyə dəqiq əməl olunmalı şərtlərdir. Xalq ədəbiyyatında bu həm də çox vacibdir. Çünki şifahi formada yaranıb yayılan bir şeirin yadda qala bilməsi, yaşaması üçün aydın fikir, güclü qafiyə və nəzmin tələb etdiyi digər şərtlər gərəkdir. Əgər mətn yadda qalmırsa, onun folklor mətni olması şübhə doğurur.

Nümunələrdən göründüyü kimi, folklor mətnlərinin keyfiyyəti, ilk növbədə, söyləyicinin yaddaşından asılıdır. L.Süleymanova göstərir ki, folklor mətnlərinin deformasiyası, söyləyicilərin klassik folklor formullarından istifadə etməmələri onların mətni pis bilmələrinə dəlalət edir. Bu fakt isə öz növbəsində klassik folklorun tamamilə məhvinə aparıb çıxarır (110, 179).

Bu araşdırmalar bir daha sübut edir ki, folklor mətnlərində rast gəlinən bəzi problemlər söyləyici tərəfindən yaradılır və bunların çoxu onun yaddaşı ilə bağlıdır. O, mətndə hər hansı bir detalı unuda, uydura, təhrif edə, poetikliyə xələl gətirən başqa sözlə əvəzləyə bilər, yersiz inversiyalar edə, oxşar mətnlərin hissələrini dəyişik sala və s. naqislik və nöqsanlar törədə bilər. Təbii ki, bütün bu hallar mətni qüsurlu edir, xoşagəlməzlik və anlaşılmazlıq yaradır. Nəticədə oxucunun dərk edə bilməyəcəyi və ya zövqünü təmin etməyən bir əsər kimi təqdim edilir.

### 2.2. Toplayıcılıq məsələləri: dinləmə, qavrama və mətn

Folklorun nəşri çoxmərhələli fəaliyyətin nəticəsidir. Toplayıcının gördüyü işlər də həmin mərhələlərdən biridir. O, folklor mətnlərini toplayır: söylənilən mətni dinləyir, soyləyicinin ifasını müxtəlif üsullarla qeydə alır. Texniki vasitələrlə qeydə alınmış söyləmə materialının yazıya köçürülməsi (katib) işini də əksər hallarda toplayan şəxs icra edir. Bu işi lazımınca yerinə yetirmək üçün ilk növbədə toplayıcının dəqiq

eşitmə və görmə qabiliyyəti olmalı, tələffüz və yazı qaydalarını mükəmməl bilməlidir.

"Psixolinqvistlərin təsdiq etdiyinə görə, dildə əsl gözəlliyi onun səslənməsində axtarmaq lazımdır. Bu baxımdan, yəni səs sisteminin, tələffüz normalarının gözəlliyi baxımından Azərbaycan dili əvəzsiz dillərdən biridir" (59, 91). Növündən, janrından, mövzusundan, həcmindən asılı olmayaraq, bütün folklor mətnləri bu gözəlliyi özündə əks etdirir. Çünki folklor dilinin əsasında xalq danışıq dili, daha dəqiq desək, onun səs sistemi dayanır. Folklor mətninin yazıya köçürülməsi sözlərin səslənən formasının yazıda əks olunmasıdır. Bu, ənənəvi yazı qaydalarından fərqli bir situasiyadır: burada bir sözün çox sayda tələffüz variantı ola bilər. Bu çoxvariantlılığa səbəb folklor mətnlərini yazıya alarkən dialekt və şivənin, şifahi nitq əlamətlərinin gözlənilməsidir.

Folklor mətnlərinin yazıya alınması zamanı canlı ifa xüsusiyyətlərinin mətndə əks olunması barədə T.Hacıyevin fikirləri maraq doğurur. Müəllif qeyd edir ki, Azərbaycan folklorunu dil rənglərinə görə zonalara ayırsaq, bu, Azərbaycan dilinin dialekt bölgüsü ilə üst-üstə düşər. Yəni belə təsnifatda folklorumuzun dili obrazlar sisteminə görə yox, məhz lüğət tərkibinə, fonetik tələffüz xüsusiyyətinə və qismən də morfologiyasına görə fərqlənir. Müəllif bu halda ciddi problemlərin qarşıya çıxdığını söyləyir: folklor materialı yazıya alınanda yerli danışıq təzahürləri nəzərə alınmalıdırmı? Bu suala görkəmli alim başqa xalqların yanaşma tərzini nümunə göstərməklə cavab verir: "Dünya praktikası göstərir ki, folklorun dilində şifahi əlamətlər, o cümlədən regional danışıq-tələffüz rəngləri əks olunmalıdır. Məsələn, XIX əsrdən bəri Avropa şərqşünaslarının türk xalqlarından yazıya alıb öz dillərinə tərcümə ilə alman, fransız, ingilis dillərində paralel çap etdirdikləri folklor nümunələrində məhəlli-dialektoloji xüsusiyyətlər

bütün mənzərəsi ilə saxlanılır. Eyni iş üsulunu sovet türkoloqlarının müxtəlif türk dillərinə aid mətn çaplarında da görürük" (70, 14). Əslində dünya xalqlarının folklorun yazıya alınmasına yanaşma üsulları Azərbaycanda hələ keçən əsrin əvvəllərindən fəaliyyət göstərən Ə.Nazim, Y.V.Çəmənzəminli, H.Əlizadə, H.Zeynallı kimi görkəmli folklorşünasların prinsipləri ilə üst-üstə düşür. Lakin həmin nəzəri fikirlərin tətbiqinə gəldikdə isə başqa mənzərənin şahidi oluruq, çox zaman folklor mətnləri yazılı ədəbiyyat nümunələrindən fərqlənməmişdir.

Yazılı ədəbiyyatda orfoqrafik normanın gözlənilməsi əsas olduğu kimi, şifahi ədəbiyyatda da əsas prinsip mətnin səslənişinin – orfoepiyasının yazıda əks olunmasıdır. Xalq ədəbiyyatının dilində loru sözlər və dialektizmlər üstünlük təşkil edir. Görkəmli folklorşünas H.Zeynallı söyləyir ki, toplayıcılar heç də həmişə mətnin dilinə, yazıya alınma qaydalarına, toplama işi ilə bağlı qoyulan tələblərə lazımınca riayət etməmişlər. O yazır: "Toplayanlar geniş xalq təbəqəsi içərisinə girərək bu materialı olduğu kimi alıb yazmayırlar. Yəni hər yerin özünəməxsus bir şivəsi, bir leksikonu olduğu halda, o məhəllənin leksikonunu, ifadə şəklini, bədii görüşlərini, cümlə quruluşlarını, səslərdəki dəyişmələri tamamilə göstərmək üçün hər bir kəsdən eşidilən bu materialları söyləyən adamın söyləyişini eyni ilə zəbt etməyirlər" (119, 117).

H.Zeynallının bu iradında qeyd etdiyi kimi, söyləmə materialının yazıya köçürülməsində xalq danışıq dilinin tələffüz qaydalarına riayət etmək vacib məsələdir. Azərbaycan ədəbi dilinin tələffüz və yazı qaydaları ilə dialekt və şivələrimizdə üst-üstə düşməyən məqamlar folklorun yazıya köçürülməsi zamanı bir sıra problemlər doğurur.

Toplama materialı üzərində işləyərkən toplayıcının görəcəyi işlər kifayət qədər çoxdur. Cümlələrin sərhədlərinin müəyyənləşdirilməsi (sadə, mürəkkəb cümlə və ya ara söz ki-

mi verilməsi), durğu işarələrindən istifadə, sözlərin bitişik, yoxsa ayrı, böyük və ya kiçik hərflə yazılması, dialoqların düzülüşü, abzasların müəyyənləşdirilməsi, mətnin adının, janrının təyin edilməsinin məsuliyyəti ilk olaraq mətni yazıya köçürənin üzərinə düşür.

Əli Nazim toplayıcılıq işinin məsuliyyəti və toplama materiallarına münasibət haqqında belə yazırdı: "Xalq ədəbiyyatının yalnız oxuma və anlaşılma əhəmiyyəti yoxdur; onun elmi əhəmiyyəti bundan daha artıqdır. Onun üçün xalq ədəbiyyatını toplarkən bir çox xüsusiyyətləri unutmamalı və onlara riayət etməlidir. Bu xüsusiyyətlərdən biri və ən mühümü də toplanan xalq ədəbiyyatı məhsullarının fonetikası (sövtiyatı)dır. Bu fonetikanı mühafizə etmək, qarışdırmamaq görülən işin elmi qiymətini bir qat daha artırır" (45, 98).

Şifahi ifa zamanı söyləyici və dinləyici üz-üzədir. İfaçı mətnin məzmunundan başqa, jest və mimika, səsinin ahəngi vasitəsilə söylədiyi fikrin tam şəkildə qavranılmasına yardım edir. Oxucu isə yalnız kitabla – yazı ilə üz-üzədir. Artıq burada canlı ifaya məxsus bir sıra əlamətlər məhdudlaşır: jest, mimika, intonasiya, məntiqi vurğu – bir sözlə, mətnin ifası zamanı ötürülən bir çox informasiyalar yox olur. Lakin yazı qaydalarının elə imkanları var ki, intonasiyanı, qismən də olsa, yazıda ödəyə, oxucunun fikrini lazım olan səmtə istiqamətləndirə bilir. Cümlənin hüdudlarının müəyyənləşdirilməsi, mətnin hissələrə ayrılması – abzaslar, durğu işarələri qismən bu işi görə bilir. Toplanmış materialın yazıya köçürülməsi nəticəsində mətndə yarana bilən problemləri araşdırmaq üçün "Dədə Qorqud kitabı"na nəzər salaq.

"Dədə Qorqud kitabı"nın yazıya köçürülmə və nəşri prinsipləri Azərbaycan, türk və digər xalqların folklorşünaslarının daim tədqiqat obyekti olmuşdur. "Dədə Qorqud kitabı"nın

görkəmli naşirlərindən olan O.Ş.Gökyay abidənin yazıya alınması zamanı buraxılmış nöqsanları belə xarakterizə edir:

a) Eyni söz hətta eyni sətirdə müxtəlif imlalarda yazılmışdır;

b) Bunlardan bir hissəsi ya yanlışdır, ya da anlaşılmır;

c) Bəzi yerlərdə ya sözlər, ya da cümlələr buraxılmışdır;

d) Anlaşılmayan söz və cümlələr vardır (120, 92).

Müasir dövrdə toplayıcıların – yazıya köçürənlərin və tərtibçilərin mətnə diqqətsiz yanaşmaları nəşrlərdə müəyyən qüsurların yer almasına səbəb olur. Burada əslində diqqətlə yanaşı, professionallıq da çox vacib şərtdir. "Dədə Qorqud kitabı"nın katiblərinin nöqsanları ilə yaxından tanış olduqda bu gün folklor mətnlərində qarşıya çıxan bir çox qüsur və naqisliklərin oxşar olduğu görünür. Görkəmli qorqudşünas O.F.Sərtqaya "Dədə Qorqud kitabı"nın mövcud nəşrlərində qarşıya çıxan səhvlərin nüsxə katibinə və abidənin naşir və araşdırmaçılarına məxsus olduğunu qeyd edir. O, abidənin mətnində olan nöqsanları incəliyinə qədər izləmiş və həmin səhvlərin aşağıdakı formada təzahür etdiyini vurğulamışdır:

1. İmlada bir sözün başqa sözün yerinə işlənilməsi;
2. İmlada artıq hərf və ya heca yazılması üzündən sözün yanlış işlənilməsi;
3. İmlada əskik hərf və ya heca yazılması üzündən sözün yanlış işlənilməsi;
4. İmlada hərflər üzərində nöqtələrin yerində qoyulmaması üzündən sözün yanlış işlənilməsi (122, 132).

Bu müddəalar bir daha sübut edir ki, yazıya köçürən tərəfindən mətndə ümumi işin ziyanına olan çox sayda və şəkildə izlər qala bilər. Bu nöqsanlar mətnin forma və məzmununda, poetikasında da özünü göstərir. Toplama materiallarını tədqiq edərkən katib işini icra edənin diqqət və savad səviyyəsinin mətnin keyfiyyətinə birbaşa təsiri olduğu aşkar görünür.

Araşdırmalardan bu qənaətə gəlmək olur ki, xalq ədəbiyyatı nümunələrinin yazıya köçürülməsi zamanı baş verən xətaların törəmə səbəbləri əsasən aşağıdakılardan ibarətdir:

a) Mətni yazıya köçürən şəxs mexaniki səhvə yol verir;

b) Söylənilən mətndə bəzi məqamları düzgün eşitmədiyindən və ya anlamadığından yazıya səhv köçürür;

c) Bəzi tələffüz və yazı qaydalarını bilmədiyindən söz və ya ifadələri səhv yazır;

d) Bəzi sözlərin (xüsusən cinas sözlərin) hüdudlarını dəqiq müəyyən edə bilmir;

e) Regional tələffüz əlamətlərini yazıda düzgün əks etdirməyi bacarmır və bu səbəbdən yanlışlığa yol verir və s.

Göründüyü kimi, yuxarıda göstərilən səbəblərdən mətndə kifayət qədər nöqsanlar yaranır və onlar mətnin forma və məzmununa xələl gətirir. Apardığımız qruplaşmanın doğruluğunu aşağıda verilən nümunələr sübut edir.

**a)** ***Mətni yazıya köçürən mexaniki səhvə yol verir.*** Nümunəyə diqqət edək:

Əziziyəm, atmaram,
Yarı yada salmaram.
Bir əldə iki qarpız
Tutmamışam, tutmaram (132, 658).

Bayatıda misraların, hecaların sayı qaydasındadır. Qafiyədə də qabarıq qüsur görünmür. Lakin seçilmiş sözlərə daha diqqətlə nəzər yetirəndə gizli qalan nöqsanları görmək olar: mətndə *atmaram*, *salmaram*, *tutmaram* qafiyələnən sözlərdir. *Salmaram* sözü ilə *satmaram* sözünün arasında bircə səs fərqlidir. Maraqlıdır ki, birincinin yer aldığı misrada bu sözlərdən hər biri işlənə bilər. Bu zaman bayatının strukturu pozulmasa da, bir-birinə əks olan fikirlər ifadə olunur: *yarı yada salmaram* və *yarı yada satmaram*.

Xalq şeirinin cazibəli olmasının bir səbəbi də onun mükəmməl ahəngə malik olmasıdır. Haqqında danışdığımız bayatıda *t, m, r* samitlərinin yaratdığı alliterasiya ikinci misranın qafiyəsində zəifləmiş, *t* əvəzinə *l* səsinin işlənməsi başqa bir leksik vahid yaratmışdır. Fonetik səviyyədə obrazlılığın göstəricilərindən olan alliterasiya və assonans folklor mətnində mühüm əlamətdir. Yaddaş məhsulu olan folklorda yaddaqalmaya birbaşa xidmət edən səsin ritmi, ahəngi assonans və alliterasiyasız mövcud ola bilmir.

*Yad* sözü həm *yaddaş*, həm də *özgə* mənalarını ifadə edir. Araşdırmağa ehtiyac var ki, burada işlənən *yada salmaq*, yoxsa *yada* (özgəyə) *satmaq* sözüdür. Şeir aşiqin dilindən söylənir. *Bir əldə iki qarpız tutmamışam, tutmaram* deyən aşiqin, təbii ki, nəşr olunan formada *yarı yada salmaram* deməsi məntiqə uyğun gəlmir. Sonuncu iki misrada söylənilən fikir əvvəlki misranı qüsurlu hesab etməkdə haqlı olduğumuzu göstərir. İkinci misrada düzəliş etməklə (*yarı yada satmaram*) semantikanın bərpası ilə yanaşı, zəifləmiş alliterasiya da qaydaya salınmış olur.

**b) *Mətni yazıya köçürən tələffüz qaydasını mətndə əks etdirməyə çalışır və bəzi məqamlarda buna incəliklərinə qədər əməl edə bilmir.*** Məsələn:

*İtnən dostdux elə, amma dəyənəyi yerə qoyma* (24, 468).

*Günnərin birində tülkü bərh acır* (17, 114).

*Hə, mənim hakkımı, hakkımı gətiriblər* (24, 449).

Bu mətnlərdə bir neçə mübahisəli məqamda yazı qaydası ilə üst-üstə düşməyən tələffüz tələblərinə düzgün əməl edilmişdir: məsələn, *itnən*, *günnərin*. Bəzi sözlərin isə yazılışında müəyyən qüsurlar özünü göstərir: *dostdux elə* (ikinci sözün birincinin tələffüzünə təsiri olduğu üçün birlikdə verdik – X.K.). *Dost* sözünün kökündəki sonuncu hərf bu məqamda tələffüz olunmur. Mətndə ikinci səhv isə sözun son səsinin *[x/ğ]* düzgün əks etdirilməməsidir. Həmin sözdən sonra saitlə

başlayan söz gəldiyi üçün *doslux* yox, *dosluğ* tələffüz olunur və yazıda da bu cür verilməli idi.

*Bərk acır* birləşməsində birinci sözün sonunda *[k]* səsi səhvən *h* hərfi ilə göstərilmişdir. Burada həmin söz yazıldığı kimi də tələffüz olunur: *bərk acır*. Əgər *bərk* sözündən sonra *qaçır* sözü gəlsə idi, onda nəşrdə verilmiş forma mübahisə doğurmazdı.

Qoşa *qq* ilə yazılan sözlərdə tələffüz zamanı birinci *q* hərfi öz kar qarşılığına – *[k']* səsinə keçir. Yazıya köçürülən zaman səsin birinin *[q]*, digərinin *[k']* olmasına baxmayaraq, hər iki səs eyni hərflə yazılmışdır. Bu cür yazmaqla sözün tələffüzü səhv göstərilmiş, *hakqımı* yazılmalı ikən, *hakkımı* yazılmışdır.

Nəşrdə bu cür verilmiş nümunələrin səhv və ya düzgün yazılması haqqında ona görə hökm verə bilirik ki, səhv dediklərimiz nə ədəbi, nə də regional tələffüz əlamətlərinə aiddir. Ümumiyyətlə, dilimizdə haqqında danışdığımız sözlərin bəzilərinin heç bir halda bu cür tələffüz forması yoxdur.

**c)** ***Toplayıcı bəzi tələffüz və yazı qaydalarını bilmədiyindən söz və ya ifadələri səhv yazır.*** AMEA Folklor İnstitutunun arxivində saxlanılan "Əsli və Kərəm" dastanının mətni üzərində araşdırma apararkən müxtəlif anlaşılmayan məqamlarla rastlaşdıq. Məsələn, toplayıcının söylənilən mətni qeydə alma tərzinə nəzər salaq:

*Kərəm yarı şad, yarı nə şad mənzilinə keçib düz üç ay gözlədi* (139).

Dilimizdə bu gün, çox işlək olmasa da, *qəmgin* sözünün sinonimi olan, klassik ədəbiyyatda daha tez-tez rast gəlinən *naşad* sözü var ki, burada inkarlıq bildirən *na* ön şəkilçisi *şad* sözü ilə bir vurğu altında deyilir və bitişik yazılır (37, 168).

M.Füzulinin qəzəlindən misal gətirdiyimiz beytdə həmin sözün düzgün işlənmə formasını görürük:

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili-naşadı var (66, 64).

Toplayıcı *naşad (və ya nəşad)* sözünü *nə şad* formasında – iki söz kimi yazmaqla kontekstə uyğun olmayan hala salmışdır.

Həmin mətndə digər problemli məqamı nəzərdən keçirək:

*Kərəm çobanı görən kimi sazı sinə-sinə basıb görək Əsli xanı necə xəbər alacaq* (139).

Burada *sinə-sinə* sözünün defislə yazılması sözün mənasını tamamilə dəyişir, fikri başqa səmtə yönəldir. İlk anda bunu mexaniki səhv kimi də anlamaq olar. Lakin həmin mətndə növbəti cümlələrdən birində haqqında danışdığımız sözə yenə rast gəlirik və təkrarən eyni mənzərənin şahidi oluruq:

*Kərəm bu qızların içində Əsliyə bənzər bir qız görüb, sazını basıb sinə-sinə, görək nə deyəcək* (139).

*Sinəsinə* sözünün bütün məqamlarda *sinə-sinə* formasında yazılması toplayıcının – mətni yazıya köçürənin yazı savadının qənaətbəxş olmadığını göstərir. "Sinə-sinə sinmək feilindəndir, əyilmək, gizlənmək, çuxura yatmaq mənasındadır" (15, 79). Həmin sözlər arasındakı məna fərqini aşağıda göstərilən bayatıda aşkar görmək olar:

Əzizim *sinə-sinə*,
Gir bağa *sinə-sinə*.
Mən həsrətdən ölərəm
Sən baxsan özgəsinə (26, 344).

**d)** ***Mətni yazıya köçürən bəzi sözlərin (xüsusən cinas sözlərin) hüdudlarını dəqiq müəyyən edə bilmir.*** Sözün bitişik, ya ayrı yazılması onun leksik mənasını dəyişdiyi kimi, cümlənin ortasında sözün ilk hərfinin böyük və ya kiçik yazılması da onun hansı mənada başa düşülməsinə bir işarədir. Məsələn:

Mənim adım Həsəndi,
Mənzilim daş kəsəndi.
Fələyə bel bağlama,
Fələk ümid kəsəndi (141).

Bayatının *Mənzilim daş kəsəndi* misrasının qüsurlu olması aydın nəzərə çarpır: buradan heç bir bir məna anlaşılmır. Daşkəsən toponiminin yazılışında iki səhvə yol verilmişdir. Birincisi, bitişik yazılmalı olan mürəkkəb söz ayrı yazılmış, ikincisi isə, yer adı bildirən bu xüsusi isim kiçik hərflə verilmişdir. Göstərilən nümunədə bir vurğu altında tələffüz edilən və bitişik yazılmalı olan sözlərin ayrı yazılması xətası müşahidə olunur. Bəzən mətnlərdə bunun əksi olan hallarla da rastlaşırıq:

Mən aşığam nərgizlər,
Bənövşələr, nərgizlər.
Ərsəmiş maya gördüm,
Qoltuğunda nərgizlər (145).

Bu cinas qafiyəli bayatıda birinci və ikinci misralarda nərgiz bitkisindən – çiçəkdən danışılır. Dördüncü misrada isə *nər*, yəni dəvədən söhbət gedir (*maya* – dişi dəvə, *nər* – erkək dəvə – X.K.). *Qoltuğunda nərgizlər* misrasında qafiyələnən sözü *nərgizlər* formasında – bitişik yazmaqla toplayıcı bir bayatının öz cinas qafiyəsində zaman-zaman daşıyıb yaşatdığı mənanı pozub korlamışdır.

Bayatını digər nəşrlərdəki variantı ilə tutuşdurduqda iradımızın doğru olduğunu görürük:

Mən Aşiq(+əm) nərgizlər,
Açılıbdır nərgizlər,
(– Bir) ərsəmiş maya gördüm,
Sinəsində *nər gizlər* (47, 48).

Toplama mətnlərini yazıya köçürən zaman yol verilən xətalara aid yuxarıda göstərdiyimiz nümunələr dünya folklorşünaslığında da rast gəlinən hallardandır. Məsələn, rus folklorşünaslığında toplanmış materialları nəşrə hazırlayarkən sözlərin hüdudlarının müəyyənləşdirilməsi ilə bağlı bir nümunəyə nəzər salaq:

*Вот у Мани красно солныщко,*
*Оно во тумани…* (131, 166).

Söyləyicidən qeydə aldığı mətni toplayıcı yuxarıda göstərilən şəkildə yazıya köçürmüşdür. Lakin ekspert araşdırmalarından sonra sözlərin yersiz bölünməsinə düzəliş edilmiş və mətn aşağıdakı formada nəşr edilmişdir:

*Во тумани красно солныщко,*
*Оно во тумани…* (131, 166).

Cinas sözlərin yazılışı zamanı sözlərin hüdudlarını düzgün müəyyənləşdirmək toplayıcıdan sözə həssas münasibət tələb edir.

**e)** ***Yazıya köçürən regional tələffüz əlamətlərini mətndə düzgün əks etdirməyi bacarmır, yanlışlığa yol verir.*** Bəzən sözün səslənişinin yazıda fərqli göstərilməsi ilə mətnin aid olduğu bölgənin şivə əlamətləri təhrif olunur və ya bu qeyri-düzgün yazılış nəticəsində mətn başqa bir bölgənin şivəsini özündə əks etdirmiş olur. Növbəti nümunədə *ürək* sözündə *k* (ke) hərfinin düzgün tələffüzü yazıya köçürmə zamanı təhrif edilmişdir:

Dəryada çırax yanar,
Çırax nə irax yanar.
Bala şirin şərbətdi,
İşdikcən *ürəy* yanar (86, 382).

Azərbaycan dilinin şərq qrupu dialektində (Bakı, Quba, Salyan və s.) söz sonunda samitlərin çingiltiləşməsi hadisəsi qüvvətli olduğu üçün tələffüzdə samit qarşısında *k/y* əvəzlənməsi baş verir: *k [x']* deyil, *[y]* kimi tələffüz edilir. Məsələn: *gözəllik/gözəlliy*. Amma verilən nümunə Qarabağ bölgəsindən olan söyləyicinin mətnidir, qeyd etdiyimiz sözə əsasən deyə bilirik ki, mətndə qarabağlı şivəsi duyulmur.

Dilimizin tələffüzündəki bəzi səs variantlarını ifadə etmək üçün əlifbamızda xüsusi hərf yoxdur. Elmi ədəbiyyatdan fərqli

olaraq, bədii əsərlərin nəşrində hərf üzərində şərti (elmi) işarələrdən istifadə olunmur. “Azərbaycan folkloru antologiyası” seriyasından olan XII kitabda – Zəngəzur folkloru nümunələrində söylədiyimiz məqamda bunun daha uğurlu formada yazıldığını görürük: sonu *k* (ke) hərfi ilə yazılıb *[x']* ilə səslənən sözlər *h* (he) hərfi ilə yazılmışdır. Kitabda ədəbi tələffüz norması, həmçinin regional tələffüz xüsusiyyətləri digər nəşrlərlə müqayisədə daha qabarıq və düzgün formada göstərilmişdir.

Bəzi dialektlərdə söz sonunda *b-v/f* əvəzlənmələri mövcuddur. Bir çox hallarda sözlərdə incə tələffüz fərqləri olan *[v]*, yoxsa *[f]* səsi işləndiyini müəyyənləşdirmək lazım gəlir. Sonu *b* samiti ilə bitən sözlərin dialektlərdə *[f]* kimi səslənməsini müşahidə etmək asandır. Lakin eyni sözdə həmin hərfin *[v]* kimi səslənməsi əksər hallarda diqqətdən kənarda qalır, yazıda səhv göstərilir. Yenə də səhv yazılışın səbəbi həmin səsdən sonra gələn söz və ya şəkilçinin nəzərə alınmamasıdır. Aşağıda Ağdaş, Qarabağ və Göyçədən toplanmış mətnlərindən götürülmüş nümunələrdə həmin vəziyyətlə qarşılaşırıq:

*Bajım girif öyə buna şor gətirsin çörəhnən yiməyə, görüf yoxdu* (24, 72).

*Hajı Qaraman maralı minif, şallağı da alıf əlinə gedirmiş* (84, 73).

*Axırda Təpəgöz Qaraxanı da məğlub eliyif öldürmüşdü* (132, 140).

*Çalıf-oxuyar, deyif-gülər, hönkürüf ağlıyardınız* (132, 139).

Bu nümunələrin hər birində toplama materialını yazıya köçürərkən müxtəlif toplayıcılar eyni səhvləri etmiş və tərtib zamanı bunlar nəzərə alınmamışdır. Buna səbəb sözlərin tələffüzündə baş verən səs əvəzlənmələrinə yazıya köçürənin lazım olan səviyyədə diqqət yetirməməsidir. Yuxarıda göstərilən nümunələrdə toplayıcı *b-v/f* əvəzlənmələri olan məqamları gah düzgün, gah da səhv əks etdirmişdir. Məsələn, birinci

misalda *girif öyə* səhv, *görüf yoxdu* düzgün; ikincidə – *minif* düz, *alıf əlinə* səhv göstərilmişdir. Həmin nöqsanları aşağıdakı şəkildə aradan qaldırmaq olar: *giriv öyə*; *alıv əlinə*; *ağsakqallığ edə bilmiyəjəm*; *məğluv eliyiv öldürmüşdü*; *çalıv-oxuyar*; *hönkürüv-ağlıyardınız.*

Amerikalı mətnşünas B.M.Metsqer "Yeni vəsiyyətlər" kitabında mətnlə bağlı məsələləri təhlil edərkən mətni yazıya köçürənin etdiyi səhvlərin səbəbləri kimi astiqmatizmi, eşitmə qüsurunu, bir-birinə yaxın səsləri fərqləndirmək həssaslığının olmamasını, onun düzgün olmayan qənaətə gəlməsini göstərmişdir (136, 167). Deməli, bilik və bacarıqla yanaşı, toplayıcının görmə, eşitmə və qavrama ilə bağlı fiziki imkanlarının da yazıya köçürmədə əhəmiyyətli rolu var.

Yuxarıda deyilənlərə əsasən bu qənaətə gəlmək olur ki, toplayıcılıqla ana dilini mükəmməl bilən, folklorla maraqlanan və onu sevən, folklorşünaslıq elmi haqqında məlumatı olan şəxslər məşğul ola bilərlər. Toplama materialının keyfiyyətli olması və mətndə qüsurların olmaması üçün toplayıcının diqqəti, eşitmə həssaslığı, görmə qabiliyyəti, qavrayışı yerli-yerində olmalı və o, Azərbaycan dilinin tələffüz və yazı qaydalarını lazım olan səviyyədə bilməlidir. Toplayıcının yazıya aldığı mətnlər araşdırılmadan, qüsurlar aradan qaldırılmadan nəşrdə yer alarsa, xalq yaradıcılığı nümunəsinin keyfiyyəti aşağı düşər, ifadə olunan fikir oxucuya nöqsanlı şəkildə çatdırılar, nəticədə bu da folklorun unudulmasına – məhvinə aparıb çıxarar.

## III FƏSİL

## FOLKLOR MƏTNLƏRİNİN TƏRTİBİNDƏ LİNQVOPOETİK MƏSƏLƏLƏR

Folklor mətninin ahəng və məzmunu ilə bağlı tələffüz problemlərinin həlli, özəl situasiyalarda Azərbaycan dilinin orfoqrafiyasına xas olmayan qeyri-ənənəvi yazı qaydalarının tətbiq edilməsi mətnin tərtibinə daxil olan işlərdir. Lakin bu problemlərin həlli yolları nəşr olunacaq kitabın xarakterindən də asılıdır. Ümumiyyətlə, hər bir kitab oxucusu üçün hazırlanır. Oxucu isə xalq ədəbiyyatı nümunələrinə müxtəlif məqsədlərlə müraciət edə bilər: asudə vaxtını keçirmək, bədii zövqünü təmin etmək, müxtəlif aspektlərdən elmi araşdırma mənbəyi kimi istifadə etmək, xalq həyatını, məişətini, tarixini, etnoqrafiyasını, adət-ənənəsini öyrənmək və s. üçün. Folklor kitabları tərtib prinsipinə görə iki qrupa ayrılır: akademik və kütləvi nəşrlər. İstər akademik, istərsə də kütləvi nəşrləri hazırlayarkən diqqət mərkəzində saxlanılan əsas obyekt oxucudur. Elmi prinsiplərlə hazırlanan akademik nəşrlər əsasən elm adamları, mütəxəssislər üçün nəzərdə tutulur. Həmin folklor kitabları müxtəlif elm sahələrinin (tarix, etnoqrafiya, dilçilik, psixologiya, folklorşünaslıq, müsiqi, tibb və s.) istinad mənbəyi olduğu üçün kitablarda söyləyici nitqi, toplayıcı və tərtibçi işi professional səviyyədə, elmi prinsiplərlə təqdim edilir. Folklor mətnlərinin akademik nəşrlərində əsas xüsusiyyət dialekt və şivə xüsusiyyətlərinin mütləq şəkildə gözlənilməsi, mətndəki vulqar leksikanın (müəyyən məhdudiyyətlərlə) yazılması, yeri gəldikcə qeyd və şərhlərin verilməsi, mənası aydın olmayan sözlərin lüğətinin hazırlanması və s.-dir.

Kütləvi nəşrlərin hazırlanmasında mətnə yanaşma prinsipi bir sıra xüsusiyyətlərinə görə akademik nəşrlərdən fərqlənir. Bu ktabların oxucusu yaşından, cinsindən, ictimai mövqe-

yindən asılı olmayaraq, hər kəs ola bilər. Ona görə də bunlar hər kəsin oxuyub dərk edəcəyi səviyyədə hazırlanır və məqsədi oxucusuna bilik, məlumat vermək, zövqünü oxşamaq, mənəvi, əxlaqi dəyərlər və s. aşılamaqdır. Burada sıravi oxucunu nəzərə alaraq mətnin anlaşıqlı və dilinin rəvan olması üçün qatı elmi prinsiplərdən, şivə əlamətlərinin verilməsindən yan keçilir, mətnin qismən ədəbiləşdirilməsinə yol verilir.

### 3.1. Mətnlərin tərtibində tələffüz və yazı məsələləri

Folklor ana dili, milli dil, xalq dili məsələləri ilə sıx bağlıdır. Şifahi xalq ədəbiyyatı ana dilimizin, sadə xalq dilinin əsas mənbəyidir. Yazı dilində cümlələr müəyyən dərəcədə səliqəyə salınır, fikrin ifadə formasına "sığal çəkilir". Eşitmə vasitəsilə dərk edilən yaradıcılıq nümunələri ilə vizual olaraq (kitabdan oxumaqla) qavranılan nümunələrin, yəni şifahi ədəbiyyatla yazılı ədəbiyyatın qarşı tərəfə (dinləyici və ya oxucuya) çatdırılması arasında xeyli fərq var.

Şifahi ədəbiyyatda səs ilkindir, dinləyən əvvəl səsi eşidir, qavrama bundan sonrakı mərhələdir. Hər folklor mətninin növündən, janrından asılı olaraq özünəməxsus ritmi, ahəngi var. Folklor mətninin səslənişində, hər şeydən əvvəl, estetik cazibə, bədiiliyə – obrazlılığa xidmət edən ahəngin olması mühüm amildir. Ə.Əfəndizadə Azərbaycan dilinin tələffüz sisteminin əsasında duran prinsipləri belə qruplaşdırmışdır:

1. Tələffüzün asanlığı prinsipi;
2. Tələffüzün zərifliyi prinsipi;
3. Tələffüzün söz və söz formalarının yazılışına maksimum yaxınlığı prinsipi (59, 92 ).

Sadalanan bu prinsiplər folklor mətnlərinin akustik strukturunda özünü aydın şəkildə göstərir. Həmin prinsiplərin zəif olduğu şifahi xalq ədəbiyyatı nümunələri folklorlaşa bilmir, yadda qalması çətinləşir və nəticədə unudulur.

Folklor materiallarını yazıya köçürərkən səs ahənginin gözlənilməsi, yəni ifa olunduğu kimi yazıda əks olunması, təhriflərə yol verilməməsi, əgər bu əvvəlki mərhələlərdə – söyləyici və ya toplayıcı tərəfindən baş vermişdirsə də, bunların nizamlanması tərtib prosesinin əsas şərtidir. Akademik nəşrlərin tərtibi zamanı mətnlərdə sözlərin tələffüz formalarında diqqət yetirilməli bir sıra məqamlar var: mətndə yerli-regional dil xüsusiyyətlərinin, bu əlamət olmadıqda bəzən sözlərin ədəbi dilin tələffüz normalarının gözlənilməsi, müəyyən situasiyalarda heca vurğusunun yazıda göstərilməsi və s. bu nəşrlərin əsas tələbidir.

M.K.Azadovski XIX əsr rus folklorşünaslığında ədəbi dillə xalq danışıq dilinin sintezi probleminin A.S.Puşkinin simasında daha dərin nəzəri həllini tapdığını qeyd edərək göstərir: “Xalqın ruhu, onun tarixi formalaşması, təfəkkür tərzi təkcə yaradıcılığında deyil, həm də dilində əks olunur. Görünür ki, Puşkin nağıl və mahnıları yazıya köçürərkən ilk olaraq şivənin xarakterik xüsusiyyətlərini saxlamağın vacibliyini dərk etmişdir” (123, 249). Burada vurğulanan “ilk olaraq şivənin xarakterik xüsusiyyətlərini saxlamağın vacibliyi” fikri Azərbaycan folklorşünaslğında da tərtib işinin əsas prinsipidir. Mətnlərin tərtibinə bu prinsiplə yanaşarkən tələffüzlə yazı qaydaları arasında yaranan fərq bir sıra problemlər doğurur. Toplama zamanı söyləyiciyə mətni yerli dil əlamətləri, tələffüz xüsusiyyətləri ilə ifa etməsi tövsiyə olunur. Lakin toplanılan mətnlərdən görünür ki, söyləyici mətni heç də həmişə tələffüz qaydasında təqdim etmir. O, bəzi hallarda rəsmi danışmağa cəhd edir və bu rəsmiyyət daha çox sözlərin yazı qaydası ilə tələffüz edilməsində müşahidə olunur. Bununla da mətnin dilində təbiilik pozulur. “Bəziləri sözləri orfoepik qaydaya əsasən yox, yazıldığı kimi tələffüz etməyi üstün tuturlar. Məsələn, uçdu, keçdi, içdi, heç nə, heç zaman və s. Halbuki bu

sözlər ədəbi tələffüzdə uşdu, keşdi, işdi, heş nə, heş zaman kimi tələffüz olunmalıdır. *-Sınız* (*-siniz*, *-sunuz*, *-sünüz*) şəkilçisinin də yazıldığı kimi yox, *-sız*, *-siz*, *-suz*, *-süz* kimi deyilişi yaxşı təsir bağışlayır. Həm də bu cür tələffüz artıq qəbul olunmuşdur" (92, 119). İfa zamanı bu deyilənlərin nəzərə alınmaması, sözlərin yazı qaydaları ilə tələffüz edilməsi xalq yaradıcılığı nümunələrində bir sıra problemlər yaradır.

Folklor mətnlərində mövcud olan linqvopoetik problemlərin həlli üçün A.Məmmədovanın "Bayatılar" kitabına müraciət etməklə çox mətləblərə aydınlıq gətirmək olar. Onun tətbiq etdiyi proqram xarakterli qaydalar bu gün folklor tərtibçisi üçün bir nümunə ola bilər. O, mətnlərin tərtibi zamanı aşağıdakı qaydaları gözləmiş və tətbiq etmişdir:

1. Mətnlərin imlası mümkün qədər mühafizə edilmişdir;
2. Dialekt, arxaik, cinas sözlərin mənası açılaraq səhifə sonunda izahı verilmişdir;
3. Artıq səs, heca və söz minus (–) işarəsi ilə mətndən çıxarılmışdır;
4. Çatmayan heca, söz plyus (+) işarəsi ilə mətnə əlavə edilmişdir;
5. Mənası məlum olmayan, yaxud mənasız görünən sözlərə toxunulmamışdır;
6. Bəzi dəyişikliklər variant kimi qəbul olunmuşdur;
7. Dil, şivə xüsusiyyətləri gözlənilmişdir;
8. Coğrafi ad, ifadə və sözlərin şərhi verilmişdir və s. (47).

Müasir folklorşünaslıqda tərtib məsələləri ilə bağlı problemlərin həllində bu qaydalardan yararlanmaqla mətndəki bir sıra uyğunsuzluqların həllini tapmaq asanlaşar. Ümumiyyətlə, folklor mətninin tərtibinin əsasında tələffüz və yazı problemlərinin düzgün həlli məsələsi dayanır. Bu problemlər sayca çox, həlli yolları müxtəlif olsa da, onların həllində əsas məqsəd mətnin akustik strukturunu, məzmununu, məntiqini qoru-

maqla nöqsanları aradan qaldırmaq (mətndə görünməsi şərtilə) və keyfiyyətli şəkildə oxucusuna çatdırmaqdır. Bu problemlərin həlli zamanı mətnə bəzən şəraitə uyğun olaraq qeyri-ənənəvi tələffüz və yazı üsulları ilə yanaşmaq lazım gəlir. Həmin üsulları aşağıdakı kimi qruplaşdırmaq olar:

**1.** qafiyənin tələbinə əsasən sözü yazı qaydası ilə tələffüz etmək;

**2.** heca sayının tələbi ilə sözdə artıq yazılmış səsi, hecanı və ya sözü ixtisar etmək;

**3.** heca sayını tənzimləmək üçün sözdə çatmayan səsi, hecanı və ya sözü mətnə əlavə etmək;

**4.** əvəzlənmiş səslərin səhv yazılması və nəticədə bir dialektə məxsus mətnin düşünülmədən başqa dialekt nümunəsi kimi verilməsini aradan qaldırmaq;

**5.** bəzi uzun tələffüz olunan səsi iki hərflə yazmaq;

**6.** kütləvi nəşrlərdə bəzi arxaik və regional əlamətləri imkan daxilində ümumişlək variantlarla əvəzləmək;

**7.** eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərdə vurğu işarəsini qoymaq;

**8.** vulqar sözləri mətndə xüsusi üsulla vermək;

**9.** əsas mətnlə mətndənkənar yazıları müəyyən üsullarla fərqləndirmək və s.

**1.** ***Qafiyənin tələbinə əsasən sözü yazı qaydası ilə tələffüz etmək.*** Lirik növün elə incə məqamları var ki, bir çox hallarda şeirin tələbinə xidmət etmək üçün müəyyən sədləri keçmək lazım gəlir. Əksər hallarda mətnlərdə tələffüz xüsusiyyətləri gözlənilsə də, lakin bəzən poetiklik xatirinə bundan çəkinmək lazım gəlir, sözü yazı qaydası ilə ifa etmək məcburi hal olur. Bu güzəştə getmə halı daha çox lirik növün janrlarında özünü göstərir. Məsələn:

Əzizinəm yaxşı dur,
Yaxşı otur, yaxşı dur.

Öz ayranın turş olsa,
Yad aşınnan yaxşıdır (138).

Nümunədə verilmiş *yaxşıdır* sözünün tələffüzü *[yaxşıdı]* formasındadır. Lakin mətndə əvvəlki misralarda verilmiş *yaxşı dur* qafiyəsi sonuncu misrada uyğun sözdə yazı qaydasına əsasən *[r]* səsinin tələffüz edilməsini tələb edir. Şeirin poetik strukturuna xələl gəlməsin deyə, istisna hal kimi həmin söz yazı qaydası ilə verilir və yazıldığı kimi də səslənir.

**2. *Heca sayını tənzimləmək üçün lazım gəldikdə sözdə artıq səsi, hecanı və ya sözü ixtisar etmək.*** Həmin problem bu mətndə çox uğurla həll edilmişdir:

Anam, bacım, qız, gəlin,
*Əl*(*–i*), ayağı düz gəlin,
*Onki* oğlan istərəm,
Bircə dənə (*–də*) qız-gəlin (47, 144).

Mürəkkəb say olan *on iki* orfoqrafik qaydaya əsasən ayrı yazılır. Adi danışıqda da əksər hallarda həmin söz yazıldığı kimi tələffüz olunur. Lakin bu bayatıda janrın yeddi hecalılıq tələbinə görə *on iki* sayı saitinin birini itirir, yəni bir heca azalır. Bu zaman bir vurğu altında tələffüz edilərək bir sözə çevrilir və bitişik yazılır. Nəticədə misra səkkiz heca olmaqdan “xilas olur”, janrın tələblərinə ciddi şəkildə əməl olunur, ən əsası isə ritmin pozulmasının qarşısı alınır. A.Lord ifa zamanı misraların ölçüsündə yaranan qeyri-bərabərliyi söyləyicinin necə tənzimləməsi haqqında yazır: “Aydındır ki, söyləyici ifa prosesində şeiri ardıcıl şəkildə sürətlə söylədikcə misraların ölçüsündə bəzən qeyri-bərabərlik yaranır. Şeirin misrası lazım olduğundan bir heca az və ya bir heca çox ola bilər. İfa zamanı bu onu qətiyyən narahat etmir, dinləyici də, çətin ki, belə səhvlərə əhəmiyyət verə, onlar söyləyicinin yaradıcılığında kifayət qədər həllini tapır, demək olar ki, bu kimi əhəmiyyətsiz sapmalar təbii şəkildə aradan qaldırılır” (124, 54).

Misrada heca sayının tənzimlənməsi Aşıq Ələsgər şeirlərində çox uğurla həyata keçirilmişdir. Xalq danışıq dilində ismin təsirlik hal şəkilçisinin saiti çox vaxt tələffüz olunmur. Məsələn, Aşıq Ələsgərin "Görmədim" qoşmasında *Almasın, heyvasın, narın görmədim* misrasında sözlər düzgün yazılış qaydası və ya ədəbi tələffüz forması ilə – *almasını, heyvasını, narını* verilsə idi, onda heca sayı on bir hecadan on dörd hecaya qədər artar, bununla da həm şeirin ahəngi, həm də janr strukturu pozulmuş olardı (2, 44). Və ya "Narın üz" təcnisinin *Almasın dər, gülün iylə, narın üz* misralarında ixtisarla işlənmiş sözlər *almasını*, *gülünü*, *narını* şəklində verilsə idi, şeirin ölçüsünü və bölgüsünü dəyişərdi və bu şeir yaranmazdı (2, 92). *Ürüsxət ver, sözüm deyim qayım ağa* misrası da tələffüz baxımından çox maraq doğurur (2, 92). Misradakı ilk sözün düzgün yazılışı "rüsxət"dir. Söz bu cür yazılsa, misra bir heca azalar. Həmin sırada *sözüm* təsirlik haldadır, lakin xalq tələffüzünə uyğun olaraq son saiti işlənməmişdir. *Ürüsxət* şəklində yazılmış sözü *rüsxət* verməklə bir heca azalan misranı ikinci problemli sözü bir heca artırmaqla (*sözüm+ü*) heca sayını qaydaya salmaq olar. Amma bu zaman xalq şeirinin ahəngində önəmli yer tutan misradaxili bölgü pozulur: heca sayı eyni qalsa da, 4+4+4=12 sintaqmı 3+5+4=12 bölgüsünə dəyişir və səs strukturu pozulur. Elə bu kimi səbəblərdən də folklor materiallarının səsləndiyi tərzdə yazıda əks olunması əsas prinsip kimi götürülür.

**3.** ***Heca sayını tənzimləmək üçün ehtiyac olduğu halda sözdə çatmayan səsi, hecanı və ya sözü mətnə əlavə etmək.*** Məsələn:

(+Mən) Aşiqəm, qəmər qaç,
Gün(+əş) gəlir, qəmər qaç.
Yüz yer(+im)dən yaram var,
Üstünə qan damar qaç (47, 123).

Tərtibçi misrada çatmayan hecaları öz yozumu hesabına müəyyənləşdirmiş, elmi və məntiqi təhlil nəticəsində bu redaktəni məqbul saymışdır. Bununla da misralarda ölçü və bölgü yerinə düşmüşdür. A.Hacılı xalq şeirində estetik məlumatın öz ifadə formasından ayrılmaz olduğunu və forma pozuntularının məzmun dəyişikliyinə gətirdiyini söyləyir (68, 8). Bu fikirlər də sübut edir ki, forma və məzmun dəyişikliyi xalq şeirində estetik cəhətdən naqislik yaradır.

**4.** ***Əvəzlənmiş səslərin səhv yazılmasını və bəzən bunun nəticəsi olaraq bir dialektə məxsus mətnin düşünülmədən başqa dialekt nümunəsinə çevrilməsini aradan qaldırmaq.*** Folklor mətnlərini yazıya köçürərkən *q-k'*, *q-x-ğ*, *k-g-y-h*, *b-f-v*, *t-d*, *p-b*, *s-z*, *a-ı* səs əvəzlənmələrinin müəyyənləşdirilməsində çətinliklər qarşıya çıxır. Çox vaxt yazıda *k-y* əvəzlənməsi düzgün göstərilmir. Söz sonunda samit qarşısında *k* (ke) hərfinin ifadə etdiyi *[x']* səsinin yazıda işarəsi olmadığından səs etibarilə ona ən yaxın olan *h* səsi ilə işarə edilir.

Bizə fələh eliyif,
Quruf kələh eliyif.
Girif güllü baxçama,
Ləl追h-ləlǝh eliyif (84, 410).

Bu nümunədə *fələk*, *kələk*, *lələk* sözlərindən sonra saitlə başlayan söz gəldiyindən sözün sonunda *[y]* səsi eşidilir. Amma axırıncı misrada *lələk* sözü təkrar işlənərək bir məfhumu ifadə edir. Qəribə haldır ki, mürəkkəb sözün tərkibindəki bu iki eyni sözün hər birində son səsin tələffüzü fərqlidir: birincidən sonra samitlə başlayan söz gəldiyindən son samit *[x']* (bu səs folklor mətnlərində yazıda *h* kimi işarə edilir), ikincidən sonra saitlə başlayan söz işləndiyindən *[y]* səslənir. Mətnin düzgün səslənməsi belədir:

Bizə fələ*y* eliyif,
Quruf kələ*y* eliyif.

Girif güllü baxcama
Ləlǝh-ləl*əy* eliyif.

Maraqlıdır ki, mətni yazıya alanlar çox vaxt eyni səhvləri edirlər. Qarabağdan toplanmış bayatı ilə bağlı yuxarıda verdiyimiz yazı səhvlərini "Azərbaycan folkloru antologiyası" seriyasından olan "İrəvan çuxuru" cildində də müşahidə edirik:

Bizə fələh elədi,
Oxun lələh elədi.
Girdi gül baxçamıza
Ələh-vələh elədi (17, 328).

Buradan görünür ki, hər iki toplayıcı söyləyicinin tələffüzünə lazımınca diqqət yetirməmiş, yazıda bu məqamı qüsurlu şəkildə əks etdirmişdir.

Aşağıdakı atalar sözündə əvvəlki vəziyyətin əksi baş verir və Qarabağ folkloruna məxsus bu nümunə bir səsin səhv yazılışı nəticəsində fərqli şivənin əlamətini özündə əks etdirir:

*Təhnədə çörəy qurtaranda vay qaranın gününə,*
*Göyə bulud gələndə vay sarının gününə* (88, 296).

*Çörəy qurtaranda* birləşməsində birinci sözün son səsi (*k-y* əvəzlənməsi baş vermişdir) Bakı-Quba şivəsinin göstəricisidir. Söyləyici isə qarabağlıdır. Qarabağ folkloruna aid digər nümunədə də həmin regiona yad olan tələffüz əlamətləri görünür:

Əzizim, dayanmışam,
Düm göyə boyanmışam.
Daş olsaydım ərirdim,
Torpağdı dayanmışam (86, 388).

Bayatının sonuncu misrasında *torpağdı* sözünün kökündəki *[ğ]* səsi Qarabağ bölgəsinə xas olmayan tələffüz əlamətidir. "Orfoqrafiya və orfoepiya lüğəti"nin tərtibçisi Ə.Əfəndizadə bu barədə yazır: "Qeyd etmək lazımdır ki, Azərbaycan dilinin şərq qrupu dialektlərinə mənsub olanlar (Bakı, Şamaxı, Quba, Salyan və s.) sonu *q* ilə ilə yazılan sözlərdə həmin samiti *[ğ]* kimi

tələffüz edirlər: otağ̆, arığ̆, qatığ̆ və s. (101, 145). Lakin təqdim olunan nümunələr isə Bakı-Quba deyil, Qarabağ bölgəsinin sakinlərindən toplanmışdır. Ola bilər ki, nümunədə verilən mətnlərin söyləyiciləri digər şivənin daşıyıcılarıdır və sözügedən bölgəyə nitqləri formalaşandan sonra köçmüşlər. Bu əlamətlər də onların tələffüzündə qalmaqdadır. Amma kitabda söyləyici haqqında bunları bəyan edəcək məlumatlar yoxdur.

**5. *Bəzi uzun saiti iki hərflə yazmaq.*** Şifahi xalq ədəbiyyatı nümunələrində uzun tələffüz olunan saiti bir sıra hallarda iki dəfə yazmaq zərurəti meydana çıxır. Bəzi məqamlar deyərkən iki və daha artıq mənada başa düşülə bilən sözlər nəzərdə tutulur. Bəzən mətnlərdə tələffüz zamanı sözün hecası ixtisar edilir və ixtisardan əvvəlki səs uzun tələffüz olunur. Bu zaman həmin səsi bir hərflə yazmaq yanlış nəticəyə gətirib çıxara bilər: *şəhərə*; *deyir* (ədəbi dildə) – *şəərə*; *deer* (folklor mətnində). Məsələn:

*Ayın-oyununu götirdi, gəldi həmin şəərə, bir tükan açdı, başdadı arvatdarçün bəzəy şeyləri düzəldib satmağa* (106, 149).

Burada *şəhərə* sözü yerli tələffüz şəklində *şəərə* kimi verilmişdir. Həmin sözdə qoşa saitdən birinin yazılmaması onun başqa mənada başa düşülməsinə səbəb ola bilər: *şərə*, yəni *şər işə*. Xalq ədəbiyyatı nümunəsində bir neçə yozumu ola bilən sözdə uzun tələffüz olunan səsin bir hərflə yazılması bir sıra hallarda həmin sözə başqa məzmun verir və nəticədə oxucu fikirini doğru olmayan səmtə yönləndirir. *Mənə*, *sənin*, *mənim*, *kitabını* və s. sözlərdə də mətn daxilində belə mənzərə yaranır. Məsələn, *sənin kitabını* birləşməsində ikinci söz bir sıra bölgələrdə *kitabıı* formasında tələffüz edilir. Bu sözdə iki *ı* səsi işlənir. Bunlardan biri yazılmasa, ifadə olunan mənadakı dəqiqlik itəcək. Həmin söz həm təsirlik halda – *kitabı*, həm üçüncü şəxsin təkində mənsub əşya – *onun kitabı* kimi başa düşülə bilər. Lakin qeyd etdiyimiz söz ikinci şəxsin təkinə

aiddir. Fikrin dəqiq çatdırılması üçün uzun tələffüz olunan səsi belə məqamda iki hərflə yazmağa ehtiyac duyulur. Aşağıdakı nümunələrdə də bu aydın görünür:

*Diyir: Məə bir sərəncam olufdu, Ləkidə filankəs, filankəs, filankəs var, üçü məə müraciyət elədi ki, u Xıdır babaya di, bir az da gəlsin biznən söhbət eləsin... İndi mən səə u vəsini diyirəm, u tərəfini də özün bilərsən. ... Gəlir səən yana, salam verir, sənnən diləh diliyir, sənin nə diləyin varsa, unnan isdiyirsən* (24, 72-73).

Göstərdiyimiz nümunədə sözlərin səslənməsi, demək olar ki, yazıda çox məharətlə əks etdirilmişdir. Bu mətndə *sənin – səən*, *səndən – sənnən*, *dilək – diləh*, *ondan – unnan*, *istəyirsən – isdiyirsən* sözlərinin tələffüz şəkli çox düzgün verilmişdir. Bir cümlədə iki dəfə *sənin* sözü işlənmişdir. Ancaq onlar fərqli tələffüz edilmiş və fərqli də yazılmışdır. Bunu təbii hal hesab etmək olar. Haqqında danışdığımız cümlədə yalnız bir sözün tələffüzü səhv göstərilmişdir. Bu, *yanına* sözüdür, amma hazırda yazıldığı formada (*yana*) başqa məna ifadə edir və cümlədə anlaşılmazlıq yaratmışdır. Mübahisəli məqamlarda səs yazısını təkrar-təkrar dinləməklə həmin sözü səslənişinə uyğun yazmaq olardı. Böyük ehtimalla, burada həmin söz *yanaa* kimi tələffüz olunmuşdur. Nümunələrdə verilən sözlər bir daha sübut edir ki, həmin sözlərdə uzun səsi bir hərflə işarə etmək səhv nəticəyə gətirib çıxarar: *sora/soora* (sonra), *yana/yanaa* (yanına), *şərə/şəərə* (şəhərə), *sən/səən* (sənin) və s.

Haqqında danışdığımız problem aşağıda göstərilən ağıda uğurla həll edilmişdir:

Qurbanam *gözdəraa*,
Müşdağam *sözdəraa*.
Yalvarram ilannara,
Dəyməsin *gözdəraa* (84, 424).

**6. *Kütləvi nəşrlərdə bəzi arxaik və regional əlamətləri imkan daxilində ümumişlək variantlarla əvəzləmək.*** Məsələn, bir neçə atalar sözlərində buna diqqət edək:

*Tazə* kuzə suyu sərin saxlar (5, 34).
Haram mal bərəkət *dutmaz* (5, 36).
Dərdini gizləyən davasını *bulamaz* (5, 37).

Göstərilən mətnlərdə *tazə*, *dutmaz*, *bulamaz* sözləri arxaik tələffüzü şəklində verilmişdir. Elmi nəşrlərdən fərqli olaraq, kütləvi nəşrlərdə həmin sözləri bugünkü tələffüz formasında verməyi daha münasib hesab edirik. Məsələn, *tazə/təzə*, *dutmaz/tutmaz*, *bulamaz/bula bilməz* və s.

Aşağıdakı nümunə H.Əlizadənin tərtib etdiyi "Koroğlu" dastanındandır. Yerli tələffüz əlamətnə nəzər yetirək:

*İstanbul xotkarının Niyar addı bir gözəl qızı vardı. Koroğlu Niyar xanımın gözəlliyi sorağını almışdı, qızı almağ istəyirdi* (82, 12).

Burada dastanın müsbət qadın obrazının adının bir çox bölgələrdə *Niyar* şəklində tələffüz edilməsi diqqət çəkir. Xalq arasında geniş şəkildə yayılmış M.Təhmasibin "Koroğlu"sunda bu ad, çox doğru olaraq, ədəbi tələffüzdə – Nigar şəklində verilmişdir. Azərbaycan ailələrində yeni doğulmuşlara ad qoyarkən çox zaman müsbət ədəbi qəhrəmanlar arasından seçim edilir. Əgər dastanın bütün variantlarında bu ad *Niyar* kimi yazılsa idi, onda Koroğlunun Nigarının adını daşıyan qızlar *Niyar* çağırılmalı, Azərbaycan operasının şah əsəri olan "Koroğlu"da məşhur ariya "Sevdim səni mən, ey Niyarım" deyə regional tələffüz əlaməti ilə ifa edilməli idi. Deməli, sözlərin kütləvi nəşrlərdə şivə xüsusiyyətləri ilə deyil, ümumişlək formada verilməsinin gənc nəslin nitqinin inkişafına, ədəbi tələffüzünün təhriflərdən qorunmasına və düzgün formalaşmasına əhəmiyyətli təsiri ola bilər.

Kütləvi nəşrlərin oxucuları müxtəlif kateqoriyalara mənsub insanlardır. Müasir nitqimizdə işlək olmayan tələffüz formaları onların bəzilərində çaşqınlıq yaradar, nitqlərinə sirayət edə bilər. Odur ki, kütləvi nəşrlərin hazırlanmasında bir qədər "dərindən" işləmək lazım gəlir. Şamil Cəmşidin "Dədə Qorqud kitabı"nın "Məktəb kitabxanası" seriyasından nəşrinə yazdığı müqəddimə kütləvi nəşrlərin tərtibi üzərində işləmək üçün düzgün istiqamət verir. Tərtibçi-müəllif bu barədə yazır: "Kitabi-Dədə Qorqud" uzun illərdir ki, orta məktəblərimizdə tədris edilir. Şübhəsiz ki, dastanın qədimliyi, mətndən-mətnə köçürülərkən katiblərin buraxdığı səhvlər və bir çox sözlərin arxaikliyi məktəblilər üçün çətinlik törədir. ... "Məktəb kitabxanası" seriyasından çap edilən bu kitabda isə dastanın bütün boyları verilmiş və onun dilini yaradıcı surətdə sadələşdirməyə səy göstərilmişdir. Əsərin, demək olar ki, nəzm hissəsi müasir formada yenidən işlənmiş, məktəblilər üçün lazım bilinməyən söz və ifadələr ixtisar edilmişdir. Bununla bərabər, abidənin klassik üslubu saxlanılmışdır" (55, 9). Bu fikirlər bir daha sübut edir ki, kütləvi nəşrlərdə mətnin dilinin sadələşdirilməsinə, bəzi arxaik, həmçinin regional leksikanın imkan daxilində ümumişlək sözlərlə əvəzlənməsinə ehtiyac var. Uşaq folklorunun tərtibində isə bu həm də çox vacibdir.

**7.** ***Eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərdə vurğu işarəsini qoymaq.*** Vurğu şifahi nitq elementi olduğu üçün yazıda işarə edilmir. Bu işarə yazıda sözlərin üzərində adətən əcnəbi dilin öyrədilməsi zamanı qoyulur və tədris xarakteri daşıyır. Lakin folklor kitablarında vurğusuna görə iki cür səsləndirilə bilən sözlərdə bəzən bu işarədən aydınlaşdırma məqsədilə istifadə olunur. Rus folklorşünasları lazım olan məqamlarda vurğu işarəsini sözün üzərinə yazmaqla rusdilli oxucu üçün bu qiraət köməyini yerinə yetirir-

lər. Əlyazmalar əsasında hazırlanmış “Rus atalar sözləri və deyimləri” kitabından nümunələrdə bunu görmək olar:

*Дорога' помощь во время скудости* (127, 170).

*Не было ни гро'ща, да вдруг алтын* (127, 181).

Azərbaycan dilində elə sözlər var ki, vurğusu dəyişməklə mənası dəyişir. Həmin sözün hansı variantda işlənməsi mətn daxilində aydınlaşır. Bəzən müxtəlif səbəblərdən (ola bilsin ki, sözün variantlarından biri ümumişlək deyil) sözün ilkin düşünülən mənası qavranılır, fərqinə varılmadığı üçün mətndəki əsas məna kölgədə qalır, ikinci məna nəzərə alınmır. Aşağıdakı nümunələrə nəzər salarkən görünür ki, seçilmiş sözlərin üzərində vurğu qoyulmazsa, həmin sözləri oxuyan zaman ilk olaraq ümumişlək versiyası qavranılacaq. Məsələn:

Bülbül kişidi' gəldi,
Dərdə tuş idi, gəldi.
Bülbül yaz havasına
Hələ qış idi gəldi (27, 124).

Dilimizdə az hallarda işlənən *kişimək* feili (kişləmək – “kiş” deyərək toyuqları, quşları qovmaq (12, 715) sözündəndir – X.K.) seçdiyimiz nümunədə vurğusuna görə iki cür tələffüz oluna bilər. Mətndə ifadə olunan mənanın oxucuya düzgün çatdırılması üçün vurğulu hecanın yazıda fərqləndirilməsinə ehtiyac duyulur.

*Kişidi* sözünün iki tələffüz formasından biri ümumişləkdir və bu cür tələffüz olunur: *kişi'di*. Ümumişlək olmayan digər variantı isə *kişidi'* kimi səslənir. Məhəbbət mövzusunda olan bu bayatıda aşiqin fədakarlığından söhbət gedir. *Kişimək* feilinin mənasını bilməyən oxucu mətndə *kişidi* sözünü, çox güman ki, aşiqin – bülbülün *kişi cinsindən olması* kimi başa düşəcək. Lakin burada *kişimək* bülbülün tərəddüd etmədən, fədakarcasına uçub sevgilisinin görüşünə gəlməsi fikrini ifadə

edir. Çoxlarına məlum olmayan bu sözün mətndə tələb olunan mənasını oxucuya vurğu işarəsi anlada bilər.

Aşıq Ələsgərin məşhur "Dağlar" qoşmasında da buna oxşar vəziyyətlə qarşılaşırıq:

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşmədən gözəl yığnağın.
Axtarma′ motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı dağlar! (2, 21)

Burada *axtarma* sözünü həm feilin əmr şəklinin inkarı kimi (II şəxs, tək), həm də adlıq halda olan isim kimi başa düşmək olar. Dilimizdə Azərbaycanın milli mətbəxində hazırlanan pendir növlərindən biri olan *axtarma* sözü də mövcuddur. Verilən mətndə bu söz iki cür tələffüz oluna bilir: birinci halda vurğu ikinci, ikincidə isə üçüncü hecaya düşür. *Axtarma* motalı çoxlarına tanış olmadığından onun mətndəki mənasını yalnız bir qisim oxucu anlaya bilər. Üzərində vurğusunu qoymaqla oxucunun diqqətini sözün düzgün semantikasına yönəltmək olar. Bu zaman şərh verilməsinə də ehtiyac yaranır: *Axtarma* üzlü pendir mənasında işlədilən dialekt sözüdür (11, 45).

**8. *Vulqar sözləri mətndə xüsusi üsulla vermək.*** Bədii ədəbiyyat özündə tipik hadisələri əks etdirir. İnsanlara mənəvi-əxlaqi dəyərlər aşılamaq onun əsas vəzifələrindən olduğu üçün mövzu və ideyası da bu məqsədə xidmət edir. Şifahi ədəbiyyat bədii ədəbiyyatın bir qolu olduğundan bütün bunlar folklora da eyni dərəcədə aiddir.

El arasında belə bir ifadə var: *gül ağzımı açdırma*. Məcazi mənada işlənmiş bu kinayəli ifadə adətən dialoq zamanı qarşı tərəfə söhbətin mənfiyə doğru yönəlməsi haqqında etik bir mesajdır, səsləndirilməsi məqbul sayılmayana keçid etməsinə işarədir. *Gül ağızın açılması* danışan şəxsin normal haldan çıxması, mənfi emosiyaların nitqdə təzahür etməsi anıdır. Əgər nəzərə alsaq ki, bədii üslub obrazlılıqla emosionallığın birgə

təzahürüdür, onda, deməli, mənfi emosiyaları əks etdirən söz və ifadələrin də bədii əsərdə yer alması qaçılmazdır. Məişət leksikasında çox sayda vulqar ifadələr var ki, ədəbi dildə istifadəsi yolverilməzdir və bunlar vulqarizm adlanır. "Vulqarizm ədəbi dil normalarına zidd olan qaba (qeyri-ədəbi) söz və ya ifadələr"dir (14, 490). Daha çox sadə xalqın ədəbiyyatı olan folklorda bu leksik vahidlər işlənmə tezliyinə görə xeyli aktivdir.

Vulqarlıq baxımından xalq ədəbiyyatı nümunələrini iki qismə ayırmaq olar:

1. Məntiqi, mövzu və ideyası vulqar olan, əxlaqa zidd, ədəb-ərkana sığmayan mətnlər;

2. Tərkibində vulqarizmlər işlənən, amma sağlam məntiqi olan, mənəvi dəyərləri təbliğ edən mətnlər.

Birinci qismə aid olan, yəni qeyri-sağlam düşüncədən qaynaqlanan bu əsərlər insanda ikrah hissi oyadır. Bu cür mətnlərin nəşri cəmiyyətdə əxlaqsızlığın, mənəvi eybəcərliyin təbliği kimi qəbul olunur. Ola bilər ki, bu mətnlərin tərkibində heç vulqar söz işlənməyib, amma vulqarlıq, bayağılıq mətnin məzmununda, təbliğ etdiyi mənadadır.

A.N.Afanasyev rus xalq nağıllarının görkəmli toplayıcılarından olmuşdur. Onun topladığı materiallar 1855-ci ildən indiyədək dəfələrlə nəşr olunmuşdur. Lakin bunların içərisində bir sıra nağıllar vardır ki, senzuradan keçmədiyi üçün Rusiyada nəşr olunmasına içazə verilməmişdir. Bu nağıllar bir toplu halında "Nəşrə münasib olmayan rus xalq nağılları" adı altında cəmlənmişdir. B.A.Uspenski bu nağıllar haqqında yazır: "Afanasyevin bu toplusunun əsasını ədəbsiz və erotik məzmunlu nağıllar təşkil edir. Bu cür nağıllar rus məişətində geniş yayılmışdır; yalnız müəyyən auditoriyalarda və görünür, xüsusi situasiyalarda danışılır, kənd mühitində hələ də işləkdir" (130, 130).

Göründüyü kimi, rus ziyalı mühiti erotik, ədəbsiz mətnlərin nəşrinə, təbliğinə icazə verməmişdir. Oxucunun gözünün bu

cür mətnlərə adət etməməsi, onların həyatında əxlaqi, məntiqi naqislik və qüsurların normaya çevrilməməsi üçün belə əsərləri təbliğ etmək, kitab səhifələrinə çıxarmaq məqbul sayılmır.

Bu bir həqiqətdir ki, vulqar sözləri kitabda açıq-aşkar yazmaq, ədəbsizlik və əxlaqsızlıq təbliğ edən əsərləri ictimaiyyətə təqdim etmək Azərbaycan xalqının ədəb-ərkanına sığmır. Kitab informasiya inqilabının çox mühüm mərhələsi olduğu üçün insan təfəkküründə ona mötəbər bir yanaşma var: o şey ki, kitabda yazılıb, deməli, elə-belə deyil, bir dəyəri var, yəni yolveriləndir, cəmiyyətdə buna icazə var. Yuxarıda birinci qismə aid etdiyimiz əxlaqi cəhətdən zərərli olan vulqar nümunələrin kitab səhifələrində yer alması insanlığa, xüsusən hələ əqli cəhətdən kamilləşməmiş kəslərin düşüncəsinə, zövqünə, tərbiyəsinə böyük zərbə vurmuş olar.

İkinci qismə daxil olanlar isə tərkibində vulqar sözlər işlənmiş elə mətnlərdir ki, çox dəyərli məntiqi ilə əsrləri aşaraq yaşamaq haqqı qazanmışdır. Lakin vulqar ifadələr həmin nümunələrin işlənmə aktivliyini aşağı salır: hər auditoriyada onları səsləndirmək etik baxımdan mümkün olmur. Adətən bu cür mətnlər qarşı cinsin nümayəndəsi iştirak etməyən dinləyici, tamaşaçı auditoriyasında ifa edilir: aşıqlar qadın olmayan məclislərdə həcvlər söyləyir, qadınlar kişi olmayan yığıncaqlarda rahatlıqla bu cür nümunələri səsləndirə bilirlər. Lakin yazıya gələndə vəziyyət başqalaşır. Oxucu auditoriyasında cins, yaş, sosial mənsubluq nöqteyi-nəzərindən heç bir məhdudiyyət olmadığından, nəşr olunmuş əsərlər hər kəsin ixtiyarındadır.

Söyləyici ifa zamanı çıxışında fikrinin ifadəsi üçün lazım gələn istədiyi dil vahidləri və nitq elementlərindən istifadə edir, dünyagörüşü, təfəkkür tərzi, xarakteri, malik olduğu söz ehtiyatına uyğun şəkildə mətnini təqdim edir. Bu zaman o, bir müəllif kimi loru sözlərdən, vulqarizm, dialektizm, jarqon, varvarizmlərdən istifadə edə bilər, halbuki yazılı ədəbiyyatda

müəllif dilində bu qrupdan olan sözlərin işlənməsi yolverilməzdir. Bunların içərisində vulqar sözlər daha ağır "statusa" malikdir. Şifahi nitqdə qərəz olmayan məqamlarda vulqar sözü söyləməzdən əvvəl üzrxahlıq məqsədilə "üzüm ayağının altına", "ayıb olmasın", "türkün sözü" və s. ifadələr işlədilir ki, bununla da söyləyici auditoriya qarşısında "icazəli" hesab olunur.

Unutmaq olmaz ki, şifahi xalq ədəbiyyatı daha çox yazıb-oxumağı bacarmayan "türkəsaya" insanların ədəbiyyatı olmuşdur. Onlar fikir və emosiyalarını ifadə etmək üçün kübar ifadələr axtarmamış, düşündüklərini səmimi şəkildə ifadə etmişlər.

Arxiv materialları üzərində işləyərkən bəzi tərtibçilər tərəfindən vulqar sözlərin ədəbə uyğun qarşılığı ilə əvəzləndiyinin də şahidi olduq. S.Cəfərovun vulqar sözlərin şifahi nitqdə istifadəsi haqqında fikirləri maraq doğurur: "Şifahi dili ədəbi dil səviyyəsinə yüksəltmək və onda ümumi ədəbi dil normalarını sabitləşdirmək, dilin ifadə saflığını saxlamaq məqsədilə vulqar leksikaya qarşı mübarizə aparmaq lazımdır. Vulqar leksika dilin bədiiliyini, obrazlılığını, bir sözlə, gözəlliyini pozur, bayağılaşdırır, qaba və kobud şəklə salır... Bu məqsədlə vulqar sözlərin əvəzində onun sinonimi olan və ifadəni səliqəyə salan evfemistik sözlərin işlədilməsi məsləhət görülür..." (52, 97-98). Lakin folklor mətnində – istər nəsr olsun, istərsə də nəzm, bir sözü götürdükdə və ya başqası ilə əvəz etdikdə obrazlılığın müəyyən səviyyələrində, daha çox isə fonetik və leksik səviyyədə itkilər baş verir: məcazlar itir, ahəng pozulur, alliterasiya, assonans zəifləyir, bəzən də yox olur. Eyni zamanda, folklorşünaslıq elmi xalqdan toplanmış nümunələri nəşrə hazırlayarkən söyləyici mətninə müdaxiləni yolverilməz sayır. Folklor mətnlərində kənardan edilən dəyişikliklərin nəticəsi haqqında fikirlərini F.Zeynalov və S.Əlizadə "Kitabi-Dədə Qorqud"un müqəddiməsində belə izah edirlər: "Biz dastanların nəsr və nəzm hissəsində hər bir cümlə daxilində söz və ifadələrin mənasının itməməsinə

və təhrif olunmamasına çalışdıq... "Kitabi-Dədə Qorqud" kimi spesifik bir abidənin "müasirləşdirilmə"sində alliterasiyanın pozulması, obrazlı sözlərin bəzən çılpaqlaşması labüddür. Belə hallarda poetik ahəng və məna xatirinə, bütövlükdə "bədii effekt" naminə hər hansı sözün sinonimlərindən istifadə etmək, daha "təsirli" sözlər tapmaq olar. Lakin həmin üsul da məzmun təhrifinə gətirib çıxarır, bu və ya digər sözün həqiqi (müstəqim) mənasını bizim necə qavradığımız məlum olmur" (80, 28).

Vulqar sözlər paremioloji vahidlərdə daha işləkdir. Diqqət yetirəndə aydın olur ki, tərkibində vulqar sözlər olan əksər mətnlərdə çox güclü məntiq var və bu nümunələr fikrin ən kəsə, ən mükəmməl ifadə formasıdır. Lakin başqa xalqlardan fərqli olaraq, Azərbaycanda belə mətnlərin toplanması və nəşri sahəsində bu işlə məşğul olan hər kəsin özündən qaynaqlanan bir məhdudiyyət var. Faktdır ki, əksər folklor kitablarında o nümunələr, demək olar ki, əksini tapmır.

Müxtəlif dövrlərdə bu problemə fərqli yanaşılmışdır. Türk dünyasının ilk ensiklopediyası sayılan "Divanü lüğat-it-türk" əsəri böyük dilçi alim Mahmud Kaşğarinin həm toplayıcı, həm tərtibçi kimi mükəmməl fəaliyyətinin nəticəsidir. XI əsr abidəsi olan "Divan" türk xalqlarının tarixini, dilini, folklorunu, etnoqrafiyasını öyrənməkdə əvəzsiz qaynaqlardandır. M.Kaşğari sözləri istisnasız şəkildə toplayaraq lüğətində vermişdir. Lüğətdə vulqar sözlər də özünə yer almışdır. Müəllif həmin nümunələri ümumişlək sözlərdən fərqləndirmədən, söyləndiyi tərzdə yazaraq təqdim etmişdir.

M.Kaşğari divanının tədqiqatçısı A.Xəlil "M.Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər" əsərində elmi araşdırmalarla yanaşı, bir qisim mətn də təqdim etmişdir. "Deyimlər" adlanan bölmədə M.Kaşğarinin açıq şəkildə yazdığı vulqar sözü araşdırmaçı nöqtələrlə əvəz edərək vermişdir:

*Ölümü çatan siçan pişik ... qaşıyar* (74, 77).

“Divanü lüğat-it-türk” əsəri Azərbaycan dilinə tərcümə edilmiş, nəşr edilərək oxucuların ixtiyarına verilmişdir. Tərcümənin müəllifi R.Əskər vulqar sözlərin verilməsində M.Kaşğarinin üslubunu saxlamışdır. Yuxarda göstərdiyimiz nümunəni də tərcüməçi müəllifin üslubuda vermiş, sözləri tam halda yazaraq təqdim etmişdir (Kitabda söz bütöv halda yazıldığı üçün burada nümunəni qeyd etməyi məqsədəuyğun hesab etmədik – X.K.) (76, 430). Bu deyimdə ifadə olunan fikir əslində ədəbə bir çağırışdır.

“Oğuznamə”nin tərtibçisi S.Əlizadənin mətnlərdə vulqar sözlərin verilməsi haqqında qeydləri də diqqət çəkir: “Oğuznamə”də vulqar səciyyəli vahidlər də müəyyən yer tutur. Mənfi ekspressiya daşıyan belə parnoqrafik nümunələr mahiyyətcə xalqın həyat və məişətindəki neqativliyə qarşı çevrilmiş, sanki “şəri şər öldürər” prinsipi ilə yaranmışdır. Elin “gül ağzı”ndan çıxan kəlamlar nə qədər “arsız və biədəb” görünsə də, məhz hər cür etinasızlığa, laqeydliyə, arsızlığa qarşı təbii tənqid, özünütənqiddir, həm öz qəbahətini etiraf etməkdir, həm də təkzibdir, islah və tərbiyə yoluna çağırışdır”(100, 12).

Tərtibçi qeyd edir ki, “Oğuznamə”də iki situasiyada: həm oxunması mümkün olmayan sözlərin, həm də vulqar ifadələrin yerində çoxsaylı nöqtələrdən istifadə etmişdir (100, 17). Vulqar sözləri mətndən çıxararaq nöqtələrlə əvəz etməsi tətibçinin bu sözlərin nəşri qaydasına münasibətini göstərir. Məsələn:

*At kimin, ... kimin* (100, 20).

*İt ... yeməklə dəniz murdar olmaz* (100, 26).

Həm vulqar sözlərin, həm də oxunması mümkün olmayan sözlərin “Oğuznamə”də eyni üsulla verilməsi oxucunu iki yol ayrıcında qoyur: həmin nöqtələrin konkret hansı məqsədlə qoyulduğunu müəyyənləşdirmək olmur. Məsələn:

*........ahəng olmaz* (100, 31).

*.........yaşıl-qızıl gərəkmiş* (100, 114).

*Dil bazarı........?* (100, 105).

Əgər tərtibçi vulqar sözlərin, heç olmasa, bircə hərfini yazsa idi, ifadə olunan fikrin düzgün yozumunda oxucuya böyük yardım etmiş olardı. Həm də bununla tərkibində vulqarizm olan mətnlə oxunması mümkün olmayan nümunəni bir-birindən fərqləndirmək asanlaşardı.

"Əmsali-türkanə" (türk atalar sözləri) kitabında da tərkibində vulqar söz işlənmiş xeyli sayda nümunələr yer almışdır. Həmin sözlərin verilməsində vahid prinsip gözlənilməmiş, bir kitab daxilində bu nümunələr müxtəlif üsullarla verilmişdir:

1. Vulqar söz tam şəkildə yazılmışdır;
2. Vulqar sözün yalnız baş hərfi verilmişdir;
3. Vulqar sözün baş və sonuncu hərfi verilmişdir;
4. Vulqar sözün birinci hecası yazılmışdır;
5. Vulqar sözün birinci və sonuncu hecaları yazılmışdır və s.

Məsələn:

*Çalasıya gələn çanağın g... qısmayupdur* (63, 23).

*Hesab bilmirsən, ya g...n çubuq görməyib?!* (63, 26)

*Qəh... olmayan qəh...xanada neylər* (63, 46).

*Qəh...nin qazanduğı ənlik və kirşana gedər* (63, 45).

M.Qəmərlinin də "Atalar sözü" kitabında bir neçə mətndə vulqar söz işləndiyini görürük. Müəllif bu sözləri səsləndiyi kimi tam formada kitabda vermişdir. M.Qəmərlinin dövründə bu sözlərin nəşrdə verilməsi təcrübəsi olmamışdır. "Vulqar söz və ifadələrin, parnoqrafik paremilərin yazı dilinə yol tapması gözlənilməz deyildir. Erkən orta əsrlərdə, eləcə də sonralar yaranan kitab mədəniyyəti vulqarizm üzərində nəzarət qoymamışdır" (100, 12).

Sovet dövründə folklor kitablarında vulqar sözlərin verilməsinə münasibət birmənalı olmuşdur. Tərkibində vulqar söz olan mətnlər bu dövrə məxsus kitab səhifələrində görünmür.

Yazılı ədəbiyyatda vulqar söz və ifadələr nəşrdə nöqtələrlə əvəz olunur. İlk oxunma anında bu sözlər oxucuya dəqiq aydın olmasa da, ümumi məzmun və qafiyə həmin nöqtələri bir qədər açıqlayır. Q.Zakirin "Ağarıbdır" şeirinə diqqət yetirək:

Keşdi o ki, zövq eylər idin gahi səfərdə,
Evdə oturanda meyü məhbub nəzərdə,
İndi dəxi yox tabü təvan canu cigərdə,
Gah yanın ver balişə, gah çıx güvənərdə,
Çək kürkün ucun başına ... ağarıbdır (118, 354).

Və ya:

Sən açıldın, mənim üçün yaz deyil,
.....................................................
Məndən çiçək gözləyənlər az deyil.
Gül verməərəm daha heç bir kəsə mən,
Sən çiçək aç, dərəcəklər, yasəmən (79, 210).

Birinci nümunədə buraxılmış vulqar söz, ikincidə isə misra nöqtələrlə əvəz edilmişdir. Haqqında danışdığımız hər iki kitab covet dövründə nəşr olunmuşdur və bu nümunələrdən həmin dövrdə vulqarizm işlənmiş mətnlərin tərtibinə münasibəti görmək mümkündür.

H.Zeynallı sovet dövrünün ilk illərində nəşr etdirdiyi "Atalar sözü" (1926) kitabının müqəddiməsində vulqarizmlərin yazıda verilməsinə münasibət bildirərək yazır: "Son dərəcə ədəbsizləri buraya yazmadıq. Onu da ayrıca bir kitab halında çap etmək mümkündür. "Ədəbsiz" namı altındakı atalar sözü məna etibarilə dərin, kinayəcə qayət kəskin və narın olanlardır. Bunlar əksəriyyətlə fiziologiya məsələlərinə və o vəzaifi ifa edən cihazlara aiddir. Bu da orta dərəcə ziyalılıq nəzərində "ədəbsiz" sanılır (119, 140). "Orta dərəcə ziyalılıq nəzərində "ədəbsiz" sanılan" vulqar sözləri bu gün kitablarda aşkar yazmaqla Azərbaycan folklorşünaslığının nə qazanıb, nəyi itirəcəyini bir qədər dərindən araşdırmağa ehtiyac var.

AMEA Folklor İnstitutunun qərarı ilə 2013-cü ildə nəşr olunmuş "Atalar sözləri" kitabında Azərbaycan folklorşünaslığı tarixində bugünədək ayrıca kitab, jurnal və toplu kimi çap olunmuş doxsana yaxın mənbədə, müxtəlif əlyazmalarda mövcud olan atalar sözləri öz əksini tapmışdır. Kitabın tərtibçisinin vulqar sözlər işlənmiş atalar sözlərinə yanaşması maraq doğurur: "Bir şeyi də nəzərə çatdırmaq istərdik ki, qeyrietik ifadələr işlənmiş atalar sözlərini tərtibə daxil etmədik. Birincisi, söyləyicilər tərəfindən söylənsə belə, bu tip nümunələr geniş oxucu kütləsi üçün nəzərdə tutulmamışdır. İkincisi, tədqiqatçılar üçün nəzərdə tutulsa belə, görəsən bu nümunələr hansı prizmadan tədqiqat obyektinə çevrilə bilər?! Etik normalara zidd olan bu tip nümunələr, bizcə, insanlarda ikrah hissi doğuraraq onları özünə nəzarətdən çıxarır. Üçüncüsü, əgər bu nümunələrin çap olunması, doğrudan da, vacibdirsə, tamamilə ayrı şəkildə bir sıra adamlar üçün nəşr oluna bilər" (4, 16).

Tərtibçinin qeyd etdiyi kimi, vulqar ifadələr işlənmiş nümunələr kitaba salınmamışdır. Lakin düşünürük ki, yuxarıda göstərilən vulqarizmlər işlənmiş ikinci qrup mətnlərə aid dəyərli xalq hikmətlərini xüsusi üsulla bu kitabda vermək və bununla da həmin nümunələri unudulmaqdan qorumaq olardı.

Əvvəlki dövrlərdən fərqli olaraq, müstəqillik dövrünün son illərə aid bəzi nəşrlərində vulqar sözlər işlənmiş mətnlər də verilmişdir. Bu sözlərin mətndə yazılış tərzi ifadə olunan fikri oxucuya həm üstüörtülü, həm də anlaşıla bilən formada çatdırır. Aşağıdakı mətndə söyləyici auditoriyanı nəzərə alaraq nəzmlə olan mətndə vulqar söz işlənmiş misranı söyləmir, özündən uyduraraq daha yumşaq, həmin fikri deyilməsi mümkün olan variantda ifadə edir. Nümunə belədir:

*Arvad elə belə deyə-deyə canın tapşırır. Can verən anda deyir: "İz eşşəyin izidi, fil gəlinin filidi. İşdi, işdi, yarəbb, nəynən işdi?" Gəlin gəlir deyi ki:*

*Eşşəyi mindi,*
*Avgərdəni götdü,*
*Getdi dooğanı işdi,*
*Səni də cəhənnəmə göndərdi.*

Toplayıcı və tərtibçi (haqqında danışdığımız nəşrdə bu iki işin müəllifi eyni şəxsdir) səhifənin sonunda söyləmə prosesi zamanı yaranmış situasiyanı təsvir edən şərh vermişdir:

*Sonuncu misra imanına s..dı olmalı idi. Misranın yarısını deyən söyləyici arxası biədəb gəldiyi üçün onu dəyişdirir* (115, 127).

Oxucu həmin şərh vasitəsilə mətndə buraxılmış sözü tam şəkildə müəyyənləşdirə bilir.

Mustafa Gökçəoğlu "Kıbrıs Türk Atasözleri ve deyimler sözlüğü" kitabında istisnasız olaraq bütün atalar sözlərini vermişdir. O, nümunələrdəki vulqar sözləri yazılışına görə digərlərindən fərqləndirmişdir: həmin sözlərin ilk hərfini yazmış, sonra nöqtələr qoyub sözün son hərfini vermişdir. İlk və son hərflər oxucuya mətnin məzmunu, ahəngi və qafiyəsinə əsasən aradakı nöqtələri yozmağa, buraxılmış sözü yəqin etməyə imkan verir, ifadə olunan fikri tam şəkildə anlamağa kömək edir:

*B.kunu yeyecek aptal kaşığını beraber taşısın* (*suç işlemeye niyeti olan bedelini ödemeye hazırlansın*) (121, 167).

M.Gökçəoğlunun tərtibçi kimi digər təqdirəlayiq işi isə atalar sozünün hansı kontekstdə işlədildiyini mətnin qarşısında göstərməsidir. İzahdan bir daha aydın olur ki, tərkibində vulqar söz işlənmiş bu mətn əxlaqa, ədəb-ərkana bir çağırışdır.

Rus folklorşünaslarının da vulqarizm işlənmiş mətnlərə özünəməxsus yanaşmaları var. Onlar vulqar sözləri nəşrdə müəyyən məhdudiyyətlərlə verirlər. Həmin nümunələrdə "Ədəbə uyğun gəlməyən sözlər nöqtələrlə əvəzlənir" (127, 20). Məsələn:

*Попович – вор, а поповина – ...* (127, 106).

*Подле пчелки – в медок, а подле жучки – в ... попадешь* (127, 106).

Bütün bu araşdırmalar göstərir ki, mətnində vulqarizm olan əsərlərin yazıya alınmasına müxtəlif dövrlərdə fərqli yanaşmalar mövcud olmuşdur:

a) Mətn nəşrə münasib sayılmamışdır;

b) Vulqar söz və ifadələr səsləndiyi kimi və açıq-aşkar yazılmışdır;

c) Vulqar söz buraxılaraq yerinə nöqtələr qoyulmuşdur;

d) Vulqar sözün yalnız baş hərfi yazılmış, qalan hissəsi nöqtələrlə əvəzlənmişdir;

e) Sözün ilk və son hərfləri verilmiş, buraxılan hərflərin yerinə nöqtələr qoyulmuşdur;

f) Vulqar söz ədəbi dil qarşılığı ilə əvəzlənmişdir və s.

Atalar sözlərində vulqar söz və ifadələrdən daha aktiv şəkildə istifadə olduğundan nümunələrimizi əsasən bu janrdan seçdik.

Xalq ədəbiyyatında, demək olar ki, hamının bildiyi, lakin ictimaiyyət qarşısında səsləndirilməsi və kitablarda yazılması məqbul sayılmayan vulqar sözlərin nəşrdə müəyyən məhdudiyyətlərlə verilməsi xeyli folklor nümunələrinin unudulmasının qarşısını ala bilər. Dilimizin morfonologiyası – incə və ya qalın saitlərin ahənginin söz kökündən şəkilçiyə doğru hərəkət etməsi yazıda buraxılmış hərflərin yozumunu asanlaşdırır. Bunun üçün vulqar sözün ilk hərfi yazılır, nöqtələr qoyulur, varsa, şəkilçisi və ya şəkilçiləri bütöv yazılır. Azərbaycan dilinin səs sistemində elə nüanslar var ki, ifadə olunan fikri kiçik bir səs elementi ilə işarələməklə nəinki "arifə", hətta arif olmayana da anlatmaq olar. Damaq və dodaq ahəngi, açıq və qapalı saitlərin sözdə nizamı yalnız nəzmdə deyil, hətta nəsrdə də qafiyə yaradır. Mətndə qafiyə təşkil edən sözlərdən birinin yeri boş qoyularsa, digər qafiyələnən sözlərlə onu yozub yerinə qoymaq mümkündür. Tam şəkildə yazılması məslə-

hət bilinməyən sözün yalnız baş hərfinin verilməsi yozum üçün mühüm mesajdır. Mətnin tələbinə uyğun olaraq oxucu həmin hərflə başlayan sözü fikrində adətən yerinə qoya bilir.

Bu sözləri aşağıdakı modeldə nəşrdə verməyi məqbul hesab edirik:

Vulqar söz əgər iki hərfdən ibarətdirsə, bu zaman şəkilçili və şəkilçisiz variantlarda sözün yalnız ilk hərfi yazılır, sonuncu – ikinci hərf isə nöqtələrlə əvəzlənir:

Sözün ilk hərfi + üç nöqtə və ya ilk hərf + üç nöqtə + şəkilçi.

Məsələn, *at* sözünü, yalnız kökdən ibarətdirsə, *a...*; kök və şəkilçidən ibarətdirsə, *a...lar* şəklində yazmaq olar.

Şəkilçisi olmayan, ikidən çox hərfi olan söz təkhecalı və ya çoxhecalıdırsa, bu zaman sözün ilk hərfi yazılır, üç nöqtə qoyulur, sonra sözün sonuncu hərfi yazılır:

Sözün ilk hərfi + üç nöqtə + sözün son hərfi.

Şəkilçisi olan vulqar sözü isə aşağdakı modelə uyğun vermək məqsədəuyğundur:

Sözün ilk hərfi + üç nöqtə + şəkilçi və ya şəkilçilər.

Məsələn, şəkilçisiz *kitab* sözü təklif olunan modelə uyğun olaraq *k...b*, şəkilçili *kitablarımdır* sözü isə *k...larımdır* yazılacaq. Şəkilçidəki saitlərin ahəngi oxucuya söz kökünün ahəngini diktə etmiş olur. Əgər sözdə çox şəkilçi varsa, yalnız sonuncunu verməklə də kifayətlənmək olar. Amma burada əsas fikir şəkilçini gizlətmək deyil. Məqsəd odur ki, buraxılmış sözü oxucu yerində düzgün görə bilsin. Həm də bu cür yazılış oxucuya həmin sözün ictimaiyyət qarşısında səsləndirilməsinin etikadan kənar olduğunu bir daha xatırlatmış olur.

Mətnində hər hansı bir qatı vulqar söz işlənmiş nümunəni bütünlüklə aradan götürsək və nəşrə münasib saymasaq, onda xeyli əsər sıradan çıxarılmış olar. Xalq həyatının əksər sahələrini özündə əks etdirən belə mətnlər toplama zamanı

çox vaxt qeydə alınmır. Bəzən qeydə alınsa da, tərtib edilərkən onlar nəşrə münasib sayılmır və siyahıdan çıxarılır. Beləliklə, xeyli sayda folklor nümunəsi toplama və ya nəşrdən kənarda qalır. Bu da həmin folklor nümunələrinin unudulmasına gətirib çıxarır. Dəyərli məntiqi fikirlər əks olunmuş, sağlam dünyagörüşünə söykənən, böyük həyat təcrübəsindən soraq verən bu folklor mətnlərini yazıda xüsusi formada əks etdirməklə yenidən xalqın ixtiyarına vermək mümkündür.

***9. Əsas mətnlə mətndənkənar yazıları müəyyən üsullarla fərqləndirmək.*** Folklor nəşrlərinin daxilində yaradılan nizam, səliqə-sahman kitab hazırlama mədəniyyətinin tərkib hissəsidir və bu, oxucuya, birinci növbədə, estetik zövq verir. Bundan başqa, tərtib zamanı yaradılan nizam mətnin oxucu təxəyyülündə tam mənzərəsini yaratmaq üçün geniş imkanlar açır. Burada tam mənzərə deyərkən mətnin məzmunu, forması, mənası, hadisələrin baş verdiyi məkanın yerli dil xüsusiyyətləri (dialekt və şivə) ilə yanaşı, söyləyici, toplayıcı və tərtibçi tərəfindən müəyyən situasiyaları aydınlaşdıran şərh və qeydlər, mətndə işlənmiş coğrafi adlar, arxaizm, dialektizm və bu kimi sözlərə verilən izahlar, mənası anlaşılmayan sözlərin lüğətinin hazırlanması və s. nəzərdə tutulur.

Folklor mətnlərində əlavə izahlara – şərhlərə tez-tez ehtiyac yaranır. Bir mətndə bir neçə şərh müəllifi ola bilir. Söyləyici, toplayıcı və tərtibçi – bunlardan hər biri mətnlə bağlı açıqlama verə bilər. Söyləyici mətnin ifası zamanı mövzu ilə bağlı nəyi isə xatırlayır və əlavə izahlar verir. Bu, folklorşünaslıqda *söyləyici haşiyəsi* adlanır. Məsələn:

*Gəlir, baxır uşağa, diyi helə olmalıydi, sən gözüŋnan bi damla yaş salsaŋ, bax səni boşüyəsiyəm ha, üş daşıŋı atcam.* (*O vax da hamı bilir ki, kişi xeylağı üş daş tulladı, dəə nikahdan düşdü. Dəə heş vax ho öyə qayitməz*) (112, 144).

Nümunədə mötərizə içərisində verilmiş söyləyici haşiyəsi mətnin süjeti ilə bağlı əlavə bir məlumatdır. Ümumiyyətlə, bədii ədəbiyyatda haşiyə sözü – kitab və dəftər səhifələrinin, yaxud kağızın ətrafındakı boş yerdə yazılmış fikir və mülahizələr deməkdir (57, 187). Göründüyü kimi, bu nümunədə həmin fraqment mötərizə ilə əsas mətndən ayrılmışdır. Söyləyici haşiyəsi həcm etibarilə kiçik olarsa, bu zaman onu söyləyici nitqinin davamı olaraq, amma mötərizə içərisində ara söz kimi vermək daha əlverişlidir. Nəsrlə olan mətnlərdə nisbətən iri həcmli söyləyici haşiyəsini fərqləndirməyin daha əlverişli və elmi üsulu onu yeni abzasdan verməkdir. Nəzm formasında olan mətndə isə kursivdən istifadə ən əlverişli üsuldur. Məsələn:

*Gederdih, bala, Cermuxdan*
*yuxarı Murat təpəsi deyirdih*
*orya. Dağın döşünnən qırx bulağ*
*axerdı. Gederdiy orda qəşəh-*
*qəşəh toylar eliyerdilər e, yaxşı.*
*Onda indikinnən şurru olurdu,*
*qəşəng olurdu. İndi deyirəm ki:*
*Dağlar, qoşa dağlar,*
*Verifdi baş-başa dağlar.*
*Hanı səndə gəzən qız-gəlin,*
*At minif, cığıra çıxan oğlannar?*
*Səni görüm yüz yaşa, dağlar! (89, 343)*

Bəzən söyləyicinin ətrafında olan şəxslər söhbətə qoşulur, söylənilən mövzuya aid gərəkli əlavələr edir və ya izah verir. Söyləmə prosesinə başqasının müdaxiləsi – mətnə əlavəsi yazıda fərqləndirilməklə söyləyicinin dəyişdiyini oxucuya işarə edir. Əks təqdirdə iki fərqli üslub – iki nəfərin nitqi bir söyləyicinin nitqi kimi verilmiş olar. Bu zaman söyləyicinin dəyişməsi haqqında məlumat yeni abzasdan kursivlə qeyd edilir və arxasınca söylədiyi mətn verilir. Qarabağdan toplan-

mış "Pir dərəsi" mətnində söyləyici nitqini bitirəndən sonra arvadı həmin mətnə öz əlavələrini edir. Əlavə edilən mətn doğru olaraq aşağıdakı şəkildə təqdim edilmişdir:

"***Söyləyicinin arvadının əlavəsi***: Bala, orda qeybdən çırax yanırdı. Bir dəfə üş-dört arvatnan getdih pirə. Gördüh ki, pirin yanındakı kolun dibində yalav kimi yanır qayıbınnan. Yanımdakı yoldaşdarıma dedim ki, ora bax, ora bax, orda ojax yanır. O dedi, hanı, bı dedi, hanı? Dedim aaz, kolun dibində ojax yanır. Dedilər, saa görükür, bizə görühmədi. O pirə fəsəli də bişirif aparırdıx. Xəsdəlihləri də götürürdü" (84, 136).

Bu kiçik parçada başlığın kursiv və tünd rənglə verilməsi oxucu diqqətini əsas məsələyə – söyləyicinin dəyişməsinə cəlb etmək üçündür. Mətnin söyləyicisi kişi, əlavə fikir söyləyən isə qadındır və mətnin məzmununda bu cins fərqi bilinir. Əgər yazıda fərqləndirilməsə, oxucu təsəvvüründə söyləyici ilə bağlı dolaşıqlıq yaranar.

Mətndə toplayıcı şərhinə tələb duyulan məqamlar da az deyil. Söyləmə prosesi daha çox bir aktyorun teatrını xatırladır. Həmin səhnəni yazıda dolğun şəkildə əks etdirmək məqsədi ilə toplayıcının mətnin daxilində verdiyi bəzi təsvirlər dram əsərlərindəki remarkalara bənzəyir. Bu təsvir və izahlardan daha çox söyləyicinin jest və mimikasını, söyləmə prosesində baş verənləri yazıda əks etdirmək üçün istifadə edilir. Ümumiyyətlə, *toplayıcı şərhi* daha çox təsvir xarakterli olur və burada adətən söyləmə prosesində mövcud olan konkret şərait, zaman, məkan və s. haqqında məlumat verilir və səssiz baş verən hərəkətlər təsvir olunur. Yazıda toplayıcı şərhini söyləyicinin mətnindən fərqləndirmək və onun toplayıcıya məxsus olduğunu diqqətə çatdırmaq üçün mötərizədən istifadə edilir, şərhdən sonra tire qoyularaq qısaldılmış şəkildə toplayıcı sözü qeyd edilir. Məsələn:

*Mən kişiynən söhbət eliyəndə sən bir az aralıda dur. Mən ona əlimi belə eliyəjəm* (*əlini irəli uzadıb nəyinsə ölçüsünü göstərirmiş kimi edir – top.*) *Mən belə eliyəndə sən yaxınnaş, denən, əşi, mənim atımın pulunu ver dana* (88, 256).

Toplayıcı bəzən mətnlə bağlı daha əhatəli izah verməli olur. Bu çox vaxt mətnin kontekstinə aid olur. Məsələn, Saatlıdan toplanmış "Yəhudi qızı" nağılının sonunda toplayıcının belə şərhi verilmişdir:

*Söyləyicinin dediyinə görə, həmin əməlinə görə Şah Abbasa Şah oğlu Şıx Abbas da deyiblər* (106, 146).

Tərtib zamanı bu fikir, çox doğru olaraq, yeni abzasdan kursivlə verilərək əsas mətndən seçilmişdir. Lakin həmin fikrin davamı olaraq tərtibçi *Sıx Abbas* adının üstündə rəqəmlə işarə qoyaraq səhifənin sonunda ətək yazısı ilə yenə açıqlama verir:

*Söyləyici Şah oğlu Şıx Abbasla "Abbas və Gülgəz" dastanındakı Şah Abbas obrazlarını bir-birindən fərqli adamlar olduğunu deyir* (106, 146).

Bir-birinin davamı olan bu izahın hər ikisi söyləyicinin verdiyi informasiya olsa da, məlumatın mətnini toplayıcı hazırlamışdır. Amma biri nağılın sonunda, digəri isə səhifənin sonunda verilmişdir. Onların hər ikisini müəyyən ardıcıllıqla birləşdirərək səhifənin sonunda vermək daha əlverişli olardı.

Bədii üslubda sözün daşıdığı məna yükü çoxqatlıdır: o, həqiqi və məcazi mənalarda ola bilər. Mübaliğə, təşbeh, litota, kinayə, metafora sözün həqiqi mənasını üstələyir. Yazıya alınmış mətndə ifadə olunan fikri məhz söylənilən mənada qavramaq üçün əksər hallarda tərtibçi qeydi oxucuya xeyli yardım etmiş olur. Çünki oxucu söyləyici ilə deyil, mətnlə üz-üzədir. *Tərtibçi qeydi* informasiya baxımından əhatəli olur, daha çox elmi xarakter daşıyır, oxucuya mətnlə bağlı əlavə məlumatlar çatdırır.

Haqqında danışdığımız mövzuya görkəmli folklorşünas M.Təhmasibin tərtib etdiyi "Koroğlu" dastanı mükəmməl nü-

munədir. Müəllif kitabın sonunda dastanın qollarının hansı variantlarının olması, həmin nümunələrin kimlər tərəfindən toplanması haqqında məlumatları "Dastanının əsas variantları" (10, 348), mətnlərə aid bəzi açıqlamaları "İzahlar" (10, 354), "Koroğlu"ya aid müxtəlif ölkələrin arxivlərində saxlanan nəzmdən ibarət mətnlər, həmin əlyazmaların müəllifləri, saxlanıldığı arxivlərin ünvanları haqqında qeydləri "Müstəqil nəğmələr" (10, 435), dastanla bağlı hazırladığı sözlüyü "Lüğət" bölməsində (10, 458) vermişdir. Göründüyü kimi, 464 səhifəlik kitabın 115 səhifəsi tərtibçinin izah və qeydlərindən ibarətdir. Bunun nəticəsində oxucuya dastanın əsas mətnindən əlavə, kifayət qədər elmi məlumatlar da verilmişdir.

Foklor oxucusu mütaliə zamanı mətnlərdə mənası anlaşıqlı olmayan sözlərlə rastlaşır. Xalq ədəbiyyatı nümunələrində bu vəziyyət tez-tez qarşıya çıxır və məzmunun, mənanın qavranılmasında çətinlik yaradır. Folklor mətnlərində mənası anlaşılmayan sözləri bir neçə qrupa ayırmaq olar: arxaik sözlər, dialekt sözləri, xalq arasında işlənən terminlər, coğrafi adlar, təhrif olunmuş sözlər və s. Xalq yaradıcılığı nümunələrində sıx-sıx qarşılaşdığımız, lakin ədəbi dildə işlək olmayan xalq həyatının müxtəlif sahələrinə aid termin səciyyəli sözləri N.Həsənova təxminən belə qruplaşdırmışdır: tayfa adları, qohumluq bildirən sözlər, ölçü vahidləri, təqvim adları, vergi adları, əmək alətlərinin adları, bitki, ağac adları, quşçuluq, maldarlıq terminləri, məişət əşyalarının adları, toy və yas adətlərinə aid terminlər, geyim və bəzək əşyalarının adları və s. (71). Həmin sözlər mətnin yarandığı, keçib gəldiyi dövrləri və məkanları özündə əks etdirir. Sübhəsiz, bu gün xalqın leksikonunda aktivliyini itirmiş bu qrupdan olan sözlərin mənası oxucu tərəfindən ya çətin qavranılacaq, ya da heç başa düşülməyəcək. Bu sözlər köhnələrək dildən çıxmışsa da, onlar vaxtilə xalq yaradıcılığı nümunələrində tutduğu mövqeyi möh-

kəm saxlayır və atalar sözü, zərb-məsəllərdə, bayatı, tapmaca və başqa janrlarda bu gün də yaşamaqdadır. Bu qrupdan olan sözlərin də izahını vermək lazım gəlir.

Nəsillər bir-birini əvəz edir, nitqdə yenilənmə gedir. Folklor mətnlərində yaşayan arxaik sözlərin yeni nəsil tərəfindən qavranılması çətinləşir. Məsələn:

– *Ay vəzir, bu mənim ya oğlum oloydu, ya göyüm oloydu* (114, 187).

"Dədə Qorqud" dastanında da dəfələrlə işlədilməsi *göy* sözünün tarixən dildə aktiv olmasından xəbər verir. Lakin bu gün xalq leksikonunda ümumişləkliyini itirmiş, yalnız bəzi dialektlərdə yaşamaqdadır. Azərbaycan dilinin izahlı lüğətində bu söz "kürəkən, ata üçün qızın əri" kimi verilmişdir (12, 272). Tərtibçi, çox doğru olaraq, bu sözün üzərindən laqeydliklə keçməmiş, səhifənin sonunda ümumişlək variantını yazmışdır. Belə sözlərin mənasının açıqlanması oxucunu yerindəcə məlumatlandırır, lüğətləri araşdırmaqdan saxlayır.

Söyləyici mətninin oxucuya aydın və əhatəli şəkildə çatdırılmasına tərtibçinin qeyd və şərhləri yardım edir. Lakin bir çox folklor nəşrlərində bu iş ya qismən yerinə yetirilir, ya da tamam diqqətdən kənarda qalır. Nümunəyə nəzər salaq:

Gözlərim nəmdir mənim,
Yaş axar, nəmdir mənim.
Sayrıyam, sağalmanam,
Heç bilmən, nəmdir mənim (47, 15).

Bayatıda *bilmən* və *nəmdir mənim* söz və ifadələrinə izah verilir: *bilməm*; *nəyimdir mənim*. Lakin şərhinə ehtiyac duyulan daha önəmli *sayrıyam* sözüdür, çünki həmin söz bu gün bütünlüklə ümumişləkliyini itirmişdir. Buna baxmayaraq, *sayrı/sayru* sözünün müasir qarşılığı verilməmişdir. *Bilmən* sözündə isə şəkilçi – yəni sözün bir hissəsi arxaik olsa da, sözün kökü olan *bil* feili anlaşıqlıdır.

Folklor mətnləri yerli dil xüsusiyyətləri ilə nəşr olunduğundan burada dialekt sözləri çox işləkdir və bu sözlər hər oxucuya aydın olmur. Arxaik sözlər kimi, onların da izahını vermək və ya ədəbi dildəki qarşılığını göstərmək ən doğru yoldur. Məsələn:

*Razzağın közü,*
*Yoxsulun sözü* (146).

Masallıdan toplanmış bu atalar sözü iki hissədən ibarətdir. *Razzağın közü* burada yoxsulun sözünün ölçü vahidi kimi verilmişdir. Bəs *razzaq* nədir? Bir çox lüğətlərdə tapmadığımız bu sualın cavabını toplayıcı səhifənin sonunda qeyd etmişdir:

*Razzaq – ağac adıdır, közü odsuz olur. Razzağın odunu od hesab eləmirlər. Yoxsulun sözünü razzağın közünə bənzətmək, yoxsulun sözünün təsirsiz olmasına işarədir* (146).

Ola bilər ki, bu ağac yalnız Masallıda bitir, ya da başqa yerlərdə də bitir, ancaq Masallıda bu cür adlanır. Sözün mənasını biləndən sonra atalar sözünün ifadə etdiyi fikir oxucuya aydın olur: *Yoxsulun sözü kəsərsiz olar, dəyəri olmaz.*

Bütün hallarda məqsəd naməlum sözün mənasını oxucuya düzgün şəkildə çatdırmaqdır. Bunun üçün ən rahat variant söyləmə zamanı həmin sözləri qeyd etmək, proses bitdikdən sonra aydın olmayan sözlərin izahını söyləyicidən soruşmaqdır. Lakin folklor mətnində naməlum sözlərin mənasını müəyyənləşdirməyin ən etibarlı yolu lüğətlərdən axtarıb tapmaqdır. Bu üsulla nəticə əldə etmək mümkün olmadıqda mətn üzərində müvafiq təhlil aparmaqla həmin sözü elmi əsaslarla yozaraq izah etmək olar. Aşağıda verilən mətn parçası da bunu sübut edir:

*Kəndiri bağlayır ortasına, bunu sallayır aşağı. Keçal orda inəyi yıxır, qanrıf kəsir, dərisini soyur tələsik, buddarını, bardon var idi, bardona yığır. Deyir ki, kəsdin?*

*Deyir:*

*– Hə.*

*Deyir:*

*– Ətinnən qoy çuala, çəkim çölə, qıçalıyım, soora səni çəkim, gedəh.*

*Bardon – səbət* (115, 272).

Tərtibçi həmin səhifənin sonunda *bardon* sözünün mənasının *səbət* olduğunu göstərmişdir. Azərbaycan dilinin dialektoloji lüğətində (1964; 2006) *bardon* sözünün açıqlaması yoxdur. Amma mətndə həmin sözə qarşılıq kimi verilən *səbət* sözü mahiyyətcə qismən uyğun gəlsə də, *bardon* sözünün ədəbi dildə olan qarşılığı deyil. *Bardon/bardan – torba* (tarlada yığılmış pambığı *bardanlara* doldururlar –X.K.) mənasındadır. Bunu həmin mətn parçasında daha sonra dialoq zamanı *bardon* sözünə sinonim olaraq işlədilən *çual* sözü də sübut edir. *Bardon* sözünün qarşılığı *səbət* deyil, *torba*, *çuval* verilməli idi. *Qazancın darı olsun, çuvalın səbət* qarğışında bir-birinə qarşı qoyulan *çuval* və *səbət* sözlərinin məna fərqi daha aydın görünür.

Deməli, tərtib zamanı söyləyicidən, artıq bu gecdirsə, həmin bölgənin digər sakinlərindən soruşmaqla, lüğətlərdən istifadə etməklə və nəhayət, mətndən çıxış edərək araşdırılan sözün qarşılığını dəqiq göstərmək olar.

Azərbaycanın hər bölgəsində xəritəyə düşməyən, dərsliklərdə və digər elmi vəsaitlərdə adı çəkilməyən xeyli coğrafi məkanlar var. Həmin yer adları, demək olar ki, yalnız o ərazidə yaşayanlara bəllidir. Əfsanə, rəvayət, bayatı və s. janrlarda tez-tez rast gələn belə coğrafi adların izahına da ehtiyac duyulur. Bu qrup sözlər işlənmiş nümunələrə nəzər salaq:

*Bildirçin Mahmudavardan hara gedər?*
*Qoltuğuna Şərəfə qarpızı verdilər.*
*Kürdəbazlının şahidi Alışanlı olar* (146).

Təqdirəlayiq haldır ki, bu nümunələrin Masallı rayonundan olan toplayıcısı *Mahmudavar*, *Şərəfə*, *Kürdəbazlı* və *Alışanlı* sözlərinə kontekstə uyğun şəkildə yerli-yerində şərhlər vermişdir:

*Mahmudavar – kənd adıdır, darı əkirmişlər.*
*Şərəfə – kənd adıdır, qarpız əkirlər.*
*Kürdəbazlı və Alışanlı kənd adlarıdır, qohum kəndlərdir* (146).

Göründüyü kimi, burada izahı verilən sözlərin yalnız toponim olması bildirilmir, həm də mətndə nə üçün məhz həmin yer adlarının işlənməsinə aydınlıq gətirilir.

Azərbaycan EA Əlyazmalar Fondunda Əhməd Cavad tərəfindən toplanmış bayatılar saxlanılır. Həmin bayatıların tərtibçisi A.Məmmədova göstərir ki, şair əlyazmasında hər bir səhifənin sonunda aşağıdakı coğrafi ad, ifadə və sözlərin şərhini verir: *Mazım, Muxax, Çardaxlar, Car, Gülüzan, Zərnə, Qum, Qateq kimi coğrafi adlar ancaq Zaqatala, Qax və Balakən rayonlarına aiddir* (47, 11 ).

Oxucuya aydın olmayan sözlər bəzən söyləyici haşiyəsi, bəzən də toplayıcı və tərtibçi qeydləri vasitəsilə aydınlaşdırılır. Tərtib zamanı həmin sözlər lüğət formasında ya kitabın, ya da səhifənin sonunda verilə və izah edilə bilər. Lakin lüğətlərin ən münasib verilmə yeri kitabın sonudur. Çünki naməlum söz kitabda bir neçə mətndə işləndikdə həmin sözü yeri gəldikcə təkrar-təkrar yazmaq lazım gəlir.

Folklor mətnlərində varvarizmlər də işlənməmiş deyil. Varvarizmlər ədəbi dildə qarşılığı olan və əslində dildə yeri olmayan əcnəbi sözlərdir. Bunlar daha çox ərəb, fars, rus dillərindən leksikonumuza keçmişdir. Varvarizmlər xalq dilində müəyyən dövrlərdə və müəyyən ərazilərdə daha fəal işlənmişdir. Çox zaman müəyyən səs dəyişiklikləri ilə – təhrif olunmuş şəkildə tələffüz olunduğundan həmin sözlərin qavranılması çətinləşir və şərhinə ehtiyac olur (sözün qətiyyən anlaşılmadığı məqamlar da olur). Belə sözlər sırasında rusizmlər üstünlük təşkil edir. "Bu da sovet dövründə rus dilinin həddən artıq geniş yayılmasından qaynaqlanır. Bunun nəticəsində rus dilinə məxsus bir çox sözlər şifahi nitqdə özünə yer tapmış,

şifahi nitq vasitəsilə də epik əsərlərin dilinə daxil olmuşdur. Rus dilindən alınmış sözlər ya Azərbaycan dilinin ahəng qanuna uyğunlaşmış halda (*qomandirovka, bayavoy, daqavor, zemləmer, zdanyo*), ya da qismən rus dilindəki şəkildə (*lijbi, risk, zayej, stroy, oçiret*) işlədilir" (114, 6).

Bakıda rus mühitinin təsiri ilə bu dilə məxsus varvarizmlər bəzi xalq ifadələrində daha möhkəm mövqeyə malikdir. Məsələn, *Filankəsin qızı necədi, "idi ka mne"si var?*, *Bu lap rusun "zavtra"sına döndü* və s.

Mətnlərdə varvarizmlər daha çox təhrif olunmuş formada rast gəlir. Məsələn:

*Bütün bişmişdər hazırdı. Evi də süpürür, qab-qacağı silir, abışkanın şüşələrini silir* (115, 340).

*Abışka* rus dilində *окошко* (pəncərə) sözünün təhrif olunmuş formasıdır.

Folklor mətnlərinin tərtibi zamanı tələffüz və yazı ilə bağlı saya gəlməyəcək qədər problemlər qarşıya çıxır. Hər nəşrin xarakterinə (elmi və ya kütləvi) uyğun olaraq mətndə olan linqvopoetik problemlərin çözülməsi tərtibçinin üzərinə düşür və bu zaman mətnə bəzən şəraitə uyğun olaraq qeyri-ənənəvi tələffüz və yazı üsulları ilə yanaşmaq lazım gəlir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: qafiyə xatirinə sözü yazı qaydası ilə tələffüz etmək və yazmaq; sözdə artıq yazılmış səsi, hecanı və ya bütövlüklə sözü ixtisar etmək; sözdə çatmayan səsi, hecanı və ya bütövlüklə sözü mətnə əlavə etmək; əvəzlənmiş səslərin səhv yazılmasını və bunun nəticəsində bəzən bir dialektə məxsus mətnin düşünülmədən başqa dialekt nümunəsi kimi verilməsini aradan qaldırmaq; bəzi uzun tələffüz olunan səsi iki hərflə yazmaq; kütləvi nəşrlərdə şivə xüsusiyyətlərini aradan qaldırmaq, arxaik, həmçinin regional leksikanı, imkan daxilində ümumişlək sözlərlə əvəzləmək; eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərdə

vurğu işarəsi qoymaq; vulqar sözləri mətndə xüsusi üsulla vermək; əsas mətnlə mətndənkənar yazıları fərqləndirmək və s. Bu problemlərin həlli mətnin quruluş və ahənginin qorunmasında mühüm əhəmiyyətə malikdir.

### 3.2. Mətnlərdə üslub məsələləri

Tərtib ediləcək mətnlərdə üslubla bağlı problemlər də az olmur. Sintaktik səviyyədə obrazlılığın göstəricisi olan, mətnin məntiqini, ritmini, qafiyəsini pozan yersiz inversiyalar (xüsusilə nəzm formasında olan əsərlərdə) və təkrarlar, şəxsə və kəmiyyətə görə uzlaşmanın pozulması, sırf yazılı nitq əlaməti olan "aşağıda; yuxarıda; şəkildə gördüyünüz" kimi ifadələrin şifahi ədəbiyyat nümunələrində işlədilməsi, durğu işarələrindən düzgün istifadə edilməməsi mətnin üslubunu korlayır.

Folklor mətnlərini dinləmək oxumaqdan xeyli effektlidir. Çünki o, canlı ədəbiyyatdır, onda səs və nəfəs var. Oxu (qiraət) materialına çevrilmiş folklor mətnində bunlar olmadığından əsas informasiya göz vasitəsi ilə təfəkkürə ötürülür. Deməli, yazıya köçürülmüş mətndə, ilk növbədə, gözlə görünənlər qaydada olmalıdır. Bunları isə ilk olaraq toplayıcı qaydaya salsa da, tam şəkildə həlli üçün tərtibçi məsuliyyət daşıyır. Onların yaratdığı nizam mətni təfəkkürün daha rahat qəbul edə biləcəyi formaya salır.

Xalq arasında çox işlənən *Nərdivana pillə-pillə çıxarlar* atalar sözünün variantlarına "Oğuznamə", "Əmsali-türkanə", Ə.Hüseynzadənin və başqalarının topladığı atalar sözlərinin arasında da rast gəlirik:

*Nərdiban ayaq-ayaq çıqılur* (4, 325).
*Ayağı nərdivana bir-bir qoyarlar* (4, 59).
*Nərdivana ilk pillədən çıxarlar* (4, 325).

Müxtəlif mənbələrdən götürülmüş, söylənmə zamanı, mühiti və məkanları fərqli olan bu xalq hikmətləri eyni kontekstdə

işlədilsə də, məntiqi cəhətdən eyni olsa da, mətnlərində müəyyən fərqlər mövcuddur və o səbəbdən də bir-birinin variantı hesab olunur. Folklorşünas M.Kazımoğlu-İmanov Azərbaycan folklorunu tarixi və müasir baxımdan təhlil edərkən "dünənki və bugünkü" Azərbaycan folklorşünaslığında özünü qabarıq şəkildə göstərən nöqsanlardan biri kimi çoxvariantlılıq məsələsinin o qədər də ciddi şəkildə nəzərə alınmadığını söyləyir. Müəllif yazır: "Folklor mətninin variantlaşması həmin mətnin kimin, harada və nə vaxt söyləməsindən çox asılıdır. Hər hansı peşəkar söyləyici bu gün bir auditoriyada danışdığı mətni bir müddətdən sonra başqa auditoriyada qismən fərqli şəkildə danışır. Əgər həmin mətnə ikinci bir söyləyicinin ifasında qulaq assaq, onda variantlar arasında fərqin bir az da çox olduğunu görəcəyik. Deməli, folklor mətni ifadan-ifaya, söyləyicidən-söyləyiciyə dəyişə bilir" (77, 126-127). Lakin "ifadan-ifaya, söyləyicidən-söyləyiciyə" dəyişən mətndə bəzən keyfiyyətdə itkilər baş verdiyindən mətn məna və dəyərini itirir. Məsələn, yuxarıda nümunə göstərdiyimiz xalq hikməti M.Qəmərlinin "Atalar sözü" kitabında belə verilmişdir:

*Ayaq-ayaq nərdivana çıxarlar* (5, 31).

Bu nümunə də leksik tərkibcə yuxarıda verdiyimiz mətnlərlə eyniyyət təşkil edir. Əvvəl verdiyimiz nümunələrin hamısında vurğulanan sözün yeri eynidir – xəbərin yanında işlədilmişdir. Azərbaycan dilində üzərinə məntiqi vurğu düşən söz cümlədə adətən xəbərin yanında gəlir. *Ayaq-ayaq nərdivana çıxarlar* mətnində əvvəlki nümunələrdən fərqli olaraq, söhbət necə çıxmaqdan deyil, nəyə çıxmaqdan gedir. İnversiya nəticəsində vurğulanan sözün yerinin dəyişməsi ifadə olunan fikrin məntiqini də dəyişir və artıq mətn özündə heç bir hikmət əks etdirmir.

Bir çox mətnlərdə, o cümlədən atalar sözlərində sintaktik səviyyədə obrazlılığın göstəricisi olan ellipsisə uğrama müşahidə olunur:

*El gücü, sel gücü*;
*Qaçan da Allahı çağırır, qovan da.*

Əgər burada ifadə olunan fikirlər tam şəkildə yazılsa idi, onda həmin nümunələr aşağıdakı formada olardı:

*Elin gücü selin gücüdür.* Və ya: *Elin gücü selin gücünə bərabərdir.*

*Qaçan da Allahı çağırır, qovan da Allahı çağırır.*

Hər iki nümunədə ikinci komponentdə cümlənin xəbəri ellipsisə uğramışdır. Bu, bədii üslübun tələbidir. Lakin bəzi toplama materiallarında ellipsisə uğramış söz süni surətdə mətnə gətirilir. İfa və oxu zamanı həmin sözün artıq olduğu aşkar duyulur. Məsələn:

*Söz sözü gətirər,*
*Arşın bezi gətirər* (24, 458).
Ac qatıq istəməz,
Yuxusuz yastıq istəməz.

Asan tələffüz, diləyatımlılıq, fikrin lakonikliyi, sözü kəsə demək, az sözlə çox məna ifadə etmək şifahi xalq yaradıcılığının əsas xüsusiyyətləridir. Göstərilən nümunələrdə isə *gətirər* və *istəməz* sözlərinin gərəksiz təkrarı qrammatik səviyyədə obrazlılığa xələl gətirmişdir.

Bəzən söyləmə zamanı mətndə mexaniki şəkildə yersiz təkrarlar edilir. Məsələn:

*Ziyad xana keşişin üç ay bundan qabaq qaçdığını xana söylədilər* (139).

Söyləyici ifa zamanı bir cümlədə eyni şəxsi bildirən *Ziyad xana* və *xana* sözlərini işlətmişdir.

Növbəti nümunədə isə kəmiyyətə görə uzlaşma pozulmuşdur:

*Kərəm bir qədər yol gəlib, özlərini obaya yetirdilər* (139).

Cümlənin mübtədası *Kərəm təkdə*, xəbəri *yetirdilər* isə cəmdə işlənmiş, nəticədə kəmiyyətə görə uzlaşma pozulmuşdur.

Həmin söyləyicinin nitqində bu vəziyyətlə təkrar-təkrar rastlaşırıq:

*Sofi razı olub ayrıldılar... Kərəm oradan da qalxıb bir neçə gün yol getdikdən sonra gəlib Axasa çatdılar* (140).

Azərbaycan dilində şəxsə görə uzlaşmanın pozulması yolverilməzdir. Toplama materialları içərisində bəzən belə qüsurlu mətnlərlə də rastlaşırıq:

Dağlarda maral gəzər,
Tellərin darar gəzər.
Bala, mən sizə neynədim,
Siz mənnən kənar gəzər? (146)

Dördüncü misrada şəxsə və kəmiyyətə görə uzlaşma pozulmuşdur. İstər ədəbi dildə, istərsə də dialekt və şivələrdə fikrin bu cür ifadəsi yolverilməzdir.

Xalq ədəbiyyatında *dağ* sıx-sıx müraciət olunan poetik obrazdır. Lakin əksər hallarda ona tək halda deyil, *dağlar* formasında müraciət edilir, məsələn, *Bu dağlar ulu dağlar*; *Dağlar, otun qurusun*; *Ələsgər Məcnuntək yardan yaralı*, *Gəzər səndə dərdli, nalalı, dağlar!* və s. Dağlara cəm şəklində edilən xitabdan sonra ona *sən* deyə müraciət edilir. Məsələn, xalq mahnısında deyildiyi kimi:

*Ay dağlar, səndə gözüm var...*

Və ya:

Əzizim, qoşa dağlar,
Verib baş-başa dağlar.
Sevdiyim səndə gəzib,
Səni yüz yaşa, dağlar (29, 321).

*Dağlar* cəmdə olduğundan *siz* deyə müraciət olunmalı ikən, ona *sən* deyilir. Məsələn, həmin xitabın yerində *çaylar* ismini işlətsək, onda gərək nitqimizə *siz* deyə davam edək: *Səni yüz yaşa, çaylar* demək olmur. Xalq təfəkküründə *dağlar* obrazı bir tamdır, vahidi əks etdirir. *Sənə güvəndiyim dağlar, sənə*

*də qar yağarmış* atalar sözü ədəbi dil qaydalarına görə belə olmalı idi: *Güvəndiyim dağlar, sizə də qar yağarmış*. Lakin canlı danışıq dilində daşlaşmış obrazlar, ifadələr var ki, yüzlərlə mətndə öz istisnaları ilə bugünədək gəlib çıxmışdır. Başqa vaxt bu hal nöqsan hesab olunsa da, burada kəmiyyətə görə uzlaşmanın pozulması çox normal görünür. Odur ki, hazırkı məqamda hansısa bir qüsurdan, üslubi səhvdən danışmağa dəyməz.

Folklor dilində bir çox hallarda ədəbi dildən fərqli özəlliklər özünü göstərir, söz və ifadələrin işlənməsində müəyyən istisnalar müşahidə edilir: kəmiyyətə görə uzlaşmanın pozulması; bir sözdə iki dəfə inkarlıq şəkilçisinin (*çatışmamazlıq*) istifadəsi; iki dəfə eyni şəxsə aid mənsubiyyət şəkilçisinin işlədilməsi (yağlı badam *iysi* gəlir; *hamsımız*); bölüşdürmə əvəzinə inkarlıq bağlayıcısından (ya, ya da – *nə, nə də*) istifadə edilməsi və s. xalq danışıq dilində özünə yer eləmiş, amma ədəbi dildə qüsur hesab edilən hallardır.

Xalq yaradıcılığı nümunələrində ədəbi dil qaydalarına uyğun olmayan məqamlardan biri də bəzi dialektlərdə (əsasən Şəki və Göyçay bölgələrində) *ya, ya da* bölüşdürmə bağlayıcısının *nə, nə də* şəklində işlənməsidir. Bunlardan biri digərinin yerində işlənərkən ifadə olunan fikrin məzmununda əsaslı fərq yarandığından mətnin qavranılması da problemli olur. Məsələn:

*Hunnan sora gelini də ayağıynən qoyməzdilər, nə dayısi, nə qardaşi qucağına götürüf arabiyə qoyürdü* (*Hunda maşin yoxuydü*) (111, 265).

Bildiyimiz kimi, bölüşdürmə bağlayıcısı iki işdən birinin icrasını bildirdiyi halda, mətndə inkarlıq məzmunu yaradan *nə, nə də* bağlayıcısı heç birinin içra edilməməsi anlamını verir. Tərtibçi, doğru olaraq, əlavə izah tələb edən həmin məqamda bu fərqi açıqlayan şərh vermişdir.

Bəzən folklor mətnlərinin sintaksisində danışıq üslubunun süniləşdirildiyini görürük. Nümunədə verilmiş atalar sözündə fikrin ifadə formasına diqqət yetirək:

*Vaxtilə görülməmiş iş çox dəfə görülməmiş qalar* (5, 46).

Bu nümunəni söyləyici sanki əcnəbi dildə düşünüb, fikirlərini tərcümə edərək söyləmişdir. Əlbəttə, azərbaycandilli talış, tat, ləzgi və digərlərinin nitqində mətnin bu cür təqdim edilməsini təbii hesab etmək olar. Lakin tərtibçi xalq dilinə yatmayan tərzdə söylənilmiş mətni xalq hikməti kimi nəşrə münasib saymışdırsa, onda belə şəraitdə bir neçə priyomdan istifadə edə bilərdi:

Bunlardan birincisi, söyləyicinin milli mənsubiyyətinin göstərilməsidir. Oxucu biləndə ki, söyləyici qeyri millətdəndir, onun ifadələrinə müəyyən güzəştlə yanaşır, xalq üslubuna xas əlamətlərin zəifliyini və ya olmamasını normal hal kimi qəbul edir.

İkincisi, həmin mətnin hansı kontekstdə işləndiyinin qeyd edilməsidir. Bizcə, bu nümunəni "Əldən qalan əlli il qalar" atalar sözünün variantı hesab etmək olar. Bunu mətnin qarşısında yazmaq olardı.

Atalar sözlərinin sırasında verilmiş "Vaxtilə görülməmiş iş çox dəfə görülməmiş qalar" nümunəsi oxucuya şərhlərlə təqdim edilib əsaslandırılmırsa, bu zaman onu xalq hikməti hesab edilmədiyi üçün nəşr olunanların sırasından çıxarmaq daha məqsədəuyğundur.

Söyləyici nəsr formasında olan əsərləri ifa edərkən özünün düzüb-qoşduğu cümlələrdən istifadə edir. Amma bu cür əsərlərdə, xüsusən nağıllarda mətn daxilində qafiyəli nəsrdən – nağıl formullarından tez-tez istifadə olunur. Folklorşünas M.Kazımoğlu-İmanov nağıl dili haqqında yazır: "Nağıl mətnlərinin oxunaqlığını təmin edən məzmun xüsusiyyətləri ilə yanaşı, bir sıra forma xüsusiyyətlərini də qeyd etmək lazımdır. Belə xüsusiyyətlərdən biri ritmiklik, ahəngdarlıqdır. Buna nail

olmaq üçün nağılçı bilərəkdən sözlərin təkrarına xüsusi yer verir. Bu cür söz təkrarı nağılın lap əvvəlindən – məşhur başlanğıc formulundan özünü göstərməyə başlayır: "Biri varmış, biri yoxmuş, bir padşah varmış" (77, 6). Müxtəlif söyləyicilərin nitqində bu hazır formullar, demək olar ki, olduğu kimi saxlanılır. Məsələn, *Biri vardı, biri yoxdu*; *Az getdilər, uz getdilər, dərə, təpə, düz getdilər, iynə yarım yol getdilər*; *Dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi ...*; *Aya deyir, sən çıxma, mən çıxım, günə deyir, sən çıxma, mən çıxım*; *Göydən üç alma düşdü: biri mənim, biri nağıl deyənin, biri də qulaq asanın* kimi əsasən təkrarlardan ibarət olan hazır formullar dəyişdirilmədən və ya cüzi dəyişikliklərlə söylənilir. Söyləmə zamanı nəsrlə olan mətnlərin nəzm hissəsindəki ritmik səs ahəngi oxucu diqqətinin cəmlənməsinə xidmət edir. Yazıda bu qafiyəli nəsr mətnin digər hissələrindən fərqləndirilmədən verilərkən onun forma gözəlliyi, sözün nizamı görünməz qalır. Nəsr əsərlərində qafiyəli hissələrin təhkiyənin içərisində deyil, dastanların nəzm hissəsi şəklində yazılması səsin gözəlliyini həm də vizual estetika mənbəyinə çevirir. Məsələn: "Qızıl qoç" nağılı belə başlayır:

Bəli, nağılın binasın qoyaq yavaş-yavaş,
Olum qapında qulunan qaravaş,
Dövlətli vurar plova şapalaq,
Kasıb tapmaz bir kasa bozbaş (38, 98).

Kitabda bu hissə nəsr formasında – mətnin digər hissələrindən seçilmədən verilmişdir. Amma yuxarıda göstərilən formada yazılmaqla mətnin poetikliyi təkcə səslə deyil, həm də görüntü ilə qarşı tərəfə çatdırılmış olur. Əksər nağıllarda təkrarlanan qafiyəli nəsr hissələrinin bu cür verilməsi oxucunun estetik tələbatını həm də vizual olaraq ödəmiş olar. Məsələn:

Hamam hamam içində,
Xəlbir saman içində.

Dəvə dəlləhliy eylər
Köhnə hamam içində.

Nağıl təhkiyəsi nitqin təbiiliyini göstərən səciyyəvi bir mənbədir. Nəzm əsərləri ilə müqayisədə nəsrlə olan mətnlərin ifası zamanı özəl nitq elementləri daha qabarıq nəzərə çarpır. Hər söyləyici fikirlərini öz nitq qabiliyyətinə uyğun şəkildə ifadə edir. Yazılı nitqdən fərqli olaraq, söyləmə prosesində ifaçı danışdığı sözə işarə edərkən *aşağıda*, *yuxarıda*, *şəkildə gördüyünüz* və başqa bu kimi məkan bildirən ifadələr işlətmir. Nümunəyə nəzər salaq:

Ekidi-bekidi, bilmirəm,
Laləni dindirmirəm,
Lalə yaman forsludu,
Nizamının dostudur.

Yumruqlarını vura-vura *yuxarıdakı* kimi sayarlar (18, 307).

Nümunədə verilmiş nəzmdən ibarət hissə söyləyici mətnidir. Nəsrlə verilən hissənin – qeydin isə kimə (söyləyici, toplayıcı və ya tərtibçiyə) məxsus olduğu oxucu üçün aydın deyil, kitabda bu fikrin toplayıcı və ya tərtibçiyə aid olduğunu bildirən heç bir qeyd yoxdur. Həmin cümlədə *yuxarıdakı* sözünün işlədilməsi nümunənin şifahi ifa edilməsini şübhə altına alır.

Söylənmiş mətni yazıya köçürərkən deyilişi eyni, yazılışı fərqli olan sözlərin işlənmə yerinə görə bitişik, yoxsa ayrı, böyük və ya kiçik hərflə yazılması (ümumi və xüsusi isimlərin müəyyənləşdirilməsi) düzgün yanaşma tələb edir. Nəzərə almaq lazımdır ki, bəzi cansız əşyalar da özəl ad alaraq xüsusiləşir və bu zaman həmin söz cümlədə böyük hərflə yazılır. Məsələn, *qılınc* ümumi isimdir. Lakin Həzrət Əlinin qılıncının xüsusi adı olub: *Zülfüqar*. Bu xüsusiləşmiş ad, aşağıdakı nümunələrdən göründüyü kimi, bəzən böyük, bəzən də kiçik hərflə yazılmışdır:

*Həzrət Əli gəlif zülfüqarnan buranı vurufdu* (88, 29).

Növbəti nümunədə toplayıcı bu sözü böyük hərflə qeyd etmiş və şərhini də vermişdir:

Əzizim, zülfü qara,
Ağ üz(-ün)də zülfü qara,
Hər kim bana eləsə,
Tapşırram *Zülfüqara* (47, 154).

Zülfüqar sözünün üzərində işarə qoyulmuş və səhifənin sonunda ətək yazısında izahı verilmişdir: *Əlinin qılıncı.*

Xalq ədəbiyyatı nümunələri təkrar-təkrar dinlənilən mahnı kimidir. Bir romanı insan həyatı boyu bir dəfə oxuduğu halda, bir dastanı, nağılı, lətifəni, atalar sözünü, laylanı, sanamanı və başqa janrları bir ömürdə yeri gəldikcə, müəyyən fərqlərlə dəfələrlə söyləyir və dinləyir. Yazıya köçürülmüş mətn isə artıq yazıldığı boyda, yazıldığı biçimdə qalır: nə forması, nə məzmunu dəyişir. Odur ki, "dondurulmuş" xalq yaradıcılığı nümunələrində naqislik və qüsurları aradan qaldıraraq nəşr eləmək qaçılmazdır.

Lent yazısında çox aydın və rəvan olan mətni dəqiqliklə yazıya köçürdükdə belə, oxu zamanı bəzən fikirlərdə dolaşıqlıq, anlaşılmazlıq olur. Səsi təkrar dinləyərkən hər şeyin yerli-yerində olduğu, yazıya dəqiq köçürüldüyü görünür. Araşdırarkən məlum olur ki, problem yazıya köçürmə prosesində yaranmışdır: cümlənin hüdudları dəqiq müəyyənləşdirilməmiş, durğu işarələrindən düzgün istifadə olunmamışdır. Səs yazısında söyləyici ardıcıl və rəvan danışır. Hadisələrin ardıcıllığı, ifadə olunan fikirlərin bir-biri ilə möhkəm bağlılığı davam etdikcə mətni yazıya köçürən də bəzən vergül işarəsindən istifadə edərək (çox zaman da istifadə etməyərək) onu çox uzun cümlə formasında köçürür. Ciddi nəzər yetirdikdə əksər hallarda vergüllərin arasında bitkin fikirlərin olduğu görünür. Amma nöqtə qoyulmalı ikən, yazıya köçürən cümləni vergüllərdən istifadə etməklə davam etdirir. Bu da bir çox hallarda mətndə üslub problemlərinin yaranmasına gətirib çıxarır. Xüsusən nəsr dilində bu cümlələr heç də həmişə şəxsə, kəmiyyətə, zamana görə uzlaşma və s. baxımından bir-biri ilə səsləşmir. Məsələn:

*Yetim gəler oğlunu diriltdiyi paccahın ölkəsinə gəler çıxer* (147).

Oxu zamanı ilk olaraq görünür ki, bu, bir cümlədir. Lakin fikrin ifadəsində xoşagəlməzlik nəzərə çarpır: *gəler* sözü iki dəfə işləndiyi üçün ilk anda belə düşünmək olar ki, söyləyici nitqində yersiz təkrara yol vermişdir. Amma səsləndirərkən başa düşülür ki, yazıda intonasiya göstəricisindən başqa, hər şey düzgün əks etdirilmişdir. Əslində bu, iki cümlədən ibarətdir və cümlədə hər şey qaydasındadır. Sadəcə, yazıya köçürmə zamanı cümlənin hüdudu düzgün müəyyənləşdirilməmiş, durğu işarəsi yerində qoyulmamış, intonasiya düzgün əks etdirilməmişdir. Cümləni intonasiyanın tələbi ilə lazım gələn yerdən bölüb iki cümlə etməklə səslənən tərzdə nizamlamaq olur, bununla da cümlə qaydaya düşür. Beləliklə, bir nöqtə hər şeyi öz yerinə qoyur:

*Yetim gəler oğlunu diriltdiyi paccahın ölkəsinə. Gəler çıxer.*

Yazarkən durğu işarələrindən düzgün istifadə edilməsi ifadə olunan fikrin tam formada çatdırılmasında mühüm rol oynayır. Əslində musiqi mətnində notlar hansı işi görürsə, yazıya köçürülmüş folklor mətninin qiraətində də durğu işarələri həmin işi yerinə yetirir. Q.Kazımov bu barədə yazır: “Yazılı nitqin düzgün formalaşmasında durğu işarələrinin böyük rolu vardır. Mətnin düzgün anlaşılmasına kömək etməklə mühüm kommunikativ funksiya daşıyır” (78, 482). Hətta vergülün cümlədə rolu haqqında folklorlaşmış deyim xalq pedaqoqikasında öyüd məqsədilə tez-tez (xüsusən tədris zamanı) istifadə olunur: *Oxu atan kimi, eşşək olma. Oxu, atan kimi eşşək olma.* Bu ifadənin rus dilində ekvivalenti də geniş yayılmışdır: *Стрелять, нельзя казнить. Стрелять нельзя, казнить.* Göründüyü kimi, bir vergül ifadə olunan fikrin mahiyyətini yaxşı ilə pis, olarla olmaz, həyatla ölüm arasındakı fərq qədər köklü surətdə dəyişə bilir. Buradan görünür ki, mətndə durğu işarələri əhəmiyyətli mövqeyə malikdir və tərtib zamanı xüsusi diqqət yetirilməli

elementlərdir. Yazıda durğu işarələri ifanın əsasını təşkil edən intonasiyanı istiqamətləndirən mühüm vasitələrdəndir. Bu işarələrin əsas vəzifəsi mətndə ifadə olunan fikri qruplaşdırmaq, hissələrə bölmək, cümlənin quruluşunu müəyyənləşdirmək, sadalama, fasilə, bitkinlik və s. intonasiyaları bildirməkdir.

Aşağıda göstərdiyimiz nümunədə durğu işarələrindən tire, vergül, mötərizə və nöqtə işlədilmişdir:

*– Ey Uğuzlar, (Göyçədə oğuza uğuz demişlər) siz çox pak və ləyaqətdiydiniz* (132, 139).

Bu cümlədə doğru olaraq xitabdan sonra vergül işlənmişdir. İfa zamanı *oğuz* sözünün fərqli tələffüzünə şərh vermək üçün ara sözdən istifadə edilmişdir. Xitaba aid olduğu üçün həmin ifadə vergüldən əvvəl yazılmalı, yəni xitabın tərkibində verilməli idi. Daha doğrusu, vergül ara sözdən sonra yazılmalı idi. Mətndə *Uğuzlar* xitabı böyük hərflə verildiyi halda, mötərizədə izahı iki yerdə kiçik hərflə verilmiş, yazıda vahid prinsip gözlənilməmişdir.

Ərəb qrafikası ilə yazılmış əlyazmalarda dürğu işarələrindən istifadə edilməmişdir. Buna durğu işarələri ilə ərəb əlifbasının bəzi hərflərinin görünüşcə oxşarlığı səbəb olmuşdur. T.Hacıyev Azərbaycan yazısında durğu işarələrinin ilk dəfə "Əkinçi" qəzetində işləndiyini qeyd etmişdir. "O zaman istifadə edilən durğu işarələri bunlar olmuşdur: iki nöqtə, çox nöqtə, sual, mötərizə, indiki nöqtə və vergül məqamında ulduz, defis. Bundan sonra A.O.Çernyayevski və S.A.Vəlibəyovun "Vətən dili" kitabında (1888) nöqtə, cüt nöqtə, nişani-sual və nida işarəsindən istifadə olunmuşdur" (69, 30). Nəzərə alaq ki, "Əkinçi" qəzeti 1875-ci ildən nəşrə başlamışdır və həmin zamana qədər kifayət qədər folklor materialı toplanmış, arxivləşdirilmişdir. Ərəb əlifbası ilə yazılmış cünglərdə, əlyazmalarda, kitab, qəzet və jurnallarda külli miqdarda Azərbaycan folkloru yer almış və onlarda durğu işarələrindən istifadə olunmamışdır. Belə arxiv materiallarını nəşrə hazırlayarkən durğu işarələrinin

mətnə tətbiq edilməsi də tərtibçinin üzərinə düşür. Çünki durğu işarələri oxucunun yozumuna xidmət edən, onu məqsədə doğru yönləndirən çox fəal yardımçı vasitədir. Azərbaycan dilində yazı zamanı əsasən nöqtə, sual, nida, qoşa nöqtə, nöqtəli vergül, çox nöqtə, vergül, tire, mötərizə, dırnaq işarələrindən istifadə olunur.

Bitkinlik bildirən durğu işarələrinin düzgün işlədilməməsi cümlənin intonasiyasını dəyişir və bu, mətnin məzmununa da təsirsiz qalmır. Məsələn, aşağıda verilən atalar sözlərinin sonunda durğu işarələrinin işlədilməsində müəyyən uyğunsuzluqlar özünü göstərir (nöqtə əvəzinə nida qoyulmuşdur):

*Ağacı içindən qurd yeyər!* (5, 28)
*Ucuzdur, var illəti, bahadır, var hikməti!* (5, 30)
*Yaz qışından bəlli edər, qız qardaşından!* (5, 47)

Yuxarıda göstərdiyimiz nümunələr əslində adi intonasiya ilə söylənilir və sonda nöqtə qoyulması tələb olunur.

Folklor mətnlərində ritorik sualdan tez-tez istifadə olunur. Aşağıda verilmiş mətnin sonunda sual işarəsinə ehtiyac olduğu halda, nöqtə qoyulmuşdur:

*İt hürər, karvan keçər, yel qayadan nə aparır* (5, 31).

Yazılı mətndə sual intonasiyasını oxucuya ilk növbədə sual işarəsi çatdırır. Bu işarə də, nöqtə və nida işarəsi kimi, bitkinlik bildirir. Müxtəlif intonasiyaları əks etdirən və cümlənin sonunda qoyulan bu üç işarə düzgün istifadə olunmadıqda nəzmlə olan mətnlərdə daha çox problem yaranır. Buna səbəb cümlə bitmədən davamının digər misraya keşməsi və ya mürəkkəb cümlənin komponentlərinin eyni misrada olmamasıdır. Amma bu zaman bitkinlik işarəsinin hansı hissədə qoyulması xüsusi diqqət tələb edir. Məsələn:

Mən aşiqəm, baxdı kəm,
Bağbanı kəm, baxdı kəm.
Mən yara neynədim ki?
Yarım mənə baxdı kəm (17, 346).

Üçüncü misrada ritorik sualla başlayan fikir dördüncü misrada bitir. Qaydaya əsasən cümlənin sonunda sual işarəsi qoymaq lazımdır. Lakin, çox güman ki, *neynədim* sual sözü yazıya köçürəni çaşdırmış və o, cümlənin burada bitdiyini güman edərək vergül əvəzinə, misranın sonunda həmin işarəni qoymuş, tərtibçi də buna diqqət yetirməmişdir. Bununla da fikirin davamının – əsas ideya əks olunmuş misranın əvvəlki ilə əlaqəsi süni surətdə qırılmışdır.

Adətən nitqdəki fasilələr, müraciət, sadalama intonasiyası yazıda vergüllə işarə edilir. Lakin vergülün yazıda standart formada – mətnin intonasiya və mənası nəzərə alınmadan istifadə edildiyini də görürük. "Azərbaycan folkloru antologiyası"nın XI (Şirvan folkloru) cildində bayatıların, demək olar ki, hamısında ardıcıl olaraq birinci, ikinci və üçüncü misraların sonunda ehtiyac olmadığı halda da vergül işarəsi qoyulmuşdur (19, 297-306). Məsələn:

Mən aşiq qara bağlar,
Ağ üstən qara bağlar,
Şirvanın həsrətindən,
Ürəyim yara bağlar (19, 297).

Nümunədə ikinci misrada nöqtə qoyulmalı, üçüncü misradan isə vergül silinməli idi.

Yazılı ədəbiyyatda başqasının nitqi iki üsulla – dırnaq və tire işarələri ilə verilir. Amma bu qayda heç bir dəyişiklik edilmədən verilən cümlələrə – vasitəsiz nitqə aiddir. Dırnaq işarəsindən daha çox elmi üslubda sitatlar verilərkən istifadə edilir. Tire isə daha çox dialoqlarda işlədilir. Tiredən istifadə zamanı dırnaq işarəsinə ehtiyac qalmır. Bu zaman hər personajın fikri təzə sətirdən verilir.

Xalq danışıq dilində başqasının nitqi olduğu kimi deyil, söyləyicinin fikir "süzgəcinin" məhsulu kimi çatdırılır. Xüsusən təhkiyə dilində başqasının nitqini söyləyici öz üslubunda

təqdim edir və o, vasitəli nitqə çevrilir. Söyləyici nağıl etdiyi mətndə *deyir*, *deyillər* sözünü çox vaxt hər cümlədə işlədir. Bununla da söylədiyi mətnin müəllifinin o özü olmadığını, onu kimdənsə eşitdiyini nəzərə çatdırır. Bu zaman başqasının fikri də bu söyləyicinin dilindən eşidildiyi üçün dırnaq və tire işarələrinə ehtiyac qalmır və vergüllərdən istifadə etməklə kifayətlənmək olur. Bu işarələrlə bağlı problemlər daha çox nağıl təhkiyəsində qarşıya çıxır. Məsələn:

*Vaxt oldı Təhməz şah Kərbəlaya gedəndə yığdı başının dəssəsin, Cuhud Şəmi də qoşıldı bılara. – "Ayə, sən hara gedirsən?" Dedi, gedəcəm orda zərgarrığ eliyəcəm.*

*Bılar gedib çatdılar Kərbəlaya. Atdan düşdü. Abbas bının atını tutanda, bı uşağ o qədər şirin gəldi bına ki. – "Ay bala, sən bıralısan?" Dedi, Kərbəlayı, bəli* (106, 151).

Bu mətndə müəllifin, yəni söyləyicinin nitqindən başqa, üç nəfərin – Təhməz şah, Cuhud Şəmi və Abbasın nitqi verilir. Bunlardan yalnız Təhməz şahın nitqi dırnaq arasına alınmışdır. Nümunə kimi istifadə etdiyimiz parçada bir çox məqamda durğu işarələrindən düzgün istifadə edilməmişdir. Düzəlişlərdən sonra mətndə belə mənzərə yaranır:

*Vaxt oldı, Təhməz şah Kərbəlaya gedəndə yığdı başının dəssəsin. Cuhud Şəmi də qoşıldı bılara.*

*– Ayə, sən hara gedirsən?*

*Dedi, gedəcəm orda zərgarrığ eliyəcəm.*

*Bılar gedib çatdılar Kərbəlaya. Atdan düşdü. Abbas bının atını tutanda bı uşağ o qədər şirin gəldi bına ki...*

*–Ay bala, sən bıralısan?*

*Dedi, Kərbəlayı, bəli.*

Nağıletmə prosesində başqasının fikri söyləyici nitqinin tərkib hissəsi olduğu üçün vasitəsiz nitqdə istifadə edilən durğu işarələrinə ehtiyac qalmır.

Bəzən fikir axıradək söylənilmədən yarımçıq qırılır. Bu zaman fikrin yarımçıq ifadə olunduğunu və həm də burada bitdiyini bildirmək üçün üç nöqtədən istifadə edilir. Məsələn, Bakıətrafı kəndlərdə danışıq zamanı tez-tez istifadə olunan belə bir deyim var: *Öyüyeycən səni...* Düşünürük ki, bu, *Yalançını evinəcən qovallar* atalar sözünün ekvivalentidir. M.Qəmərlinin kitabında sözügedən mətn *Yalançını mənzilinə kimi...* (5, 46) şəklində verilmişdir. Mətndə sonuncu söz ellipsisə uğramış, sonda üç nöqtə qoyulmuşdur. Sonda qoyulan nöqtə fikrin bitdiyini, üç nöqtə isə tam bitmədiyini bildirir. Tam bitməyən fikrin davamı oxucu yozumunda aydınlaşır.

*İti vurmazdar, yiyəsinnən utanallar* (5, 18) iki komponentdən ibarət atalar sözüdür. Bu kimi nümunələrdə mətnin tərkib hissələrinin arasında, demək olar ki, əksərən vergül işarəsindən istifadə edilir. Lakin mətnin məzmununa nəzər saldıqda ikinci cümlənin birincidəki fikri aydınlaşdırdığı görünür. Bu zaman qoşa nöqtə və ya tire işarəsindən istifadə fikrin daha aydın qavranmasına imkan yaradır:

*İti vurmazdar: yiyəsinnən utanallar.*

Ümumiyyətlə, folklor mətnini yazıya alarkən qoşa nöqtədən əsasən dialoq zamanı istifadə olunur. Qalan məqamlarda isə onun əvəzinə nöqtə və ya vergül işlədilir. Diqqət yetirilməli məqamlardan biri də nağılın sonunda işlənən ənənəvi formulda qoşa nöqtədən istifadə məsələsidir. SMOMPK məcmuəsinin VI buraxılışında A.Zaxarovun Şamaxıdan topladığı on nağıl verilmişdir. Mətnin bitmə məqamındakı nağıl formulunun yazıda verilməsi üsulu fərqlidir: *С небо упало три яблока: одно мне, другое разсказчику, а третье дервишу Мустафу* (*имя разсказчика*) (125, 88); *С небо упало три яблока: одно мне, другое разсказчику, третье Ибрагиму* (*имя разсказчика*) (121, 100). A.Zaxarov bu məqamda bütün nağıllarda, çox doğru olaraq, iki nöqtədən istifadə etmişdir. Lakin belə bir təcrübə-

nin olmasına baxmayaraq, Azərbaycan nağıllarının nəşrlərində bundan istifadə edilməmiş, iki nöqtə əvəzinə vergül və ya nöqtədən istifadə olunmuşdur. Məsələn: *Nağılımız burda bitdi. Göydən üc alma düşdü. Biri mənim, biri Narış nənənin* (söyləyici öz adını deyir – X.K.), *biri də nağıl danışanın. Yerdə qalan da sizin. Aparın bölüşdürün* (85, 237). Və ya: *Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulax asannarın, biri də isdəmirəm deyif bajadan baxannarın* (34, 257).

Bu məqamda *göydən üç alma düşdü* hissəsindən sonra qoşa nöqtə qoyaraq kiçik həflə fikrin davamının yazılması daha münasibdir.

Ümumiyyətlə, durğu işarələrinin folklor mətnində düzgün istifadə edilməsinin məsuliyyəti əsasən mətni yazıya köçürənin üzərindədir. Bu sahədə səhvə yol verməmək üçün o, söyləyicinin intonasiyasını dəqiq duymağı, ifadə olunan fikrin məzmun və məntiqini qavramağı bacarmalıdır.

Folklor mətnlərində yersiz inversiyalar, şəxsə və kəmiyyətə görə uzlaşmanın pozulması, ellipsislə bağlı nöqsanlar, yersiz təkrarlar, cinas sözlərin hüdudlarının səhv müəyyənləşdirilməsi, bəzi mürəkkəb sözlərin düzgün yazılmaması, durğu işarələrindən yerli-yerində istifadə edilməməsi və s. problemlər mətnlərin mənasına xələl gətirir, üslubunu korlayır, nitqin təbiiliyini pozur. Düzəliş edilməzsə, bütün bunlar folklor nəşrlərinin elmi səviyyəsini aşağı salar.

# IV FƏSİL

# FOLKLOR MƏTNLƏRİNİN SİSTEMLƏŞDİRİLMƏSİ

Folklor kitabları material tərkibi baxımından müxtəlif qruplara ayrılır. Bu nəşrlər folklorun əksər janrlarını özündə əks etdirən topludan, lirik və ya epik növün janrlarından, ancaq kiçik janrlardan – paremioloji vahidlərdən, müxtəlif mövsüm və mərasimlə bağlı mətnlərdən, uşaq folklorundan və s. nümunələrdən ibarət ola bilər. Hər nəşrin xarakterinə və tərkibinə uyğun sistemləşdirmə işləri aparılır: kitab hansı ədəbi növ və janrla, hansı mətnlə başlamalı, mətnlər hansı sıralanma ilə davam etməli və necə bitməlidir. Folklor mətnlərinin sistemləşdirilməsinə daha çox bu məsələlər daxildir:

1. mətnlərin kodlaşdırılması;
2. toplanmış materialların pasportlaşdırılması;
3. mətnlərin sıralanması (xronologiya, əlifba sırası, mövzu, janr, şəkil və digər xüsusiyyətlərinə görə);
4. janrların müəyyənləşdirilməsi;
5. mətnlərin adlandırılması və s.

## 4.1. Mətnlərin texniki tərtibatı

Son illərin folklor nəşrlərində janrlar üzrə verilən nümunələrin mənbəyini göstərmək məqsədilə xüsusi kodlaşdırma sistemindən istifadə olunur. Bu kodlar vasitəsilə oxucu toplayıcı, söyləyici, tərcüməçi (azsaylı xalqların nümayəndələrinin dilindən toplanan nümunələr tərcüməsi ilə birlikdə verilir), mətnin götürüldüyü mənbə (ədəbiyyat) və s. haqqında dəqiq məlumat əldə edir. Araşdırdığımız toplular içərisində "Azərbaycan folkloru antologiyası" seriyasından XIII kitabda (Şəki-Zaqatala folkloru) mətnlərin kodlaşdırılması digər nəşrlərdən fərqlidir. Janrlar üzrə verilən nümunələrin mənbəyini göstərmək üçün xüsusi kodlaşdırma sistemi tətbiq edilmişdir. Tər-

tibçi M.Abdullayeva həmin kodları izah edərək yazır: “Hər bir nümunənin sonunda mötərizə içərisində onun mənbəyini göstərən kod işarələri verilir. Mötərizə içərisində verilən kodda böyük “S” hərfi “söyləyici” sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin söyləyicinin ümumi söyləyicilər siyahısında neçənci olduğunu göstərir, böyük “T” hərfi “toplayıcı” sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin toplayıcının ümumi toplayıcılar siyahısında neçənci olduğunu göstərir, böyük “Ə” hərfi “ədəbiyyat” sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin ədəbiyyatın ümumi ədəbiyyat siyahısında neçənci olduğunu göstərir, kiçik “s” hərfi “səhifə” sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin ədəbiyyatın səhifəsini göstərir” (22, 8-9). Bu qaydalarla kodlaşdırılmış mətnə nəzər salaq:

*İki dost olur. Birisi dabax (yəni gön aşılamağnan), ho birisi isə dəlləhlihnən məşğul olur. Bi günüsü dəllək dabağın yanna gəlif görür ki, suyun içində əlləşir. Honnan soruşur: 9-u üçə vura bilməmisən?*

*Dabax cavaf verir: 9-u üçə vurmağına vurmuşam, 32-yə çatmamışam* (S.145; T.30) (22, 161).

Mətnin sonunda verilən rəqəmlərə (S.145; T.30) əsasən söyləyici və toplayıcı haqqında məlumat almaq olur:

*145. Naz Məmmədova, Oğuz rayonunun Muxas kənd sakini, 1920-ci il təvəllüdlü* (22, 530).

*30. Mətanət Yaqub qızı Abdullayeva, AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya elmləri namizədi* (22, 530).

Bu tərzdə kodlaşdırma hər bir söyləyici, toplayıcı və folklor mətninin götürüldüyü mənbə haqqında daha aydın və dəqiq məlumat verir. Akademik nəşrlərdə bu cür kodlaşdırmanın elmi əhəmiyyəti böyükdür. Bir söyləyiciyə məxsus bir neçə mətni müqayisə etməklə onun fərdi nitq xüsiyyətlərini, üslubunu, mətndə hansı nöqsanların ona məxsus olmasını və s. müəyyənləşdirmək daha asan olur. Bu üsul həm də toplayı-

cı tərəfindən yaranan problemləri müəyyənləşdirməyə imkan verir. 90-a yaxın mənbədən istifadə edilmiş “Atalar sözü” kitabının (2013) akademik nəşrində bu iş çox uğurla aparılmışdır. Həmin kodlar vasitəsilə asanlıqla mətnin hansı mənbədən götürüldüyünü müəyyənləşdirmək olur.

“Qarabağ: folklor da bir tarixdir” çoxcildliyinin əksər nəşrlərində mətnlər ərəb rəqəmləri ilə işarələnmişdir. Hər cildin sonunda söyləyici və toplayıcılar haqqında məlumatlar verilmiş və həmin söyləyicinin hansı başlıqlar və hansı nömrə altında olan mətnləri söylədiyi göstərilmişdir. Eyni zamanda toplayıcının da hansı nömrəli mətnləri topladığı haqqında oxucu bu rəqəmlər vasitəsilə məlumat ala bilir. Xeyli sayda toplayıcı və söyləyici materialları yer alan toplularda bu vasitə ilə həm söyləyici üslubu, həm də toplayıcının mətnə yanaşma prinsipləri haqqında daha mükəmməl araşdırmalar aparmaq mümkündür.

Nağılların süjet göstəricilərinin verilməsi sistemləşdirmə işinin bir hissəsidir. Sovet dövrünə aid nəşrlərdə nadir hallarda, müstəqillik dövründə isə əsasən son illərə aid folklor kitablarında bunu daha sıx-sıx görmək olur. Azərbaycan nağıllarının sistemləşdirilməsinin əhəmiyyəti haqqında danışarkən İ.Rüstəmzadə bu işin mövcud materiallar arasındakı pərakəndəliyi aradan qaldırmaqla həm vaxt itkisinin qarşısını aldığını, həm də tədqiqatçıların axtardıqları süjetin kataloqdakı nömrəsini tapmaqla onun hansı mənbələrdə çap olunması, nə kimi variantlarının olması, hansı süjetlərlə kontaminasiyaya girməsi və hansı bölgələrdən qeydə alınması haqqında məlumat əldə etmiş olduqlarını qeyd edir. Tədqiqatçı həmçinin göstərir ki, sistemləşdirmə olmadan epik janrların süjet tərkibini üzə çıxartmaq, süjet və motivlərin qarşılıqlı əlaqəsini öyrənmək, nağıl repertuarının formalaşmasında yad təsirləri aşkar etmək mümkün deyil (104, 6).

“Qarabağ: folklor da bir tarixdir” kitabının birinci cildindən “Qolunda qırx kəlin gücü olan kişi” (84, 179) nağılının süjet göstəricisinin verilməsi üsuluna nəzər salaq:

“**Qolunda qırx kəlin gücü olan kişi”.** 0 (Allah qəhrəmanın istəyi ilə onun qolundakı gücü alır; sonradan gücünü özünə qaytaran qəhrəman yoldaşına sevdiyi qıza qovuşmaqda köməklik edir) + AT 365 (Eyni qəbirdə dəfn olunmuş gənclər)” (84, 436).

Çoxsaylı folklor topluları içərisində axtarılan süjetləri tapmaq, onların mənbələri haqqında dəqiq məlumat əldə etmək baxımından bu cür kataloqlaşdırma müstəsna əhəmiyyətə malikdir. Lakin nəşrlərdə nağılların süjet göstəricisinin verilməsi işində də bir pərakəndəlik özünü göstərir. “Qarabağ: folklor da bir tarixdir” toplularının birinci, səkkizinci, doqquzuncu və onuncu cildlərində nağılların süjet göstəricisi verildiyi halda, digər cildlərdə buna yer ayrılmamışdır. Lakin doqquzuncu cilddə Qarabağ layihəsi çərçivəsində bu nəşrə qədər çap olunmuş bütün nağılların süjet göstəricisi tam halda verilmişdir. Bu, təqdirəlayiq bir iş olsa da, hər nəşrin sonunda verilmədiyindən oxucuya çətinlik yaradır, digər cildlərdəki nağılların süjet göstəricisi haqqında məlumat almaq üçün (I, VIII və X cildlərdən başqa) o, mütləq doqquzuncu cildə müraciət etmək məcburiyyətində qalır. Bu təcrübənin olmasına baxmayaraq, indiyədək nağıllar toplanmış bir çox nəşrlərdə süjet göstəriciləri verilməmişdir.

Pasportlaşdırma folklor mətnlərinin rəsmi qeydiyyatıdır. Şifahi xalq ədəbiyyatı nümunələrinin kim tərəfindən, nə zaman yaranması dəqiq məlum olmasa da, pasportlaşdırma artıq onu rəsmiləşdirir, mətn haqqında nisbi də olsa, ünvanlar olur: onu kim, nə vaxt, harada söyləmişdir; nə zaman, kim tərəfindən yazıya alınmışdır və s. Burada söyləyicilər haqqında oxucuya, xüsusən tədqiqatçı oxucuya lazım olan məlumatlar qeyd olunur. Söyləyicinin qadın və ya kişi, savadlı, ya savadsız, qoca,

ya cavan olmasının, məşğuliyyətinin, kənddə və ya şəhərdə yaşamasının söylədiyi mətnə təsiri çoxdur. Mətn haqqında fikir yürüdərkən, araşdırma apararkən düzgün rəy yaranmasında bu qeydlərin rolu böyükdür. Pasportlaşdırmaya əsasən söyləyicinin üslubunu və toplayıcının diqqət və bacarığını, hansı tip nöqsanlara yol verməsini asanlıqla müəyyənləşdirmək olar.

Müxtəlif folklorşünaslar pasportlaşdırma zamanı söyləyici və toplayıcısı haqqında qeyd olunmalı göstəriciləri müəyyənləşdirmişlər. Aşağıda göstərilənləri daha mükəmməl sistemləşdirmə forması hesab etmək olar:

1. Söyləyicinin adı, atasının adı və soyadı
2. Söyləyicinin doğum tarixi və yaşı
3. Doğulduğu yer
4. Hal-hazırda yaşadığı yer
5. Toplamanın aparıldığı yer
6. Söyləyicinin vəzifəsi
7. Sənəti
8. Təhsili
9. Söylədiyi mətni kimdən eşitməsi
10. Toplayıcının adı və soyadı (44, 381-382).

Bu sıraya bir neçə göstəricini də əlavə etmək olar:

11. Söyləyicinin milliyyəti
12. Toplayıcının milliyyəti
13. Mətnin söylənilmə tarixi
14. Mətnin yazıya köçürülmə tarixi

Söyləyici və toplayıcının milli mənsubiyyəti bəzən söylənilən mətnə təsirsiz qalmır. Ümumiyyətlə, folklorda milli məsələ çox incə və mühüm bir məqamdır. Söyləyici və toplayıcının milliyyətinin folklor mətninə iki cəhətdən təsiri ola bilər: birincisi, milli, eləcə də dini fərqliliyə və digər səbəblərə görə bir xalqa antipatiyanın olması; ikincisi isə dil və üslub baxımından fərqliliyin olması. Birinci cəhətə görə mətnin ideya

istiqaməti qərəzli şəkildə istənilən səmtə yönləndirilə bilər, ikincisi isə dil və üslub (söz və ifadələri, tələffüz və yazı qaydalarını lazımınca bilməmək) baxımından mətndə doğru olmayan əlamətlər görünə bilər. Toplama işi zamanı əsas şərtlərdən biri də xalq danışıq dilini mükəmməl bilməkdir. Məsələn, SMOMPK məcmuəsində nəşr olunmuş folklor mətnlərinin xeyli hissəsinin toplayıcıları qeyri millətin nümayəndələri olmuşdur. Bunlardan A.Zaxarov, P.Vostrikov, N.Kalaşev, S.Zelinski, N.Qriqoriyev, B.Veniaminov və başqalarını göstərmək olar. Toplunun 1898-ci ildə çapdan çıxmış 24-cü buraxılışında N.Kalaşevin toplayıb nəşr etdirdiyi "Şirvan tatarlarının atalar sözləri"nin Azərbaycan dilində verilən hissəsində olan dil qüsurları, düşünürük ki, tərtibçinin Azərbaycan dilini mükəmməl bilməməsi səbəbindən yaranmışdır. O, formaca oxşar olan bəzi mətnlərin janr fərqini duya bilməmiş, qarğışı da atalar sözü sırasında vermişdir. Toplayıcı və tərtibçi həmçinin bir çox hallarda sözlərin səslənməsini düzgün əks etdirməmişdir:

*Qünbəz qörür, elə bilir içində imamzada var* (126, 3).

*Şeitan qetti, meidan bizə qaldi* (126, 3).

*İinəçinin mayasi iqnə inən bizdi* (126, 8).

*Kırxında örqənən qörunda (или: axratında) çalar* (126, 11).

Göründüyü kimi, bu mətnlərdə çox yerdə səslər yazıda düzgün göstərilməmişdir. Bunlar söyləyicidən deyil, toplayıcıdan gələn qüsurlardır ki, onun da əsasında Azərbaycan dilinin tələffüz qaydalarını düzgün bilməməsi dayanır. Tərkibində *[g]* səsi olan sözlər *q* ilə (*qünbəz/günbəz*, *qörür/görür*, *qetti/getdi*, *örqənən/örgənən*, *qörunda/gorunda*); *[y]* səsi bəzən *q* (*iqnə/iynə*), bəzən *i* (*şeitan/şeytan*, *meidan/meydan*, *iinəçi/iynəçi*); *[q] səsi* bəzən *k'* ilə (*kırxında/qırxında*) verilmişdir. Xalq tələffüzünün ədəbiləşdirilməsi və ya ona süni surətdə dialekt əlamətləri artırılması mətnin dilinin saxtalaşdırılması kimi qəbul olunur. Lakin burada bilərəkdən saxtalaşdırma üsul-

larından istifadə olunmasa da, mətnlərin səslənməsindəki təbii tələffüz əlamətləri itmişdir. Buna səbəb əcnəbi tərtibçinin səslərin məxrəcini düzgün göstərə bilməməsidir.

Rusiya ilə əlaqələrin genişlənməsi Azərbaycan folklorşünaslığının inkişafına güclü təkan versə də, mənfi təsirləri də olmamış deyil. Bu barədə P.Əfəndiyev yazır: "... XIX əsrdə Azərbaycan folklorunun böyük bir hissəsi xalqın ağzından alınıb rus mətbuatında çap olundu. Əlbəttə, bu böyük bir iş idi. Bununla da folklorşünaslığımızın əsası qoyuldu. Ancaq bu işin müəyyən nöqsanları da var idi. Bunlar həm obyektiv və həm də subyektiv səbəblərdən baş verirdi. Avropa və rus toplayıcıları ana dilimizi bilmir, toplama və tərcümə işində mühüm qüsurlara yol verilirdi. Mahnı, bayatı, dastan şeirləri tərcümədə təhrif olunur, nağıllarımızın gözəl, təsirli epizodları ixtisar edilirdi" (58, 30).

M.Təhmasib "Koroğlu" dastanının 1840-cı ildə çap olunmuş ilk variantında bəzi epizodları İ.Şopenin özünün uydurduğunu və eposun çox qüsurlu olduğunu qeyd etmişdir (81, 3). Göründüyü kimi, toplama və tərtib işində milli məsələ çox ciddi diqqət yetirilməli sahədir. Toplayıcı və ya tərtibçinin əcnəbi olması çox zaman mətndə ümumi işin ziyanına öz izlərini qoyur və "Koroğlu"nun bu nəşri ilə bağlı uğursuzluqlar, təbii ki, həm də İ.Şopenin başqa millətdən olması ilə bağlıdır. O, xalq qəhrəmanını gözdən salmaq məqsədilə mətnə onun şəxsiyyətinə uyğun olmayan əlavələr etmiş, bir çox əhvalatları təhrif etmişdir.

Pasportlaşdırma zamanı folklor mətninin söylənilmə və yazıya alınma tarixinin qeyd edilməsi mühüm əhəmiyyətə malikdir. Bu, tədqiqat zamanı bir sıra məsələlərə aydınlıq gətirmiş olur: məsələn, bəzi mövzulara qadağalar qoyulmasını, söz və ifadələrin ümumişləkliyinin itməsini, yazı qaydalarında bir sıra dəyişikliklərin olmasını bəlli edir. Lakin bütün hallarda söyləmə materialının qısa bir zamanda – yaddaşda itkilər baş verməmiş yazıya köçürülməsi ümumi işin xeyirinədir.

Toplanmış folklor mətnlərinin seçilib mövzu və janra əsasən qruplaşdırılması, yerləşdirilməsi və düzülməsi oxucunun işini xeyli asanlaşdırır. Bəzən mətnlərin düzülmə ardıcıllığı ilə bağlı müəyyən çətinliklər meydana çıxır. Bunlar daha çox kiçik janrları mövzuya görə qruplaşdırarkən ortaya çıxan problemlərlə bağlıdır. Həmin problemlərdən biri bu janr nümunələrinin özəl adlarının olmaması, digəri isə mətnin eyni zamanda bir neçə mövzu qrupuna aid ola bilməsidir. Məsələn, bu cür qruplaşdırmada bir atalar sözünü mərdliyə, düzlüyə, eləcə də digər mənəvi dəyərlərə aid başlıq altında vermək mümkündür. Bayatılarda, tapmacalarda da belədir. Süjetli əsərləri isə mövzuya görə seçib sıralamaq daha asandır. Ona görə də dastan və nağılları qruplaşdırarkən, demək olar ki, belə problem yaranmır.

V.Xuluflunun "Tapmacalar" kitabında 726 mətn verilmişdir. Bunlar əlifba sırası ilə düzülmüş, eyni zamanda hər mətnin qarşısında toplandığı bölgə qeyd olunmuşdur. Müəllif özü bu barədə yazır: "Tapmacaların tərtibinə gəldikdə materialların çoxusu təbiətə aid olduğundan ictimai, siyasi və sair qruplara bölməyib, əlifba sırası ilə buraxmağı daha münasib gördük" (113, 9).

H.Zeynallının "Azərbaycan tapmacaları" kitabında 760 tapmaca verilmişdir. V.Xulufludan fərqli olaraq, o, mətnləri mövzuya görə qruplaşdırmışdır (40). "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından transliterasiya edilmiş hər iki kitabda tapmacalar rəqəmlərlə işarələnmişdir. Düşünürük ki, tapmacaların nəşri zamanı sıralanmada rəqəmlərdən istifadə xüsusilə vacibdir. Çünki bu rəqəmlərə uyğun olaraq həm də onların cavabları işarə edilir. Lakin təkrarlara yol verməmək üçün kiçik həcmli janrlara aid mətnlərin əlifba sırası ilə verilməsini daha məqsədəuyğun hesab edirik.

Axtarılan atalar sözlərini kitabda asanlıqla tapmaq üçün ən münasib forma əlifba sırası ilə düzülüşüdür. Rus atalar sözlərinin və tapmacalarının nəşrində də bu təcrübədən istifa-

də edildiyini görürük: kitabda atalar sözləri əlifba sırası ilə verilmiş, tapmacalar isə mövzular üzrə düzülmüşdür (127, 9). Deməli, nümunələrin mövzuya və ya əlifba sırasına görə düzülməsi daha çox mətnin hansı janra aid olmasından asılıdır.

Folklor mətnlərinin yaranma və söylənməsində zaman anlayışı nisbi xarakter daşıyır. Konkret müəllifi və dəqiq yaranma tarixi olmayan əsərlərdə də bəzən xronoloji ardıcıllığa ehtiyac olur. Aşıq ədəbiyyatında tapşırma bəndində müəllifin adı göstərilir və çox rəsmi olmasa da, buna əsasən müəllifi bəlli olur. Müəlliflərin doğum tarixinə və ya yaşadıqları dövrə əsasən aşıq yaradıcılığına aid nümunələrdə xronoloji ardıcıllığa riayət etmək mümkündür. Məsələn, Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Aşıq Hüseyn Bozalqanlı, Hüseyn Saraclı və s. Lakin əlyazmalara gəldikdə vəziyyət başqa cürdür. Hər əlyazma sənədinin qeydə alınma tarixi var, ola bilər ki, sənəddə mətnin yazıya köçürülmə tarixi də qeyd olunsun. Burada xronologiyadan danışmağa dəyər. Nəşrə hazırlayan zaman əlyazmalardakı mətnləri yazıya köçürülmə və ya sənədləşmə tarixlərinə əsasən xronoloji ardıcıllıqla düzmək mümkündür. Respublika Əlyazmalar Fondunda saxlanılan, orta əsrlərdə yazıya alınmış cünglər və şəxsi arxiv materialları əsasında A.Məmmədovanın tərtib etdiyi "Bayatılar" kitabında bunu aydın görmək olur. O, istifadə etdiyi mənbələri üzərində göstərilən tarixə əsasən xronoloji ardıcıllıqla düzmüşdür. Tərtibçi bu barədə yazır: "Həmin bayatı nümunələrinin yazıya köçürülməsi tarixi əlyazmalarının tarixləri ilə bağlı olduğuna görə, bunlar XVI əsrin ikinci yarısı, XVII, XVIII və XIX əsrlərə aiddir" (47, 4). Sıralanmadakı ardıcıllıqda 1549-cu ildən XX əsrin əvvələrinə qədər olan dövr əhatə olunmuşdur:

1549 (956) Məhəmməd ibn Məkki "Ləməat-üd-Diməşqiyyə"
1677 (1088) Hüsaməddin Toqati "Şərh-ü-əvamil"
1702 (1114) Mövbədi. "Şərh-i Hidayət"

1713 (1125) Cami. “Yusif və Züleyxa”
1750 (1164) Cüng
1786 (1201) Hədaiq
1790 (1205) Sədullah Bərdəi. “Hədaiq-üd-Dəqaiq”
1791 (1206) Əmsileyi-müxtəlifə və müttərdə
1807-1808 (1222-23) Qəsidələr
1818 (1234) Usta Süleyman Dəllək. “Risalə”
1830 (1246) Cüng
1849 (1266) Cüng
1850 (1267) Qüduri. “Kitab-ül-Qüduri”
1863 (1280) Cüng
1863 (1280) “Əgər sual etsələr”
1887 (1284) Cüng
1875 (1296) Cüng
1880 (1298) Molla Musa Udulu. Cüng
XIX əsr Əsgəri. “Divan” və s. (47)

Burada xronoloji ardıcıllığın gözlənilməsi həm müxtəlif zamanlarda xalqın yaşam tərzi və dil xüsusiyyətləri, həm də əlyazma müəlliflərinin hası dövrdə yaşaması haqqında nizamlı məlumat verir.

Akademik nəşrlərin hazırlanması zamanı şərti işarələr əsas məqsədə xidmət edən yardımçı vasitələrdir. Bu barədə danışarkən D.S.Lixaçov qeyd edir: “Çalışmaq lazımdır ki, müxtəlif şərti işarələr həmişə və bütün nəşrlərdə eyni mənada işlədilsin. Bu, nəşrlərdən istifadəni əhəmiyyətli dərəcədə asanlaşdırar” (134, 117).

İndiyədək bir sıra folklor nəşrlərində, tək-tək və pərakəndə halda da olsa, bu cür elementlərdən istifadə edilmişdir. Həmin işarələri bir yerə cəmləməklə bütün elmi nəşrlər üçün vahid qayda yaratmaq olar. Məsələn, A.Məmmədova “Bayatılar” kitabında plyus (+), minus (–) işarələrindən, M.Yaqubqızı mətnin söylənmə və toplanma mənbələrini göstərmək üçün xüsusi kod-

işarələrdən, İ.Rüstəmzadə bayatı variantlarını verərkən bərabərlik (=), L.Süleymanova şivə tələffüzünü tam incəliyi ilə göstərmək üçün yeri gəldikcə *sağır nun* (*ŋ*) işarəsindən istifadə etmişdir. Nağılların süjet göstəricisində istifadə edilən şərti işarələr haqqında tərtibçi bunları qeyd edir: "... Eyni süjet adı çəkilən kataloqlarda müxtəlif nömrələr altında verilibsə, bu zaman nömrənin qarşısında = (bərabərlik) işarəsi qoymaqla digər kataloqlardakı nömrəni göstərmişik. Kontaminasıyaları göstərmək üçün isə + (üstəgəl) işarəsindən istifadə etmişik" (35, 395).

Əgər bütün nəşrlərdə təklif olunan şərti işarələr eyni şəraitdə, həm də eyni mənada işlədilərsə, onda tərtibetmədə vahidlik prinsipi də gözlənilmiş olar. Məsələn, "S.Mümtazın şəxsi arxivindən folklor mətnləri"ndə belə bir məqam var: yas bayatısının sonuncu misrasında sözün baş hərfi verilmiş, sonra çoxlu nöqtələr qoyularaq növbəti söz yazılmışdır:

Bostan əkili qaldı,
Toxumu səpili qaldı.
Qoyub hara gedirsən
Y........ tökülü qaldı (107, 53).

Belə yazılış forması oxucunu ilk baxışda nöqtələrin yerində vulqar söz olması anlamına gətirir. Bu formanı həm də əvvəlki mənbədən üzü köçürülərkən oxunması mümkün olmayan söz kimi də başa düşmək olar və s. Yas mərasimlərində bu gün də fəallığını itirməyən bu ağıda sonuncu misrada nöqtələrin yerində *yetim* sözünün olması çoxlarına məlumdur. Lakin həmin sözün nə üçün belə yazıldığı başa düşülmür. Ehtiyac olduğu halda hər situasiyaya uyğun şərti işarələrdən istifadə edilməsi oxucu üçün yarana bilən çaşqınlığın qarşısını ala bilər. Həmin işarələri təxminən belə qruplaşdırmaq olar:

– sözlərdə *[k]* səsinin kar qarşılığı olan səsi, elmi ədəbiyyatda olduğu kimi, üzərində işarə ilə qeyd etmək: *[x']*;

– sağır nun *[ŋ]* ilə tələffüz olunan sözlərdə həmin səsi xüsüsi işarə ilə göstərmək;

– vurğusuna görə müxtəlif cür səslənən sözlərin düzgün tələffüzünü göstərmək üçün yazıda vurğu işarəsindən (') istifadə etmək;

– bərabər (=) işarəsindən mətnin variantını göstərmək üçün istifadə etmək;

– mətndən artıq hərfi, hecanı və sözü minus (–) işarəsi ilə göstərmək;

– mətndə çatmayan hərf, heca və sözü plyus (+) işarəsi ilə mətnə əlavə etmək;

– vulqar söz əgər iki hərfdən ibarətdirsə, bu zaman şəkilçili və şəkilçisiz variantlarda göstərilən formanı tətbiq etmək: sözün ilk hərfi + üç nöqtə və ya ilk hərf + üç nöqtə + şəkilçi; şəkilçisi olmayan təkhecalı vulqar söz iki hərfdən ibarət deyilsə və ya çoxhecalıdırsa, göstərilən şəkildə vermək: sözün ilk hərfi + üç nöqtə + sözün son hərfi; şəkilçisi olan vulqar sözü isə aşağdakı modelə uyğun vermək: sözün ilk hərfi + üç nöqtə + şəkilçi və ya şəkilçilər;

– mətnin səs yazısında korlanmış, yaxud eşidilməyən, yazıda qaralanmış, oxunmayan və ya buraxılmış hissəsini – bərpası mümkün olmayan sözü yarımmötərizə içərisində üç nöqtə (...) qoymaqla göstərmək;

– azsaylı xalqların dilində verilən nümunələrin tələffüzünü transkripsiya işarəsi – böyük mötərizə [ ] içərisində, Azərbaycan dilinə tərcüməsini isə kursivlə vermək;

– söyləyici şərhini, əgər söz birləşməsi və ya bir cümlədən ibarətdirsə, söyləndiyi məqamda mötərizə içərisində vermək, daha sonra müvafiq durğu işarəsini işlətmək (ara sözlərin yazı qaydalarına əsasən);

– söyləyici şərhini – haşiyəsini, əgər bir neçə cümlədən ibarətdirsə, yeni abzasdan vermək;

– toplayıcı şərhini aid olduğu söz və ya cümlədən sonra yarımmötərizə içərisində vermək, tire işarəsi qoyaraq toplayıcı sözünü qısaldılmış şəkildə yazmaq (...– top.), yaxud toplayıcının ad və soyadının baş hərfini vermək (... – X.K.);

– tərtibçinin səhifə sonunda verdiyi qeydləri kiçik şriftlə yazmaqla əsas mətndən seçmək;

– tərtibçinin iri həcmli qeydlərini kitabın sonunda nömrələyərək vermək;

– verilən şərh və qeydlərin əsas mətndən kənar olduğunu bildirmək üçün yazıda kürsivdən istifadə etmək;

– kodlaşdırmada böyük "S" hərfi ilə söyləyicini, ondan sonrakı rəqəmlə həmin söyləyicinin ümumi söyləyicilər siyahısında neçənci olduğunu, böyük "T" hərfi ilə toplayıcını, ondan sonrakı rəqəmlə həmin toplayıcının ümumi toplayıcılar siyahısında neçənci olduğunu, böyük "Ə" hərfi ilə ədəbiyyatı, ondan sonrakı rəqəmlə həmin ədəbiyyatın ümumi ədəbiyyat siyahısında neçənci olduğunu, kiçik "s" hərfi ilə səhifəni, ondan sonrakı rəqəmlə həmin ədəbiyyatın səhifəsini göstərmək və s.

Göründüyü kimi, göstərilən xüsusi işarə və qaydalar yalnız filoloqların deyil, həmçinin digər elm sahələrinin mütəxəssislərinin də ilk baxışdan anlaya biləcəyi elementlərdir. Akademik nəşrlərdə bu şərti (elmi) işarələrdən istifadə etməklə nöqsanları aradan qaldırmaq, oxucu üçün aydın və mükəmməl mətn hazırlamaq olar və edilən düzəlişlər də mütaliə zamanı mətnin ilk forması ilə birgə görünər.

Toplanmış mətnləri kodlaşdırmaq, söyləyici və toplayıcı haqqında rəsmi məlumatlar vermək, mətnlərin toplandığı məkan və tarixi qeyd etmək, eləcə də müxtəlif mənbələrdən götürülmüş mətnlərin ünvanını düzgün formada göstərmək, bəzi mətnləri xronoloji ardıcıllıqla düzmək (əlyazma və cünglərdə, aşıq ədəbiyyatında), nağılların süjet göstəricilərini vermək və yeri gəldikcə şərti işarələrdən istifadə eməklə nəşr ediləcək folklor mətnlərinin elmi səviyyəsini artırmaq olar.

## 4.2. Mətnlərin janr və adlarının müəyyənləşdirilməsi

Mətnlərin tərtibində əsas işlərdən biri də nümunənin janrını düzgün təyin etməkdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində artıq Azərbaycan ziyalıları ciddi şəkildə folklorun toplanması ilə məşğul olmağa başladılar. Elə bu dövrdən əksər toplayıcılar topladıqları materialları özləri tərtib etmiş və nəşrə hazırlamışlar. Bu prosesdə başlanğıc iş folklor materiallarının janrının müəyyənləşdirilməsidir.

M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri bu gün folklor kitablarının, eləcə də mətnlərinin tərtibi üçün layiqli nümunədir. O, folklor mətnlərini toplayaraq yazıya almış, informatoru dəqiq qeyd etmiş, müvafiq dördlük, parça, beyt, söz, sav, hikmət, atalar sözü, əfsanə, rəvayət, hekayə, ovsun, sanama və s. terminləri işlətmiş, mətnləri janrına görə qruplaşdırmışdır. Əslində M.Kaşğari folklor mətnlərini janr spesifikasına görə də fərqləndirmişdir:

a) Türk hikməti
b) Atalar sözü
c) Söz
d) Sav
e) Ovsun (74, 49).

Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq janrdaxili bölgülərin verildiyi kitab "Arvad ağısı" toplusudur (1, 7). Bu mütərəqqi xüsusiyyətilə yanaşı, topluda müəyyən sistemləşdirmə qüsurları da nəzərə çarpır. Kitabın içərisində adındakı "ağı" sözünə uyğun olmayan nümunələr də özünə yer almışdır. Toplunun tərtibi haqqında Y.V.Çəmənzəminli "Folklor yolu" məqaləsində yazır: "Arvad ağısı"nda ağılarla bərabər bayatılar, vəsfihallar və xalq oyunları qarışmışdır. Bu xırda məlumat folklorun o zamankı vəziyyətini aydın bir surətdə göstərir. Folklor toplayanlar isə işə təsadüfi olaraq yanaşmışlar, hazırlıqları olmamış və məsələnin elmi cəhətinə heç də əhəmiyyət verməmişlər" (53,

81). Düşünürük ki, bu haqlı irada səbəb xeyli fərqli məzmuna malik nəzm əsərlərin yer aldığı toplunun düzgün adlandırılmamasıdır. "Ağı" burada verilmiş nümunələrdən yalnız birinin adıdır və bununla da kitabın içərisində verilənlər üçün məhdudiyyət yaradılmış, lakin bu hədd gözlənilməmişdir.

Mətnin janrının düzgün müəyyənləşdirilməsi ciddi bir məsələdir. Əks təqdirdə, bir janra məxsus nümunə aid olmadığı (ola bilər ki, çox bənzədiyi) digər janrın adı altında verilə bilər. Bu da elmi cəhətdən özünü doğrultmur, tərtib qüsuru sayılır. Belə bir vəziyyətlə M.Qəmərlinin "Atalar sözü" kitabında qarşılaşırıq. Tərtibçi atalar sözlərinin sırasında digər kiçik janrlara aid nümunələr də vermişdir ki, bu da seçim zamanı janr baxımından dəqiqləşdirmə aparılmadığını göstərir. Məsələn:

*Allah sağ gözü sol gözə möhtac eyləməsin* – alqış (5, 28);
*Heç kimin yarası göz qabağında olmasın* – alqış (5, 45);
*Xeyirini görmədiyim oğulun vayını eyləyim* – qarğış (5, 36);
*Adın nədir, Rəşid, bir de, bir eşit* – cırnatma (5, 26);
*Əsil al çirkin olsun, bədəsil gözəl alma* – bayatı (5, 27);

(Mən aşiq, gözəl alma,
Yeməyə gözəl alma.
Əsil al, çirkin olsun,
Bədəsil gözəl alma) (108, 9).

*Söz bir olsa, zərbi kərən sındırar* – qoşma (5, 39).

(Abbas bu sözləri deyər sərinnən,
Arxı qazın, suyu gəlsin dərinnən.
El bir olsa, dağ oynadar yerinnən,
Söz bir olsa, zərbi kərən sındırar) (8, 155).

Demək çətindir ki, verdiyimiz nümunələrdə lirik növün janrlarına (bayatı və ustadnaməyə) aid olan sonuncu iki nümunə əvvəl atalar sözü olmuş, sonra bayatı və ya ustadnamə kimi işlədilmişdir, ya da əksinə. Lakin bu dəqiqdir ki, M.Qəmərlinin tərtib etdiyi kitaba qədər heç bir mənbədə ("Oğuzna-

mə", "Əmsali-türkanə" və başqa kitab, qəzet və jurnal səhifələrində) bu atalar sözlərinə rast gəlmirik.

Xalq ədəbiyyatında bir-birinə yaxın olan janrların hüdudlarını ayırmaq bəzən çətinlik yaradır və buna görə də müxtəlif nəşrlərdə eyni nümunələr fərqli başlıqlar altında verilir. Məsələn, SMOMPK toplusunun 18-ci buraxılışında Kalaşevin topladığı atalar sözü verilmişdir. Lakin tərtibçi bu janrı rus dilində düzgün (пословицы) adlandırsa da, Azərbaycan dilində onlara məsəl demişdir (129, 51). Həmin toplunun 24-cü buraxılışında N.Kalaşevin topladığı "Şirvan tatarlarının atalar sözləri" mövzuya görə düzülmüşdür və Allahla bağlı atalar sözləri ilə başlayır. Birinci mətn belədir:

*Allaha özüvü pılov yeyən tanıt* (126, 1).

Bunun arxasınca isə atalar sözü yox, qarğış verilmişdir:

*Allah ona qotur versün, dırnağ verməsün* (126, 1).

İkinci mətn formaca atalar sözünə oxşasa da, janr baxımından onlar arasındakı fərqi N.Kalaşev görə bilməmişdir.

Janrların müəyyənləşdirilməsində toplama və sistemləşdirmə zamanı fərqinə varılmayan bir məqam var: bu, atalar sözləri və deyimlərin çox zaman bir-birindən fərqləndirilməməsidir. Yüksək səviyyədə obrazlılığa malik deyimlər xalq arasında ən çevik işlənən folklor nümunələridir. Məsələn: *ağzına çullu dovşan sığmır*, *ələyi ələnib, xəlbiri göydə fırlanır*, *vəziyyət ruscadı*, *aramız limonidi*, *qulağının dibindən halva iyi gəlir* və s.

Çox vaxt mənfi çaları ilə seçilən bu hazır ifadələr hansı leksik tərkibdən ibarət olmasına baxmayaraq, xalq yaradıcılığı nümunələridir, toplama və nəşrlərdə onların da xüsusi yeri var. Əsasən obrazlı təsviri ilə seçilən, daha çox kinayə, eyham, irad məqsədilə istifadə bu söz birləşmələri fikrin məcazi, həm də çox kəsə ifadə formasıdır. Onlardan əksər hallarda epitet, bənzətmə, mübaliğə və s. bədii təsvir vasitələri kimi obraz və situasiyaları xarakterizə etmək üçün istifadə edilir.

Deyimlər çox zaman atalar sözlərinin sırasında verilir. Lakin son dövrlərə aid bir sıra nəşrlərdə onlar xüsusi başlıq altında, müstəqil janr kimi təqdim olunmuşdur. "Azərbaycan folkloru antologiyası" seriyasından "Ağbaba folkloru", "Gədəbəy folkor örnəkləri", "Şəki folklor örnəkləri" kitablarında deyimlər ayrıca janr kimi verilmişdir. Bu nəşrlərin hər birində həmin mətnlərin qarşısında hansı kontekstdə işlədilməsi – hansı mənanı bildirməsi izah edilmişdir. Məsələn, *ağzıynan quş tutmaq – Yaxşı imkana malik olmaq, ürəyi istədiyini etmək; ağzına çullu dovşan sığmır – Məqamına, mənsəbinə, var-dövlətinə arxalanıb istədiyini danışmaq* (31, 272). *Xoruzunu qoltuğuna vermək – Köhnə vaxtı elçi gedəndə oğlanı da apararmışlar. Oğlanın qoltuğuna bir xoruz verərmişlər. Oğlan xoruzu qoltuğuna alıb aparır, qıza verir, qız da aparıb bir küncə qoyurmuş. Əgər danışıq tutsa, qız evindən razılıq alınsa, xoruzu kəsirmişlər, hamısı yeyirmiş, danışıq tutmasa, qaytarıb xoruzu oğlanın qoltuğuna verirmişlər, aparıb gedirmiş.* (67, 329). *Acinnən günorta durmaq – Bir adamın çox kasıb olmasını nəzərə çatdırmaq üçün işlənir* (112, 305) və s.

"Azərbaycan folkloru antologiyası" seriyasından olan "Qaraqoyunlu folkloru"nda da "Deyimlər" bölməsi var. Lakin burada toplanmış nümunələrin hansı kontekstdə işlənməsi, izahı göstərilməmişdir. *Ot kökü üstə bitər*; *Urvası bizdən olmasa, kündəsi küt düşər* (30, 224; 225) nümunələrinin atalar sözü olması heç bir mübahisə doğurmur. Lakin kitabda "Atalar sözləri" bölməsi olmasına baxmayaraq, bu və bir sıra digər atalar sözləri deyimlərin sırasında verilmişdir.

S.Mümtazın "Sarı Aşıq və bayatıları" adlı kitabında bayatılarla yanaşı, mürəbbe və təcnislər, tapmacalar da verilmişdir (108). "Mürəbbe – orta əsr şərq ədəbiyyatında şeir şəkillərindən biridir. Dörd misralıq bir neçə (adətən, 5-7) benddən ibarət əsərdir. Son benddə müəllifin təxəllüsü olur. Bəndlərin axırıncı

misrası nəqərat şəklində təkrar edilir. Mövzu dairəsi çox genişdir. Qafiyə quruluşu: aaaa, bbba, vvva, qqqa və s." (57, 118). Aşıq şeirində təcnis isə adətən üç bənddən ibarət olur, qafiyə quruluşu absb, dddb, eeeb və s. (57, 176). Yalnız dörd misralı və lirik növdə olması bayatı ilə ümumi əlamətləri olan bu fərqli nəzm nümunələrinin bayatıların sırasında verilməsi sistemləşdirmə qüsurudur. Çox qəribə görünən odur ki, müəllif buna əhəmiyyət verməmiş, hətta tapmacaların da fərqli janr olduğunu nəzərə almamış, bayatılar kitabında vermişdir. S.Mümtaz Azərbaycan folklorşünaslığında xüsusi mövqeyə malik bayatı araşdırmaçısı olmuşdur. Amma tərtibçi-müəllifin bu kitabının sistemləşdirilməsinə hansı mövqedən yanaşması başa düşülmür.

Aşıq şeirlərinin janr və şəkillərinə qeyri-dəqiq yanaşmalara daha çox rast gəlinir. Aşıq Nəsib yaradıcılığının tədqiqatçısı N.Əskər göstərir ki, aşığın kitabında "Divanilər" bölməsində beş divani verilmiş, dörd divani isə yanlışlıqla "Müxəmməslər" bölməsinə yerləşdirilmişdir (64, 136).

Digər aşıq kitabında da buna oxşar mənzərə ilə qarşılaşırıq. Araşdırmaçı S.İsayeva qeyd edir ki, Aşıq Şəmşirin 1971-ci ildə nəşr olunmuş şeirlər kitabı "Qoşmalar" adlansa da, buraya müəllifin qoşmaları ilə yanaşı, gəraylıları, müxəmməsləri, təcnisləri, ustadnamələri də daxil edilmişdir (75, 32). Əslində aşıq şeirinin digər janrlarının yer aldığı kitabın nöqsanı adlandırma ilə bağlıdır. Kitaba "Qoşmalar" adının verilməsi digər janrların burada yer almasına məhdudiyyət yaratmışdır.

Söyləyici bəzən danışdığı mətnin janrını özü elan edir. Ümumiyyətlə, xalqın danışıq dilində folklor janrlarının xüsusiyyətlərinə işarələr edən xeyli nümunələr, məcazlar mövcuddur. Məsələn, *onunku da dillərdə dastan* oldu (haqqında söhbət gedən adamın həyatında baş verən hadisələrin çoxluğu, daha böyük zamanı əhatə etməsi, adi əhvalatlardan seçilməsi və bu səbəbdən sıx-sıx söylənilməsi vurğulanır), *tapmaca tap-*

*mırıq ki*... (sorğu zamanı suala verilən cavabların dəyişkən, çoxvariantlı olduğu hallarda söylənilir), *bəsdir mənə layla çaldın* (birinin ətrafında baş verənlərə aktiv münasibətdən çəkindirənlərə etirazı zamanı deyilir), *lətifəsi səndən uzaq* (sözügedən hadisə ilə bağlı lətifə xatırlanır, amma qəhrəmanın gülünclüyünün həmsöhbətə dəxli olmadığı diqqətə çatdırılır) və başqa bu kimi ifadələrdə folklorun janr xüsusiyyətlərinə aid müəyyən ştrixləri görmək mümkündür.

Xalq arasında işlənən *mənə nağıl danışma* ifadəsi Azərbaycan folklorunda nəsrin bariz nümunəsi olan bu janrın xüsusiyyətlərini kifayət qədər xarakterizə edir. Söhbət zamanı dinləyənin söyləyənə etirazı, danışdıqlarının yalan, uydurma olduğuna irad mənasında başa düşülən bu deyimdə *nağıl* sözü onun janr xüsusiyyətlərinə görə seçilmişdir. Nağıldan istifadə zamanı söyləyicinin bədii təxəyyülü hüdud tanımır: o, işıqlı dünyadan qaranlıq dünyaya keçir, yel qanadlı atla, uçan xalça ilə dünyanın bu başından o başına çatır, dirilik suyu içib ölümsüzlük qazanır və s. *Nağıl dili yüyrək olar* ifadəsi də mühitin sürətlə dəyişə bilməsindən xəbər verir. Buradan görünür ki, hər kəs nağılçı ola bilməz. Nağıl danışan güclü fantaziyaya, bədii təxəyyülə, obrazlı təfəkkürə malik olmalıdır. "Təxəyyülün fəaliyyəti həmişə qavrayışın verdiyi məlumatı yenidən işləmək, dəyişdirmək yolu ilə surətlər yaratmaqdan ibarətdir (49, 324). Təxəyyülünün çevik olması və hüdud tanımaması, həm də uydurmalarını əsas süjetə bağlaya bilməsi, bütün bunlarla əsərin ideyasını açmağa çalışması nağılçının əsas və çox vacib qabiliyyətidir. Bütün bunlar göstərir ki, xalq, hələ folklorşünaslıq elm kimi mövcud olmadığı dövrdə də, söylədiyi mətnin janr xüsusiyyətlərini dərindən bilmiş və həmişə ona riayət etmişdir.

Maraqlıdır ki, söyləyici dastan söyləyərkən də çox vaxt *sizə bir nağıl söylüyüm*; *belə nağıl eliyillər ki*... deyə sözə başlayır. Elə həmin səbəbdəndir ki, H.Əlizadənin "Azərbaycan el ədə-

biyyatı (nağıllar)" kitabında "Şahzada İbrahim", "Tahir Mirzənin nağılı", "Şahzada Qasımın nağılı", "Şahzada Bəhramın nağılı", "Məlik Məhəmmədin nağılı", "Moğum şahın nağılı" və "Nəcəfin nağılı" adı altında verilmiş yeddi dastan oxucuya nağıl kimi təqdim edilmişdir. Görünür, söyləyici ifa etdiyi mətni dastan yox, nağıl deyə təqdim etmişdir. Tərtibçi bunun fərqinə varmamış, dastanları da nağıl janrının sırasında vermişdir. Görkəmli folklorşünas İ.Abbaslı bu barədə yazır: "Qeyd etmək lazımdır ki, kitabda dastanlar "nağıl" adı ilə təqdim olunmuşdur ki, bu, toplunun adında da özünü göstərir. Burada nağıl adı ilə təqdim olunan dastanlar elə dastan kimi də başa düşülməlidir. Bu cür təqdimat təsadüfi deyil, çünki bu gün də uzun illərdən gələn bu ənənə aşıq mühiti çevrəsində davam etməkdədir" (16, 8).

Ümumiyyətlə, nağıl janrı təhkiyə üsulu ilə söylənilən digər janrlarla: lətifə, əfsanə, rəvayət, qaravəlli ilə çox zaman qarışıq salınır. İ.Abbaslının söylədiyi kimi, dastanın nağıl kimi təqdim edilməsi təsadüfi deyil (16, 6). Buna səbəb xalq dilində təhkiyə üsulu ilə söyləmə prosesinin adının *nağıl etmək* olmasıdır ki, həmin sözün mənası "Azərbaycan dilinin izahlı lüğəti"ndə *şifahi surətdə bildirmək*, *danışmaq* (13, 448) kimi izah edilmişdir. *Nağıl söyləyim*, *nağıl edirlər ki* ifadələri burada janrı yox, söyləmə prosesini bildirir. Deməli, söyləyici burada nağıl sözünü işlədərkən janra deyil, prosesə işarə etmişdir. Bu zaman toplayıcı və tərtibçinin nağıl məfhumunun hansı mənada işləndiyini araşdırması çox vacibdir. Çünki söylənilən mətnin janrının düzgün qeyd edilməsi onların qənaətindən asılıdır.

Bayatının janr sərhədləri çox dəqiqdir: yeddi hecalı, dörd misralı, birinci, ikinci və dördüncü misraları həmqafiyə olan, üçüncü misrası sərbəst buraxılan bir bənddən ibarət lirik şeir növüdür. Xalq ədəbiyyatında bu quruluşda bir neçə şeir növü var ki, onların adları fərqlidir. Məsələn, haxışta, gülüm ey, ağı, vəsfi-hal, layla, mahnı, holavar, sayaçı sözləri və s.

bayatı janrının formal əlamətlərini özündə əks etdirir. Bunlar məzmunca fərqli şeirlərdir və söylənmə məqamları da müxtəlifdir. Obrazlı desək, bayatı qadın cinsində olan bir fərddir. O gah yasa gedir – ağı deyir, gah toya gedir – haxışta, gülüm hey deyir, gah fal açır – vəsfi-hal söyləyir, gah beşik başında layla çalır, gah xalça toxuyanda, qoyun sağanda zümzümə edir, gah da iç dünyasına çəkilib dərd-sərini, giley-güzarını, nisgilini, həsrətini pıçıldayır. Folklor kitablarında bəzən bayatı adı altında, bəzən də isə ayrıca başlıqlarda verilən bu şeir şəkillərini janr baxımından eyni, mövzuca fərqli nümunələr kimi qruplaşdırmaq daha məqsədəuyğundur.

Əksərən nəzm formasında olan ağılara nəsr formasında da rast gəlirik. Lakin toplama materialları içərisində nəsrlə olan ağı nümunələri ilə çox nadir hallarda qarşılaşırıq. Araşdırdığımız folklor kitablarından yalnız birində – "Şəki folklor örnəkləri"ndə (II kitab) nəsrlə olan ağı nümunələri verilmişdir (111, 295-298).

Bu gün bayatıların altı-yeddi misralı şəkilində söylənilməsi, misralarında heca sayının artıb-azalması janrı nəsr formasına yaxınlaşdırır. Növbəti nümunədə bunu aydın görmək olur:

Bir ev tikdim dəyirmi,
Çuvuxları iyirmi.
*Dedim, ay bala, yoldaşını da*
*alıp yanına, hara gedirsən belə,*
nə uzax səfərə gedirsən,
Bəs bu ev sənin döyülmü? (89, 337)

Güneydən günə düşdüm,
Bağlı düyünə düşdüm.
Öyün yıxılar, ay fələh,
*Çoxlu arzularım vardı.*
*Özüm deyən olmadı,*
Sən deyən günə düşdüm (89, 350).

Söyləyici nəzmlə olan ağı bayatılarının içərisində nəsrə keçid eləmiş, şəxsi improvizələrini etdikdən sonra yenidən klassik modelə qayıdaraq bayatını bitirmişdir. Tərtibçi yalnız həmin anın söyləntisi olan hissəni, çox doğru olaraq, kursivlə vermiş, bununla da bayatının klassik modelini oxucuya göstərə bilmişdir. Lakin həmin çoxcildliyin digər nəşrlərində tərtibçi tərəfindən bu cür incələmələri görmürük:

Ay doğdu, paralandı,
Gün çıxdı, aralandı.
Qəlbi binam, səhra məhləm,
çiçəkli baxçam, güllü bostanım
keçdi gavur əlinə, vətəndən azğın
düşdüm. Bir şor kanalın belində
su çəkdirib bostan əkdim.
Mənə qaşqın dedilər
Ürəyim paralandı (91, 305).

Bəzən eyni folklor mətni müxtəlif janr nümunəsi kimi təqdim edilir. Məsələn, aşağıda verilən nümunə tərəfimizdən bir söyləyicidən sanama, digər ikisindən isə tapmaca kimi toplanmışdır:

Əhdim noxut,
Çıxdı söyüt.
Yarpağıdı
Şa-ba-lıd (142; 143; 144)

Söyləyici "Balbalacan" oynayarkən bu sanamanı ifa etdiklərini bildirmişdir (143). O, sonuncu misranı hecalayaraq söylədiyi üçün həmin səslənmə tərzini hecalara bölərək yazmağı lazım bildik. Digər söyləyici isə həmin mətnin tapmaca olduğunu, lakin cavabını bilmədiyini (142), başqa birisi isə mətnin janrının tapmaca, cavabının isə *findıq* olduğunu söyləmişdir (144). Ümumiyyətlə, eyni folklor mətninin müxtəlif janr kimi təqdim edilməsi nadir hadisə deyil. Məsələn, nağıl-

larda qaravəlli kimi söylənilən mətn "Salman Mümtazın şəxsi fondundan folklor mətnləri" kitabında tapmaca kimi verilmiş, cavab yeri isə nöqtələrlə işarələnərək boş buraxılmışdır:

Hamam hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik edər
Köhnə hamam içində.
(......) (107, 30)

Buna bənzər başqa bir vəziyyət: bir neçə söyləyici eyni mətni söyləmiş və janrının tapmaca olduğunu qeyd etmişdir. Lakin həmin tapmacanın xeyli fərqli cavabları olmuşdur. Məsələn:

O yanı çəpər,
Bu yanı çəpər.
İçində atlı çapar.

V.Xuluflunun hazırladığı "Tapmacalar" kitabında Zəngəzurun Oxdar kəndindən toplanmış variantında həmin tapmacanın cavabının *tulum və yağ*, Bakıdan toplanmış variantında isə *nəhrə* (113, 74), H.Zeynallının tərtib etdiyi "Azərbaycan tapmacaları" kitabında *göz*, *nəhrə* (40, 16; 24), tərəfimizdən toplanmış bir variantda isə *fındıq* (144) olduğu bildirilmişdir. Əslində bu cavabların hər birini tapmacada verilən kodların açması kimi düşünmək mümkündür.

Folklorşünas R.Əliyev "Azərbaycan folklorunda kiçik janrlar"dan bəhs edərkən inanclar, andlar, alqışlar, qarğışlar, əfsunlar, fallar, türkəçarələr, yalanlar, cadu, yuxu və dua janrlarını qeyd etmişdir (61, 348). Tərtib zamanı bu əsərlərin janrlarının təyin edilməsi ilə bağlı müxtəlif problemlər qarşıya çıxır. Sadalanan janrlarda mətnlərin özəl adı yoxdur və onların qruplaşdırılmasında yaranan çətinliyin bir səbəbi də mətnlərin adsız olmasıdır. Deməli, adı olmayan mətnlər kitabda aid olduğu janrın adı ilə digərlərindən fərqləndirilə bilər. Ona görə də bu nümunələrin janrlarının dəqiq göstərilməsi çox vacibdir.

Ad problemi başqa bir məqamda da qarşıya çıxır. Söyləyici nağıl, əhvalat, əfsanə, rəvayət və s. söyləyir, lakin təqdim etdiyi bu süjetli əsərin adını elan etmir. Adsız mətnə başlıq qoymaq – adlandırmaq (digər mətnlərdən seçmək) toplayıcı və ya tərtibçinin üzərinə düşür. "Qarabağ: folklor da bir tarixdir" çoxcildliyinin V cildində həmin problemi araşdırarkən "Mifoloji mətnlər, əfsanə, rəvayət və xatirələr", "Peyğəmbərlər, dini şəxsiyyətlər, pirlər və ocaqlar haqqında", "Tayfa, nəsil və yer adları haqqında rəvayətlər", "Tarixi şəxsiyyətlər, qaçaqlar, tanınmış insanlar və pəhləvanlar haqqında rəvayətlər" və s. başlıqlar altında silsilə mətnlər verildiyini görürük (88). Bu mətnlər süjetlərinə əsasən qruplaşdırılmışdır. Kitabda Boyəhmədli tayfası ilə bağlı on altı rəvayət verilmişdir. Tərtibçi rəvayətləri sıra nömrəsi ilə işarələmiş, ümumi mövzunu tayfanın adına uyğun adlandırmışdır. Məsələn, *31. Boyəhmədli.* Bundan sonra tərtibçi bu tayfa ilə bağlı söylənmiş silsilə mətnləri sistemləşdirmişdir. Adları olmayan mətnlər rum rəqəmləri ilə işarələnərək düzülmüşdür: *31* rəqəmi altında göstərilən və I mətndən XVI mətnədək verilən nümunələrin hamısı bu tayfa ilə bağlıdır və heç birinin xüsusi adı yoxdur (88, 39-58). Bu üsulla oxucu istədiyi mətni kitabda asanlıqla tapa bilir.

Aşıq şeirinin adı adətən rədifə əsasən qoyulur. Aşıq Ələsgərin "Dağlar", "Düşdü", "Yaylaq", "Güləndam" və başqa şeirləri rədiflərinə uyğun adlandırılmışdır (2). XVI əsr aşığı Dirili Qurbaninin "Bənövşəni" şeirinin müxtəlif kitablarda nəşr formaları bir sıra mübahisələr doğurur. Aşağıda göstərilən müqayisələrdə həmin problemləri görmək mümkündür:

Başına döndüyüm ay qəşəng pəri,
Adətdir dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altında düz bənövşəni (36, 299).

Bu nəşrdə şeirin adı "Bənövşə" yazılmışdır, amma rədif *bənövşəni* sözüdür. Şeirin adı ilə rədif arasında fərq özünü göstərir.

Digər bir nəşrdə isə həmin qoşmanın adı "Bənəfşəni" verilmişdir:

Başına döndüyüm, ay qəşəng pəri,
Adətdi, dərərlər yaz bənəfşəni.
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənəfşəni! (6, 31)

Birinci nümunə H.Araslının, ikinci isə Ə.Axundovun tərtib etdiyi kitabdan götürülmüşdür. Göründüyü kimi, tərtibçilərin münasibəti fərqlidir. Birinci verdiyimiz mətndə şifahi nitq əlaməti görünmür, qoşma başdan-ayağa yazı qaydası ilə nəşr olunmuşdur. İkinci mətndə isə iki sözdə tələffüz əlaməti görürük. Bunlardan biri *bənəfşəni*, ikincisi isə *adətdi* (adətdir) sözüdür.

Araşdırmaya cəlb etdiyimiz üçüncü nəşrin tərtibi isə Q.Kazımova məxsusdur. Onun tərtib etdiyi nəşrdə məşhur qoşmanın adı "Bənövşəni" formasında verilmişdir. Lakin adın üzərində ulduz işarəsi qoymuş və səhifənin sonunda verdiyi ətək yazısında həmin işarəyə açıqlama olaraq "Bənəfşəni" sözünü yazmışdır (94, 59). Deməli, müəllifin istifadə etdiyi mənbədə bu söz yerli şivədə verilmişdir və tərtibçi bu faktın üzərindən sükutla keçməmiş, bununla bağlı oxucunu məlumatlandırmışdır.

Göründüyü kimi, XVI əsrdə söylənilmiş, 1982-ci, 1983-cü və 1990-cı illərdə nəşr olunmuş kitablarda eyni şeirin adı fərqli şəkildə – "Bənövşə", "Bənəfşəni" və "Bənövşəni" kimi verilmişdir.

Çox vaxt folklor kitablarında mətnlər fərqli prinsiplərlə qruplaşdırılır. Eyni seriyadan olan kitabların tərtibində bu xüsusilə məqbul sayılmayan bir haldır. "Azərbaycan folkloru antologiyası"nın müxtəlif cildlərində eyni mövzu və janrların qruplaşdırılmasını nəzərdən keçirək. XIV cilddə (Dərbənd folkloru) uşaq folkloruna aid göstəricilər mündəricatda aşağıdakı formada verilmişdir:

**VI Tapmacalar** (23, 426)

**IX Laylalar** (23, 426)

**XII Uşaq folkloru** (23, 427)
Barmaqlar
Məmmədağa
Cücələrim
Hamam hamam içində
A teşti
Əkil-bəkil
Tülkü, tülkü, tünbəki
Yanıltmac (23, 427)

Rum rəqəmi və yağlı şriftlə başlıqlar, adi şiriftlə isə həmin başlıqlara daxil olan mövzular verilmişdir. Nəşrdə uşaq folkloru bölməsində mətnlərin adları verilmiş, sonra isə uşaq folklorunun sırasında mətnin deyil, janrın adı – yanıltmac yazılmış, rəqəm və xüsusi şriftlə seçilməmiş, bununla da qruplaşdırmada pərakəndəlik yaranmışdır. Eyni zamanda laylalar və tapmacalar rum rəqəmi ilə ayrıca başlıq altında verilmişdir.

"Azərbaycan folkloru antologiyası"nın XVIII cildində (Şəki folkloru) həmin janrların verilmə prinsipi belədir:

**V Yanıltmac** (25, 525)
**VI Tapmacalar** (25, 525)
**XXI Sanamalar** (25, 528)

Qeyd etdiyimiz bu kitabda isə uşaq folkloru bölməsi yoxdur, yanıltmac, sanama, tapmaca ayrıca başlıqlar altında – bir qrupa daxil edilmədən verilmişdir.

Sözügedən mövzuda araşdırılan üçüncü kitab həmin seriyadan olan XIX kitab – Zəngəzur folklorudur. Bu cilddə rum rəqəmləri ilə nömrələmə yoxdur. Ancaq bölmələrin başlıqları tünd yazılmaqla seçilmişdir. Uşaq folkloru bölməsi aşağıdakı formada tərtib edilmişdir:

**Uşaq folkloru**
Deyimlər
Tapmacalar

Layla, oxşamalar

Yanıltmaclar (20, 415)

Göründüyü kimi, bu kitabda uşaq folkloruna aid edilən mətnlər janrlar üzrə seçilib qruplaşdırılmışdır.

Paremioloji vahidlərin adları olmadığından onlar ümumi şəkildə janrın adı ilə verilmişdir. Araşdırılan bu üç kitabın hər birində sözügedən məsələyə tərtibçi yanaşması fərqlidir. Xüsusilə eyni seriyadan olan kitabların tərtibində vahidlik prinsipinin gözlənilməsi mühüm şərtdir. Folklor toplularının çoxunda "Uşaq folkloru" adı altında adətən bu janrlar verilir: layla, nazlama, tapmaca, yanıltmac, sanama, düzgü, çırnatma, oyunlar (uşaq oyunları) və s. R.Qafarlı Azərbaycan uşaq folklorunun janrlarını ədəbiyyatın ümumi janr bölgüsü sistemi ilə qruplaşdırmağı daha məqsədəuyğun hesab etmiş və hər üç növün janrını uşaq folkloru üzrə aşağıdakı kimi qruplaşdırmışdır:

Lirik növ: layla, oxşama, dilaçma, öyrətmə və uşaq nəğmələri (düzgü, sanama, öcəşmə, acıtma, dolama, çağırış və müraciətlər);

Epik növ: tapmaca, yanıltmac və uşaq nağılları;

Dramatik növ: uşaq oyun və tamaşaları (83, 121).

Növ və janrlar üzrə bu təsnifatdan yararlanmaqla müxtəlif yaş qruplarına aid uşaqların maraqlarını ödəyə bilən mükəmməl uşaq folkloru topluları ərsəyə gətirmək olar. "Uşaq folkloru" ifadəsində bir şərtilik var, yəni bu nümunələrin az bir hissəsini uşaqlar özləri ifa edirlər. Əksər hallarda onlar üçün böyüklər layla, nazlama, nağıl, tapmaca söyləyirlər. Kimin ifa etməsinə baxmayaraq, bu ad altında verilən nümunələr uşaq marağına uyğun, onların başa düşəcəyi və zövqünü oxşayacaq səviyyədədir. "Azərbaycan folkloru antologiyası"nın II – "İraq-türkman" (27, 450), III – "Göyçə" (132, 742), VIII – "Ağbaba" (31, 475), X – "İrəvan çuxuru" (17, 501) cildlərində uşaq folkloru başlığı altında uşaq nağılları, uşaq oyun-

ları, düzgülər, acıtmalar, çaşdırmalar, sanamalar, laylalar, nazlamalar – əzizləmələr, yanıltmaclar və s. verilmişdir. Bir sıra folklor toplularında isə uşaqlara aid folklor nümunələri ümumi sırada verilmiş, xüsusi qruplaşdırma aparılmamışdır.

H.Zeynallının "Azərbaycan nağılları" kitabı üçün apardığı sistemləşdirmə işi diqqətəlayiqdir. O, kitabının quruluşunu aşağıda verilən formada nəzərdə tutmuşdur:

"Kitabın içindəkilər:

I Müqəddimə

II Giriş – (nağılların qısa xarakteristikası)

III Nağıllar

IV Şərh və izahlar

V Nağıllarda rast gələn dialektizmlər

VI Lüğətçə

VII Qeydlər

VIII Paralel və müvafiq nağıllar göstəricisi

IX Biblioqrafiya

Bu başlıqlara dair materiallar müəllifin özü tərəfindən zamanında hazır edilmişdir..." (72, 87) Göründüyü kimi, H.Zeynallı kitabı doqquz bölməyə ayırmışdır. Yalnız üçüncü bölmə folklor mətninə aiddir. Qalan rəqəmlər altında isə akademik nəşrin tələbinə uyğun bölmələr verilmişdir ki, bunlar elmi nəşrin hazırlanması üçün mühüm göstəricilərdir. Onun tərtib etdiyi bu modelə əsasən nəinki nağıl, hətta folklorun digər janrlarına aid mükəmməl kitablar ərsəyə gətirmək olar.

Toplanmış mətnlərdə əsərin janrı və adı ilə bağlı söyləyici və toplayıcıdan gələn təyinatların doğru olub-olmamasını yoxlamaq, bu məsələni elmi əsaslarla düzgün şəkildə həll etmək, adsız mətnləri adlandırmaq və ya eyni mövzu ilə bağlı süjetləri nömrələyərək düzmək tərtibçinin sistemləşdirmə ilə bağlı görəcəyi işlərdir.

Bu araşdırmalardan göründüyü kimi, hər bir folklor mətni nəşr olunanadək üç mərhələdən keçir: birinci mərhələnin məsuliyyəti söyləyicinin, ikinci toplayıcının, üçüncüsü isə tərtibçinin üzərinə düşür. Bu üç mərhələdən keçən iş dördüncü mərhələdə ünvanına çatmış olur. Həmin ünvan oxucudur. Toplanmış materialın ünvanına tələb olunan səviyyədə çatmasında onların hər birinin özünəməxsus rolu var: folklor söyləyicisi xalq ədəbiyyatı nümunələrini ifa etməyi bacaran hər kəs ola bilər (söylənilən materialların müəyyən keyfiyyət fərqləri ilə). Toplayıcılıqla isə ana dilini mükəmməl bilən, folkloru sevən, onunla maraqlanan, folklorşünaslıq elmi haqqında az-çox məlumatı olan şəxslər məşğul ola bilərlər; lakin tərtibçinin qarşısında qoyulan tələblər daha ciddidir və incəliklərinə qədər yerinə yetirilməli olan məsələlərdir. Görülən iş tərtibçinin əlindən keçərək sonlandığı üçün o daha çox məsuliyyət daşıyır. Buna görə də folklor mətninin tərtibçisi folklorşünaslıq elminin nəzəri və praktik cəhətlərini mükəmməl bilməlidir.

Folklor mətninin tərtibi onun toplanması ilə nəşri arasında bir fəaliyyət proqramıdır. Bu işləri folklorşünas-filoloq həyata keçirir. Onun əsas vəzifəsi nümunələrdə dil və üslub, o cümlədən dialekt-şivə xüsusiyyətlərinin qorunub saxlanılmasını təmin etmək, toplanmış materialı ədəbi növlərə, janrlara, mövzuya görə qruplaşdırmaq, (akademik və ya kütləvi) nəşrin xarakterinə uyğun olaraq mətndəki qüsurları aradan qaldırmaq, mətnə müvafiq izahlar, qeydlər vermək, lüğətlər hazırlamaq, mətnləri sistemləşdirmək, kodlaşdırmaqdır.

Yazıya alındığı andan folklor mətninə yarandığı zamanın və məkanın möhürü vurulur: müxtəlif dövrlərə məxsus nitq təzahürləri, eləcə də müxtəlif dialekt göstəriciləri söylənmiş mətnin dövrünü və yerini bəlli edir. Xalqın sevgi və nifrəti, sevinc və kədəri, tarix və etnoqrafiyası, məişət və məşğuliyyəti ilə yanaşı, xalq dilinin özünəməxsusluğu da əks olun-

muş bu mətnlərdə yazıya köçürülməklə həmin zaman və məkana məxsus xeyli əlamətlər "dondurulur". Bunların yazıda doğru və düzgün əks olunması tarixilik və müasirlik baxımından böyük elmi əhəmiyyətə malikdir.

Bu gün hər bir oxucu, ən azı, orta təhsil almış və bu təhsil zamanı ana dilində düzgün yazmağı və oxumağı bacaran, Azərbaycan dilinin yazı və tələffüz qaydalarının incəliklərini öyrənmiş şəxslərdir. Onların yazıdakı hər hərfin, hecanın, sözün necə səslənməsi, sözlərin yazılışı ilə tələffüzü arasındakı fərq, durğu işarələrinin rolu və s. haqqında geniş məlumatı var. Odur ki, folklor kitablarında ədəbi tələffüz əlamətlərində ifrata varmağa ehtiyac olmadığını düşünürük. Lakin mühüm olan regional dil əlamətlərinin yazıda əks olunmasıdır ki, bu həm folklorşünaslıq, həm dilçilik, həm tarixi baxımdan mühüm əhəmiyyət kəsb edir. Nəsrdən fərqli olaraq, nəzmdə bu daha vacibdir. Çünki cüzi dəyişiklik ölçü, bölgü və qafiyədə problemlər yaradır, misra sayını artırıb-azalda bilir və nəticədə, ən azı, struktur pozulmasına gətirib çıxarır.

Folklor mətnlərinin xalqdan toplanılması, poetizminə xələl gətirmədən, forma, məzmun və mənasını pozmadan yazıya alınması, nəşr edilməsi folklorşünaslığın mühüm vəzifələrindəndir. Tərtib zamanı mətnə fərqli yanaşmalar nəşrin keyfiyyətinə birbaşa təsir edir. Bu fərqlilik xalq dilinin ədəbi dil xüsusiyyətləri ilə verilməsinə, mətnlərdə akustik srukturun pozulmasına, regional tələffüz əlamətlərinin yazıda itməsinə, mətnlərin nöqsanlı sistemləşdirilməsinə, şərti işarələrdən düzgün istifadə edilməməsinə və digər qüsurlara yol açır, pərakəndəlik yaradır. Elə buna görə də folklor materiallarının bu qaydalara ciddi əməl edərək, səhvlərə yol vermədən, vahidlik prinsipini gözləyərək tərtib edilməsini folklor tərtibçisinin əsas vəzifəsi hesab edirik. Azərbaycan folklorşünaslığının bugünkü səviyyəsi folklor kitablarının tələb olunan səviyyədə hazırlanmasına imkan verir.

# NƏTİCƏ

Aparılan elmi araşdırmalardan aşağıdakı nəticələr əldə edildi:

1. Azərbaycan folklorunun nə vaxtdan toplanmağa başlanmasının dəqiq tarixi olmasa da, canlı ifadan yazıya alınmış "Kitabi-Dədə Qorqud" dastanı XI əsrdə artıq mükəmməl şəkildə meydanda idi. Toplama işi XVI əsrə qədər zəif şəkildə aparılmış, XVII-XVIII əsrlərdə isə bir qədər nizamlı surətdə davam etdirilmiş, toplanmış materiallar cüng və əlyazmalarda arxivləşdirilmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində isə folklorun toplanması və nəşri intensiv xarakter almışdır. Bu dövrdə folklorun yazıya alınmasında, nəşr olunmasında konkret elmi prinsiplər mövcud olmasa da, mətnlərin dil və üslubunda, sistemləşdirilməsində ibtidai şəkildə müəyyən ştrixlər görünməkdədir. Toplanmış mətnlər fərqli üsullarla tərtib edilmişdir: bəzi nümunələrin tərtibində tələffüz xüsusiyyətləri qismən gözlənilmiş, çox zaman isə dövrünün ədəbi dil normaları üstünlük təşkil etmişdir. Mətnlərin sistemləşdirilməsi primitiv şəkildə həyata keçirilmişdir. Bu mərhələdə folklor mətnlərinin tərtibində sistemləşdirmə ən az diqqət yetirilən sahə olmuşdur.

2. Sovet dövründə tərtib edilmiş folklor kitablarının təhlilinə əsasən demək olar ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti dövründə folklorşünaslıq elmi nəzəri və praktik cəhətdən daha intensiv şəkildə inkişaf etmiş, həmin dövrün folklorşünasları məsuliyyətlə folklorun toplanması, tərtibi və digər məsələləri ilə məşğul olmuşdur. Repressiyadan sonra bu inkişafın sürəti və ideya istiqaməti dəyişmiş, mətnlərdə sünilik və təhriflər adi hal almışdır. Xalq yaradıcılığı nümunələrində dil və üslubun, mövzu və ideyanın saxtalaşdırılması, uydurma mətnlər, vahid söyləyicilik prinsipinin pozulması (xüsusən dastanlarda), sistemləşdirmə işinin pərakəndə halda olması, pasportlaşdırma işlərinin tələb olunan səviy-

yədə aparılmaması, əksər folklor kitablarında qeyd və şərhlərin, lüğətlərin verilməməsi, janrların təyinatında, adlandırma, sıralanma və s. məsələlərdə qeyri-dəqiqlik sovet dövrü folklorşünaslığının əsas xüsusiyyətləri olmuşdur.

3. Müstəqillik dövründə folklorşünaslığın bütün sahələrini idarə edən vahid rəsmi qurum – AMEA Folklor İnstitutu yaradıldı. Folklorun toplanması və tərtibi, nəşri, eləcə də tədqiqi təkmilləşmə yoluna düşdü. Keçən əsrin əvvəllərindən folklorun tərtib prinsipləri haqqında söylənilən mütərəqqi fikirlər, bu sahə ilə bağlı aparılan elmi araşdırmaların nəticələri, müasir folklorşünasların gəldikləri elmi qənaətlər ciddi şəkildə tətbiq edilməyə başlandı. Mətnlərin tərtibində tələffüz və yazı, dil və üslub problemlərinə, əsas mətnlə mətndənkənar yazıların fərqləndirilməsinə diqqət artırıldı. Xüsusilə sistemləşdirmə işi mükəmməlləşdi: pasportlaşdırma, kodlaşdırma, janrların dəqiq təyin edilməsi, adsız mətnlərin adlandırılması ilə bağlı problemlər öz həllini tapdı. Lakin sovet dövrünün bu sahə ilə bağlı bəzi nöqsan və çatışmazlıqları müstəqillik dövrünə də adladı və öz yerini yeniyə asanlıqla təslim etmədi. Bəzi hallarda folklorun yazıya alınmasında, tərtibində vahidlik prinsipinin gözlənilməməsi, diqqətsizlik, pərakəndəlik burada da problem olaraq qalır.

4. Folklor mətnlərində rast gəlinən bəzi problemlər söyləyici tərəfindən yaradılır və bunların çoxu onun yaddaşı ilə bağlıdır. O, söyləmə zamanı hər hansı bir detalı unuda, uydura, təhrif edə, mətnin poetikliyinə xələl gətirən başqa sözlə əvəzləyə bilər, yersiz inversiyalar edə, oxşar mətnlərin hissələrini dəyişik sala və s. naqislik və nöqsanlar törədə bilər. Təbii ki, bütün bu hallar mətni qüsurlu edir, xoşagəlməzlik və anlaşılmazlıq yaradır. Nəticədə mətn oxucunun dərk edə bilməyəcəyi və ya zövqünü təmin etməyən bir əsər kimi təqdim edilir.

5. Toplayıcılıqla ana dilini mükəmməl bilən, folklorla maraqlanan və onu sevən, folklorşünaslıq elmi haqqında mə-

lumatı olan şəxslər məşğul ola bilərlər. Toplama materialının keyfiyyətli olması və mətndə qüsurların olmaması üçün toplayıcının diqqəti, eşitmə həssaslığı, görmə qabiliyyəti, qavrayışı yerli-yerində olmalı və o, Azərbaycan dilinin tələffüz və yazı qaydalarını lazım olan səviyyədə bilməlidir. Bunlardan hansınınsa zəif və ya qüsurlu olması səbəbindən yazıya köçürmədə səhvlərə yol verilir və nəticədə mətn nöqsanlı olur.

6. Folklor mətnlərinin tərtibi zamanı tələffüz və yazı ilə bağlı saya gəlməyəcək qədər problemlər qarşıya çıxır. Hər nəşrin (elmi və ya kütləvi) xarakterinə uyğun olaraq mətndə olan linqvopoetik problemlərin çözülməsi tərtibçinin üzərinə düşür və bu zaman mətnə bəzən şəraitə uyğun olaraq qeyri-ənənəvi tələffüz və yazı üsulları ilə yanaşmaq lazım gəlir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: qafiyə xatirinə sözü yazı qaydası ilə tələffüz etmək və yazmaq; sözdə artıq yazılmış səsi, hecanı və ya bütövlüklə sözü ixtisar etmək; sözdə çatmayan səsi, hecanı və ya bütövlüklə sözü mətnə əlavə etmək; əvəzlənmiş səslərin səhv yazılmasını və bunun nəticəsində bəzən bir dialektə məxsus mətnin düşünülmədən başqa dialekt nümunəsi kimi verilməsini aradan qaldırmaq; bəzi uzun tələffüz olunan səsi iki hərflə yazmaq; kütləvi nəşrlərdə şivə xüsusiyyətlərini aradan qaldırmaq, arxaik, həmçinin regional leksikanı imkan daxilində ümumişlək sözlərlə əvəzləmək; eyni cür yazılıb, vurğusuna görə fərqli səslənən sözlərdə vurğu işarəsi qoymaq; vulqar sözləri mətndə xüsusi üsulla vermək; əsas mətnlə mətndənkənar yazıları fərqləndirmək və s. Bu problemlərin həlli mətnin quruluş və ahənginin qorunmasında mühüm əhəmiyyətə malikdir.

7. Folklor mətnlərində yersiz inversiyalar, şəxsə və kəmiyyətə görə uzlaşmanın pozulması, ellipsislə bağlı nöqsanlar, yersiz təkrarlar, cinas sözlərin hüdudlarının səhv müəyyənləşdirilməsi, bəzi mürəkkəb sözlərin düzgün yazılmaması, durğu işarələrindən yerli-yerində istifadə edilməməsi və s.

problemlər mətnlərin mənasına xələl gətirir, üslubunu korlayır, nitqin təbiiliyini pozur. Düzəliş edilməzsə, bütün bunlar folklor nəşrlərinin elmi səviyyəsini aşağı salar.

8. Toplanmış mətnləri kodlaşdırmaq, söyləyici və toplayıcı haqqında rəsmi məlumatlar vermək, mətnlərin toplandığı məkan və tarixi qeyd etmək, eləcə də müxtəlif mənbələrdən götürülmüş mətnlərin ünvanını düzgün formada göstərmək, bəzi mətnləri xronoloji ardıcıllıqla düzmək (əlyazma və cünglərdə, aşıq ədəbiyyatında), nağılların süjet göstəricilərini vermək, yeri gəldikcə şərti işarələrdən istifadə eməklə nəşr ediləcək folklor mətnlərinin elmi səviyyəsini artırmaq olar.

9. Mətnlərin janrının düzgün təyin edilməsi, adlandırılması və qruplaşdırılması sistemləşdirmənin tərkib hissəsidir. Əsərin janrı və adı ilə bağlı söyləyici və toplayıcıdan gələn təyinatların doğru olub-olmamasını yoxlamaq, bu işi elmi əsaslarla düzgün şəkildə həll etmək, adsız mətnləri adlandırmaq, həmçinin nəşr üçün seçilmiş nümunələri folklorşünaslığın tələbləri səviyyəsində qruplaşdırmaq və s. tərtibçinin sistemləşdirmə ilə bağlı görəcəyi işlərdir.

10. Tərtib zamanı mətnə fərqli yanaşmalar nəşrin keyfiyyətinə birbaşa təsir edir. Bu fərqlilik xalq dilinin ədəbi dil xüsusiyyətləri ilə verilməsinə, mətnlərdə akustik srukturun pozulmasına, regional tələffüz əlamətlərinin yazıda itməsinə, mətnlərin nöqsanlı sistemləşdirilməsinə, şərti işarələrdən düzgün istifadə edilməməsinə və digər qüsurlara yol açır, pərakəndəlik yaradır. Bunlar folklor kitablarından istifadəni çətinləşdirir, mətnlərinin yadda qalmasına mane olur və unudulması ilə nəticələnir. Elə buna görə də folklor materiallarının bu qaydalara ciddi əməl edərək, səhvlərə yol vermədən, vahidlik prinsipini gözləyərək tərtib edilməsini folklor tərtibçisinin əsas vəzifəsi hesab edirik. Azərbaycan folklorşünaslığının bugünkü səviyyəsi folklor kitablarının tələb olunan səviyyədə hazırlanmasına imkan verir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Arvad ağısı / Tərtib edəni Abbaszadə Mirzə Abbas. Transliterasiya edənləri Xəlilov R., Xürrəmqızı A. –Bakı: Səda, 2004, 58 s.

2. Aşıq Ələsgər. Seçilmiş əsərləri / Tərtib edəni Ələsgərov İ. – Bakı: Yazıçı, 1988, 184 s.

3. Aşıqlar/Tərtib edəni Əlizadə H. Bakı: Azərnəşr, 1938, 490 s.

4. Atalar sözləri / Tərtib edəni Yaqubqızı M. – Bakı: Nurlan, 2013, 476 s.

5. Atalar sözü / Tərtib edəni Qəmərli M. Transfonoliterasiya və sözlüyün müəllifi Xəlilov R. – Bakı: Səda, 2003, 56 s.

6. Azərbaycan aşıqları və el şairləri. İki cilddə, I c. / Tərtib edəni Axundov Ə. – Bakı: Elm, 1983, 375 s.

7. Azərbaycan bayatıları / Tərtib edəni Əlizadə H. – Bakı: 1938, 141 s.

8. Azərbaycan dastanları. Beş cilddə, II c. / Tərtib edənləri Axundov Ə., Təhmasib M. – Bakı: Çıraq, 2005, 440 s.

9. Azərbaycan dastanları. Beş cilddə, IVc./Tərtib edəni Təhmasib M.–Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1969, 508 s.

10. Azərbaycan dastanları. Beş cilddə, IV c. / Tərtib edəni Təhmasib M. – Bakı: Lider nəşriyyatı, 2005, 464 s.

11. Azərbaycan dilinin dialektoloji lüğəti / Redaktorları Rüstəmov R., Şirəliyev M. – Bakı: Elm, 1964, 480 s.

12. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, II c. / Tərtibçiləri Orucov Ə., Abdullayev B., Rəhimzadə N. – Bakı: Şərq-Qərb, 2006, 792 s.

13. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, III c. / Tərtibçiləri Orucov Ə., Abdullayev B., Rəhimzadə N. – Bakı: Şərq-Qərb, 2006, 672 s.

14. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, IV c. / Tərtibçiləri Orucov Ə., Abdullayev B., Rəhimzadə N. – Bakı: Şərq-Qərb, 2006, 712 s.

15. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, IV c./Tərtibçiləri Orucov Ə., Abdullayev B., Rəhimzadə N. – Bakı: Elm, 1987, 544 s.

16. Azərbaycan el ədəbiyyatı (nağıllar) / Tərtib edəni Əlizadə H., redaksiya heyəti Kazımoğlu-İmanov M., Abbaslı İ., Xəlilov R. – Bakı: Elm və təhsil, 2013, 316 s.

17. Azərbaycan folkloru antologiyası, X kitab. İrəvan çuxuru folkloru / Tərtib edənləri İsmayılov H., Ələkbərli Ə. – Bakı: Səda, 2004, 471 s.

18. Azərbaycan folkloru antologiyası, XXIII c. Naxçıvan örnəkləri / Tərtib edəni Ələkbərli Ə., Cəfərova A. – Bakı: Elm və təhsil, 2012, 331 s.

19. Azərbaycan folkloru antologiyası, XI c. Şirvan folkloru / Tərtib edənləri İsmayılov H., Qəniyev S. – Bakı: 2005, 444 s.

20. Azərbaycan folkloru antologiyası, XIX kitab. Zəngəzur folkloru, II c./Tərtib edənləri İsmayılov H., Təhməzoğlu R., Ələkbərli Ə. – Bakı: Nurlan, 2009, 416 s.

21. Azərbaycan folkloru antologiyası, XII c. Zəngəzur folkloru/Tərtib edənləri Əsgər Ə., Kazımoğlu M.–Bakı: 2005, 264 s.

22. Azərbaycan folkloru antologiyası, XIII c. Şəki-Zaqatala folkloru / Tərtib edənləri Abbaslı İ., Əliyev O., Abdullayeva M, – Bakı: Səda: 2005, 550 s.

23. Azərbaycan folkloru antologiyası, XIV kitab. Dərbənd folkloru/Tərtib edəni İsmayılov H., Orucov T.–Bakı: Səda, 2006, 430 s.

24. Azərbaycan folkloru antologiyası, XVI c. Ağdaş folkloru / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Səda, 2006, 496 s.

25. Azərbaycan folkloru antologiyası, XVIII kitab. Şəki folkloru, III c. / Tərtib edəni Əbdülhəlimov H. – Bakı: 2009, 532 s.

26. Azərbaycan folkloru antologiyası, IX kitab. Gəncəbasar / Tərtib edənləri İsmayılov H., Quliyeva R. – Bakı: Səda, 2004, 555 s.

27. Azərbaycan folkloru antologiyası, II c. İraq-türkman folkloru / Tərtib edəni Paşayev Q. Azərbaycan Mətbuat və İnformasiya nazirliyi. – Bakı: "Qızıl Şərq" icarə mətbəəsi, 1999, 468 s.

28. Azərbaycan folkloru antologiyası, IV kitab. Şəki folkloru / Tərtib edəni Əbdülhəlimov H., Qafarlı R. – Bakı: Səda, 2009, 490 s.

29. Azərbaycan folkloru antologiyası, V kitab. Qarabağ folkloru / Tərtib edəni Abbaslı İ. – Bakı: Nurlan, 2009, 414 s.

30. Azərbaycan folkloru antologiyası, VII kitab. Qaraqoyunlu folkloru / Tərtib edənləri İsmayılov H., Süleymanov Q. – Bakı: Səda, 2002, 465 s.

31. Azərbaycan folkloru antologiyası, VIII c. Ağbaba folkloru / Tərtib edənləri İsmayılov H., Qurbanov T. – Bakı: Səda, 2003, 476 s.

32. Azərbaycan folkloru antologiyası. İki cilddə, I c. / Tərtib edəni Axundov Ə. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1968, 288 s.

33. Azərbaycan folkloru külliyyatı, XXX c. / Tərtib edəni Məmmədli E. – Bakı: Elm və təhsil, 2012, 420 s.

34. Azərbaycan folkloru külliyyatı, I c. Nağıllar (I kitab) / Tərtib edənləri İsmayılov H., Əliyev O. – Bakı: Səda, 2006, 400 s.

35. Azərbaycan folkloru külliyyatı, IIc. Nağıllar (II kitab)/Tərtib edənləri İsmayılov H., Əliyev O.–Bakı: Səda, 2006, 400 s.

36. Azərbaycan klassik ədəbiyyatı, I c. / Redaktoru Araslı H. – Bakı: Elm, 1982, 510 s.

37. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti / Tərtib edənləri Babayev A.M., İsmayılzadə C.B. – Bakı: Maarif, 1981, 280 s.

38. Azərbaycan nağılları. Beş cilddə, IV c. / Tərtib edəni Cəfərli Ə., Əhlimanqızı S. – Bakı: Çıraq, 2004, 344 s.

39. Azərbaycan nağılları. Üç cilddə, I c. / Tərtib edəni Təhmasib M. – Bakı: Azərbaycan SSR EA Azərbaycan Fil. Nəşriyyatı, 1941, 490 s.

40. Azərbaycan tapmacaları / Tərtib edəni Zeynallı H.; Transliterasiya edənləri Xəlilov R., Xürrəmqızı A. – Bakı: Elm və təhsil, 2013,102 s.

41. Azərbaycan türk el nəğmələri / Tərtib edənləri Hacıbəyov Ü., Maqomayev M. – Bakı: Azərnəşr, 1927

42. Azərbaycan türklərinin xalq əfsanələri / Tərtib edəni Pirsultanlı P. S. – Bakı: Azərnəşr, 2009, 486 s.

43. Balalara hədiyyə / Tərtib edəni Köçərli F.; Nəbiyev B. – Bakı: Gənclik, 1967, 88 s.

44. Bayat F. Folklor dərsləri.–Bakı: Elm və təhsil, 2012, 424 s.

45. Bayatılar və manilər / Tərtib edəni Zeynallı H. Transliterasiya edən və "Ön söz"ün müəllifi: Xəlilov R., Xürrəmqızı A. – Bakı: Səda, 2005,100 s.

46. Bayatılar / Tərtib edəni Qasımov H. – Bakı: Azərnəşr, 1960, 252 s.

47. Bayatılar / Tərtib edəni Məmmədova A. – Bakı: Elm, 1977, 328 s.

48. Bayatılar / Tərtib edəni Təhmasib M. – Bakı: SSRİ EA Azərbaycan Fil. Nəşriyyatı, 1943, 268 s.

49. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. – Bakı: Maarif, 1989, 540 s.

50. Cəfərov N. Seçilmiş əsərləri. Beş cilddə, IV c. – Bakı: Elm, 2007, 328 s.

51. Cəfərov S. Müasir Azərbaycan dili. – Bakı: Maarif, 1982, 415 s.

52. Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə, III c. – Bakı: Elm, 1977, 328 s.

53. Çəmənzəminli Y.V. Xalq ədəbiyyatının təhlili // İnqilab və mədəniyyət jurnalı, – Bakı: 1929, №12

54. Dədə Qorqud dastanları / Tərtib edəni Cəmşidov Ş. – Bakı: Maarif, 1980, 156 s.
55. El aşıqları / Tərtib edəni Xuluflu V. Transliterasiya edənlər: Xəlilov R., Xürrəmqızı A. – Bakı: Elm və təhsil, 2013, 92 s.
56. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edəni Mirəhmədov Ə. – Bakı: Maarif, 1978, 200 s.
57. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı tarixi. – Bakı: ADPU-nun mətbəəsi, 1994, 475 s.
58. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Maarif, 1992, 477 s.
59. Əfəndizadə Ə. Orfoqrafiya və orfoepiya məsələləri // Dil mədəniyyəti, IV buraxılış. – Bakı: Elm, 1985, s. 87-95
60. Əhmədli A. Ənənəvi söyləyicilik sənəti (Şirvan folklor mühiti əsasında). – Bakı: Elm və təhsil, 2018, 220 s.
61. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Çıraq, 2014, 280 s.
62. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. – Bakı: Nurlan, 2009, 156 s.
63. Əmsali-türkanə (Türk atalar sözləri) / Tərtib edəni Marağai A. Köçürən və tənzim edəni Böyük Rəsul oğlu. – Bakı: Qartal, 1996, 50 s.
64. Əskər N. Aşıq Nəsibin yaradıcılıq yolu. – Bakı: Elm və təhsil, 2016, 164 s.
65. Folklor çələngi (XVII-XIX əsrlər əlyazmalarından seçmələr) / Transliterasiya və tərtib edəni Abbaslı İ. – Bakı: Nurlan, 2008, 132 s.
66. Füzuli M. Seçilmiş əsərləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1958, 352 s.
67. Gədəbəy folklor örnəkləri, I c. / Tərtib edənləri Kazımoğlu-İmanov M., İsayeva S. – Bakı: Elm və təhsil, 2016, 360 s.
68. Hacılı A. Bayatı poetikası. – Bakı: Elm, 2000, 162 s.
69. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi, II c. – Bakı: Elm, 2012, 392 s.

70. Hacıyev T. Şəki folklorunun dil özəlliyi haqqında bir-iki söz // Azərbaycan folkloru. – Bakı: Sabah, 1994, s. 16-18
71. Həsənova N. Yevlax şivələrinin leksikası (folklor materialları əsasında). – Bakı: Elm və təhsil, 2014, 156 s.
72. Həsənova V. Hənəfi Zeynallının arxivində "Azərbaycan nağılları" // Dədə Qorqud. Elmi-ədəbi toplu. – Bakı: 2014, 1(50), s. 84-96
73. Xalqımızın deyimləri və duyumları / Tərtib edəni Həkimov M. – Bakı: Maarif, 1988, 384 s.
74. Xəlil A. M.Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. – Bakı: Səda, 2001, 182 s.
75. İsayeva S. Aşıq şeirində variantlılıq və xalq yaddaşı // Dədə Qorqud. Elmi-ədəbi toplu. – Bakı: 2015, IV (57), s. 30-38
76. Kaşğari M. Divanü lüğat-it-türk, I c. / Tərcümə edən və nəşrə hazırlayanı Əskər R. – Bakı: Ozan, 2006, 512 s.
77. Kazımoğlu-İmanov M. Folklor həm keçmiş, həm də bu gündür. – Bakı: Elm və təhsil, 2014, 194 s.
78. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. – Bakı: Təhsil, 2007, 496 s.
79. Kəsəmənli N. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, 296 s.
80. Kitabi-Dədə Qorqud / Tərtib edənləri Zeynalov F., Əlizadə S. – Bakı: Yazıçı, 1988, 266 s.
81. Koroğlu / Çapa hazırlayanı Təhmasib M. – Bakı: Gənclik, 1975, 365 s.
82. Koroğlu / Tərtib edəni Əlizadə H. – Bakı: Azərnəşr, 1941, 228 s.
83. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. – Bakı: Elm və təhsil, 2013, 540 s.
84. Qarabağ: folklor da bir tarixdir, I c. / Tərtib edənləri Rüstəmzadə İ., Fərhadov Z. – Bakı: Elm və təhsil, 2012, 464 s.
85. Qarabağ: folklor da bir tarixdir, II c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2012, 484 s.

86. Qarabağ: folklor da bir tarixdir, III c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2012, 468 s.
87. Qarabağ: folklor da bir tarixdir, IV c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2013, 451s.
88. Qarabağ: folklor da bir tarixdir, V c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2013, 451s.
89. Qarabağ: folklor da bir tarixdir, VII c. / Tərtib edəni Vaqifqızı (Süleymanova) L. – Bakı: Elm və təhsil, 2014, 444 s.
90. Qarabağ: folklor da bir tarixdir, VIII c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2013, 451 s.
91. Qarabağ: folklor da bir tarixdir, IX c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2014, 402 s.
92. Quliyev Ə. Aktyorun nitq mədəniyyəti // Dil mədəniyyəti, IV buraxılış. – Bakı: Elm, 1985, s. 118-122
93. Quluzadə Q. Ədəbiyyat tarixi sahəsində // "Azərbaycanı öyrənmə yolu" jurnalı. – Bakı: 1931, №23, s. 93-95
94. Qurbani / Tərtib edəni Kazımov Q. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 1990, 280 s.
95. Molla Nəsrəddin lətifələri / Tərtib edəni Təhmasib M. – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1965, 336 s.
96. Mümtaz S. Unudulmuş yarpaqlar // Ədəbiyyat qəzeti, 1936, №19-20, s. 69-70
97. Nazim Ə. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, 1979, 374 s.
98. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. İki cilddə, I c. – Bakı: Turan, 2002, 680 s.
99. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. İki cilddə, II c. – Bakı: Elm, 2006, 648 s.
100. Oğuznamə / Çapa hazırlayanı Əlizadə S. – Bakı: Yazıçı, 1987, 223 s.
101. Orfoqrafiya, orfoepiya lüğəti / Tərtib edəni Əfəndizadə Ə. – Bakı: Azərnəşr, 1989, 151 s.
102. Orucova S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri. – Bakı: Elm və təhsil, 2012, 536 s.

103. Pənahoğlu Ş. Əlyazmaları yazılı folklorun mənbəyi kimi//Ortaq türk keçmişindən ortaq türk gələcəyinə IV uluslararası folklor konfransının materialları. – Bakı: Səda, 2006, s. 360-363

104. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. – Bakı: Elm və təhsil, 2013, 368 s.

105. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. – Bakı: Nurlan, 2008, 175 s.

106. Saatlı folklor örnəkləri, I kitab / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2014, 392 s.

107. Salman Mümtazın şəxsi fondundan folklor mətnləri / Transliterasiya və tərtib edənləri Xəlilov R., Xürrəmqızı A. – Bakı: Nurlan, 2013, 92 s.

108. Sarı Aşıq və bayatıları / Tərtib edəni Mümtaz S. – Bakı: Azərnəşr, 1935, 123 s.

109. Seyidov N. Azərbaycan nağılları haqqında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I kitab. – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1961, s. 52-117

110. Süleymanova L. Şəki folklor mühiti. – Bakı: Elm və təhsil, 2012, 248 s.

111. Şəki folklor örnəkləri, II kitab / Tərtib edəni Vaqifqızı (Süleymanova) L. – Bakı: Elm və təhsil, 2014, 408 s.

112. Şəki folklor örnəkləri, III kitab / Tərtib edəni Vaqifqızı (Süleymanova) L. – Bakı: Elm və təhsil, 2016, 364 s.

113. Tapmacalar / Tərtib edəni Xuluflu V., transliterasiya edənləri Xəlilov R., Xürrəmqızı A. – Bakı: Nurlan, 2013, 112 s.

114. Tovuz folklor örnəkləri, I kitab / Tərtib edəni Rüstəmzadə İ., – Bakı: Elm və təhsil, 2017, 384 s.

115. Usta söyləyicilərin repertuarı, I c. / Tərtib edəni Rüstəmzadə İ. – Bakı: Elm və təhsil, 2015, 400 s.

116. Ümumi psixologiya / Redaktoru: Petrovski A.V. – Bakı: Maarif, 1982, 496 s.

117. Vəliyev V. Azərbaycan folkloru. Ali məktəb üçün dərslik. – Bakı: Maarif, 1985, 414 s.

118.Zakir Q. Seçilmiş əsərləri. – Bakı: Yazıçı,1984, 384 s.

119.Zeynallı H. Seçilmiş əsərləri.–Bakı: Yazıçı, 1983, 319 s.

### Türk dilində

120.Gökyay O.Ş. Dedem Korkut Kitabı Üzerine. I. Sovyet-Türk Kollokyumu. Bakü, 1-8 Temmuz 1988.//Türk Dili Araştırmaları Yıllığı Belleten 1988. – Ankara: TDK Yayınları, 1994, s. 91-96

121.Kıbrıs Türk Ata sözleri ve Deyimler Sözlüğü / Gökçeoğlu M. – İstanbul: Galeri Kültür Yayınları, 1997, 428 s.

122. Sertkaya O.F. Dede Korkut Kitabı'nın Dresden Yazmasındaki Bazı Kelime ve Şekillerin İmlâ Özelliklerine Dayanılarak Yeniden Okunuşu ve Anlamlandırılışı Üzerine. II. Milletlerarası Dede Korkud Kollokyumu. Bakü, 21-26 Aralık 1998. // Türk Dili Araştırmaları Yıllığı Belleten 1998. №41. – Ankara: TDK Yayınları, 2004, s.131-152

### Rus dilində

123.Азадовский М.К., История русской фольклористики. – Москва: Учпедгиз, 1958, 482 с.

124.Лорд А.Б. Сказитель. – Москва: Издательская фирма "Восточная литература" РАН, 1994, 368 с.

125.Народные сказки Закафказских татар. Сообщил помощник учителя Шемахинского городского училища Захаров А.//Сборник материалов для описания местностей и племен Кавказа. Вып. VI. – Тифлис, 1888. III отдел. с. 77-156

126.Пословицы ширванских татар. Запис. Калашевым Н.//Сборник материалов для описания местностей и племен Кавказа. Вып. XXIV. – Тифлис, 1898. III отдел, с. 1-211

127.Пословицы, поговорки, загадки в рукописных сборниках XVIII-XX веков. – Москва-Ленинград: 1961, Издательства Академии наук СССР, 288 с.

128.Татарские пословицы, поговорки, загадки и имена женщин. Запис. Зелинский С.//Сборник материалов для опи-

сания местностей и племен Кавказа. Вып. I.–Тифлис, 1881. II отдел, с. 43-62

129.Татарские тексты. Песни, загадки, пословицы. Запис. Калашевым А., Якимовым А. // Сборник материалов для описания местностей и племен Кавказа. Вып. XVIII. – Тифлис, 1894. II отдел, с. 37-74

130.Успенский Б.А. Избранные труды, в 2-х томах, т. 2. – Москва: Гнозис, 1994, с. 129-150

131.Чистов К.В. Текстологические проблемы поэтического наследия И.А.Федосовой // Фольклор и этнография Русского Севера. – Ленинград, 1973, с. 150-172

## İnternet resursları

132.Azərbaycan folkloru antologiyası. III cild, Göyçə folkloru.–Bakı: Səda, 1999, 745 s.//http://www.folklor.az/antologiyalar/antologiya_3.pdf

133.Əsgərov Ə. "Ümumtürk folkloru tarixində Oğuznamə yaradıcılığı", filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – Bakı: 2014, 268 s. // http://www.folklor.az/dissertasiyalar.htm

134. Лихачов Д.С. Техника изданий текстов.–М.;Л.: Наука, 1964, 102 с.//http://www.lihachev.ru/lihachev/bibliografiya/nauka/literatura/3946/

135. Chartrand A.V. Enjeux de la poetisite dans la chanson folklorique qubecoise de langue francaise. – Universite du Quebec a Montreal:2011, 119 p.//https://archipel.uqam.ca/4310/1/ M12295.pdf

136.Мецгер М.Б. Текстология Нового Завета.–Принстон, Нью-Джерси: 1968, 565 с.//https://azbyka.ru/otechnik/Biblia/tekstologija-novogo-zaveta/

137.Le dialect et le folk-lore du Karabagh (Azerbaidjan du Coucase) par Djeyhoun bey Hadjibeyli. Extrait du journal Asiatique, Janvier-Mars 1933, p. 31-144 // https://hajibeyov.com/research/jeyhun/karabakh.pdf

## Arxiv materialları

138.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1296, toplayıcı: Bədirova M., söyləyici: Feyziyeva B. Zəngilan

139.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1288, toplayıcı: Əfəndiyeva M., söyləyici: Aşıq Hüseynov İ.Nuxa, Aşağı Küngüt kəndi

140.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1409, toplayıcı: Əliyeva R., söyləyici: Adıgözəlova Q. Gürcüstan, Bolnisi, Faxralı kəndi

141.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1409, toplayıcı: Əliyeva R., söyləyici: Kərimova G. Sabirabad, Salmanlı kəndi

142.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1358, toplayıcı: Kərimova X., söyləyici: Eyvazova P. Göyçay

143.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1358, toplayıcı: Kərimova X., söyləyici: Hüseynova S. Göyçay

144.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1358, toplayıcı: Kərimova X., söyləyici: Kərimova Z. Göyçay

145.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1296, toplayıcı: Qədirova Y., söyləyici: qeyd olunmayıb. Ağdaş

146.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1296, toplayıcı: Müzəffərov H., söyləyici: qeyd olunmayıb. Masallı, Seybətin kəndi

147.AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №2326, toplayıcı: Novruzova T., söyləyici: Hüseynov R. Gədəbəy, Şınıx kəndi

148. AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №1296, toplayıcı: Zayıdova L., söyləyici: Nağıyev H. Salyan, Qızılağac kəndi

149. AMEA Folklor İnstitutunun elmi arxivi, inventar №2326, toplayıcı: Zurnayeva N., söyləyici: qeyd olunmayıb. Balakən, Şambul kəndi

## SUMMARY

## THE COMPILATION ISSUES OF FOLKLORE TEXTS

The monograph consists of an introduction, four parts, a conclusion and a list of references.

In the introduction the actuality of the investigation is based on the object, aim and duties of the investigation are determined, the scientific innovations, methods and sources, the practical and theoretical importance of the investigation are spoken about, the information about the structure of the investigation is given.

The first part of the monograph is called "From the collecting and publication history of Azerbaijan folklore". In this part the collecting and approaching principles of Azerbaijan folklore are investigated due to the periods. This part consists of three chapters. The first chapter is called "The collecting and publishing of Azerbaijan folklore till 1920". The second chapter is about "The practice of collecting and publishing of folklore texts during the Soviet period". The third chapter is named "The practice of collecting and publishing of folklore texts during the period of independence".

The second part of the monograph is called "The problems about telling and collecting processes of folklore texts". This part is divided into two chapters. The first chapter is called "The problems of telling: improvisation and text". In this chapter it is said about the problems created by the teller and their cause and appearance forms. The second chapter is called "The problems of collecting: listening, understanding and text". In this chapter it is said about the cause and appearance forms of the problems created by the teller.

The third part of the monograph is called "The lingopoetical problems in the compiling of the folklore texts" and it consists of two chapters. The first chapter is called "The pronuncia-

tion and writing problems in compiling of folklore texts" and in this chapter it is said about the problems of pronunciation and writing during the coping out the told text and the ways of solution. In the second chapter called "The style problems in folklore texts" it is said about the problems mangling the style of the texts.

The fourth part of the monograph is called "Systematizing of folklore texts". This part consists of two chapters. In the first chapter called "Coding folklore texts" it is said about the registration of the collecting materials, the usage of technical signs during the compiling. The second chapter is called "Defining the genres". In this chapter about the problems appeared during the defining the told text genre has been discussed.

Conclusion is given on the base of the scientific investigations at the end. Here the problems encountered during the compiling of the folklore texts with the only principle and their methods of solution are shown.

# РЕЗЮМЕ

## ПРОБЛЕМЫ СОСТАВЛЕНИЯ ФОЛЬКЛОРНЫХ ТЕКСТОВ

Монография состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Во «Введении» даётся информация об актуальности темы, объекте, предмете, цели, задачах, научной новизне, теоретических и методологических основах, практической значимости, апробации и структуре исследования.

Первая глава монографии, которая называется «Из истории собирания и издания Азербайджанского фольклора» и состоит из трех разделов. В этих разделах исследуются такие проблемы, как собирание и издание Азербайджанского фольклора до 20-х годов, практика собирания и издания фольклорных текстов в советский период, практика собирания и издания фольклорных текстов в период независимости.

Вторая глава монографии называется «Проблемы связанные с процессом сказания и собирания фольклорных текстов». Эта глава состоит из двух разделов. Данная глава посвящена анализу следующих проблем: вопросы сказительства: импровизация и текст и вопросы собирательства: слушание, восприятие и текст.

Третья глава монографии, которая называется «Лингвопоэтические вопросы в составлении фольклорных текстов» и состоит из двух разделов. В этой главе исследуются такие проблемы как, вопросы произношения и письма фольклорных текстов, вопросы стилистики фольклорных текстов и т.д.

Четвертая глава монографии называется «Систематизация фольклорных текстов». Эта глава состоит из двух разделов. Данная глава посвящена анализу следующих проблем: кодировка фольклорных текстов, определения жанров и т.д.

В «Заключении» монографии обобщаются основные научные выводы, полученные в ходе исследования и намечаются направления дальнейших исследований по этой теме.

# MÜNDƏRİCAT

**GİRİŞ** ................................................................3

**I FƏSİL. AZƏRBAYCAN FOLKLORUNUN TOPLANMASI VƏ NƏŞRİ TARİXİNDƏN** ............. 7
1.1. Azərbaycan folklorunun 1920-ci ilə qədər toplanması və nəşri ................................................ 7
1.2. Sovet dövründə folklor mətnlərinin toplanması və nəşri təcrübəsi ................................. 29
1.3. Müstəqillik dövründə folklor mətnlərinin toplanması və nəşri təcrübəsi ................................. 51

**II FƏSİL. FOLKLOR MƏTNLƏRİNİN SÖYLƏMƏ VƏ TOPLAMA PROSESİ İLƏ BAĞLI PROBLEMLƏRİ** ........................................................ 65
2.1. Söyləyicilik məsələləri: ifa və mətn ...................... 65
2.2. Toplayıcılıq məsələləri: dinləmə, qavrama və mətn....78

**III FƏSİL. FOLKLOR MƏTNLƏRİNİN TƏRTİBİNDƏ LİNQVOPOETİK MƏSƏLƏLƏR .. 91**
3.1. Mətnlərin tərtibində tələffüz və yazı məsələləri ..... 92
3.2. Mətnlərdə üslub məsələləri.................................... 127

**IV FƏSİL. FOLKLOR MƏTNLƏRİNİN SİSTEMLƏŞDİRİLMƏSİ** ......................................... 143
4.1. Mətnlərin texniki tərtibatı...................................... 143
4.2. Mətnlərin janr və adlarının müəyyənləşdirilməsi ........156

**NƏTİCƏ** ............................................................. 173
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ..................... 177

**Xuraman Daşdəmir qızı Kərimova.**
**Folklor mətnlərinin tərtibi məsələləri.**
Bakı, “Elm və təhsil“ nəşriyyatı, 2019

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Aygün Balayeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ləman Qafarova**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 192 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılıb səhifələnmiş,
“Elm və təhsil” nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə nəşr edilmişdir..